# DARVİNİST DƏCCALIN ÖLÜMÜ

## 150 İL DAVAM EDƏN DARVİNİST YALANIN SONU

HARUN YƏHYA
(ADNAN OKTAR)

Bu kitabda istifadə edilən bütün ayələr Ziya Bünyadovun və Vasim Məmmədəliyevin birlikdə hazırladığı Qurani-Kərimin azərbaycan dilində tərcüməsindən götürülmüşdür.

**Birinci nəşr: Dekabr 2009**

**ARAŞTIRMA YAYINCILIK**

Talatpaşa Mah. Emirgazi Caddesi
İbrahim Elmas İş Merkezi
A Blok Kat 4 Okmeydanı - İstanbul
Tel: (0 212) 222 00 88

Baskı: Kelebek Matbaacılık
Litros Yolu No: 4/1A Topkapı-İstanbul
Tel: (0 212) 612 43 59

www.harunyahya.org - www.harunyahya.net

# İÇİNDƏKİLƏR

Giriş: Qızıl Əsr müjdəsi

Axırzamanın ən böyük fitnəsi Dəccal

Darvinistlər saxtakarlıqlarla dünyanı aldatdılar

Darvinistlərin aldatma üsulları

Darvinizm yalanı artıq sona çatdı

Nəticə: Bütün canlıların Yaradanı Uca Allahdır

Əlavə bölmə: Təkamül yalanı

## O X U C U Y A

Bu kitabda və digər fəaliyyətlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən Darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.

Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri cəhətdən izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allahın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.

Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsdə oxunan kitablar” ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.

Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları, mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birlərilə paylaşmaları baxımından faydalı olar.

Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma son dərəcə güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.

Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.

Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən ümidsiz, şübhəli və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. Orta təhsilini Ankarada tamamlayıb. Daha sonra İstanbul Memar Sinan Universitetinin Gözəl Sənətlər fakültəsində və İstanbul Universitetinin Fəlsəfə fakültəsində təhsil alıb. 80-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin saxtakarlığını, iddialarının əsassızlığnı və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin yer aldığı cəmi 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 60 müxtəlif dilə tərcümə edilmişdir.

Müəllifin imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirələrinə hörmətlə, adlarını yad etmək üçün Harun və Yəhya adlarından ibarətdir. Yazıçı tərəfindən kitabların cildində Rəsulullahın möhürünün istifadə edilməsinin simvolik mənası isə kitabların məzmunu ilə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimiz (səv)-in də xatəmül-ənbiya (son peyğəmbər) olmasını bildirir. Müəllif də dərc etdirdiyi bütün əsərlərində Quranı və Peyğəmbərin sünnəsini özünə rəhbər tutmuşdur. Bu yolla inkarçı ideologiyaların bütün təməl iddialarını tək-tək məhv etməyi və dinə qarşı yönəldilən etirazları tamamilə susduracaq ”son sözü” söyləməyi qarşısına məqsəd qoymuşdur. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu son sözü söyləmək niyyətinin bir duası kimi istifadə edilir.

Müəllifin bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və batil tətbiqatlarını nəzərə çatdırmaqdır.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya və Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox ölkəsində bəyənilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, bosnyak, uyğur, indonez, malay, benqal, serb, bolqar, çin, kişvahili (Tanzaniyada işlədilir), hausa (afrikada geniş işlədilir), divelhi (Mavritaniyada işlədilir), danimarka və isveç kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən davamlı oxunur.

Dünyanın hər tərəfində çox bəyənilən bu əsərlər bir çox insanın iman gətirməsinə, bir çoxunun da imanda dərinləşməsinə vəsilə olur. Kitabları oxuyan, nəzərdən keçirən hər şəxs bu əsərlərdəki hikmətli, əsaslı, asan başa düşülən və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varırlar. Bu əsərlər sürətli təsir etmək, qəti nəticə vermək, etirazlara yer qoymamaq, əsaslılıq xüsusiyyətlərini daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər batil fikir və fəlsəfələrin heç birini səmimi şəkildə müdafiə etməsi mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq inadkarlıqla müdafiə edəcəklər, çünki fikri əsasları məhv edilmişdir. Dövrümüzdəki bütün inkarçı meyllər Harun Yəhya Külliyyatı qarşısında fikrən məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikməti və izahının valehediciliyindən qaynaqlanır. Müəllifin özü bu əsərlərinə görə lovğalanmır, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin nəşrində və yayımlanmasında maddi məqsəd güdmür.

Bu həqiqətlər nəzərə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasına sövq etməyin də çox mühüm xidmət olması ortaya çıxır.

Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri dağıtmaqda, imanı qurtarmaqda güclü və kəskin bir təsiri olmadığı ümumi təcrübədə müəyyən edilən kitabları yaymaq isə əmək və zaman itiksinə səbəb olar. İmanı qurtarmaq məqsədindən daha çox müəllifin ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi açıqdır. Bu barədə şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi məhv etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, uğur və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Dünyadakı zülm və qarışıqlığın, Müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbinin dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikrən məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya

biləcəkləri şəkildə izah edilməsidir. Dünyanı gündən-günə daha çox zülm, fəsad və qarışıqlığın içinə sürükləməyə çalışıldığı nəzərə alındıqda bu xidmətin əldən gəldiyi qədər sürətli və təsirli şəkildə edilməsinin nə qədər mühüm olduğu məlum olur. Əks təqdirdə çox gec olar.

Bu mühüm xidmətdə əsas vəzifəni öz üzərinə götürmüş Harun Yəhya Külliyyatı Allahın iznilə XXI əsrdə bəşəriyyəti Quranda tərif edilən rahatlıq və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa vəsilə olacaqdır.

# GİRİŞ

# QIZIL ƏSR MÜJDƏSİ

Peyğəmbərimiz (səv) 1400 il əvvəl axırzamanda, yəni yaşadığımız bu dövrdə baş verəcək hadisələri çox ətraflı şəkildə bildirmiş və bu dövrü hərtərəfli tərif etmişdir. Axırzamanda insanların Quran əxlaqından uzaqlaşacağı bir dövr olacağını, dünya səviyyəsində böyük tənəzzül, fitnə, müharibə, qarışıqlıq və degenerasiya baş verəcəyini xəbər vermişdir. Peyğəmbərimizin (sav) hədislərinə bildirildiyi kimi, Allah bu dövrdə Hz. İsa (a.s.) və Rəbbimizin Hadi (hidayət verən) sifətini daşıyan Hz. Mehdini (a.s.) göndərəcəkdir. Hz. İsa (a.s.) və Hz. Mehdinin (a.s.) zühurunun baş verəcəyi bu mübarək dövrdə inkarçı fəlsəfə və ideologiyalar tamamilə aradan qalxacaq və dünyanın hər tərəfində davam edən zülm və qarışıqlıq tamamilə sona çatacaq. Hz. İsa (a.s.) və Hz. Mehdi (a.s.) dövründə Allah inancı Peyğəmbərimiz (sav)-in dövründəki kimi yaşanacaq, Quran əxlaqı insanlar arasında hakim olacaq və bütün dünya hüzur və sülh məkanına çevriləcək. Yer üzündə müharibə və qarşıdurma baş verməyəcək, bütün silahlar aradan götürüləcək, bircə şəxsin belə burnu qanamayacaq. Keçmişdə yaşanan əxlaqsızlıqlar, təzyiqlər, zülmlər, yoxsulluq, ədalətsizlik və degenerasiya bu mübarək dövrdə aradan qalxacaq, hər cür sıxıntının yerini bərəkət, bolluq, zənginlik, xeyir, sülh və hüzur alacaq. Texnologiyada çox böyük irəliləyişlər olacaq və bunlar bütün insanların xeyri və rahatlığı üçün istifadə ediləcəkdir. İncəcənət və estetika sahəsi də də çox inkişaf edəcək, bu dövr Uca Rəbbimizin iznilə "Qızıl Əsr" adlanacaq.

Rəbbimiz bu dünyada imtahan üçün bütün gözəlliklərlə bərabər onların əksi olan mənfi gücləri də yaradır. Hər dövrdə peyğəmbərlərin və iman gətirənlərin qarşısında əks-güclər, yəni inkar edənlər çıxmış və bunlar Allah inancına və gözəl əxlaqa qarşı mübarizə aparmışlar. Bu, Allahın qanunudur. Hz. Musa dövründə Fironun, Hz. İbrahim dövründə Nəmrudun, Hz. Muhamməd (sav) dövründə Əbu Ləhəbin və Məkkəli müşriklərin mövcud olması bu İlahi qanunun təzahürüdür. Peyğəmbərimizin (sav) hədislərində xəbər verildiyi kimi Hz. İsaın (a.s.) nüzulunun və Hz. Mehdinin (a.s.) zühurunun gözlənildiyi axırzamanda ortaya çıxacaq mənfi güc isə "dəccal" olacaq.

Peyğəmbərimizin (sav) hədislərində bildirilən axırzaman əlamətlərinin demək olar ki, hamısı hicri 1400-cü il tarixi etibarilə, yəni məhz Peyğəmbərimizin (sav) xəbər verdiyi dövrdə həyata keçmişdir. Yüzlərlə əlamətin çıxması **axırzamanın yaşadığımız dövr olduğunu göstərən** və eyni zamanda Qızıl Əsrin çox yaxın olduğunu müjdələyən çox mühüm məlumatdır. Yaşadığımız axırzamanda dəccalın fitnəsi də özünü göstərmişdir. Kütlələri dinsizliyə sürükləyən, dünyaya qırğınlar, müharibələr gətirən, cəmiyyətləri degenerasiyaya, anarxiyaya, tənəzzülə və cinayətlərə sövq edən **dəccalın bu böyük fitnəsi Darvinizmdir.** Darvinizm heç bir elmi əsası olmadığı halda 150 il ərzində cəmiyyətlərə təkidlə hakim edilmiş, insanlar bu böyük yalanla kütləvi şəkildə aldadılmış, bəzi cəmiyyətlər darvinist ideologiyanı əsas tutaraq müharibələrə, soyqırımlara, terrora, anarxiyaya sürüklənmişdir. Dəccaliyyət Darvinizm fitnəsilə bütün dünyaya yayılmış, heç bir elmi dəlilə əsaslanmamasına baxmayaraq saxta iddialar və dəlillərlə bəzi dövlətlərin rəsmi müdafiəsinə sığınmışdır. Darvinist ideologiya axırzamanın ən böyük fitnəsi olması səbəbilə qısa müddət ərzində saxta uğurlar əldə etmiş, bu günə qədərki ən böyük yalan kimi tarix səhifələrində yerini almışdır.

Ancaq, əlbəttə, hər böyük fitnə kimi dəccalın bu böyük fitnəsi də **məhv olmaq üzrədir.** Axırzamanın müqəddəs dövrü Qızıl Əsr dəccalın fitnəsinin sona çatdığı, müharibələrin və qarşıdurmaların bitdiyi, bəşəriyyətə böyük bəlalar gətirən dinsiz ideologiyaların tarixin qaranlıqlarına gömüldüyü və dünyanın bolluq, bərəkət və ədalətlə dolub-daşdığı bir dövr olacaq. Bu dövrdə İslam əxlaqı bütün dünyaya yayılacaq, insanları axın-axın Allah inancına yönələcəklər. **Bu müqəddəs dövr çox yaxındır.** Peyğəmbərimizin (sav) hədislərinə əsasən **Hz. Mehdi (a.s.) zühur etmişdir.** İnsanlar tərəfindən tanınacağı vaxt çox yaxındır. Hədislərdən başa düşüldüyü kimi Hz. İsanın (a.s.) nüzulu da çox yaxın vaxtda həyata keçəcəkdir. Dünya səviyyəsində dəccal sisteminin ən böyük fitnəsi olan Darvinizm isə məğlub olub. Dəccal artıq ölüb. Bizə çox yaxın

olan Qızıl Əsrin bərəkət və bolluğu, hüzur və təhlükəsizliyi Allahın iznilə bütün bəşəriyyətə hakim olacaq, bütün dünyaya yayılacaq. Uca Rəbbimiz bir ayəsində belə buyurur:

Allah (lövhi-məhfuzda): "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!

Ancak elbette her büyük fitne gibi, deccalin bu büyük fitnesi de **yıkılıp yok olmak üzeredir.** Ahir zamanın kutlu dönemi Altın Çağ, deccalin fitnesinin sona erdiği, savaşların ve çatışmaların son bulduğu, insanlığa büyük belalar getiren dinsiz ideolojilerin tarihin karanlıklarına gömüldüğü ve dünyanın bolluk, bereket ve adaletle dolup taştığı bir dönem olacaktır. Bu dönemde İslam ahlakı tüm dünyaya yayılacak, insanlar akın akın Allah inancına yöneleceklerdir. **İşte bu kutlu dönem çok yaklaşmıştır.** Peygamberimiz (sav)'in hadislerine göre, **Hz. Mehdi (a.s.) zuhur etmiştir.** İnsanlar tarafından tanınacağı vakit pek yakındır. Yine hadislerden anlaşıldığı üzere **Hz. İsa (a.s.)'ın nuzülü de çok yakın bir zamanda gerçekleşecektir.** Dünya çapında deccal sisteminin en büyük fitnesi olan Darwinizm ise, tarihinin en büyük yenilgisini almıştır. **Deccal artık ölmüştür.** Çok yaklaştığımız Altın Çağ'ın bereket ve bolluğu, huzur ve güvenliği Allah'ın izniyle tüm insanlığa hakim olacak, tüm dünyayı sarıp kuşatacaktır. Yüce Rabbimiz bir ayetinde şöyle buyurur:

**Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mücadələ surəsi, 21)**

# BİRİNCİ FƏSİL

# AXIRZAMANIN ƏN BÖYÜK FİTNƏSİ DƏCCAL

Bu dünya həyatı yaxşılarla pislərin, gözəlliklərlə çirkinliklərin üzə çıxdığı, insanların əməllərilə sınandığı, iman gətirənlərin və gətirməyənlərin sınanıb imtahan edildiyi keçici məkandır. Bütün varlıqları və bu imtahan mühitini yaradan Uca Allah imtahanın üçün hər dövrdə iman gətirənlərə qarşı inkar edən, günahkar düşman yaratmışdır. Hər dövrdə peyğəmbərlərin və iman gətirənlərin qarşısına çıxan bu inkarçı Peyğəmbərimizin (sav) hədislərinə görə Hz. İsanın (a.s.) yenidən yer üzünə gəlməsinin gözlənildiyi, Hz. Mehdinin (a.s.) isə zühur edəcəyi dövrdə, yəni axırzamanda gələcək "dəccal" olacaq.

Dəccal ərəb dilindədir, "dəcl" kökündən törəmişdir. Lüğətlərdə verilən mənaya görə dəccal "yalançı, hiyləgər, zehinləri, ürəkləri, pislə yaxşını, haqq ilə batili qarışdıran, bir şeyi ört-basdır edib əsl üzünü gizlədən, bucaq-bucaq hər yeri dolaşan müfsid (nifaq salan, pozan, pisləşdirən) və məlun (lənətlənmiş, qovulmuş)" varlıqdır.

Peyğəmbərimizin (sav) hədislərində dəccal axırzamanda (dünyanın son dövrlərində) ortaya çıxacaq ən böyük mənfi güc kimi xəbər verilmişdir. Axırzman kimi qeyri-adi hadisələrin baş verdiyi bu dövrdə zühurunu Allahın iznilə çox yaxında görəcəyimiz Hz. İsa (a.s.) və Hz. Mehdiyə (a.s.) düşmənçilik edərək bütün dünyaya şeytanın sistemini hakim etməyə çalışacaq dəccal tarixin bəlkə də ən böyük inkarçılarından biridir. Belə ki, Peyğəmbərimiz (sav) dəccalın fitnəsinin böyüklüyünü belə tərif etmişdir:

Adəmin yaradılışından qiyamətə qədərki zaman ərzində dəccaldan daha böyük hadisə yoxdur.[1]

Dəccal rəvayətlər görə doğrunu səhv, səhvi doğru, yaxşını pis, pisi yaxşı göstərən nifaqsalandır. "Şübhəsiz, yanında bir cənnət və bir cəhənnəm (adlandırdığı iki çay) olması da onun fitnəsidir.

Əslində cəhənnəmi cənnət, cənnəti də cəhənnəmdir..."[2] hədisində də bildirildiyi kimi onun yaxşı, gözəl, doğru adlandırdığı hər şey insana fəlakət gətirən pislikdir. İnsanlara pis kimi göstərdiyi dəyərlər isə əslində onların xeyrinədir. Ancaq bəzi insanlar hadisələri Quran əxlaqına və Peyğəmbərimizin (sav) sünnətinə əsasən dəyərləndirmədiklərinə görə dəccalın onları səslədiyi şeylərə aldanaraq ona tabe olacaq və əslində tabe olmaları lazım olan Allahın fitrətindən qəflət içində üz çevirəcəklər. Bunun nə qədər böyük xəta olduğunu isə dəccalın hazırladığı zülm mühiti sayəsində anlayacaqlar. Bu səbəbdən Peyğəmbərimiz (sav) insanlara xəbərdarlıq etmiş və dəccalın pis kimi göstərdiyi şeyin yaxşı olduğunu bilərək hərəkət etmələrini söyləmişdir:

Dəccal çıxacaq. Yanında su və atəş var. İnsanların su kimi gördüyü yandırıcı atəşdir. İnsanların atəş kimi gördükləri də soyuq və şirin sudur. Sizdən kim bunu dərk etsə, atəşə tərəf getsin, özünü atəşə atsın. Əslində o şirin və gözəl sudur.[3]

Yaşadığımız dövr hədislərdə bildirilən bir çox müxtəlif əlamətlərdən başa düşüldüyü kimi "axırzaman"dır. Peyğəmbərimizin (sav) hədislərindən başa düşüldüyü kimi axırzaman hal-hazırda yaşanır və Hz. İsanın (a.s.) yenidən yer üzünə gəlişi və Hz. Mehdinin (a.s.) zühuru Allahın istəyilə bu dövrdə gözlənilir. Hədislərdə xəbər verildiyi kimi yaşanan axırzamanda dəccalın fitnəsi də hiss edilir, sevgisizlik, üsyankarlıq, pislik, ayrılıq, qarşıdurmalar və tənəzzül dünyanın hər yayına yayılır. İnsanların böyük qismi dəccalın fitnəsinə uymuşlar, gözəl əxlaqdan uzaqlaşmışlar, yer üzündə inkara əsaslanan şeytani sistemi qəbul etmişlər.

Dəccalın yaşadığımız axırzamanda ideoloji cəhətdən ən böyük fitnəsi isə Darvinizm olmuşdur. XIX əsrin ən böyük xürafatı olan Darvinist ideologiya əvvəllər etirazla qarşılaşsa da, dəccalın təsirilə XX əsrdə cəmiyyətlərə yayılmış, kütlələri arxasından sürükləmiş, bir çox tərəfdar toplamış, məktəb kitablarına, elmi ədəbiyyata daxil olmuşdur. Böyük yalan olmasına baxmayaraq, elmilik iddiası ilə ortya çıxıb heç bir elmi dəlillə dəstəklənməsə də, dəccalın təsirilə bütün dünyanı aldatmağı bacarmışdır. Hədislərdə bildirildiyi kimi, dəccalın təsirilə insanlar olmayan bir şeyi qəbul etmiş, elmlə heç bir əlaqəsi olmayan bir nəzəriyyəni "həyatın mənşəyinə dair açıqlama" kimi mənimsəmişlər. Uşaqlar orta məktəb dövründən etibarən məktəblərdə Darvinin təkamül

nəzəriyyəsini oxumağa başlamış, ən çox seyr edilən Darvinizm tərəfdarı olan telekanalları təkamülə dair saxta ssenariləri "elmi fəaliyyət" kimi ön plana çəkmiş, universitet professorları bu saxtakarlığı hər vəchlə mdafiə etmişlər. Bu, tamamilə batil inanc sistemidir. Darvinizim batil bir din kimi ortaya çıxmışdır; insanları isə bu batil dinə kor-koranə inandırılmağa çalışmış, inanmayanlar təcrid olunmuş və susdurulmuşlar. Təkamül nəzəriyyəsinin lehinə heç bir elmi dəlil yoxdur. Olması da mümkün deyil. Amma Darvinizm saxta inanc olduğuna görə təkamül nəzəriyyəsi adına daima saxta dəlillər uydurulur, təkamülü çürüdən həqiqi elmi dəlillər isə ört-basdır edilir. Bu saxtakarlığın həddi-hüdudu yoxdur. Darvinizm Allahı inkara əsaslanan, batil, saxta inanc sistemi olması ilə dəccalın məlum olan və hədislərə əsasən axırzamanda gözlənilən böyük oyunudur.

Canlıların təsadüfən meydana gəldiyini iddia edən, insanın meymun əcdadları olduğunu müdafiə edən, insanı yer üzündə məsuliyyətsiz, nəzarətsiz bir heyvan olduğuna inandırmağa çalışan, güclünun zəifi əzməsi kimi batil fikirlərə əsaslanaraq kütlələri qətl edən, müharibələri başladan, insanlara mənən kiçik və alçaq gözlə baxan bu saxta inanc sistemi dəccalın ən böyük oyunlarından biri olan Darvinizmdir. Lakin 150 ildən bəri davam edən bu oyun XXI əsrin əvvəlllərində artıq məhv olmuş vəziyyətdədir. Dəccalın oyunu bitmişdir. Dəccal artıq ölmüşdür. Kütlələrin aldadılması sona çatmışdır. Batil bir din kimi mənimsənilən bu ideologiya Allaın haqq dini qarşısında yerlə yeksan olmuşdur. Allah, şübhəsiz, Öz dinini üstün qılandır. Uca Rəbbimiz bir ayəsində belə buyurur:

**Günahkarlar istəməsələr də, Allah sözləri ilə haqqı gerçəkləşdirəcək! (Yunus surəsi, 82)**

**Əsrin ən batil dəccali sistemi: Darvinizm**

Bu gün yer üzündə din əleyhdarı olan ən böyük fitnələrdən biri materializm və materializmdən törəyən müxtəlif batil ideologiya və cərəyanlardır. Bütün bu cərəyanları əhatə edən, hamısının "əmələ gəlmə və təməli" olan düşüncə isə Darvinizmdir. Darvinizm irəli sürüldüyü tarixdən etibarən materialist və din əleyhinə ideologiya və cərəyanların əsasına çevrilmiş, bu ideologiyaları müdafiə edənlər tərəfindən sanki bir dinə çevrilmişdir. Darvinizmin axırzamanda dəccalın dininə çevriləcəyinə böyük İslam alimi Bədiüzzaman Said Nursi Həzrətləri də bu açıqlaması ilə diqqət çəkmişdir:

Təbiətçilik (Darvinizm) və materializm fəlsəfəsindən çıxan nəmrudanə (üsyankar) bir cərəyan axırzamanda fəlsəfə vasitəsilə getdikcə yayılaraq güclənəcək, ilahlık iddia edəcək dərəcəyə çatacaqdır.[4] (Allahı tənzih edirik)

Elə Bədiüzzamanın "təbiətçilik (Darvinizm) və materializm fəlsəfəsindən çıxan nəmrudanə (üsyankar) bir cərəyan" kimi ifadə etdiyi kimi Darvinizm təbiətə mütəqil güc aid edən, bütün canlıların kor təsadüflərin əsəri olduğunu, yaradılmadığını iddia edən (Allahı tənzih edirik), insanları Allaha imandan uzaqlaşdırmağa çalışan bir təlimdir. Peyğəmbər Əfəndimizin (sav) hədislərinin toplandığı və hədislərin açıqlamalarının yer aldığı "Kütubi-Sittə Muxtəsəri Tərcümə və şərhi" adlı kitabda isə bu mövzu belə izah edilmişdir:

Dəccalın yol açdığı axırzaman fitnəsinin ən bariz və ən mühüm vəsfi dinə qarşı olmasıdır. Axırzamanda ortaya çıxacaq bəzi humanist düşüncə tərzi və dəyərlər dinin yerini almağa çalışacaqdır. Bu yeni din insanın üzərində mövcud lan hər cür İlahi hakimiyyəti aradan qaldırmaq üçün inkarı özünə əsas götürər... Əsas ilahı maddə və insan olan dindənkənar bir dindir.[5] (Allahı tənzih edirik)

Darvinistlər təkamül nəzəriyyəsini hər dövrdə saxta dəlillərlə elmi göstərmək üçün çalışmışlar. Canlıların cansız maddələrdən əmələ gəldiyini və təkamül keçirərək inkişaf etdiyini, bütün canlı növlərinin bir-birlərindən mərhələlərlə törədiyini iddia edirlər. Ancaq Darvinizm bu iddiasının heç bir mərhələsini sübut edə bilməmiş, buna baxmayaraq elmi göstərilməyə çalışılan

batil inanc sistemidir. Darvinizmə görə bu xəyali inkişafın ən böyük xəyali mexanizmi “təsadüflərdir”. Təsadüflər Darvinizmin saxta ilahıdır. Darvinistlərə görə bu saxta ilah imkansız olanı gerçəkləşdirmək gücünə malikdir. Darvinistlərə əsasən bu saxta ilah bir qədər palçıqlı sudan canlı hüceyrə meydana gətirir, balığı pələngə çevirir, ayılardan balinaları meydana gətirib onlarda heç yoxdan ağciyərlər əmələ gətirir. Darvinistlərə görə bu saxta ilah insanı meymundan törəyən canlı hesab edir, insana ağıl, hafizə, qabiliyyət kimi bacarıqlar veriri, yer üzündə heç cür təqlid oluna bilməyən insan şüurunu yoxdan var edir. Belə ki, təsadüflər bütün bunları fantastik şəkildə edərkən necə olursa, nəzarətli, planlı, ağıllı davranır, səhv etmir, hətta lazım gəldikdə dərhal tədbir tökür. Darvinin təkamül nəzəriyyəsinə görə təsadüflər ağıl və nəzarət gücü olan saxta yaradan hökmündədirlər. (Allahı tənzih edirik)

Təsadüfləri bütləşdirmiş bu batil nəzəriyyə bu ağl və məntiqdənkənar iddiaları ilə hər cür demoqogiya ilə və saxtakarlıqlarla kütlələrə hakim ola bilmişdir. Elə bunun səbəbi dəccaldır. Peyğəmbərimizin (sav) hədislərində bu yalanın mənbəyinin dəccal olduğu bildirilmişdir. Dəccalı təsvir edən bir çox hədisdə müxtəlif bənzətmələrlə tərif edilən xüsusiyyətlər bir ideologiyanın xüsusiyyətləri kimi dəyərləndirildikdə mövzu daha da aydın olur. Buna görə məntiqsiz və əsassız iddialarla üzə çıxan, insanları inkara sürükləyən, din əxlaqından uzaqlaşdıran, insanlar arasında fitnə və qarışıqlıq əmələ gəlməsinə şərait yaradan hər cür ideologiya və düşüncə sistemi dəccalı təmsil edir. Darvinizm hədislərdə tərif edilən bu dəccali sistemə əsaslanan əsas ideologiyadır. Uca Rəbbimiz Allah bir ayəsində dəccalın batil sisteminə uyanları belə tərif edir:

**Şübhəsiz ki, günahkarlar haqq yoldan azmışlar və (axirətdə də) cəhənnəm odu içərisində olacaqlar. (Yaxud günahkarlar heyrət, yanlışlıq və dəlilik içindədirlər) (Qəmər surəsi, 47)**

Darvinizm dünyanı aldatmağa, insanları Allaha imandan uzaqlaşdırmağa əsaslanan ideologiya olduğu üçün dəccalın tərəfdarları üçün nə olarsa olsun, bu batil dinin dirçəldilməsi vacibdir. Elə bu səbəbdən dəccalın himayəsinə girən bəzi şəxslər bu ideologiyanı yaşatmaq üçün indiyə qədər hər üsuldan istifadə etmişlər. Bircə elmi dəlil belə olmamasına baxmayaraq, təkamül nəzəriyyəsini bütün dünyaya sübut etmiş nəzəriyyə kimi təqdim etmişdirlər. Olmayan dəlilləri varmış kimi göstərmişlər, fosilləri öz nəzəriyyələrinə uyğunlaşdırmaq üçün saxtakarlıq etməkdən də çəkinməmişlər. Bircə ara-keçid forma belə olmamasına baxmayaraq, xəyali ara-keçid formalar düzəltmişlər, saxtakarlıq etmiş, bunları məktəb dərsliklərində elmi dəlil kimi tədris etmişlər. Təkamül əleyhinə ortaya çıxan saysız-hesabsız dəlili gözardı etmiş, qəsdən gizlətmiş, görməməzliyə vurmuş, insanlardan uzaq tutmuşlar. Nəzəriyyələrinin lehinə bir dəlil olmadığına görə saxta fosillər hazırlamış, bunları dünyanın ən məşhur muzeylərində illərlə nümayiş etdirmişlər.

Saxtakarlıqlarının üstü açıldıqda utanmaq yerinə aldadıcı üsullarına davam etmiş, yeni saxtakarlıqlara əl atmaqdan və bunları müdafiə etməkdən çəkinməmişlər. Təkcə bir proteinin belə təsadüfən əmələ gələ bilməyəcəyi elmi cəhətdən sübut edilməsinə baxmayaraq həyatın əvvəlcə palçıqlı suda başlaması iddiasına israrla davam etmişlər (bir funksional proteinin təsadüfən əmələ gəlmə ehtimalı $10^{950}$-dir, yəni sıfırdır). Saxta dəlilləri qəzetlərdə, elmi jurnallarda, televiziyada yayımlamaqdan çəkinməmiş, bunu dərs kimi illərlə tələbələrə öyrətmişlər. Darvinizm saxtakarlıq, uydurma və yalan üzərində qurulmuş inanc sistemidir. Darvinizm elm deyil. Darvinin təkamül nəzəriyyəsi irəli sürüldüyü ilk gündən etibarən qədim bütpərəstlərin vəzifəsini öz üzərinə götürmüş, insanları bütpərəst etməyə çalışmış, Allaha imandan uzaqlaşdırmaq istəmişdir. 150 il boyu insanları aldatmış, 150 il boyu insanları yalana inandırmağa çalışmışdır. Darvinizm ayaqda

dura bilmək üçün saxtakarlığa ehtiyacı olan, tərəfdar əldə etmək üçün yalan söyləyən, Darvinizmin yalan olması həqiqətini söyləyənləri susdurmağa çalışan batil bir dindir.

Allah bir ayəsində belə buyurur:

**De: "Allah yanında cəza etibarilə bundan daha pisini sizə xəbər verimmi? Allahın lənətlədiyi, qəzəbləndiyi, özlərini meymunlara, donuzlara və şeytanlara ibadət edənlərə döndərdiyi şəxslər mövqecə daha pis və doğru yoldan daha çox azanlardır! (Maidə surəsi, 60)**

Normal şərtlərdə insanların bu cür səfeh ideologiyanın arxasınca getmələrinin, şübhəsiz ki, məntiqi yoxdur. Lakin insanların bir qismi dəccalın qurduğu tələyə düşmüş, şüursuzca, necə etdiklrəini, necə inandıqlarını anlamadan bu yalana inanmışlar. Çünki dəccal hiyləgər üsuldan istifadə etmişdir. Darvinizm dünyanı aldadarkən bir tərəfdən də dəccalın bu hiyləgər və çirkin vəzifəsini üzərinə götürmüş, saxta və batil üsullarla insanlara yetişmişdir. Lakin şübhəsiz hər batil dində olduğu kimi bu dində də Allaha qarşı qurulan bütün hiyləgər tələlər boşa çıxmışdır. Allah ayələrində bu həqiqəti belə bildirir:

**Həqiqətən, hiylə qurdular. Mən də (hiylələrinə qarşı) onlara cəza verirəm. Elə isə kafirlərə möhlət ver! Onlara azacıq möhlət ver! (Tariq surəsi, 15-17)**

# İKİNCİ FƏSİL

# DARVİNİSTLƏR SAXTAKARLIQLARLA DÜNYANI ALDATDILAR

Bir elmi nəzəriyyəni, məsələn, Big Bang (Böyük Partlayış) nəzəriyyəsini nəzərdən keçirək. Bu nəzəriyyə Eynşteynin nisbilik nəzəriyyəsinə əsaslanaraq əvvəlcə bir şübhə və fərziyyə kimi irəli sürülmüşdü. Bunun ardınca sözügedən böyük partlayışın baş verdiyini göstərən dəlillər axtarılmağa başlandı. Bu dəlillər həqiqətən də var idi. Sözügedən partlayışı təsdiq edən artıq radiasiya tapılmış, kainatın izotopik xüsusiyyəti (bütün kosmosun mütləq temperaturunun -270 $^{o}$C olması) kəşf edilmişdi. Kainatın getdikcə genişlənməsi də elmi cəhətdən sübut edilmişdi. Bu, sözügedən nəzəriyyəni sübut edən digər mühüm və qəti dəlil idi. Beləliklə, Big Bang nəzəriyyəsi iddialarının hamısı təcrübədən keçirilmiş, təsdiqlənmiş və sübut edilmiş nəzəriyyəyə çevrildi.

Darvinin təkamül nəzəriyyəsi də “fərziyyə” kimi irəli sürülmüşdü. (Əslində təkamül nəzəriyyəsinin irəli sürülmə səbəbi tamamilə ideoloji idi, lakin elmi nəzəriyyə adı altında insanlara tanıdıldı.) Bu nəzəriyyənin əsaslı hesab olunması üçün də eynilə Big Bang kimi bu nəzəriyyənin də iddiaları sübut edilməli idi. Bunun üçün əvvəlcə xəyali təkamül mexanizmlərinin təkamülə səbəb olub-olmadığı aşkarlanmalı idi. XX əsr elminin irəliləməsi Darvinin xəyali təkamül mexanizmi “təbii seleksiyanın” təkamül xarakterli heç bir rolunun olmadığını sübut etmişdi. Genetika elmi isə xəyali təkamül mexanizmi olan təbii seleksiyadan ümidini kəsmiş və əvəzində mutasiyaları təkamül mexanizmi kimi göstərməyə çalışan yeni Darvinistləri (neo-darvinizm) ümidsizliyə salmışdı. Mutasiyaların da təkamül xarakterli təsirinin olmadığı başa düşüldükdən sonra növbə Darvinin və Darvinistlərin ən böyük gözləntisi olan fosillərə çatmışdı. Fosillərin verdiyi nəticə isə Darvinistlər üçün əsl mənada böyük şok idi! İllərlə axtarılan xəyali ara-keçid fosilllər yer üzünün heç bir yerində yox idi. Araşdırmaların dərinləşdirilməsi isə bu nəticəni dəyişdirmədi. İndiyə qədər aparılan bütün tədqiqatlar nəticəsində bircə ara-keçid fosil nümunəsi belə tapılmadı.

Bağlandıqları batil dindən əl çəkmək istəməyən Darvinistlərin Darvinizmə dəlil tapmaq gözləntisi uzun illər davam etdi. Amma gözlənən xəyali dəlillər heç vaxt üzə çıxmadı. Lakin buna baxmayaraq Darvinist yalanlar sona çatmadı. Darvinizm lehinə demaqogiya təkidlə davam etdirildi. Maraqlısı budur ki, 150 il keçməsinə, bircə dəlil belə tapılmamasına və habelə fosillərin və genetika elminin aşkar etdiyi nəticələrin yaradılış həqiqətini sübut etməsinə baxmayaraq Darvinistlər bu batil dinin dimdik ayaqda dura biləcəyinə inanırlar. Əlbəttə, bu onlar üçün böyük xətadır. Əslində nəzəriyyənin tərəfdarları da canlılarda tarixən təkamül hadisəsinin baş vermədiyini bilirlər. Bunu saysız elmi dəlil nəticəsində açıq şəkildə görüblər.

Bütün bunlara baxmayaraq təkamül nəzəriyyəsi bir ideologiya və tərəfdarları tərəfindən mütləq ayaqda tutulmaslı batil bir din olduğuna görə Darvinistlər saxta elmilik rolunu davam etdirməli olduqlarına inanırlar. Elə Darvinistlərin bu saxta dini ayaqda tutmaq üçün 150 ildən bəri saxtakarlıqlara, spekyulasiyalara və saysız-hesabsız təbliğat üsullarına əl atmalarının səbəbi budur. Darvinistlər öz batil dinlərinə əsasən insanlara nəzəriyyələrinin “doğru” olmasını təlqin etmək üçün başqa yol tapa bilməzlər. Çünki nəzəriyyənin doğruluğuna dair bircə dənə də elmi dəlil yoxdur. Buna görədir ki, Darvinizm dininə əsasən insanlara “elmi dəlil vardır” deyə təlqin etməyə çalışırlar.

Missuri Universitetindən doktor Nikolas Komninellis “Creative Defense” adlı kitabında bu böyük yalanın sonrakı illərdə düşəcəyi vəziyyətlə bağlı bu sözlərə yer vermişdir:

Fəlsəfi cəhətdən təkamül ehkamı bir röyadır. Zərrə qədər sübutu olmayan bir nəzəriyyədir. Əlli il ərzində məktəblərdəki uşaqlar çox məşhurlaşmış yalanları oxuyacaqlar və bundan (təkamül nəzəriyyəsindən) ən cəfəng iddialardan biri kimi bəhs ediləcək. Bir çoxu on doqquzuncu əsrin elmi ilə bağlı ağılsızlıqları başa düşərək ələ salıb güləcəklər.[32]

Komninellisin diaqnozu doğrudur. Təkamül nəzəriyyəsini yalana əsaslanan bir iddia təşkil edir və bu nəzəriyyənin tarixi saysız-hesabsız saxtakarlıq nümunələrilə doludur. Təkamülün irəli sürdüyü hər iddia, hər dəlil saxtakarlığın məhsuludur. Bu saxtakarlıqların hamısının gerçək mahiyyəti, gerçək üzü ortaya çıxmışdır. Lakin bunlar Darvinizm dininin tərəfdarları tərəfindən ört-basdır eilməyə və ya insanlara unutdurulmağa çalışılmışdır. Ancaq nə qədər cəhd etsələr də, Darvinist təbliğatın son dərəcə çürük təməllərə əsaslandığını bütün dünya anlamağa başlamışdır. Komninellisin də bildirdiyi kimi, gələcək nəsillər bu böyük yalanın dünya səviyyəsindəki təsirini, onun dünyada məşhur olan professorlar və elm adamları tərəfindən müdafiə edilməsini təəccüb və heyrətlə qarşılayacaq və bu böyük ağılsızlığı uzun illər ələ salacaqlar.

Dəccal belə batil üsullarla insanları Allahın dinindən uzaqlaşdırmağa çalışmışdır. Lakin hal-hazırda artıq planları alt-üst olmuşdur. Onun istifadə etdiyi üsul – yəni Darvinizm – bugün insanların, hətta uşaqların dilində məsxərə mövzusuna çevrilməyə başlamışdır. Bütün dünya yaxın gələcəkdə Darvinizm cəfəngiyyatını utancla xatırlayacaqdır. Şübhəsiz bu, Allaha qarşı çıxanlara Uca Rəbbimizin bir tələsi, cavabıdır. Allah bir ayəsində belə bildirir:

**Onlara öz əməllərinin cəzası artıq yetişdi. İstehza etdikləri onları yaxaladı. (Nəhl surəsi, 34)**

## 1. “Palçıqlı su içində ilk hüceyrə əmələ gəlib” iddiası saxtakarlıqdır

Darvinin təkamül nəzəriyyəsinə əsasən cansız maddələrin təsadüfən birləşməsilə əmələ gələn xəyali “ilk hüceyrə” var. Darvinizmə əsasən hər şey bu “ilk hüceyrə” ilə başlayır. Bütün canlıların, kəpənəklərin, quşların, şirlərin, qartalların, balinaların, dovşanların, maralların və nəhayət texnoloji məhsullar istehsal edən, sivilizasiyalar quran, professorlar yetişdirən, kosmosa

səyahət edən, laboratoriyalarda malik olduğu hüceyrələri tədqiq edən insanın da mənşəyi Darvinizmə əsasən bu xəyali “ilk hüceyrədir”.

Darvinizmə əsasən bu xəyali ilk hüceyrənin mənbəyi isə “bir az palçıqlı su, zaman və təsadüflərdir”! Darvinizm dininə əsasən bu üç sehirli (!) və ağıllı (!) güc birləşərək Nobel mükafatına layiq görülmüş elm adamlarının XXI əsrin texnlogiyasının hakim olduğu laboratoriyalarda belə düzəldə bilmədikləri, incəliklərini anlamaq üçün insanların yarım əsrdən çox müddət ərzində üzərində tədqiqatlar apardıqları olduqca mürəkkəb və mükəmməl mexanizmlərə, orqanoidlərə və kompleks quruluşa malik “hüceyrəni” nə cür olubsa, əmələ gətiriblər! Habelə bu üç möhtəşəm (!) güc birləşərək hal-hazırda yer üzündə gördüyümüz mükəmməl canlıları da meydana gətirmişlər. Darvinizm dini insanları elə bu cəfəngiyyata inandırmağa çalışır.

Lakin bu iddia böyük saxtakarlıq, böyük yalandır.

Əslində Darvinin irəli sürdüyü palçıqlı suda əmələ gələn bu ilk hüceyrə fantaziyası Darvin dövrünün olduqca geri qalmış elm və texnologiyasına uyğun gəlir. Darvinin hüceyrəni yalnız içi su ilə dolu şarcıq zənn etdiyi nəzərə alındıqda bu uşaq nağılı da o dövrün məlumat və elm anlayışından gözlənilən bir şeydir. O dövrdə insanlar hüceyrənin nəyə bənzədiyini bilmədiklərinə görə bu yalana asanlıqla inanmışdılar. Lakin genetika elmi ilə üzə çıxan nəticələr Darvinizmin böyük yalan olduğunu bir daha sübut etmişdir. İndiki məlumat və faktlar əsasında hüceyrənin malik olduğu saysız-hesabsız zülaldan təkcə biri belə təkamül nəzəriyyəsini məhv edir. Zülallar üstün kompleksliyə malik formalardır və təsadüfən əmələ gəlmələri qeyri-mümkündür. Belə ki, laboratoriyalarda şüurlu, nəzarətli şəkildə əmələ gətirilməsi XXI əsrin texnologiyası ilə dəmümkün olmamışdır. Belə bir formanın təsadüfən parçıqlı suda əmələ gəldiyini iddia etmək elm adına gülünc, hətta ağla zidd iddadır. Amerikalı elm filosofu Stefen K. Meyer bircə zülalın təsadüfən əmələ gəlmə ehtimalının qeyri-mümkünlüyünü bu sözlərlə ifadə etmişdir:

Sadəcə 100 amin turşusu uzunluğunda qısa zülal molekulunu əmələ gətirmək üçün keçilməli ehtimal maneələrini düşünün. Zülal zəncirində digər amin turşuları ilə birləşmələri üçün amin turşuları əvvəlcə peptid rabitəsi adlanan kimyəvi rabitə qurmalıdırlar. Lakin təbiətdə amin turşuları arasında digər bir çox növdə kimyəvi rabitə qurula bilər. **Yalnız peptid rabitəsindən ibarət 100 amin turşusu zəncirinin əmələ gətirilmə ehtimalı kobud şəkildə $10^{30}$-da birə bərabərdir.**

İkincisi, təbiətdə hər amin turşusunun özünə aid güzgüdə əks olunmasına bənzəyən bir tayı var. Biri sol-əlli L-formasında, digəri isə sağ-əlli D-formasındadır. Bu bir-birinin əksi olan formalara “optik izomerlər” deyilir. Funksional zülallar sadəcə sol-əlli amin turşularını qəbul edir, lakin sağ-əlli və sol-əlli izomerlərə təbiətdə təqribən eyni sayda rast gəlinir. Bunun nəzərə alınması bioloji cəhətdən funksional bir zülal əldə etməyin qeyri-mümkünlüyünü daha da artırır. **100 amin turşusundan ibarət xəyali peptid zəncirində təsadüflər nəticəsində sadəcə sol-əlli amin turşularından istifadə etmə ehtimalı $(1/2)^{100}$ və ya kobud şəkildə desək, $10^{30}$-da birə bərabərdir.**

Üçüncüsü və ən vacibi isə budur ki, funksional zülallar müəyyən şəkildə düzülərək bir-birinə bağlanmış amin turşularına malik olmalıdırlar, eynilə mənalı bir cümlədəki hərflər kimi. Bioloji cəhətdən 20 növ amin turşusu olduğu üçün müəyyən növ amin turşusunu əldə etmə ehtimalı 1/20-dir. Bu zəncirdəki bəzi yerlərin ancaq bir neçə amin turşusunu qəbul etdiyini nəzərə alsaq, [MTİ-dan (Massaçusets Texnologiya İnstitutundan) biokimyaçı Robert Souer tərəfindən müəyyən edilən dəyişikliklərdən istifadə edərək], **birdən çox funksional zülalda bir funksional amin turşusu düzülüşünü təsadüfən əldə etmə ehtimalının $10^{65}$-də bir – “qeyri-mümkün deyiləcək qədər**

**az" olduğunu görə bilərik.** Bu sadəcə yüz amin turşusu uzunluğunda bir zülal üçün astronomik rəqəmdir. (Əslində bu ehtimal daha da azdır, çünki təbiətdə bu hesablamada nəzərə alınmayan və zülalların tərkibində olmayan bir çox başqa amin turşusu mövcuddur.)

**Əgər uyğun rəbitələrin və optik izomerlərin təmin edilməsi ehtimalı da bu hesaba daxil edilsə, olduqca kiçik və funksional bir zülalı təsadüfən əldə etmə ehtimalı o qədər az olar ki, milyardlarla il yaşı olan kainatda belə bu həqiqətən sıfır ehtimal hesab edilər ($10^{125}$-də bir ehtimal).** Habelə funksional bir DNT-nin təsadüfən əldə edilməsində buna bənzər ciddi çətinliklər olduğunu da nəzərə almaq lazımdır. Bununla yanaşı, ən aşağı səviyyədə bir kompleks hüceyrədə 1 deyil, ən az 100 kompleks zülal (və DNT ilə RNT kimi digər başqa bio-molekulyar birləşmələr) olmalıdır və bunlar sıx əlaqədardırlar. Bu səbəbdən hüceyrədəki mürəkkəbliyin kəmiyyət cəhətdən dəyərləndirilməsi 1960-cı ilin ortalarından etibarən biologiyanın həyatın mənşəyi ilə bağlı bir fikri möhkəmləndirmişdir: **təsadüf bioloji mürəkkəbliyin və özünəməxsusluğun mənşəyini açıqlamaq üçün qaneedici açıqlama deyil.**[33]

Bütün bu kompleks formaların əmələ gəlməsinin qeyri-mümkün olduğu halda, təsadüfən baş verməsini fərz etsək, Darvinstlər DNT kimi möhtəşəm molekulun içində bir milyon ensiklopediya səhifəsini dolduran məlumatın təsadüfən necə əmələ gəldiyini açıqlamalıdırlar. Lakin hüceyrə və həyatın mənşəyi ilə bağlı məsələdə olduğu kimi bu məsələdə də Darvinistlər açıqlama verə bilmirlər. Ziddiyyətli darvinist məntiqə əsasən palçıqlı suyun içində təsadüfən əmələ gələn bir hüceyrənin içindəki qeyri-adi məlumat da müxtəlif xarici amillər yolu ilə təsadüfən əmlə gəlməlidir. Şübhəsiz, bu mümkün deyil. DNT-nin içindəki məlumat DNT ilə birlikdə yaradılmış nəhəng məlumatdır.

Darvinistlərin "palçıqlı suda təsadüfən hüceyrə əmələ gəldi" iddiası hüceyrəni içi su ilə dolu şar zənn edən Darvin dövründən qalmış köhnə inancdır. Ancaq XIX əsrə aid bu xürafətlər elmin və texnologiyanın çox irəlilədiyi dövrümüzdə artıq tamamilə əsassızdır. Bir canlı orqanizmində açıqlanmalı saysız-hesabsız kompleks forma var ikən Darvinizm bircə zülalın əmlə gəlməsini də açıqlaya bilmir. Lakin Darvinistlər bunlardn xəbərsizmiş kimi davranırlar. Hələ də təkamülçü KİV-də palçıqlı sudakı bu qeyri-mümkün əmələ gəlmə sanki bir hekayə kitabındakı hekayələr kimi danışılır. Məqsəd bu elmdənkənar, məntiqsiz, amma eyni zamanda da sübutsuz hekayə ilə kütləri aldatmaqdır. Bu batil dinin tərəfdarlarına əsasən sözügedən hekayəyə nə qədər çox insan inansa, o qədər şəsx Darvinizm sehrinin təsiri altına düşəcəkdir.

Lakin artıq Darvinistlərin saxta hekayələrinə insanlar inanmırlar. Yaradılanların hamısı kainatı və içindəkiləri qüsursuz şəkildə yaradan Uca Rəbbimizin üstün gücünü və qüdrətini göstərir. Uca Allah Quranda hüceyrənin və insanın üstün yaradılışını belə xəbər vermişdir:

**Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu nütfə halında möhkəm bir yerdə yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər uludur! (Muminun surəsi, 12-14)**

Qurandan kənarda açıqlama axtaranlar yer üzündəki möhtəşəmliyə istədikləri qədər açıqlama verməyə çalışsınlar, Allahın yaratdığı bu əsərin çox böyük və ehtişamlı olması qəti həqiqətdir. Bu üstün yaradılış qarşısında təkamül nəzəriyyəsinə yer yoxdur. Uca Allah bir ayəsində yaratdığı əsərlərin böyüklüyünü belə xəbər verir:

**Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz! (Gafir surəsi, 57)**

## 2. "Təbii seleksiya təkamülə səbəb olur" iddiası saxtakarlıqdır

Darvin 1800-cü ildə "təkamül mexanizmi" kimi bir məfhum irəli sürmüşdü: təbii seleksiya.

Təbii seleksiya, başqa adı ilə, "təbii seçmə" deməkdir. Güclü və içində mövcud olduğu şərtlərə uyğun canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, şirlər tərəfindən təhlükəyə məruz qalan zebra sürüsündə daha sürətlə qaçan zebralar həyatda qalacaqlar.

Təbii seleksiya həqiqətən də təbiətdəki canlılar arasında müşahidə edilən mexanizmdir. Ancaq heç vaxt təkamülçülərin xəyal etdikləri kimi canlılara yeni xüsusiyyətlər əlavə etmə və yeni növ meydana gətirmə qabiliyyətinə malik deyil.

Bu mövzunu belə bir misalla açıqlaya bilərik: Fərz edək ki, bir coğrafi ərazidə biri daha tüklü, digəri isə nisbətən qısa tüklərə malik iki bənzər it cinsi yaşayır. Əgər bu ərazidə havanın temperaturu ekoloji dəyişiklik səbəbindən əhəmiyyətli dərəcədə aşağı düşərsə, uzun tüklü itlər qısa tüklü itlərə nisbətən soyuğa daha dözümlü olacaqlar. Bunun nəticəsində də uzun tüklü itlər daha çox üstünlük qazanacaq, yəni daha çox yaşayacaq, daha çox törəyəcək və rahat qidalanacadır. Bir müddət sonra qısa tüklü itlərin sayı da azalar və ya bu canlılar isti ərazilərə köçə bilərlər, ya da nəsilləri tamamilə kəsilər. Yəni uzun tüklü itlər təbii seleksiya ilə seçilmiş və digər növə nisbətən üstünlük qazanırlar.

Ancaq diqqət edilsə, görmək olar ki, bu proses ortaya yeni it cinsi çıxarmır. Təbii seleksiya yolu ilə sadəcə onsuz da mövcud olan iki fərqli cinsdən biri üstünlük qazanır. Ortada heç uzun tüklü it yox ikən təbii seçmə nəticəsində uzun tüklü itlər əmələ gəlməmişdir. Bu itlərin zaman ərzində başqa canlı növünə çevrilməsindən də əsla söz gedə bilməz.

Qısacası, təbii seleksiya ortaya yeni növlər, yeni xüsusiyyətlər çıxarmır, sadəcə onsuz da mövcud olan növlərin həyatda qalma ehtimalları artır. Yeni növ və yeni xüsusiyyət əmələ gəlmədiyi üçün də təkamülçülərin iddia etdiyi "təkamül" də baş verməmişdir. Başqa sözlə, təbii seleksiyanın heç bir "təkamül" xarakteri yoxdur. Belə ki, Darvin özü də bu həqiqəti etiraf etmişdir:

Təbii seleksiya faydalı canlıların başlanğıc mərhələlərinin əmələ gəlməsi üçün kifayət etmir.[34]

Tanınmış təkamülçü paleontoloq ingilis Kolin Patersonun bununla bağlı etirafı isə belədir:

Heç kim təbii seleksiya mexanizmləri ilə yeni növ əmələ gətirə bilməmişdir. Heç kim belə bir şeyin yanına belə yaxınlaşa bilməmişdir. Bu gün neo-darvinizmin ən çox müzakirə edilən mövzusu da budur.[35]

Təbii seleksiya yenilik gətirərək bununla növləri dəyişikliyə uğradan, məsələn, bir sürünənin zaman ərzində quşa çevrilməsini təmin edən möcüzələr yaradan mexanizm deyil. Məşhur bioloq Darsi Uenvort Tompsonun dediyi kimi "Təbii ki, seleksiyada gördüyümüz şey yaratmaq deyil, yox etmək, aradan götürmək və yanğına sürükləməkdir."[36]

Ona görə Darvinistlər təbii seleksiyanı təkamül mexanizmi kimi insanlara tanıtmağa çalışaraq yalan deyirlər. Təbii seleksiyanın təkamülə səbəb olmadığını özləri də bilmələrinə baxmayaraq açıq şəkildə bu saxtakarlığı insanlara qəbul etdirməyə çalışırlar. Darvindən qalan mirasa sahiblənmək arzusu və xəyali ssenarilərinə yeni mexanizm uydura bilməmələri onları bu köhnə iddiaya,, bu böyük yalana bağlamışdır. Dövrümüzdə hələ də bu böyük yalana sahib çıxmağa çalışan Darvinist elm adamları var. Bu yalanın məhv olacağını görənlər isə başqa bir yalanla ortaya çıxmışlar. Bu yalan "mutasiyalar təkamülə səbəb olur" iddiasıdır.

## 3. "Mutasiyalar təkamülə səbəb olur" iddiası saxtakarlıqdır

Mutasiyalar canlı hüceyrəsinin nüvəsində yerləşən və insana aid bütün genetik məlumatları daşıyan DNT molekulunda radiasiya və kimyəvi təsirlər nəticəsində meydana gələn yerdəyişmələr, qırılmalar və pozuntulardır. DNT-dəki məlumatlar A, T, C və G hərfləri ilə işarələnən 4 ayrı nukleotidin bir-birinin ardınca xüsusi və mənalı sırada düzülməsilə əmələ gəlir. Ancaq bu sırada bircə hərf səhvinin olması o quruluşu tamamilə pozar. Məsələn, uşaqlarda rast gəlinən qan xərçəngi xəstəliyi DNT-dəki hərflərdən birinin səhv olması nəticəsində üzə çıxır. Çernobıldakı radiasiya sızması və Xirosimaya atılan atom bombası nəticəsində sonrakı nəslin uşaqların şikəst olmalarının və ya xərçəng kimi xəstəliklərin üzə çıxmasının səbəbi də mutasiyaların orqanizmlərində əmələ gətirdiyi bu cür zərərli təsirlərdir.

Demək olar ki, bütün mutasiyalar zərərlidir və ümumiyyətlə canlılar üçün ölümcüldür. Zərərsiz mutasiya nümunələri isə əsasən orqanizmə heç bir fayda verməmiş, çox halda təsirsiz qalmışlar. Elm adamları tədqiq edilmiş bütün mutasiyalar arasında bircəsinin belə açıq şəkildə canlının həyat prosesinə müsbət təsir etmədiyi nəticəsinə gəlmişlər.[37]

Lakin təkamül nəzəriyyəsi "yeni" canlılar əmələ gətirən, möcüzələr yaradan bu xəyali mutasiyalara əsaslanır. Darvinistlər növlərin xəyali və faydalı saysız-hesabsız mutasiyanın ortaya çıxardığı mükəmməl forma və orqanlar vasitəsilə bir-birlərindən törədiklərini iddia edirlər. Darvinistlərə üz qarası olan bu iddia mutasiyaların orqanizmə mütləq zərər verdiyini bilən Darvinist elm adamları tərəfindən irəli sürülmüşdür. Habelə Darvinistlər mutasiyaların bu zərərli təsirlərini çox yaxşı bilmələrinə baxmayaraq sözügedən iddialarına laboratoriyada mutasiyaya uğradılmış dörd qanadlı mutant meyvə milçəyini nümunə göstərirlər. Diqqətli şəkildə həyata keçirilən mutasiyalar nəticəsində meyvə milçəyində əmələ gətirilən iki artıq qanad Darvinistlər tərəfindən mutasiyaların təkamülə səbəb olması iddiasının ən böyük dəlili kimi təqdim olunmuşdur. Amma əslində bu iki qanad canlıya fayda deyil, zərər vermiş, canlının uçma qabiliyyətinin itirməsinə səbəb olmuşdur. Kaliforniya Universitetindən molekulyar bioloq Conatan Uels bunu belə açıqlayır:

1970-ci ildə Kaliforniya Texnologiya İnstitutundan genetik Eduard B. Luis üç mutant növünü diqqətli şəkildə cütləşdirərək müvazinət orqanı normal görünüşlü ikinci cüt qanada çevrilən meyvə milçəyi törətməyi bacardı.

İlk baxışda Karolun təcrübəsi nizamlayıcı DNT-dəki kiçik inkişafyönlü dəyişikliklərin görünüşdə böyük təkamül xarakterli dəyişiklər etməsi iddiasına dəlil kimi görünə bilər. Amma meyvə milçəyi yenə də meyvə milçəyidir. Habelə ikinci cüt qanad normal görünməsinə baxmayaraq uçma əzələlərindən məhrumdur. Dörd qanadlı meyvə milçəyi quyruğundan lazımsız yerə sallanan bir cüt qanadı olan təyyarə kimidir. Canlı uçarkən və cütləşərkən çətinlik çəkir, buna görə yalnız laboratoriyada yaşaya bilir. Təkamülə dəlil kimi təqdim edilən dörd qanadlı meyvə milçəyi sirkdəki iki başlı danadan heç də yaxşı görünmür.[38]

Conatan Uels sözlərinə belə davam edir:

Artıq qanadlı və ya əskik ayaqlı şikəst meyvə milçəkləri inkişaf genetikası haqqında bizə bəzi şeylər öyrətdi, amma təkamül haqqında heç bir şey öyrətmədi. Bütün dəlillər bir nəticəni göstərir: meyvə milçəyinin embrionuna nə etsək də, yalnız üç ehtimal meydana gələ bilər – normal meyvə milçəyi, qüsurlu meyvə milçəyi və ya ölü meyvə milçəyi. At bir tərəfə dursun, at milçəyi belə deyil.[30]

Göründüyü kimi Darvinistlərin ziddiyyətli iddialarına yeganə dəlil kimi göstərməyə çalışdıqlar dörd qanadlı mutant meyvə milçəyi də qüsurlu meyvə milçəyindən artıq deyil. Mutasiyalar canlı üzərində nə qədər təsirlə olursa-olsun, o canlı növünə başqa canlıya aid

xüsusiyyət əlavə etmə kimi möcüzəvi qabiliyyətdən məhrumdurlar. Amma Davrinistlər canlıda mutasiyalar yolu ilə möcüzələr əmələ gəlməsi yalanına inanmaq istəyirlər.

Maraqlısı budur ki, sözügedən meyvə milçəyinin qüsurlu olması Darvinist elm adamlarına məlum olmasına baxmayaraq bu mutant hələ də dərsliklərdə mutasiya ilə təkamülün ən böyük dəlili kimi göstərilir. Molekulyar bioloq Conatan Uels bununla bağlı belə yazır:

Piter Reyvn və Corc Consonun 1999-cu ildə nəşr olunan dərsliyi "Biologiya"ya əsasən "təkamül genetik məlumatdakı dəyişiklilklərlə başlamışdır... Mutasiya və yenidən birləşmə (mövcud genlərin yenidən nizamlanması) yolu ilə baş verən genetik dəyişiklik təkamül üçün xammaddə hazırlayır." Kitabdakı eyni səhifədə dörd qanadlı meyvə milçəyinin rəsmi verilir və onu "inkişafın kritik mərhələsini nizamlayan gen olan Ultrabithorax-dakı dəyişiklərə görə mutant" adlandırır, bundan əlavə, sinəyə və iki cüt qanada malik olduğunu da əlavə edir.

Yuxarıda qeyd edilən dərs kitabı, bundan əlavə, oxucuya əlavə qanadların qazanc olması təsəvvürünü verir. Amma əslində dörd qanadlı meyvə milçəyi uçuş üçün lazımi orqanlardan məhrumdur. Müvazinət orqanları yox olmuş və onların yerini yeni bir şey deyil, digər hissədə onsuz da mövcud olan orqanların surətləri almışdır. Nə qədər dörd qanadlı meyvə milçəyi rəsmləri mutasiyaların yeni orqan əlavə etməsi təsəvvürünü versə də, bunun tam əksi həqiqətə daha yaxındır.[40]

Darvinizmin iddia etdiyi canlıların başlanğıcını təmsil edən və təsadüfən meydana gəlməsi qeyri-mümkün olan o "xəyali ilk hüceyrə"nin öz-özünə meydana gəldiyini fərz etdikdə belə kompleks quruluşlu insan əmələ gələnə qədər baş verməli xəyali təkamül prosesinin ən kiçik mərhələsində belə külli miqdarda genetik məlumat hazırlanmalı və saysız-hesabsız mutasiya baş verməlidir. Bu mutasiyaların miqdarı çox olarkən eyni zamanda bunların "hamısı" canlıya fayda və ya "yenilik" gətirən xüsusiyyətdə olmalıdır.

Darvinizmin iddia etdiyi canlıların başlanğıcnı təmsil edən və təsadüfən əmələ gəlməsi qeyri-mümkün olan o "xəyali ilk hüceyrə"nin öz-özünə meydana gəldiyini fərz etsək belə, kompleks quruluşa malik insan əmələ gələnə qədər baş verməli xəyali təkamül prosesinin ən kiçik mərhələsində belə külli miqdarda genetik məlumat hazırlanmalı və saysız-hesabsız mutasiya baş verməlidir. Bu mutasiyaların miqdarı çox olmaqla bərabər eyni zamanda onların "hamısı" canlıya fayda və ya "yenilik" gətirəcək xüsusiyyətdə olmalıdır. Çünki inkişaf etməkdə olan bu xəyali yeni orqanizmdə baş verəcək bircə səhv sistemin tamamilə pozulub çökməsinə səbəb olacaqdır. Mutasiyaların 99% zərərli və 1% təsirsiz olduğu nəzərə alınarsa, təkamül nəzəriyyəsinə görə baş verməli bu milyardlarla mutsiyanın hər birinin istisnasız faydalı olduğunu iddia etmək, şübhəsiz, ağla və elmə ziddir.

Ona törə bir canlıda daha əvvəl mövcud olmayan yeni bir üzvün və ya xüsusiyyətin mutasiyalar nəticəsində meydana gəlməsi qeyri-mümkündür. Mutasiyaların bir canlıya o canlıya aid olmayan yeni məlumat əlavə etmə və onu fərqli canlıya çevirmə gücü yoxdur. Mutasiya iddiası Darvinizm yalanının, Darvinist məntiqsizliyinin ən böyük göstəricisini təmsil edir. Çünki təkamül fikri əslində olmayan bu xəyali "faydalı mutasiyalara" əsaslanır.

## Fərz edilən faydalı mutasiyalar üçün lazım olan sonsuz zaman

Həqiqətən faydalı mutasiyaların baş vermə ehtimalını fərz etsək belə mutasiya iddiası təkamül nəzəriyyəsinə uyğun gəlmir. MTİ-də (Massaçusets Texnologiya İnstitutu – Massachusetts Institute of Technology) elektrik mühəndisliyi fakültəsinin professoru Murrey İden "Neo-darvinist təkamülün elmi nəzəriyyə kimi əsassızlığı" başlıqlı məqaləsində adaptasiya məqsədli dəyişikliyi meydana gətirmək üçün altı mutasiya lazımdırsa, bunun təsadüfən ancaq bir milyard ildə bir baş

verəcəyini, əgər iki düjin gen daxil olacaqsa, bu təqdirdə Yerin yaşından daha uzun müddətin, daha doğrusu, 10.000.000.000 ilə ehtiyac olacağını açıqlamışdır.[41] Riyaziyyatçılar birdən artıq mutasiyanın eyni anda meydana gəlməsi lazım olan mürəkkəb üzv və orqanlarda mutasiyaların faydalı və təsirli olduğu fərz edildikdə belə Darvinistlər üçün zaman problemi olduğunu açıq şəkildə bildirirlər. Ən qatı Darvinistlərdən olan paleontologiya üzrə professor Corc G. Simpson belə beş mutasiyanın eyni anda baş verməsinin sonsuz zaman tələb etdiyini açıq şəkildə bildirir.[42] Sonsuz zaman belə bir ehtimalın olmadığı deməkdir və bu ehtimal eyni zamanda canlı orqanizmlərin malik olduqları bütün quruluş və orqanlara da aiddir. Bu halda dövrümüzdə gördüyümüz möhtəşəm canlı müxtəlifliyinin mutasiyalarla meydana gəlmə ehtimalının qeyri-mümkün olduğu aydındır.

Təkamülçü Corc G. Simpson sözügedən mutasiya iddiası ilə bağlı başqa hesablama da aparmış və hər gün yeni generasiya əmələ gətirdiyini fərz etdiyimiz 100 milyon fərdlik sürüdə mutasiyalardan əldə edilən müsbət nəticənin ancaq 274 milyard ildə bir meydana gələ biləcəyini etiraf etmişdir. Bu say 4,5 milyard il kimi təxmin etdiyimiz Yerin yaşından yüz dəfələrlə böyükdür.[43] Təbii ki bütün bunlar mutasiyaların müsbət təsirinin olduğunu və ya yeni generasiyalar meydana gətirə bildiyini fərz etdikdə, ortaya çıxan hesablamalardır. Lakin real dünyada belə bir fərziyyəyə yer yoxdur.

## “Təkamül keçirən” canlı orqanizmi nə üçün mutasiyalara qarşı qorunur?

Bütün təkamülçü elm adamları bilirlər ki, canlının DNT-sində birdən-birə replikasiya səhvinin meydana gəlmə ehtimalı son dərəcə azdır. Tədqiqatlar hüceyrələrdə genetik səhvlərin əmələ gəlməsinin qarşısını alan qoruyucu ünsürlərin mövcud olduğunu üzə çıxarmışdır. DNT-dəki məlumat bir-birini səhvlərə qarşı yoxlayan bir-birindən fərqli saysız-hesabsız hormon olmadan replikasiya edilə bilməz. Bunlar düzgün amin turşusunun düzgün RNT-yə birləşdiyini müəyyən edilməsi üçün cüt süzgəcli hormonlardan təşkil olunmuşdur. Bir süzgəc çox böyük amin turşusunu kənar edərkən digəri çox kiçilərini kənarlaşdırır. Bu olduqca həssas və ağıllı sistemdir. Bu ağıllı sistemdə səhv meydana gəlməsi ehtimalına qarşı sonuncu yoxlamanı aparan hormonlar da var. Elm adamları öz ağılları çərçivəsində DNT-nin bütünlüyünü qorumağa xidmət edən daha yaxşı hüceyrə nəzarəti və müdafiə sistemi təsəvvürünün olmadığını qəbul edirlər.[44]

30 il boyu Sarbonnada təkamül kürsüsü rəhbərliyini edən Pier Pol Qrasse bu məsələ ilə bağlı belə yazır:

Küləklə daşınan tozun Dürerin “Melankolia”sını əmələ gətirmə ehtimalı gözü əmələ gətirən DNT molekullarında meydana gələcək replikasiya səhvi ehtimalından daha azdır.[45]

Darvinistlər DNT-dəki bu möcüzəvi sistemi görməməzliyə vurur, bu mövzunu dərindən araşdırıb açıqlama gətirməkdən çəkinirlər. Lakin bir tərəfdən də meydana gəlmə ehtimalı demək olar ki qeyri-mümkün olan replikasiya səhvləri haqqında həyat tarixi ssenarisi uydururlar. Bu, Darvinist məntiqin uğursuzluğunu bir daha nümayiş etdirir.

Darvinin irəli sürdüyü təbii seleksiya iddiasının təaküml üçün qəti açıqlama olmadığının başa düşülməsinin və genetika qanunlarının Darvinizmə zərbə kimi ön plana çıxmasının ardınca Neo-Darvinizmin ən böyük silahı kimi üzə çıxarılan “mutasiyaların təkamül xarakterli təsiri” iddiası göründüyü kimi yalandan ibarətdir. Canlı orqanizmi pozan, öldürən, məhv edən, bəzən də ondan sonrakı bütün nəsillərə təsir edərək zərər verən mutasiya kimi mexanizmin yeni canlılar üzə çıxardığını iddia etmək, şübhəsiz, böyük ağılsızlıqdır. Lakin insanlar illər boyu bu yalanla aldadılıblar. Əlbəttə, Darvinist elm adamları da mutasiyaların bu cür möcüzəvi gücü olmadığını bilirlər. Belə ki, dövrümüzdəki ən qatı Darvinistlərin önündə gedən Riçard Doukins belə

"*mutasiyaların çoxu zərərlidir, arzuolunmaz mənfi təsirin meydana çıxması ehtimalı olduqca çoxdur*"[46] sözlərilə bu həqiqəti etiraf etmişdir. Darvinistlərin hələ də bu çürük iddianı təkamül mexanizmi kimi təkidlə təqdim etməyə çalışmaları batil Darvinizm dininə bağlılıqlarından irəli gəlir.

## 4. "Ara-keçid fosil tapıldı" iddiası saxtakarlıqdır

Darvin dövründə ara-keçid fosillərin yoxluğu həll olunacaq problem kimi görünürdü. Darvin yer üzünün təbəqələrində nəzəriyyəsini təsdiqləyəcək bircə ara-keçid fosili tapılmamasını təəccüblə qarşılayır, amma yenə də onların "gələcəkdə tapılacağına" inanırdı. "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" fəslində mövzu ilə bağlı bunları yazmışdı:

Əgər həqiqətən növlər digər növlərdən yavaş irəliləyişlərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formaya rast gəlmirik? Nə üçün bütün təbiət qarışıqlıq halında deyil, tamamlanmış və yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün bu qədər çoxsaylı təbəqəsində tapa bilmirik.... Nə üçün hər geoloji forma və hər təbəqə belə formalarla dolu deyil? Geologiya yaxşı dərəcələndirilmiş proses üzə çıxarmır və bəlkə də bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq.[47]

Darvinin gözləntisini təkzib edən və təqribən 150 ildən bəri bircə dənə də tapılmayan ara-keçid fosilləri Darvinin nəzəriyyəsinə həqiqətən də ən böyük etiraz kimi ortaya çıxdı. Çünki davamlı olaraq qazıntılar aparılır və Darvinistlərin iddiasına əsasən yer üzünün demək olar ki hər təbəqəsində milyonlarla, hətta milyardlarla tapılmalı olan ara-keçid fosillərindən bircəsi belə üzə çıxmırdı. Ara fosilin olmaması Darvinizmin ölümü demək idi və batil Darvinizm dininin tərəfdarları tərəfindən qəbuledilməz vəziyyət idi. Elə buna görə Darvinistlər ənənəvi üsullarına əl atdılar və fantastik ara fosillər hazırlamağa başladılar. Bu gün Darvinist mənbəli nəşrlərə, bu mövzunu işləyən orta məktəb və universitet kitablarına baxdıqda ara forma adı altında tanıdılmış bütün canlı fosillərinin əslində saxtakarlığın məhsulu olduğunu görürük. Bəzn nəsli kəsilmiş canlılar, bəzən xəyali rəsmlər, bəzən bircə diş fosili, bəzən də laboratoriya mühitində hiylə ilə hazırlanmış kəllə sümüklərindən istifadə edərək uydurulmuş bu saxta dəlillərin hər biri ara fosil olmamasının və Darvinizmin yalan olduğunun mühüm sübutudur.

Riyaziyyat professoru Volfqanq Smit ara fosil olmaması həqiqətini açıq şəkildə etiraf edən elm adamlarındandır:

"Ən təməl səviyyədə, çox açıq və təfərrüatlı şəkildə ortaya çıxmışdır ki, ara fosil yodur və "itmiş halqalar" sözün əsl mənasında mövcud olmamışdır."[48]

Təkamülçü paleontoloq Stefen Stenli isə ara fosil olmaması həqiqətilə bağlı bu şərhləri vermişdir:

Məlum olan fosillər böyük morfoloji keçidi həyata keçirdən bircə filetik (irqə aid) təkamül nümunəsi belə göstərmir, ona görə də pilləli modelin əsaslılığı barədə dəlil də vermir.[49]

Kanzas Universitetindən geolog Ronald R. Uestin isə bu mövzudakı şərhi belədir:

Əgər təkamül baş versəydi, fosillər bunları göstərməliydi:

1. Həyata dair dəlillər daşıyan ən qədim süxurlarda fosilləşmiş ən qədim ilkin canlı formalarına rast gəlinməli,
2. Daha gənc süxurlar daha mürəkkəb canlı formalarının fosillərinin dəlillərini daşımalı,
3. Canlı formalarında ibtidaidən daha mürəkkəbə doğru pilləli keçid olmalı,
4. Həddindən artıq çox sayda ara-keçid formalarının fosilləri tapılmalıydı.

Lakin bir çox elm adamının yazdığının əksinə, fosillər Darvinin təkamül nəzəriyyəsini dəstəkləmir.[50]

Darvinistlər indiyə qədər bircə dənə də əsl ara-keçid forma nümunəsi göstərə bilməyiblər. Yer üzünün təbəqələrindən bircə dənə də ara fosil çıxarılmamışdır. Təkamül muzeylərində nümayiş etdirilən bircə əsl ara fosil nümunəsi yoxdur. İndiyə qədər ələ keçirilmiş 250 milyondan çox fosil tapılmışdır, lakin onlardan bircəsi də ara fosil deyil. Hamısı ta dövrümüzdə yaşayan, ya da nəsli kəsilmiş canlıların tam, mükəmməl fosil nümunələridir.

Ara formanın olmaması artıq Darvinistlərin belə inkar edəcəkləri kimi deyil. Bəzən Darvinistlər müxtəlif çətinliklər qarşısında bunu açıq şəkildə bildirmək məcburiyyətində qalırlar. Buna bir misal olaraq təkamülçü paleontoloq Kolin Patersonun bu mövzu ilə bağlı ifadələrini göstərmək olar:

Təkamül xarakterli keçidlərə dair kitabımdakı (Evolution) nümunə çatışmazlığı haqqındakı şərhlərinizə tamamilə şərikəm. Əgər fosil və ya canlı kimi tanıdığım bircə dənə ara forma olsaydı, ktaibıma əlavə edərdim... Açıq danışacağam, fosillər arasında haqqında birisinin sağlam fikir söyləyəcəyi bircə dənə ara keçid forma yoxdur.[51]

Ara formanın yoxluğu Darvinistlərin böyük əksəriyyətinin etdiyi kimi söz arasına qataraq ötürüləcək və ya əhəmiyyətsiz mövzu kimi qarşılanılacaq vəziyyət deyil. Ara formanın yoxluğu təkamülün yoxluğu deməkdir. Təkamül nəzəriyyəsinin əsaslı olması üçün bircə fosil kifayət deyil, bir neçə fosil də kifayət etmir. Bu fosillər milyonlarla olmalıdır. Lakin əslində bircə dənə də ara fosil tapılmayıb. Ona görə təkcə bu həqiqət – yəni 2000-ci ilin əvvəllərində tapılan fosillərin sayı təqribən 100% təşkil edərkən mövcud olmalı ara fosillərdən bircə dənəsinin də tapılmaması – təkamülün yalan olmasının çox güclü və qəti sübutudur.

Oksford Universitetini zoologiya fakültəsindən Mark Ridley fosillərin təkamülə Darvinist yalanı üzə çıxarmaqdan başqa heç bir şey qazandırmadığını bu şəkildə açıqlamışdır:

İstər mərhələli, istər sıçramalı təkamülü müdafiə etsin, heç bir əsl təkamülçü fosillərdən xüsusi yaradılışın qarşısında təkamülü müdafiə etmək üçün istifadə etməz...[52]

Maraqlıdır ki, Darvinistlər bu həqiqətə baxmayaraq daha sonra nümunələrini görəcəyimiz kimi tam, mükəmməl formadakı fosilləri hələ də ara fosil kimi təqdim etməyə çalışır və ya ara forma fosillərini özləri hazırlayırlar. Saxtakarlığa əl atılmasının səbəbi, şübhəsiz, elmi cəhətdən əsl dəlil gətirə bilməmələridir. Darvinizmi saxtalaşdıran ən mühüm ünsür də bu batil dinin tərəfdarlarının yalana, aldatmağa məcbur olmalarıdır. Bu batil dini müdafiə edənlər “elm adından” hərəkət etdiklərini söyləyirlər, lakin elmin gətirdiyi nəticələr təkamül nəzəriyyəsini açıq şəkildə təkzib edir. Darvinistlərə əsasən batil Darvinizm dininin sağ qalması ancaq saysız-hesabsız yalan yolu ilə baş verə bilər. Buna görədir ki, Darvinistlərin bu düsturun bir hissəsi kimi apardıqları “ara fosil tapıldı” təbliğatı da böyük saxtakarlıqdır.

## 5. Darvinistlərin yaşayan fosilləri ört-basdır etməyə çalışması yalandır.

Darvin tədqiqatları əsnasında Ginkgo biloba (yapon gavalısı) ağacının yarpağının fosilini tapdıqda çox təəccüblənmişdi. Dövrümüzdə yaşayan bir canlının eynisi milyonlarla il əvvəlki təbəqələrdə bu günkü forması ilə mövcud idi. Nəzəriyyəsinin əsassızlığını sübut etməyə kifayət edən və Darvini həqiqətən də təşvişə salan bu fosil elə Darvinin özü tərəfindən "yaşayan fosil" adlandırılacaqdı.

Əgər Darvin indi yaşasaydı, şübhəsiz, bu məsələ ilə bağlı təşvişi daha çox olardı. Çünki Ginkgo dövrümüzə qədər gəlib çatan yeganə yaşayan fosil deyil. Yerin təbəqələrindən çıxarılmış 250 milyondan çox fosilin bir qismini tam və mükəmməl nəsli tükənmiş canlılar, böyük əksəriyyətini isə yaşayan fosillər təşkil edir. Hal-hazırda mövcud olan növlərin böyük qisminin milyonlarla illik fosil nümunələri tapılmış və nümayiş etdirilmişdir (ətraflı məlumat üçün bax: http://www.yaratilismuzesi.com/fosiller/ ve http://www.yaratilisatlasi.com/). Dövrümüzdə yaşayan atlar, zürafələr, balıqlar, itlər, quşlar, sürünənlər hal-hazırkı formaları və görünüşlərilə milyonlarla illik iz qoymuşlar. "Yaradılış atlası" adlı əsərin bütün cildlərində, ölkəmizdə təşkil edilən müxtəlif sərgilərdə və "Yaradılış muzeyi" adlı internet saytında nümayiş etdirilən fosillər haqqında bəhs edilən nümunələrin sadəcə bir qismidir. Sözügedən nümunələr o qədər çoxdur ki, demək olar ki dövrümüzdəki hər canlı milyonlarla illik həmnövü tərəfindən təmsil edilir və bu fosillər dövrümüzün canlıları ilə mükəmməl uyğunluq içindədirlər. **Milyonlarla il əvvəlki fosillərilə dövrümüzün canlıları arasında heç bir fərq yoxdur. Canlılar dəyişilməyiblər. İlk dəfə yaradıldıqları kimidirlər.**

Amerika Təbiət Tarixi Muzeyinin müdiri, tanınmış təkamülçü paleontoloq Naylz Eldric təkamülün ən böyük müəmmalarından biri olan yaşayan fosillər həqiqəti qarşısındakı acizliklərini bu sözlərlə açıqlamışdır:

Yaşayan bir orqanizm ilə onun uzaq geoloji keçmişdəki fosilləşmiş əcdadları arasında müqayisə edəcəyimiz hər hansı bir hissədə demək olar ki heç bir dəyişiklik yoxdur. Yaşayan fosillər təkamül xarakterli ətalət fikrinin ən konkret nümunələridir. Yaşayan fosillərin sirrini tam mənada aça bilməmişik.[53]

Nə qədər Naylz Eldric Darvinistlərin çarəsizliklərini gizlətməyə çalışaraq "təkamül xarakterli ətalət" ifadəsindən istifadə edərək "sanki keçmişdə təkamül prosesi baş vermiş, amma dayanmışdır" kimi təsəvvür yaratmağa çalışsa da, həqiqət budur: fosillər tarixin heç bir dövründə təkamül prosesinin baş vermədiyini sübut edir. Bütün canlı növləri bu gün malik olduqları xüsusiyyətlərlə birlikdə bir anda üzə çıxmış və on milyon illərlə ən kiçik dəyişikliyə belə uğramamışlar. Balıqlar elə balıq, sürünənlər elə sürünən, məməlilər elə məməli, insan da elə insan kimi mövcud olmuşdur. Darvinin ən böyük gözləntisi olan fosillər Darvinin nəzəriyyəsini məhv edən ən güclü dəlil olmuşdur.

Şübhəsiz, bu vəziyyət bircə ara fosil ilə dəstəklənməyən təkamül nəzəriyyəsi üçün böyük məhvdir. Elə bu səbəbdən varlıqları Darvinist elm adamlarına çox yaxşı məlum olmasına baxmayaraq yaşayan fosillər heç vaxt gündəmə gətirilmir, ört-basdır edilirlər. Təkamülçü mənbələrə baxan bir insanda sadəcə bir neçə yaşayan fosil olması təsəvvürü yaranacaqdır. Çünki Darvinistlər tərəfindən ön plana çəkilən yalnız bir neçə yaşayan fosil var. Eyni mənbələrdə bu bir neçə fosilin möcüzəvi şəkildə heç dəyişilmədən qaldıqları və saysız-hesabsız xəyali təkamül dəlili içində bir "istisna" olması təsəvvürü verməyə çalışırlar.

Lakin bu yalandır.

Amerikalı paleontoloq S.M.Stenli fosillərin üzə çıxardığı həqiqətin elm dünyasına hakim olan Darvinist diktatorluq tərəfindən necə gözardı edildiyini və etdirildiyini belə izah edir:

Məlum olan fosillər mərhələlik təkamülə uyğun deyil və heç bir zaman da uyğun olmamışdır. Diqqətçəkən şey budur ki, bəzi tarixi şərtlər altında bu barədəki həqiqət gizlənmişdir... Bir çox paleontoloq əllərindəki sübutların Darvinin kiçik, yavaş və mərhələli dəyişikliklərin yeni növ əmələ gətirməsi fikrilə ziddiyyət təşkil etdiyini hiss etmişdir... Amma onların bu dşüncəsi susdurulmuşdur.[54]

Nə qədər susdurmağa çalışsalar da, ortada artıq gizlənilməyəcək açıq həqiqət var: yaşayan fosillər milyonlarladır. Hal-hazırda Darvinin təkamül nəzəriyyəsi fosillərin verdiyi nəticələrə qarşsında qəti məğlubiyyətə uğramışdır. Elmi kəşflər Darvinizmi məhv etmişdir. Darvinistlər artıq yaradılış həqiqətinin dəlilləri olan bu fosilləri gizlədə bilmirlər. Həqiqətlər üzə çıxmış, Darvinizmin məhvi Darvinistlərin ən böyük təməli olan fosillər tərəfindən elan edilmişdir.

Darvinist tələ pozulmuşdur. Darvinizmə əsasən nəzəriyyəni dəstəkləməsi gözlənilən fosillər Allahın izni və təqdiri ilə Darvinizmin sonunu gətirmişdir. İnsanlar canlıların hamsını Allahın yoxdan yaratdığı həqiqətini bu vəsilə ilə qəti şəkildə görmüşlər. Bu dəlil görüldükdən sonra əks iddialarla üzə çıxmağın heç bir dəyəri və təsiri yoxdur. Uca Allah qədərdə dəccalın sistemini başından məhv olmuş, yox olmuş şəkildə yaratmışdır. Bu həqiqəti hər kəs açıq, mübahisəsiz şəkildə görür. Uca Rəbbimiz bütün varlıqları yoxdan yaratdığnı ayələrdində bu cür xəbər verir:

**Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi. O sizi yenə öldürəcək, sonra yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız. Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur! O, hər şeyi biləndir! (Bəqərə surəsi, 28-29)**

## 6. Kembri fosillərinin 70 il gizlənilməsi yalandır

Canlı tarixinin ən qədim dövrlərindən biri olan Kembri dövrü 543-490 milyon il əvvəli təmsil edir. Bu dövrdən əvvəl tək hüceyrəli canlılar və bir neçə çoxhüceyrəli növü hökm sürürkən ani surətdə tam və mükəmməl şəkildə qeyri-adı canlı müxtəlifliyi meydana gəlmişdir. Bu canlıların hamısı əvvəlki canlılardan çox fərqli şəkildə dövrümüzün canlılarına aid qeyri-adi mürəkkəb xüsusiyyətlərə malikdirlər. Bu xüsusiyyətilə Kembri dövrü təkamül nəzəriyyəsinə böyük zərbədir.

Kembri dövrünə aid fosilləri tapılan canlılar dövrümüzdə mövcud olanlar da daxil olmaqla 55 şöbənin nümunəsini verir (növ: canlıların əsas bədən quruluşlarına görə təsnif olunduqları "aləmdən" sonrakı ən böyük kateqoriya). Digər sözlə, dövrümüzdəki canlıların hətta çoxunun əsas bədən quruluşu dövrümüzdən təqribən 540 milyon il əvəl mükəmməl forması ilə mövcud olmuşdur (dövrümüzdə 35 növ canlı var). Kembri dövrünün canlıları dövrümüzdəki mükəmməl kompleksliyə malik canlılardan fərqlənmir. Bu, Darvinin xəyali təkamül ağacına ziddir, xəyali təkamül prosesi üçün müəyyən edilmiş saxta inkişafı alt-üst edir. Darvinin təkamül nəzəriyyəsinə əsasən "təsadüfən əmələ gələn ilk hüceyrənin" ardınca tək hüceyrəlilər yer üzündə hökm sürməli, bunun ardından da ibtidai quruluşlu çox hüceyrəlilərlə başlayan hərəkətli həyat suda yaşayan tək növ ilə davam etməlidir. Növün sayı zaman ərzində artmalı, bununla əlaqədar şəkildə də növlər çoxalmalıdır. Lakin Kembri dövrünə aid tapıntıların üzə çıxardığı həqiqət belə deyil. Darvinin təkamül ağacının tamamilə əksinə, dövrümüzdəkindən daha çox sayda müxtəliflik canlı tarixinin hələ lap əvvəllərində tək hüceyrəlilərdən dərhal sonra özünü göstərmişdir (ətraflı məlumat üçün bax: "Darvinin başa düşmədiyi Kembri dövrü", Harun Yəhya)

Darvinist ideologiyaya sıx bağlı olan qatı Darvinist üçün bunu kəşf etmək, şübhəsiz, böyük məhvdir. ABŞ-nın ən məşhur muzeylərindən Smitsonian Muzeyində (Smithsonian Institution)

rəhbər və paleontoloq olan Çarlz Dulitl Uolkot da bu batil dinin ən sadiq mənsublarından olduğu üçün ilk dəfə 1909-cu ildə kəşf etməyə başladığı Kembri fosillərinin müxtəlifliyi qarşısında dəhşətə gəlmişdi. 1917-ci ilə qədər davam edən fəaliyyətində cəmi 65.000 fosil nümunəsi toplamışdı. Bunların hamısı Kembri dövrünün mürəkkəb canlılarına aid idi.

Darvinist saxtakarlıqlar nəzərə alındıqda Darvinizmin süqutunun xəbərçisi olan bu fosillərin bir Darvinist tərəfindən tapılması və ardından eyni Darvinist tərəfindən gizlədilməsi də, şübhəsiz, sürpriz deyil. Uolkot mənsub olduğu batil dini bir növ məhv edən, inanclarına zidd olduğu üçün onu dəhşətə salan bu fosilləri gizlətməyə qərar verdi. Çəkdiyi rəsmləri və sənədləri Smitsonian Muzeyindəki siyirmələrdə kilidlədi. Bu xüsusi və mühüm fosillər ancaq 70 il sonra üzə çıxacaqdı.

İsrailli elm adamı Cerald Şröder bununla bağlı belə deyir:

Əgər Uolkot istəsəydi, fosillər üzərində işləmək üçün bir orduluq tələbəni toplaya bilərdi. Amma təkamül gəmisini batırmamağı üstün tutdu. Bu gün Kembri dövrünün fosilləri Çində, Afrikada, Britaniya adalarında, İsveçdə, hətta Qrenlandiyada da tapılmışdır. (Kembri dövründəki) partlayış dünya səviyyəsində baş vermiş hadisədir. Amma bu qeyri-adı hadisənin xüsusiyyətini müzakirə etmək mümkün olmazdan əvvəl məlumat gizlənmişdir.[55]

Uolkotun tapdığı Burqres Şeyldəki Kembri dövrünün fosilləri Uolkotun ölümündən on illər sonra yenidə tədqiq edildi. "Kembric qrupu" kimi tanınan və Hari Bləkmor Uitinqton, Derek Briqz və Saymon Konvey Morrisdən ibarət mütəxəssis qrupu 1980-ci ildə fosilləri hərtərəfli şkildə tədqiq etdilər və faunanın Uolkotun müəyyən etdiyindən daha müxtəlif və qeyri-adi olduğu nəticəsinə gəldilər. Fosillərin bir qisminin dövrümüzdə məlum olan canlı kateqoriyaları altında təsnif olunmasının mümkün olmadığını, ona görə indikindən fərqli canlı şöbələrinə aid olduqlarını bildirdilər. Canlılar 543-490 milyon il əvvəl davam etmiş Kembri dövründə mükəmməl və mürəkkəb formaları ilə ani şəkildə ortaya çıxmışdılar.

Əldə edilən nəticə Darvinistlər üçün o qədər gözlənilməz idi ki, elm adamları bu ani hadisəin "partlayış" adlandırdılar. "Kembri partlayışı" elm tarixinin ən bənzərsiz, təkamülçü elm adamları üçün isə ən açıqlamasız hadisələrin önündə gəlirdi. Hər məsələdə çıxılmaz vəziyyətdə olan təkamül nəzəriyyəsi tərəfdarlarının qarşılaşdığı bu tapıntılar nəticəsində təbliğat məqsədli uydurma hekayələrə də son verməli və "həyatın başlanğıcını açıqlama probleminə" geri dönməli idilər (əlbəttə, bu, həyatın mənşəyinə dair ağıllı və elmi açıqlaması olmayan Darvinistlər üçün problemdir. Ağlabatan, elmi və məntiqli hərəkət edənlər kainatın və canlıların Uca Allahın əsəri olduğunu açıq-aydın görürlər). Darvinin təkamül ağacı tərsinə çevrilmişdi və bu vəziyyət təkamül nəzəriyyəsinin təməl məntiqinə tamamilə zidd idi.

Üstün canlı formalarını, Allahın möhtəşəm yaratmasını nümayiş etdirən Kembri partlayışı Darvinistlər tərəfindən hələ də səssizliklə qarşılanır. Darvinistlər əldə edilən bu qeyri-adi tapıntılar qarşısında sanki sükuta gömülüblər və sanki bu tapıntılar heç yox imiş kimi davranırlar. Canlıların tarixi haqqında uydurduqları saysız-hesabsız aldadıcı ssenarini elmi jurnallarda bir-birinin ardınca nəşr edərkən 540 milyon il əvvəlki bu hekayəni xatırlatmamağa, bunun təkamül nəzəriyyəsini tamamilə aradan qaldırdığını hiss etdirməməyə çalışırlar. Bunu açıq şəkildə etmiş və bütün fosilləri gizlətmiş Çarlz Dulitl Uolkot Darvinizm yalanının nələr edəcəyinin ən böyük dəlil və nümunələrindən biridir.

Əgər Darvinizm həqiqətən elm olsa, Darvinizmi müdafiə edənlər də əsl elm adamı olsalar, şübhəsiz, elmi dəyəri bu qədər böyük olan tapıntılar böyük kəşf kimi ön plana çıxarılar və dərhal elmi sayt, kitab və məqalələrə mövzu edilərdi. Bunun tam əksinə yola əl atılmasının, konkret elmi tapıntıların qəsdən gizlədilməsinin səbəbi Darvinizmin elm deyil, dəccalın bir oyunu kimi üzə çıxan saxta din olmasıdır... Yalan üzərində qurulmuş bu nəzəriyyə saxtakarlıqlarla həyatda

qalmağa çalışır. Kembri fosillərinin gizlənilməsi Darvinizm adından edilmiş elmi saxtakarlıqlardan sadəcə biridir.

## 7. *Archaeopteryx*-in quşların əcdadı olması iddiası saxtakarlıqdır

1860-cı ildə Almaniyada tapılan *Archaeopteryx* adlandırılan quş fosili dövrümüzün quşlarından fərqlənən bəzi özünəməxsus xüsusiyyətlər daşıyırdı. Ağzındakı dişlər, qanadlarındakı pəncələr və uzun quyruğu Darvinistlər tərəfindən spekyulasiya məmulatı kimi istifadə edildi və quş heç bir elmi əsas olmamasına baxmayaraq dərhal sürünənlərə bənzədilərək sürünən-quş ara fosili kimi təqdim edildi.

Lakin bu iddia da böyük yalan idi.

*Archaeopteryx*-in Darvinistlər tərəfindən saxta ara-keçid forma kimi əfsanəyə çevrilməsindən bir müddət sonra fosil sümükləri hərtərəfli şəkildə tədqiq edildi və bu canlının sürünəndən quşa xəyali keçidi göstərən “ibtidai quş” olmadığı, əksinə skelet və tük quruluşunun uçuş üçün olduqca əlverişli olduğu, sürünənlərə bənzədilən xüsusiyyətlərin tarixən yaşamış və hətta dövrümüzdə yaşayan digər bəzi quşlarda da mövcud olduğu üzə çıxdı. Darvinizm tərəfdarı “Elm” (“Science”) jurnalı bu həqiqəti açıq şəkildə dilə gətirmişdi:

*Archaeopteryx* yəqin ki ilk quşlarla bağlı tüklərin və uçuşun ən qədim mənşəyi ilə bağlı çox şey deyə bilməz, çünki *Archaeopteryx*, sözün əsl mənasında, bir quşdur.[56]

*Archaeopteryx* fərqli canlı növlərinin xüsusiyyətlərini daşıyan mozaik canlıdır. Mozaik canlılar elm adamları tərəfindən mürəkkəb quruluşları ilə diqqət cəlb edən və bir neçə növün fərqli xüsusiyyətlərini ehtiva edən canlılar kimi tərif edilir. Darvinistlərin *Archaeopteryx*-dən istifadə edərək yalan uydurmalarının səbəbi də bu fosilin mozaik canlıya aid olmasından irəli glir. Əslində mozaik canlılar da dövrümüzdəki bütün digər canlılar kimi mürəkkəb xüsusiyyət daşıyan yaradılış nümunələridir. Fransız biofizik, təkamülçü Pier Lekomt du Nuoy bu məsələ ilə bağlı bu etirafı edir:

Müstəsnalıq təşkil edən *Archaeopteryx*-i əsl ara forma kimi dəyərləndirmək hüququna malik deyilik. Ara forma deyərkən sürünənlərlə quşlar kiimi siniflər və ya daha kiçik qruplar arasındakı lazımi keçid mərhələlərini nəzərdə tuturuq. İki fərqli qrupa aid xüsusiyyətlər nümayiş etdirən bir heyvan əgər üzərində keçidə dair mərhələlər tapılmamışdırsa və keçidə dair mexanizmlər hələ də məlum deyilsə, əsl ara form kimi qəbul edilə bilməz.[57]

Darvinistlər arasında bu cür etiraf edənlərin sayı əslində olduqca çoxdur. Sıçrayışlı təkamül yalanını ortaya ataraq gündəmə gələn XX əsrin ən tanınmış Darvinistlərindən Stefen Cey Qauld və Naylz Eldric də *Archaeopteryx*-in ara forma kimi qəbul edilməməsində həmfikirdirlər.[58] Conatan Uels “Dünyanın ən gözəl fosili Ernst Mayrın “sürünənlərlə quşlar arasında az qala ən mükəmməl əlaqə” dediyi nümunə səssizcə aradan götürüldü və itmiş halqaların araşdırılması *Archaeopteryx* heç tapılmamış kimi davam edir.”[59] deyə bildirərkən bu fosilin təkamülə dəlil olmadığnı elmi kütlələrin açıqşəkildə qəbul etdiyini dilə gətirir. Lakin maraqlıdır ki, Darvinist elm adamları tərəfindən açıq şəkildə etiraf edilməsinə baxmayaraq Darvinist KİV-lərdə *Archaeopteryx* fosili hələ də ara forma kimi tanıdılmağa çalışılır. Conatan Uels bunu belə izah edir:

Bəzi biologiya dərslikləri *Archaeopteryx*-i itkin əlaqənin klassik nümunəsi kimi göstərməyə davam edir. Maderin 1998-ci ildə nəşr olunmuş “Biologiya” kitabı onu “sürünənlərlə quşlar arasındakı keçid əlaqəsi” kimi göstərir. Uilyam Şraer və Herbert Stoltzenin “Biologiya: Həyatın öyrənilməsi” (Biology: The Study of Life) kitabının 1999-cu il nəşrində də şagirdlərə “bir çox elm adamının onun sürünənlərlə quşlar arasındakı təkamül əlaqəsini təmsil etdiyinə inandığı” deyilir.[60]

Şübhəsiz, bu vəziyyət bu böyük saxtakarlığın hələ də davam etdirildiyindən irəli gəlir.

Əllərində hər hansı ara-keçid forma olmamasına baxmayaraq Darvinistlər nəzəriyyələrindən əl çəkmədiklərinə görə uydurduqları saxta ara-keçid formalarını qorumağa çalışırlar. *Archaeopteryx*-in ciddi-cəhdlə və saxtakarlıqla hələ də gündəmdə saxlanmağa çalışmalarının səbəbi də elə budur.

## 8. "*Coelacanth* dənizdən quruya keçid nümunəsidir" iddiası saxtakarlıqdır

Əslində canlı dinozavr tapılsaydı, bu daha az təəccüblü olardı. Çünki fosillər *Coelacanth*-ın dinozavrların üzə çıxmasından 150-200 i əvvəl mövcud olduğunu göstərir. Bir çox elm adamının quruda yaşayan onurğalıların əcdadı kimi göstərdiyi, ən azı 70 milyon il əvvəl məhv olduğu hesab edilən balıq canlı tapılmışdı![61]

"Fokus" (Focus) jurnalının 2003-cü ilin aprel sayındakı bu sözlər illərlə ara-keçid forma kimi tanıdılmış *Coelacanth*-ın (*Latimera chalumnae*) canlı nümunəsinin dövrümüzdəki dənizlərdə tapılması qarşısındakı təəccüb Darvinistlərin ağzında ifadə edir. Darvinistlər 1938-ci ildən əvvəl *Coelacanth* fosili haqqında çoxlu iddialar irəli sürməüş, canlının üzgəclərini "yeriməyə keçən ayaqlar", fosilləşmiş yağ kisəsini isə "ibtidai ağciyər" kimi izah etmişdilər. Fosil üzərindəki bütün spekyulasiyalarla itmiş halqanı tapdıqlarını irəli sürürdülər.

Elə bu vaxt canlı nümunəsi ələ keçən *Coelacanth* Darvinistlər üçün böyük ümidsizlik oldu. Bu və ən sonuncusu 2007-ci ilin may ayı və daha sonra dövrümüzdə dənizlərdə tapılan 200-dən çox *Coelacanth* fosillər üzərində aparılan Darvinist spekyulasiyaları tamamilə aradan qaldırdı. Başa düşüldü ki, *Coelacanth* təqribən 150 sm boyunda, olduqca təkmil quruluşa malik kompleks canlıdır. Həm də bu canlıda 450 milyon illik tarixində heç bir dəyişiklik baş verməmişdi. Başqa sözlə, bu gün mövcud olan komplekslik 450 milyon il əvvəl də eynilə var idi.

Bütün bunların elmi cəhətdən başa düşülməsinin ardınca *Coelacanth* yaşayan fosil nümunələri arasına qatıldı və ara-keçid forma olduğuna dair bütün iddialar geri götürüldü. Darvinistlər üzərində fərziyyə qurduqları bir fosili də itirdilər. Əgər bu canlı dövrümüzdə dənizlərdə tapılmasaydı, eynilə *Archaeopteryx*-də olduğu kimi bu fosil üzərindəki Darvinist fərziyyələr bitməyəcəkdi. Canlı sudan quruya keçidin ən böyük təmsilçisi kimi tanıdılmaqda davam edəcək və **ən yaxşı ara-keçid forma kimi** üzərində minlərlə fərziyyə qurulacaqdı. Bu canlının ara-keçid forma deyil, mükəmməl dəniz cnalısı olduğuna dair həqiqətləri ifadə edənlər isə darvinistlər tərəfindən ciddi səylə susdurulacaqdılar. Eynilə hal-hazırda digər ara-keçid forma iddialarındakı kimi.

Lakin heç bir dəlilə əsaslanmadan insanları aldatmaq istəyənlər heç bir nəticə əldə edə bilməyəcəklər. Rəbbimiz bir ayəsində belə buyurur:

**Bilin ki, göylərdə və yerdə kim varsa, hamısı Allahındır. Allahdan başqasına tapınanlar həqiqətdə Allaha qoşduqları şəriklərə tabe olmazlar. Onlar ancaq zənnə uyar və yalandan başqa bir şey deməzlər. (Yunus surəsi, 66)**

## 9. Darvinizmə dəlil göstərilməyə çalışılan bütün kəllə sümüyü fosilləri saxtadır

Darvinizm həqiqi elmi təməllərə və dəlillərə əsaslanmadığı üçün uydurma dəlillər təqdim edərək tərəfdar toplamağa çalışır. Bunun üçün Darvinistlərin əlində fərziyyə uyduracaqları məmulatların olması kifayətdir. Darvinistlər haqqında fərziyyə uyduracaqları nəsli kəsilmiş canlı fosillərini götürüb formadan-formaya salır və onları ideologiyalarına dəlil kimi istifadə edirlər. İllər boyu nəsli kəsilmiş olduğu üçün dənizdən quruya xəyali keçidin ən məşhur nümunəsi kimi tanıdılmağa çalışılan, lakin canlı nümunəsi dövrümüzdə dənizlərdə mövcud olan *Coelacanth* bu saxtakarlığı əks etdirən mühüm dəlildir. Darvinistlər eyni taktikandan digər canlılar və insan üzərində də istifadə etməyə çalışırlar. Əllərində olan bütün fosilləri görünüşünə görə təsnifləndirir

və öz ağıllarına görə istədiklərinə “ara-keçid forma” adı verirlər. Lakin ara-keçid forma adlandırdıqları fosillərin hamısı eynilə *Coelacanth* kimi mükəmməl və qüsursuz canlılara aiddir.

Belə ki, ara-keçid forma kimi təqdim etməyə çalışdıqları bütün fosillərin əsassızlığı sübut edilmiş, onların nəsli kəsilmiş kompleks canlılara aid olduğu elmi cəhətdən əsaslandırılmışdır. Məsələ insanın xəyali təkamülü olduqda isə saxtakarlıq məmulatları əsasən nəsli kəsilmiş meymunlar və ya keçmişdə yaşamış bəzi insan qövmləridir. İndiyə qədər irəli sürülmüş bütün ara-keçid forma iddiaları bu saxtakarlıq üsuluna əsaslanır. Məsələn, darvinistlərin insanın xəyali təkamülünə misal kimi təqdim etdikləri saysız-hesabsız kəllə sümüyünün nəsli kəsilmiş meymun və ya insan irqlərinə aid olduğu qəti və elmi cəhətdən sübut edilmiş və sözügedən kəllə sümükləri elmi ədəbiyyatdan çıxarılmışdır:

- 1891-ci ildə tapılan və “Yava adamı” adlandırılan fosil ilə 1923-cü ildə tapılan və “Pekin adamı” adlandırılan fosilin 1939-cu ildə saxta ara-keçid forma olduğu başa düşülmüşdür.

- 1922-ci ildə ara-keçid forma olduğu iddia edilən, ən böyük dəlil kimi təqdim edilən və “Nebraska adamı” adlandırılan diş fosilinin 1927-ci ildə qabana aid olduğu başa düşülmüşdür.

1959-cu ildə tapılan və “Zinjanthropus” adlandırılan fosilin adi meymun olduğu başa düşülmüş və fosil 1970-ci ildə ədəbiyyatdan çıxarılmışdır.

1930-cu ildə tapılan və 50 il boyu ara-keçid forma kimi nümayiş etdirilən Ramapithecusun 1981-ci ildə adi babuin cinsi olduğu başa düşüldüyünə görə ləvğ edildi.

- 1974-cü ildə Afrikada tapılan “Lusi”nin 1999-2000-ci illərdə aparılan elmi fəaliyyətlər nəticəsində saxta olduğu başa düşülmüş və bu fosil elmi ədəbiyyatdan çıxarılmışdır.

1924-cü ildə tapılan və “Taung uşağı” adlandırılan kəllə sümüyü fosilinin gənc qorillaya aid olduğunu başa düşülməsilə bu fosil də 1954-cü ildə ləvğ edilmişdir.

1984-cü ildə tapılan və *Homo Erectus* növünə aid edilən “Turkana uşağı” fosilinin əlsində 12 yaşlı uşağa aid olduğu və böyüdükdə təqribən 1.83 m boyunda olacağı müəyyən edilmişdir. Fosilin dik skelet quruluşu dövrümüzdəki insanınkından fərqi yoxdur. Fosil haqqındakı bütün fərziyyələrin saxta olduğu başa düşülmüşdür

Ridinq Universitetinin geologiya fakültəsindən təkamülçü L.B. Holsted “Təbiət” (Nature) jurnalına verdiyi açıqlamada bu günə qədər “insanın təkamülünə” dəlil kimi göstərilməyə çalışıaln fosillərin insanın təkamülünə əsla dəlil olmadığını və bu istiqamətdə darvinistlərin əlində heç bir tapıntı olmadığını bu sözlərlə etiraf etmişdir:

Bu vəziyyət cəmiyyətə ilk dəfə olaraq bu həqiqəti göstərir: İnsanın həqiqətən əcdadı olan əsl fosil yoxdur... ki, bu yaradılışa inananların illər boyu müdafiə etdiyi şeydir.[62]

Bioloq Layal Uatson darvinistlərin əlində insanın “təkamülünü” sübut edəcək bircə fosilin belə olmadığını bu sözlərlə ifadə edir:

Dövrümüzdəki meymunlar heç yoxdan var olmuş kimidirlər. Keçmişləri, fosil izləri yoxdur və dik yeriyən, tüksüz, alət düzəldən və iri beyinli varlıqlar kimi dövrümüzün insanlarının da əsl mənşəyi, əgər özümüzə qarşı səmimi olsaq, eyni şəkildə sirrli məsələdir.[63]

Nə qədər Layal Uatson həqiqətləri açıq şəkildə ifadə etməkdən çəkinərək insanın mənşəyini öz ağlına görə “sirli məsələ” kimi göstərsə də, insanın mənşəyi çox açıqdır: bütün canlılar kimi insanı da Allah yaratmışdır və bütün konkret elmi tapıntılar da bu həqiqəti təsdiq edir. Bütün bunlarla bərabər darvinistlər üzə çıxan yeni fosillər qarşısında daima zamanlama problemi ilə üzləşirlər. “Təkamül” üçün hesabladıqları tarixləri daim “geriyə çəkir”, fosillərin təkamülü inkar etdiyini gördükcə daima iddialarını dəyişdirməli olurlar. Məsələn, yerin təbəqələrində tapılan 200 milyon illik insan ayaq izlərilə bərabər Kretase dövrünə (144-65 milyon il) aid təbəqələrdə

tapılmış insan sümükləri insanın 100 milyonlarla illik keçmişi olduğunu göstərir.[64] Bu tarixlər dövrümüzün insanı üçün təkamülçülər tərəfindən müəyyən edilmiş sadəcə 50.000 illik zaman nəzərə alındıqda, şübhəsiz, böyük fərqə işarə edir. 2007-ci il avqust ayında açıqlanan yeni fosillər isə darvinistlər tərəfindən *Homo Erectus* və *Homo Habilus* adlandırılan canlıların eyni dövrdə birlikdə yaşadıqlarını göstərmişdir. Zamanlama problemi insanın xəyali təkamülü ilə bağlı darvinistlər çıxılmaz vəziyyətdə qoyan mühüm faktorlardan biridir.

Bütün bu həqiqətlərə baxmayaraq darvinistlər sözügedən saxta fosilləri elmi dəlil kimi göstərməyə davam edir və insanın təkamülü nağılını öz ağıllarına görə həqiqətə çevirməyə çalışırlar. Elmi cəhətdən əsassızlığı sübut edilməsinə baxmayaraq bu fosilləri hələ də elmi mənbələrdə və məktəb dərsliklərində göstərməyə davam edir və insanları aldadırlar. Yazıçı Hank Hanegraaff bu aldadıcı üsulu belə izah etmişdir:

“Yava adamı”nın Yucin Dubua adlı holland tərəfindən 1891-ci ildə Yava adalarından birində tapıldığı hamıya məlumdur. Məlum olmayan şey isə Yava adamının bir kəllə sümüyü parçası, bir bud sümüyü, üç diş və çox böyük fantaziyadan ibarət olmasıdır. Bundan daha çox narahatlıq verən həqiqət isə bud sümüyünün kəllə sümüyü parçasından 50 fut (15 km) aralıda və bir il sonra tapılmasıdır...

... Əsasən Selenka Ekspidişn (Selenka expedisiyası) kimi tanınan və fosil tədqiqatlarının aparıldığı müddət Yava adamı ilə bağlı fərziyyələrin doğruluğunu göstərməyə cəhd edən 19 təkamülçüdən ibarət idi. Ancaq sözügedən təkamülçülər hazırladıqları 342 səhifəlik elmi hesabatda Yava adamının insanın təkamülündə heç bir rolu olmadığını açıq şəkildə bildirmişdir.

Bütün bunlara baxmayaraq “Taymz” (Times) jurnalı təəccüblü şəkildə Yava adamından utanmadan insanın təkamül əcdadı kimi bəhs edən “İnsan necə əmələ gəldi” (How Man Began) başlıqlı məqaləni dərc etmişdir.[65]

Darvinist KİV-lər bu şəkildə darvinist yalanın bir hissəsinə çevrilirlər. Qabaqcıl professorların və elm adamlarının yazdıqları darvinist kitablar da həqiqi elmi dəlillər əvəzinə tamamilə yalana əsaslanan bu saxta ssenariləri təkrarlayır. Elmi ədəbiyyatdan çıxarılmış, əsassızlığı elmi cəhətdən sübut edilmiş kəllə sümüklərinin təkamülə dəlil kimi hələ də gündəmdə saxlanmasının səbəbi də bu yalanı davam etdirməkdir. Təkamülçü zooloq Robert Martin bu mövzu ilə bağlı “Nyu Sayentist” jurnalına bunları demişdir:

Son illərdə müxtəlif yazıçılar insanın mənşəyi ilə bağlı məşhur kitablar yazıblar. Onların hamısı həqiqətlər və obyektivlik əvəzinə fantaziyalar və subyektivlik üzərində qurulmuşdu.[66]

Hal-hazırda darvinistlərin “insanın təkamülü”nə dəlil kimi göstərəcəkləri bircə kəllə sümüyü, bircə sümük parçası da tapılmamışdır. Bu həqiqəti qəbul edə bilməyən darvinistlərin çürük metodu isə saxta ara-keçid forma fosillərini təqdim edərək yalana davam etməkdir.

## 10. "*Australopithecus*lar insanın əcdadıdır" iddiası saxtakarlıqdır

Darvinistlər üçün insanın təkamülü məsələsi həyati əhəmiyyət daşıyır. İllərlə insanlara “insanın təkamül keçirmiş heyvan” olduğunu təlqin etməyə çalışırlar. Bu yalanı yaşatmaq üçün var gücləriilə səy göstərir, heç dayanmadan ən lazımsız məsələlərdə belə insanın “heyvan əcdadları” olması düşüncəsini yeritməyə çalışırlar. Bu mövzuda əl atdıqları yalanlar isə heyrətləndiricidir. Çox vaxt heç əlaqəsi lmayan fosil tapıntıları belə formadan-formaya salınaraq insanabənzər varlıq kimi göstərilməyə çalışılır. Belə ki, darvinistlər sonradan qabana aid olduğu başa düşülən **bircə diş fosilindən** Nebraska adamını uydurmuş, bu xəyali insanabənzər məxluqun ailəsilə birlikdə sosial həyatını təsvir etməkdən çəkinməmişdilər. Bu təəccüblü cəhdin mühüm

nümunələrindən biri də *Australopithecus*ların insanın "meymunabənzər əcdadı" olduğuna dair uzun zaman davam etdirilən iddialardır.

*Australopithecus*lar nəsli kəsilmiş meymun növüdür. "Cənub meymunu" mənasını verən bu canlılar darvinistlər tərəfindən insanların "ilk meymunabənzər əcdadları" kimi qəbul etdirilməyə çalışılır. Nəsli kəsilmiş olduqlarına görə bütün digər nümunələrdə olduğu kimi bu meymun növü də təkamülçülər tərəfindən fərziyyə məmulatına çevrilmişdir. Lakin darvinistlərin *Australopithecus*lar haqqında uydurduqları ssenarilər digər bütün nümunələrdə olduğu kimi yenə də yalana əsaslanır.

*Australopithecus*ların ilk dəfə Afrikada 4 milyon il əvvəl üzə çıxdıqları və 1 milyon il əvvələ qədər də yaşadıqları hesab olunur. Burada xüsusi qeyd edilməli həqiqət isə *Australopithecus*ların hamısının dövrümüzdəki həmnövlərinə bənzəyən nəsli kəsilmiş meymun olmasıdır. Hamısının beyin həcmi dövrümüzdəki şimpanzelərinki ilə eyni və ya onlarınkından daha kiçikdir. Dörd ayaqları üzərində yeriyirlər. Əllərində və ayaqlarında dövrümüzdəki meymunlardakı kimi ağaclara dırmaşmağa yarayan çıxıntılar mövcuddur və ayaqları budaqlardan yapışmaq üçün xüsusi quruluşa malikdir. Boyları qısadır (ən çox 130 sm) və eynilə dövrümüzdəki meymunlardakı kimi erkək *Australopithecus* dişisindən daha böyükdür. Kəllələrindəki yüzlərlə təfərrüat, bir-birinə yaxın gözlər, sivri azı dişləri, çənə quruluşu, uzun qollar, qısa ayaqlar kimi bir çox xüsusiyyət bu canlıların dövrümüzdəki meymunlardan fərqli olmadıqlarını göstərən dəlillərdir.

*Australoppithecus*lar meymun növü olmalarına baxmayaraq darvnistlər tərəfindən iki ayaq üstündə gəzməyi bacaran canlılar kimi tərif edilir. Bu yalandır, çünki *Australopithecus*lar ilə bağlı əldə edilən fosillərdə bu fantastik ssenarini təsdiq edən bircə nümunə də yoxdur. Ona görə bu canlılar haqqındakı təkamül ssenarisi heç bir elmi dəlilə əsaslanmır.

Darvinistlərə əsasən *Australopithecus* cinsinin müxtəlif növləri tapılsa da, sadəcə *Australopithecus afarensis* (1974-cü ildə tapıldıqda dünyaya "insanın təkamülünün sübutu" kimi təqdim edilən "Lusi"nin təmsil etdiyi növ) insanın həqiqə əcdadı qəbul edilir. Lakin sözügedən canlının insanın əcdadı olmadığı darvinistlər tərəfindən də qəbul edilmişdir. Məşhur fransız darvinist elmi jurnalı "Science et Vie" 1999-cu il may sayında bu mövzunu üz qabığında əsas mövzu kimi dərc etmişdir. *Australopithecus afarensis* növünün ən mühüm fosil nümunəsi hesab edilən Lusidən bəhs edən jurnal "Adieu Lucy" (Əlvida, Lusi) başlığı altında *Australopithecus* növündən olan meymunların insan soyunun əcdadı olmadığını və bu canlıların nəsil ağacından çıxarılmasını yazmışdır.[67]

Dünyada məşhur olan təkamülçü paleontoloq Riçard Likey də Lusinin təkamülə dəlil kimi heç bir əsasının olmadığını bu sözlərlə bildirir:

Lusinin (*Australopithecus afarensis*) bir piqme şimpanze qarışığından başqa bir şey olmadığı çox əzabverici və inkaredilməz dərəcədə qətidir. Meymundan insana keçidə dair fərz edilən dəlillər inandırıcılıqdan həddindən artıq uzaqdır.[68]

Bütün bunlarla bərabər *Australopithecus*lar üzərindəki tədqiqatlar nəticəsində təkamülçü Lord Zukerman da *Australopithecus*ların sadəcə adi meymun növü olduqları və əsla dik yerimədikləri nəticəsinə gəlmişdir.[69]

Bu sahədəki tədqiqatları ilə məşhur olan digər təkamülçü anatomist Çarlz E. Oksnard da *Australopithecus*ların skelet quruluşlarının dövrümüzdəki oranqutanlarınkına bənzədiyini açıqlamışdır.[70]

1994-cü ildə İngiltərədəki Liverpul Universitetindən Fred Spur və qrupu *Australopithecus*un skeleti ilə bağlı qəti nəticəyə gəlmək üçün ətraflı tədqiqat həyata keçirmişdir. Skeletlərdə bədənin

yerə görə vəziyyəyini müəyyən edən “ilbiz” adlı orqan üzərində tədqiqatlar aparılmışdır. Spur *Australopithecus*un yerişinin insanlarınkına bənzəməməsi nəticəsinə gəlmişdir.[71]

2000-ci ildə B.G.Riçmond və D.S.Streyt adlı elm adamlarının həyata keçirdiyi və “Təbiət” (Nature) jurnalında dərc olunan bir tədqiqatda isə *Australopithecus*ların qabaq ayaq sümükləri tədqiq edilmişdir. Müqayisəli anatomik tədqiqatlar bu növün dövrümüzdə yaşayan və 4 ayaq üstündə yeriyən meymunlarla eyni qabaq ayaq anatomiyasına malik olduğunu göstərmişdir.[72]

Bütün bu dəlillər *Australopithecus*ların bir meymun növündən başqa şey olmadığını açıq şəkildə ortaya qoyur. Belə ki, “Lusi” fosilini kəşf edənlər təkamülçü paleontoloq Donald Cohanson və T.D.Uayt “Elm” (Science) jurnalına etdikləri açıqlamada bu mövzu ilə bağlı belə deyiblər:

*Australopithecus* fosilləri olduqca hərtərəfli tədqiq edildi: yeriş formaları, qulaqlarının quruluşu, dişlərinin inkişaf nümunələri, uzun və güclü qabaq ayaqlar, qısa arxa ayaqlar, ayaqlarının forması, kiçik beyinlər, meymuna çox bənzəyən kəllələri, çənələri və üzləri. Bunların hamısı *Australopithecus*ların meymun olduğunu və insan ilə heç bir əlaqələrinin olmadığını göstərir. Lusini kəfş edən Donald Cohansonun özü belə bir müddət sonra *Australopithecus Africanus* (Lusi)-nin insanlarla heç bir əlaqəsi olmadığı nəticəsinə gəlmişdir.[73]

Beləliklə, elmi cəhətdən aparılan fəaliyyətlər Australopithecusların insanın xəyali əcdadı olduğuna dair iddiaların hamısını təkzib etmişdir. Australopithecuslar bir meymun növüdür və insanın əcdadı yaraşdırması yalnız darvinistlərin fantaziya və saxta nəzəriyyələri üçün istifadə etməyə çalışdıqları ssenaridir.

## 11. "Neandertallar insanın meymunabənzər əcdadıdır" iddiası saxtakarlıqdır

Darvinistlər Australopithecuslar üçün istifadə etdikləri eyni metodu insan soyu olan Neandertallar üçün də istifadə etmişdilər.

Neandertal adamı 1856-cı ildə Almaniyanın Düsseldorf şəhəri yaxınlığındakı Neander dərəsində tapılan fosillərlə elmi ədəbiyyata daxil oldu. Kəllə və bədənindəki sümüklərdə yerləşən qıvrımlar fosillərin təkamülçülər tərəfindən “ibtidai insan növü” kimi dəyərləndirilməsinə səbəb oldu.

1908-ci ildə Fransanın La Şapel-o-San (La Chapelle-aux-Saints) ərazisində Neandertal adamına aid olduğu bildirilən, demək olar ki, tam, əksizsiz skelet tapıldı. Sümüklər dövrün məşhur paleontoloq və geoloqu Marselin Bul tərəfindən birləşdirildi.

Bu birləşdirmə nəticəsində ortaya çıxan Neandertal adamı əyri duruşa, irəliyə doğru qabarıq kəlləyə malik idi. Bundan əlavə ayaqları da oynaq hissədə bitişik idi, tam düz duruşa imkan vermirdi.

Bu görünüş sayəsində Neandertal adamı insanların zehnlərində ibtidai canlı kimi qaldı. Neandertal saxta rəsmlərdə də ibtidai meymun adamlar kimi göstərildilər.

Neandertal haqqındakı bu səhv fikir 100 ilə qədər davam etdi. Lakin 1950-ci ildə la Şapel skeleti üzərində aparılan təhlillər skeletin sahibi olan Neandertal adamında bir növ oynaq infeksiyasının olduğunu müəyyən etdi. Əslində sağlam fərdlər normal insan kimi yeriyə bilirdi.

1985-ci ildə eyni skelet Erik Trinkhaus adlı antropoloq tərəfindən təhlil edildi. Bu təhlil Neandertalların dik yeridiyini təsdiqləməklə bərabər o vaxta qədər gizli qalmış bir həqiqəti də üzə çıxardı: Marselin Bul Neandertalı qəsdən əyri göstərmişdi.[74] 1950-ci ildə müəyyən edilən oynaq xəstəliyi canlının dik yeriməsinə mane olmurdu. Beləliklə, darvinist Bul Neandertalın əsl insan kimi dik yeriməsini qəbul etmək istəməmişdi.

E.Trinkhaus və V.V. Houels “Scientific American” jurnalına verdikləri müsahibədə bu barədə belə deyirlər:

Bu gün bir çox elm adamı Neandertal insanının tamamilə dik şəkildə ayaq üstə durması və xəstəlik olmadığı şərtlərdə xüsusiyyətlərinin dövrümüzdəki insandan heç bir fərqi olmadığı haqqında həmfikirdirlər.[75]

Digər tərəfdən Neandertalların kəllə həcminin böyüklüyü də təkamülçüləri bu məsələdə ziddiyyətli vəziyyətə saldı. Bunun səbəbi isə Neandertalların kəllə həcminin 1700 $sm^3$ yaxın olması idi. Bu rəqəm dövrümüzdəki insanınkından 200 $sm^3$ daha böyükdür. *Homo Sapiens*dən böyük kəlləyə malik olan Neandertalların təkamül cəhətdən “ibtidai” növ olması nəzəriyyə üçün böyük təzaddır.

Neandertal mütəxəssisi Erik Trinkhaus bu növ ilə bağlı həqiqəti belə etiraf etmişdir:

Neandertalların anatomiyasında və ya hərəkət, alətdən istifadə, zəka səviyyəsi və danışma qabiliyyəti kimi xüsusiyyətlərində müasir insandan aşağı hesab ediləcək heç bir şey yoxdur.[76]

Şübhəsiz, Neandertallar bir insan irqi olduqları üçün dövrümüzün irqləri ilə eyni xüsusiyyətlərə malikdirlər. Neandertal insanı bacarıqlı alət hazırlayan və mahir ovçu idi. Hətta musiqi və incəsənətlə də məşğul olurdu. Eynilə dövrümüzdəki cəmiyyətdəki kimi mədəni və sosial səviyyəsi vardı, dini inancları vardı.[77] Beləliklə, Neandertalların qurduqları sivilizasiya dövrümüzdəki sivilizasiyalardan çox da fərqli deyildi.

Neandertallarla bağlı darvinistləri çıxılmaz vəziyyətdə qoyan digər məsələ isə zamanlama problemidir. Tapılan fosillər Neandertallarla dövrümüzdəki insanın eyni zamanda yaşadığını, hətta fərqli şəraitlərdə **daha sonra da yaşadığını** göstərir. Kaliforniya Universitetindən təkamülçü bioloq Fransisko C. Ayala bu vəziyyəti belə etiraf edir:

Neandertalların anatomik cəhətdən müasir insanların əcdadı olduğu hesab edilirdi, amma indi müasir insanların ən azı 100.000 il əvvəl yaşadığını bilirik, Neandertal fosillərinin aradan çıxmasından daha əvvəl. Orta Şərqdəki mağaralarda anatomik cəhətdən müasir insanların fosillərinin həm Neandertalları təqib etməsi, həm də onlardan əvvəl gəlməsi təəccüblüdür. Bu mağaralardakı bəzi müasir insanlar 120.000-100.000 il əvvələ aiddirlər, Neandertallar isə 60.000-70.000 illikdirlər; müasir insanlardan 40.000 il sonra gəlirlər. İki formanın başqa ərazilərdən köçərək yenidən bir-birlərinin yerinə keçdikləri yoxsa birlikdə olduqları və ya hibridləşmənin (məlləzləmənin) olduğu məlum deyil.[78]

Beləliklə, insanın “meymunabənzər əcdadı” kimi göstərilməyə çalışılan Neandertallar nəsli kəsilmiş insan irqidir. Dövrümüzdəki insanların öz irqlərinə xas olan fərqli xüsusiyyətlər daşıması kimi bu növ də ancaq frqli irq xüsusiyyətlərinə malikdir. Bu xüsusiyyətlərin təkamülə dəlil kimi istifadə edilməsi böyük saxtakarlıqdır. Belə ki, Neandertal adamı fosili 1978-ci ildə elmi ədəbiyyatdan çıxarılmışdır. Ancaq Neandertallar hələ də təkamülün böyü dəlili kimi darvinist mənbələrdə verilir.

Dövrümüzdə Neandertal adamı ilə bağlı fərziyyələrin hələ də bəzi təkamülçü KİV-lərində davam etdirilməsindəki məqsəd Neandertallarıla bağlı həqiqətləri bilməyən, bu saxta ara-keçid formanın elmi baxımdan ləvğ olunduğundan xəbəri olmayan insanlara təsir etmək, onları aldatmaqdır. Elə bu səbəbdən *Australopithecus*lar və Neandertallarla bağlı həqiqətlərin hər fürsət düşdükdə gündəmə gətirilməsi və darvinist yalana son verilməsi böyük əhəmiyyət daşıyır.

## 12. Piltdaun adamı saxtakarlıqdır

Məşhur həkim və eyni zamanda həvəskar paleontoloq olan Çarlz Dovson 1912-ci ildə İngiltərədə Piltdaun yaxınlığındakı bir çökəklikdə bir çənə sümüyü və kəllə parçası tapdığı iddiası ilə üzə çıxdı. Çənə sümüyü meymun çənəsinə bənzəməsinə baxmayaraq dişlər və kəllə insanınkına bənzəyirdi. Əldə edilən fosillərə "Piltdaun adamı" adı verildi, 500 min illik tarix təyin edildi və fosil insanın xəyali təkamülünə ən mühüm dəlil kimi İngiltərədəki Britaniya Muzeyində (British Museum) nümayiş etdirilməyə başladı. 40 ildən çox müddət ərzində haqqında bir çox elmi məqalə yazıldı, şərhlər edildi və rəsmlər çəkildi. Dünyanın müxtəlif universitetlərindən 500-dən çox akademik Piltdaun adamı haqqında doktorluq işi müdafiə etdi.[79]

Məşhur amerikalı paleontoloq H.F. Osborn da 1935-ci ildə Britaniya Muzeyinə səfərində "Təbiət sürprizlərlə doludur, bu, bəşəriyyətin tarixdən əvvəlki dövrləri haqqında mühüm tapıntıdır" deyirdi.[80]

Lakin Piltdaun adamı **böyük saxtakarlıq**, şüurlu şəkildə qurulmuş **böyük hiylə** idi.

1949-cu ildə isə Britaniya Muzeyinin paleontologiya bölməsindən Kennet Oukli yeni yaş müəyyən etmə üsulu olan "ftor testi" metodunu bəzi qədim fosillər üzərində sınamaq istədi. Bu üsulla Piltdaun adamı fosili üzərində də sınaq keçirildi. Keçirilən testdə Piltdaun adamının çənə sümüyünün tərkibində heç ftor olmadığı məlum oldu. Bu, çənə sümüyünün torpağın altında bir neçə ildən çox qalmadığını göstərirdi. Tərkibində az miqdarda flor olan kəllə isə sadəcə bir neçə min illik olardı.

Ftor metoduna əsaslanaraq aparılan sonrakı xronoloji tədqiqatlar kəllə sümüyünün ancaq bir neçə min illik olduğunu üzə çıxardı. Çənə sümüyündəki dişlərin isə **süni şəkildə aşındırıldığı**, fosillərin yanındakı ibtidai alətlərin də polad alətlərlə yonularaq düzəldilmiş **kobud təqlid** olduğu məlum oldu.[81]

Veynerin həyata keçirdiyi ətraflı təhlillərlə bu saxtakarlıq 1953-cü ildə qəti şəkildə elan edildi. Kəllə sümüyü 500 il yaşa maşik insana, çənə sümüyü də yeni ölmüş oranqutana aid idi! Dişlər insana aid olması təsəvvürünü vermək üçün sonradan xüsusi şəkildə əlavə edilmiş və düzülmüş, oynaq yerləri də yiyələnmişdi. Köpək dişi də iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi elə dərin yiyələnmişdi ki, pulpanın dəliyi üzə çıxmış, sonra içi doldurulmuşdu.[82]

Bu heyrətli həqiqəti elmi yazıçı Hank Hanegraaff belə söyləmişdi:

Marvin Lubenovun açıqlamalarına əsasən "Alt çənədəki oranqutan dişlərinin üzərindəki yiyə ziləri açıq-aydın görünürdü. Azı dişləri səhv düzülmüş və iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi də iki fərqli tərəfdən yiyələnmişdi. Köpək dişi elə dərin yiyələnmişdi ki, pulpanın kavitesi üzə çıxmış, sonra içi doldurulmuşdu."[83]

Təkamülçü bioloq Keyt Stuard Tompson Piltdaun adamı ilə bağlı bu böyük yalanı "1912-ci ildəki Piltdaun adamı saxtakarlığı bütün elmi saxtakarlıqların ən uğurlu və xainlərindən biridir."[84] kimi şərh edirdi.

Bu təəccüblü və darvinistlər üçün utandırıcı kəşfin ardınca Piltdaun adamı 40 ildən çox müddət ərzində nümayiş etdirildiyi Britaniya Muzeyindən dərhal çıxarıldı. Darvinist saxtakarlıq o qədər irəli getmişdi ki, bir süni fosil 40 il ərzində bütün elmi kütlələri və bəşəriyyəti aldatmışdı.

Şübhəsiz, bu, təkamül tarixinin ən böyük qara ləkərləindən biri kimi yerini tutacaqdı. Təkamülçü antroplogiya professoru Pat Şipman bu böyük yalanın təsirini belə tərif edirdi:

Kəşfi 1912-ci ildə açıqlanan Piltdaun fosilləri bu qalıqların hiylə ilə yerləşdirilmiş, dəyişdirilmiş saxtakarlıq olduğunun başa düşülməsinə, yəni 1953-cü ilə qədər paleoantroplogiyanın ən böyük beyinlərinin çoxunu aldatdı.[85]

Jurnalist, yazıçı və filosof Malkolm Maqeric isə Piltdaun adamı fosili kimi saxtakarlıqlarla yaşadılmağa çalışılan Darvinizmin bütün bəşəriyyəti saldığı vəziyyəti bu sözlərlə tərif edirdi:

Təkamül nəzəriyyəsinin, xüsusilə də onun tətbiq edildiyi sahələrin gələcəkdə tarix kitablarındakı ən böyük məzhəkə mövzularından biri olacağına inandım. Gələcək nəsillər olduqca zəif və şübhəli hipotezin inanılmaz sadəlövhlüklə qəbul edilməsini təəccüblə qarşılayacaqlar...[86]

Piltdaun saxtakarlığı öz ağıllarına görə yaradılış inancını zehnlərdən silmək, insanın təsadüfən, özbaşına, nəzarətsiz şəkildə meydana gəlməsi yalanına insanları inandırmaq üçün həyata keçirilmiş dəccali sistem olan masonluğun oyunudur. Lakin Allahın möhtəşəm yaratması və bənzərsiz əsərləri o qədər açıq və aydındır ki, dövrümüzdəki elmi səviyyə ilə bunları görməmək mümkün deyil. Dəccalın dünya səviyyəsindəki bu səmərəsiz səyləri onu və tərəfdarlarını alçaldır, Darvinizm yalanının böyük uğursuzluq olduğunu açıq şəkildə göstərir. Uca Rəbbimiz olan Allah insanı necə yaratdığını ayətlərilə xəbər vermişdir və kainatdakı bütün dəlillər bu üstün yaradılışı açıq göstərir:

**O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən – bir qətrə zəif sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü. O sizə göz, qulaq və ürək verdi. Siz az şükür edirsiniz! (Səcdə surəsi, 7-9)**

## 13. Nebraska adamı saxtakarlıqdır

1922-ci ildə Amerika Təbiət Tarixi Muzeyininmüdiri Henri Feərfild Ozborn Qərbi Nebraskadakı İlan dərəsi yaxınlığındakı Plieosen dövrünə aid azı dişi fosili tapdığını açıqladı. Bu diş iddiaya əsasən insan və meymunların ortaq xüsusiyyətlərini daşıyırdı. Çox keçmədən bu məsələ ilə bağl çox dərin elmi müzakirələr başladı. Bəziləri bu dişin sahibini *Pithecanthropus erectus* olduğunu söyləyir, bəziləri isə bunun insana daha yaxın olduğunu deyirdilər. Böyük müzakirələrə səbəb olan bu diş fosilinə "Nebraska adamı" adı verildi. "Elmi" adı da dərhal qoyuldu: *Hesperopithecus haroldcooki*.

Bu tək dişə əsaslanaraq Nebraska adamının kəlləsi və bədəni bərpa edildi. Hətta daha da irəli gedərək Nebraska adamının ailəsnin təbii mühitdə rəsmləri dərc edildi. Bütün bu ssenarilər bircə dişdən uydurulmuşdu. Təkamülçü kütlələr bu "fantastik adamı" o qədər mənimsəmişdilər ki, Uuilyam Brayən adlı bir tədqiqatçı bircə azı dişinə əsaslanaraq bu qədər erkən hökmlə qərar verilməsinə qarşı çıxdıqda qəzəblə qarşılandı.

Ancaq 1927-ci ildə skeletin digər hissələri də tapıldı. Tapılan yeni hissələrə görə bu diş nə meymuna, nə də insana aid idi. Dişin Prosthennops adlandırılan amerikan qabanının nəsli kəsilmiş cinsinə aid olduğu məlum oldu. Uilyam Qreqori bu səhvi xəbər verdiyi "Elm" (Science) jurnalındakı məqaləsinə belə başlıq qoymuşdu: "Göründüyü kimi *Hesperopithecus* nə meymun, nə də insandır."[87]

Elmi yazıçı Hank Hanegraaff bu məsələ ilə bağlı hadisələri nəql edir:

1922-ci ildə Nebraskada bir diş kəşf edildi. Bir az fantaziya gücü ilə bu diş mifoloji çənə sümüyünə, çənə sümüyü kəlləyə, kəllə də skeletə yerləşdirildi və skeletə bir üz, digər xüsusiyyətlər və tüklər əlavə edildi. Bu hekayə London qəzetlərində əks etdirildikdə təkcə "Nebraska adamı"nın deyil, eyni zamanda "Nebraska qadını"nın da rəsmi vardı. Bunların hamısı yalnız bircə dişdən ortaya çıxmışdı. Bir də skelet tapsalar, nələr olacağını siz düşünün. Bəlkə də bir il KİV-də yayımlayardılar.

Bu kəşfdən bir müddət sonra bunabənzər bir diş geoloq Harold Kuk tərəfindən tapıldı. Bu dəfə diş həqiqi kəlləyə yerləşdirildi və kəllə də qaban skeletinə yerləşdirildi. Beləliklə, “elmi” baxımdan Hesperopithecus haroldcooki adlandırılan Nebraska adamının mif kimi maskası düşdü.[88]

Bu hadisə nəticəsində Hesperopithecus haroldcooki və “ailəsi”nin bütün rəsmləri dərhal elmi ədəbiyyatdan çıxarıldı. Nebraska adamı əslində darvinistlərin bircə dişi bəhanə edərək necə fantastk təkamül ssenarisi uydura bildiklərinin mühüm göstəricisidir. Diş fosili canlının ümumi anatomiyasına dair, demək olar ki, heç bir məlumat verməməsinə baxmayaraq qaban dişinə əsaslanaraq Nebraska adamının və ailəsinin rəsmlərinin çəkilməsi və bu saxtakarlığın ifşa ediləna qədər elmi göstərilməyə çalışılması böyük məntiq məğlubiyyəti Darvinizm adına böyük biabırçılıqdır. Lakin bu nümunə darvinist saxtakarlıqların qarşısını almamış, darvinist yalanlar şüurlu şəkildə davam etmişdir.

## 14. Sənaye kəpənəkləri iddiası saxtakarlıqdır

XIX əsrin ortalarında İngiltərədə sənaye inqilabının başladığı vaxtlarda sənaye bölgələrindəki ağacların qabıqları açıq rənglidir. Bu səbəbdən bu ağacların üstünə qonan *Biston Betularia* növündən olan kəpənəklərin tünd rəngli növləri (melanik kəpənəklər) burada qidalanan quşlar tərəfindən tez görülür və yeyilirdilər. Lakin əlli il sonra sənaye çirklənməsi nəticəsində ağacların gövdələrinə sarmaşan yosun növündən olan şibyələr məhv olur və ağacların gövdələri qaralır. Bu dəfə açıq rəngli kəpənəklər ağac gövdələrində daha aydın göründüyünə görə quşlar tərəfindən yeyilirlər. Nəticədə açıq rəngli kəpənəklər sayca azalır, tünd rəngli  melanik kəpənəklər yem olmadıqları üçün çoxalırlar.

Təkamülçülər bu vəziyyəti təbii seçmə ilə təkamül iddialarına mühüm dəlil kimi göstərdilər. Ardınca da hər zamankı saxtakarlıq üsulundan istifadə edərək açıq rəngli kəpənəklərin zaman ərzində təkamül keçirərək tünd rəngli kəpənəklər çevrilməsi kimi yalan uydurdular. Bu iddia “iş başındakı təkamül” (evolution in action) adı altında bütün dünyaya tanıdıldı. Lakin həqiqətlər daha fərqli idi, bu kəpənəklər heç cür təkamül xarakterli dəyişikliyə uğramadıqları üçün oratada böyük darvinist saxtakarlıq var idi.

Darvinist tibb doktoru və həvəskar bioloq olan H.B.D. Ketluel 1953-cü ildə ardıcıl təcrübələr keçirərək bu hadisəni müşahidə etməyə qərar verdi. İngiltərənin çöllərində bu kəpənəklərin yaşadıqları ərazilərdə müşahidə və təcrübələr apardı. Ketluel təcrübələri nəticəsində açıq rəngli şibyələrin olduğu ağacların üstündəki tünd rəngli kəpənəklərin daha çox ovlandığını müəyyən etdi və bunu darvinizm adına sanki böyük kəşf kimi “Scientific American” jurnalında “Darvinin itmiş dəlili” (Darwin’s Missing Evidence) başlığı altında xəbər verdi. 1960-cı ildə Ketluelin hekayəsi artıq bütün dərsliklərdə yer tutmuşdu.

İddianın irəli sürülməsindən təqribən bir il sonra 1985-ci ildə isə bu mövzu ilə bağlı qəribəliklər məlum oldu. Kreq Holdric adlı gənc amerikalı bir biologiya müəllimi apardığı tədqiqat nəticəsində Keltuelin yaxın dostu olan və onun təcrübələrində iştirak edən Ser Siril Klarkın qeydlərində maraqlı ifadəyə rast gəldi. Klark belə deyirdi:

Müşhidə etdiyimiz tək şey kəpənəklərin günü harada keçirmədikləri oldu. 25 il ərzində ağac gövdələrində və ya bizim qurduğumuz tələlərin yanındakı divarlarda sadəcə iki dənə Betularia tapa bildik.[89]

Holdric uzun zaman şagirdlərinə ağac gövdələrinə qonmuş kəpənəklərin fotoşəkillərini göstərir və quşların daha çox görünənləri seçib yediklərini danışırdı. Amma indi bu kəpənəyi 25 il ərzində araşdırmış birisi bunları ağac gövdələrinə qonmuş halda sadəcə 2 dəfə gördüyünü deyirdi.

Çox keçmədən bu hekayə qızğın elmi müzakirəyə çevrildi. Nəticədə aparılan elmi tədqiqatlar bu nəticəni üzə çıxardı:

Ketluelin təcrübələrindən daha sonra aparılan bir çox tədqiqat sözügedən kəpənəklərin sadəcə bir növünün ağac gövdəsinə qonduğunu, digər bütün növlərin üfüqi budaqların alt hissələrinə qonduğunu üzə çıxardı. 1980-ci ildən etibarən kəpənəklərin ağac gövdələrinə çox nadir hallarda qonduğu hər kəsə məlum oldu. Bu barədə 25 illik fəaliyyət göstərən Siril Klark və Rouri Haulet, Maykl Meyceres, Toni Libert, Pol Breykfild kimi bir çox elm adamı “Ketluelin təcrübəsində kəpənəklərin təbii davranışlarından kənar davranmağa məcbur olduqlarını, təcrübə nəticələrinin buna görə elmi cəhətdən qəbul edilə bilməyəcəyini” bildirdilər.

Ketlueliin təcrübəsini nəzərdən keçirən tədqiqatçılar daha təəccüblü nəticə ilə qarşılaşdılar: İngiltərənin çirklənməmiş bölgələrində açıq rəngli kəpənəklərin daha çox olması gözlənirdi, ancaq tündlərin faizi açıq rənglilərdən dörd dəfə çox idi. **Yəni Ketluelin iddia etdiyi və dərhal hər təkamülçü mənbədə təkrarlandığı kimi kəpənəyin sayındakı nisbətlə ağac qabıqları arasında bir əlaqə yox idi.**

Amerikalı lepidopterist (kəpənəklər üzərində elmi tədqiqat aparan şəxs) Ted Sarcent və digər tədqiqatçılar sözügedən güvələrin ağac qabıqları üzərinə qonmadıqları, ağacların hündür budaqlarının altında gizləndikləri həqiqətinə diqqət çəkdi. Ancaq təkcə bu deyildi, eyni zamanda bu güvələr gündürlər yatır, gecələr uçurdular. Yəni quşlar yatarkən! İşin əsli araşdırıldıqda qalmaqal böyüdü: Ketluelin fotoşəkillərini çəkdiyi “ağac qabığının üstündəki güvə kəpənəkləri” əslində **ölü kəpənəklər** idi. Çünki kəpənəklər ağacın gövdəsinə deyil, budaqların alt hissəsinə qonduqları üçün belə bir şəkil əldə etmək imkanı heç yox idi. Ona görə Ketluel bu ölü canlıları iynə və yapışqanla ağaca bərkitmiş və o şəkildə fotoşəkillərini çəkmişdi.[91]

Darvinistlərin təqribən bir əsr boyu qürurla elmi dəlil kimi göstərdikləri kəpənəklərin saxtakarlıq olduğunun öyrənilməsi nəticəsində “Nyu York Taymz” belə şərh verirdi:

İş başındakı təkamülün ən məşhur nümunəsi indi artıq ən böyük biabırçılığa çevrilmiş olmalıdır.[92]

Çikaqo Universiteti təkamül bioloqu Ceri Koyn bu böyük saxtakarlığı 1998-ci ildə öyrəndikdə illər boyu tələbələrinə öyrətdiyi sənaye kəpənəkləri hekayəsinin bir yalan olmasına görə “utandığını” yazmış və bunları demişdi: “Bu eynilə 6 yaşımda ikən Yeni İl ərəfəsində hədiyyələri şaxta babanın deyil, atamın gətirdiyini öyrəndiyim zaman hiss etdiyim ümidsizlik kimi idi.”[93]

Bütün bu həqiqətlərin üzə çıxması ilə birlikdə “Darvinin itmiş dəlili” kimi göstərilən sənaye inqilabı kəpənəkləri hekayəsinin böyük yalandan ibarət olduğu başa düşülmüşdür. On illərlə dünyanın hər tərəfində yüz milyonlarla insan ağac qabıqlarına iynələnmiş bir neçə ölü kəpənəyin fotoşəkli və davamlı olaraq təkrarlanan köhnəlmiş hekayə ilə səhv məlumatlandırılmışdır. Əsl həqiqət isə budur: Darvinin ehtiyacı olan dəlillər yoxdur və bunların bir gün tapılması da qeyri-mümkündür. Çünki **canlılar təkamül keçirməyiblər**.

Maraqlısı budur ki, sənaye inqilabı kəpənəkləri hələ də bəzi dərs kitablarında təkamülə dəlil kimi təqdim edilməkdə davam edir. Darvinistlər bu yolla bunun saxtakarlıq olduğunu bilməyən gəncləri aldatmağı qarşılarına məqsəd qoyublar. Lakin açıq şəkildə üzə çıxmasına baxmayaraq saxtakarlığı hələ də dəlil kimi göstərməyə çalışmaq Darvinizmin çarəsizliyinin, dəlildən kasad olmasının və ideoloji saxtakarlqlıqdan ibarət olmasının sübutudur. Yaradılış gerçəyi açıqdır. Bu açıq həqiqətdən qaçan darvinistlər yalanın və hiyləgərliyin həll yolu olacağını düşünürlər. Lakin Allah hiyləni, batil və saxta dini mütləq aradan qaldıracaqdır.

**De: “Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur!”(İsra surəsi, 81)**

## 15. Hekkelin rüşeym rəsmləri saxtakarlıqdır

Ernst Hekkel 1868-ci ildə yazdığı “Təbii yaradılış tarixi” (*Natürliche Schöpfungsgeschichte*) adlı kitabında insan, meymun və it rüşeymlərindən istifadə edərək bəzi müqayisələr apardığını irəli sürdü. Çəkdiyi rəsmlər bir-birləri ilə demək olar ki tamamilə eyni canlı rüşeymlərindən ibarət idi. Hekkel bu rəsmlərə əsaslanaraq sözügedən canlıların ortaq mənşədən gəldiklərini müdafiə etdi.

Amma əslində məsələ başqa cür idi. Hekkel bircə rüşeym rəsmi çəkmiş, sonra da ona qəsdən kiçik dəyişikliklər edərək insan, meymun və it rüşeymi adı altında yan-yana qoymuşdu. Yəni açıq-aşkar saxtakarlıq etmişdi.

Elə Darvinin “İnsanın əmələ gəlməsi” kitabında mənbə kimi göstərdiyi “elmi fəaliyyət” (!) bu idi. Əslində Darvin bu kitabı yazmazdan əvvəl Hekkelin rəsmlərinin saxtakarlqı olduğunu başa düşənlər olmuşdu. Hətta Hekkelin özü belə saxtakarlığının üzə çıxmasının ardınca etdiyi bu böyük elmi yalanı etiraf etmişdi:

Bu etdiyim saxtakarlıq etirafından sonra özümü biabır olmuş və qınanmış görməliyəm. Lakin mənim təsəllim budur ki, günahkar vəziyyətdə yan-yana olduğumuz yüzlərlə həmkar, bir çox etibarlı müşahidəçi və məşhur bioloq vardır ki, onların da nəşr etdirdikləri ən yaxşı biologiya kitablarında, tezislərdə və jurnallarda mənim qədər etdikləri saxtakarlıqlar, qeyri-dəqiq məlumatlar, az-çox təhrif edilmiş, dəyişdirilib yenidən çəkilmiş formalar var.[94]

Ancaq darvinistlərə əsasən Darvinizm ehkamının yaşaması üçün əldəki tək-tük saxta dəlillərdən birinin bu və ya digər şəkildə insanlara “təkamülə dəlil” kimi göstərilməli idi. Öz ağıllarına görə edilən saxtakarlıq və ya onun digər darvinistlər tərəfindən başa düşülməsi mühüm deyildi; darvinistlərə görə mühüm olan saxta da olsa, insanlara təkamülün dəlilini təqdim etmək idi.

Elə bu səbəbdən saxtakarlığın başa düşülməsinə baxmayaraq Darvin və onu dəstəkləyən bioloqlar Hekkelin rəsmlərini istinad kimi qəbul etməkdə davam etdilər. Bu da Hekkeli cəsarətləndirdi. Hekkel sonrakı illərdə ardıcıl müqayisəli rüşeym şəkli də çəkdi. Balıq, salamandr, tısbağa, toyuq, dovşan və insan rüşeymlərini yan-yana göstərən sxemlər hazırladı.Bu sxemlərd diqqətçəkən cəhət bu fərqli canlıların rüşeymlərinin əvvəlcə bir-birlərinə çox bənzəmələri, inkişaf prosesi əsnasında yavaş-yavaş bir-birindən fərqlənmələri idi. Xüsusilə insan rüşeyminin balıq rüşeyminə olan bənzərliyi çox diqqətçəkən idi. Belə ki, insan rüşeyminin rəsmlərində eynilə balıqdakı kimi xəyali “qəlsəmələr” belə görünürdü. Hekkel bu rəsmlərin verdiyi “elmi görünüş” ilə “rekapitulyasiya nəzəriyyəsini” elan etdi: “Ontogenezis filogenezisi təkrar edir”. Bu şüarın mənası bu idi: Hekkelin fikrincə, hər canlı yumurtasında və ya ana bətnində keçirdiyi inkişaf əsnasında öz növünün “təkamül tarixini” əvvəldən yaşayırdı. Bu saxta nəzəriyyəyə əsasən insan rüşeymi ana bətnində əvvəlcə balığa bənzəyir, sonrakı həftələrdə salamandr, sürünən, məməli kimi mərhələlərdən keçdikdən sonra “təkamül keçirərək” insana çevrilirdi.

Əslində isə bu böyük saxtakarlıqdır.

1990-cı ildə ingilis embrioloq Maykl Riçardson onurğalı rüşeymlərini mikroskop altında tədqiq etdi və onların Hekkelin rəsmlərinə heç cür bənzəmədiyini müəyyən etdi. Riçardson və qrupu fəaliyyətlərinin ardınca 1997-ci il avqust ayında “Anatomiya və Embriologiya” (Anatomy and Embryology) jurnalında rüşeymlərin həqiqi fotoşəkillərini dərc etdirdi. Göründüyünə görə Hekkel rəsmlərdə müxtəlif qəliblərdən istifadə etmiş və embrionların bir-birlərinə bənzəməsi üçün onların üzərində müxtəlif dəyişikliklər etmişdi. Rüşeymlərə xəyali orqanlar əlavə etmiş,

bəzilərindən orqanları çıxarmış, ölçüləri çox fərqli olan rüşeymləri eyni boyda göstərmişdi. Hekkelin insan rüşeymində “qəlsəmə” kimi göstərdiyi yarıqların isə qəlsəmələrlə heç bir əlaqəsi yox idi: onlar əslində insanın orta qulaq kanalının, paratiroidlərin və çəngələbənzər vəzin başlanğıcları idi. Rüşeymlər əslində bir-birlərinə heç bənzəmirdilər. Hekkel çəkdiyi rəsmlərdə hər cür dəyişiklik etmişdi.

Uzun zaman saxta təkamül dəlili kimi gündəmdə saxlanmağa çalışılan Hekkelin rəsmləri 5 iyul 1997-ci il tarixli “Elm” (Science) jurnalında “Hekkelin rüşeymləri: saxtakarlıq yenidən kəşf edildi” başlığı altında dərc edildikdə bu saxtakarlıq artıq bütün elm dünyasında qəbul edilmişdi. Sözügedən məqalədə bu məlumatlar verilmişdi:

Riçardson və qrupunun bildirdiyinə görə Hekkel sadəcə orqanlar əlavə etmək və ya çıxarmaqla kifayətlənməmiş, eyni zamanda fərqli növləri bir-birinə oxşar göstərmək üçün ölçülərini də dəyişdirmiş, bəzən rüşeymləri həqiqi ölçülərindən on dəfə fərqli göstərmişdir. Habelə Hekkel fərqləri gizlətmək üçün növləri adlandırmaqdan çəkinmiş və bir növü sanki bütün heyvan qrupunun təmsilçisi imi göstərmişdir. Riçardson və qrupunun bildirdiyinə görə əslində bir-birlərinə çox bənzəyən balıq növlərinin rüşeymlərində belə görünüşləri və inkişaf prosesləri baxımından çox böyük fərqlər mövcuddur. Riçardson “(Hekkelin rəsmləri) biologiyadakı ən böyük saxtakarlıqlardan biridir” deyir.[95]

2000-ci il mart ayında Harvard Universitetindən təkamülçü paleontoloq Cey Qauld isə sözügedən saxtakarlıqdan çoxdan xəbəri olduğunu deyirdi. Amma dəccaliyyətin lazım bildiyi kimi səssiz qalmağı üstün tutmuşdu.[96] Rəsmlərin saxtakarlıq olduğunun ictimaiyyət tərəfindən öyrənilməsindən sonra Qauld bu rəsmlərdən hələ də istifadə edilməsinin akademik baxımdan cinayət olduğunu bildirir və belə deyirdi:

Məncə, müasir dərsliklərin əksəriyyətində olmasa da, böyük hissəsində bu rəsmlərin hələ də qoyulmasına icazə verən ağılsız geri qayıtma dövrünə görə həm təəccüblənməli, həm də utanmalıyıq.[97]

Hekkelin saxtakarlığı o qədər açıq  və o qədər böyük idi ki, Hekkel beş professor tərəfindən məsələ ilə bağlı saxtakarlıq etməsilə təqsirləndirildi və Jenadakı universitet məhkəməsi tərəfindən təqsirli elan edildi.[98]

İngiltərə Təbiət Tarixi muzeyindən Ser Qavin de Bier isə bu böyük elmi biabırçılığı bu sözlərlə ifadə edir:

Asan, nizamlı və inandırıcı, tənqidi tədqiqat aparılmadan geniş kütlələr tərəfindən qəbul edilmiş Hekkelin “rekapitulyasiya nəzəriyyəsi” kimi bir çox nadir iddia elmə bu qədər böyük zərər vermişdir.[99]

Hekkelin bu saxta rəsmləri əslində darvinistlərin adına məqsədinə çatmışdır. Bu rəsmlərin elmi saxtakarlıq olduğu açıqlanmasına baxmayaraq bəzi dairələr bu saxta rəsmləri həqiqi zənn edərək mənfi təsirlənmiş, elmi  əsassızlığına baxmayaraq təhsil müəssisələrində davam edən təhsil insanın canlılara ümumi baxışını mənfi istiqamətdə dəyişdirmişdir. Yaradılış Tədqiqat Cəmiyyəti (Creation Research Society) və Yaradılış Araşdırma İnstitutu (Institute of Creation Research) təşkilatlarının qurucusu Henri M. Morris bu vəziyyəti belə qiymətləndirmişdir:

Darvindən – və xüsusilə də Freyddən etibarən psixoloqlar insanın sadəcə təkamül keçirmiş bir heyvan olduğunu güman etmiş və davranış problemlərini heyvanı əsasdan dəyərləndirmişlər. İnsan problemləri ilə maraqlanarkən meymunlarla və digər heyvanlarla (hətta həşəratlarla) aparılan təcrübələr əsas götürülmüşdür.

Çox əvvəllər elmi cəhətdən əsassızlığı sübut edilməsinə baxmayaraq rekapitulyasiya nəzəriyyəsinin acı meyvələri cəmiyyətdə bir çox sahədə yetişməyə başladı...[100]

Elmi baxımdan biabırçılıq hesab edilən, bəzi təkamülçülər tərəfindən belə dəlil kimi təqdim edilməsi təəccüblə qarşılanan Hekkelin saxta rəsmləri heyrətli də olsa, hələ də müxtəlif dərsliklərdə yerini qoruyur. Bu təəccüblü hal Darvinizm yalanının hansı səviyyəyə çatdığını göstərir. Kaliforniya universitetindən molekulyar bioloq Conatan Uels bu vəziyyəti belə açıqlayır:

Bir çox dərslikdə Hekkelin rəsmlərinin çox az fərqlənən yeni versiyaları var. Piter Reyvn və Corc Consonun "Biologiya" kitabının 1999-cu il nəşri buna bir misaldır...

Digər nümunə Sisi Star və Ralf Taqartın 1998-ci ildə nəşr edilmiş "Həyatın vahidliyi və müxtəlifliyi" (The Unity and Diversity of Life) kitabıdır. ... Ceyms Qauld və Uilyam Kitonun "Biologiya elmi" (Biological Science) adlı kitabının son nəşri isə bu ifadəyə yer verir: "Darvini təkamül fikrinə salan embrioloji həqiqət bir çox onurğalının rüşeymlərinin erkən inkişaf dövründə bir-birlərinə yaxından bənzəməsidir." Börton Qatmanın 1999-cu il nəşrli "Biologiya" dərsliyi isə Hekkelin rüşeym rəsmlərinin yenidən çəkilmiş versiyasını bu başlıq altında verir: "Bir heyvanın embrioloji inkişafı onun əcdadlarının formaları ilə bağlı ipucu verir."[101]

Hekkelin saxta rəsmlərinin hələ də biologiya dərsliklərində sanki təkamülə dəlil kimi göstərilməsi, şübhəsiz, adi səhv deyil. Saxta olmalarına baxmayaraq bu rəsmlər dərsliklərdə qəsdən verilir. Bunun, şübhəsiz, ən mühüm səbəbi sözügedən saxta rəsmlərin Darvinizmin əsas cəhətinə, yəni insanın məsuliyyətsiz heyvan olması yalanına mühüm saxta dəlil təşkil etməsidir. Conatan Uels darvinist elm adamlarının qəsdən müdafiə etdikləri bu yalanla bağlı belə demişdir:

Hekkelin rüşeymləri Darvin teoremi üçün o qədər güclü "dəlil" idi ki, o rüşeymlərin bir versiyası, demək olar ki, təkamüllə bağlı hər dərslikdə var. Buna baxmayaraq bioloqlar Hekkelin rəsmlərini uydurduğunu bir əsrdən çox müddət boyu bilirlər, onurğalıların rüşeymləri əsla onun göstərdiyi kimi oxşar deyillər. Habelə Hekkelin "ilk" adlandırdığı mərhələ əslində inkişafın orta mərhələsidir, onun qabarıq göstərdiyi bənzərliklərdən daha əvvəlki inkişaf mərhələlərində aydın fərqlər görünür. Bunu biologiya dərsliklərini oxuyaraq öyrənə bilməzsiniz: Darvinin "ən güclü birinci sinif dəlili" dəlilin bir nəzəriyyəyə uyğunlaşması üçün necə təhrif edilməsinin klassik nümunəsidir.[102]

Dəccalın planlaşdırdığı yalanın saxta nəzəriyyəyə saxta dəlil kimi təqdim edilməsi və təsirsiz olması darvinistlərə qısamüddətli sevinc gətirsə də, əslində bu darvinistlər üçün ümidsizliyin müjdəçisidir. Hekkelin rəsmlərilə insanlar qocaman elm adamının Darvinizm uğrunda necə böyük saxtakarlıqlar edə biləcəyini gördülər. Bu nümunə ilə Darvinizmin davamlı olaraq "yalana" ehtiyacı olması bir daha sübut edilmişdir. Təkamülçü elm adamlarının saxtakarlığa necə göz yumduqları açıq şəkildə göründü. Hekkelin saxtakarlığı yaradılış qarşısında təkamül nəzəriyyəsinin dəccaliyyət sisteminin məhv olduğunun digər mühüm dəlilidir. XX əsrdə bu saxtakarlığın ifşası səssizliklə qarşılana bilər. Ancaq XXI əsr bu və bunun kimi saxtakarlıqların açıq şəkildə üzə çıxarıldığı və həqiqi elmi dəlillərin nümayiş etdirildiyi əsrdir. Saxtakarlıqlar üzə çıxarıldıqca və həqiqi elmi dəlillər gəldikcə Darvinizmin süqutu da, şübhəsiz, daha aydın görünür.

## 16. Atın təkamülü saxtakarlıqdır

1879-cu ildə dövrün məşhur təkamülçüləri arasında iki şəxs atın xəyali təkamülü ssenarisinə dəlil kimi göstərilməyə çalışan canlılarla bağlı fəaliyyətləri daha da irəli apararaq darvinistlərin uzun illər gündəmdə saxlayacaqları at sırasını əmələ gətirdilər. Amerikalı fosil tədqiqatçısı Otniel Çarlz Marş ilə Tomas Haksli (Darvinin buldoqu kimi də tanınır) bəzi dırnaqlı fosilləri arxa və ön ayaqlarındakı dırnaq saylarına və diş quruluşlarına görə düzərək sxem qurdular. Daha əvvəl Ser Riçard Ouen tərəfindən 1841-ci ildə *Hyrocotherium* adlandırdığı kiçik məməli fosili "təkamülü" xatırladacaq şəkildə yenidən adlandırılmış və "şəfəq atı" mənasını verən *Eohippus* adını almışdı.

İddialarını sxemlərilə birlikdə "Amerika Elm Jurnalı" (American Journal of Science) adlı jurnalda dərc edilən cütlük bir əsr boyu muzey və dərsliklərdə *Eohippus*dan dövrümüzün atlarına doğru sıralanan "təkamülə" dəlil kimi göstəriləcək sıranın əsasını qoymuşdular. Bu xəyali sıranın mərhələləri kimi göstərilən mühüm kateqoriyalar *Eohippus, Orohippus, Miohippus, Hipparion* və nəhayət dövrümüzdəki at *Equus* idi.

Bu xəyali seri sonrakı əsr boyu atın "təkamülünə" ən böyük dəlil kimi göstərildi. Dırnaq sayındakı azalma, ölçüdə isə kiçikdən böyüyə doğru gedən nizamlı artma təkamülçüləri inandırmağa kifayət idi.

Qısa müddət ərzində at sırası öz daxilində ziddiyətlər çıxardı. Aparılan qazıntı işlərində rast gəlinən və saxta at sırasına daxil edilməyə çalışılan yeni fosillər problem yaratdı. Çünki fosillərin yeri, yaşı, dırnaq sayı kimi xüsusiyyətlər bir-birlərinə ziddiyyət təşkil edərək sıranı pozmağa başlayırdı. At sırası bu yeni tapıntılar qarşısında əsassız və mənasız fosil yığınına çevrildi.

Zaman ərzində bir çox darvinist atın təkamülü ssenarisinin həqiqi dəlillərə əsaslanmadığını qəbul etmək məcburiyyətində qaldı. 1980-ci ilin noyabr ayında Çikaqo Təbiət Tarixi Muzeyində 150 təkamülçünün iştirak etdiyi dörd gün davam edən və mərhələli təkamül nəzəriyyəsinin problemlərinin müzakirə edildiyi bir iclas keçirildi. İclasda söz alan təkamülçü Boys Rensberger atın təkamülü ssenarisinin fosil qeydlərndə heç bir əsası olmadığını və atın mərhələli təkamülü kimi bir prosesin heç baş vermədiyini belə izah etmişdi:

Təqribən 50 milyon il əvvəl yaşamış dörd dırnaqlı, tülkü böyüklüyündəki canlılardan dövrümüzdəki daha böyük tək dırnaqlı ata doğru ardıcıl mərhələli dəyişiklik olduğunu irəli sürən məşhur atın təkamülü nümunəsinin əsassız olduğu uzun zamandan bəri məlumdur. Mərhələli dəyişiklik əvəzinə hər növün fosilləri tamamilə fərqli şəkildə ortaya çıxmış, dəyişilmədən qalmış, daha sonra nəsli kəsilmişdir. Ara-keçid formalar yoxdur.[103]

Atın xəyali təkamülü və sözügedən saxta atın təkamülü sxemindəki digər əsassızlıq da zamanlama problemidir. Doktor Nikolas Komninellis bu məsələni belə açıqlayır:

Atın təkamülü iddiasındakı digər maneə də zamanlama uyğunsuzluğudur. Təkamül nəzəriyyəsi bir növün o cür həyata daha yaxşı uyğunlaşdığı üçün təkamüllə başqa növə çevrilməsinə meylli olması anlayışına əsaslanır. Bu əvvəlki növün yox olmasına gətirib çıxarır. Atlarla bağlı hadisədə 3 dırnaqlı növ tək dırnaqlı növ qədər sağlam olmamalı idi. Təkamül növlər arasındakı keçidin baş verməsi üçün milyonlarla il tələb edir ki, əvvəlki növün yox olması üçün çox vaxt vardır.

Lakin bu gün bilirik ki, həm tək dırnaqlı, həm də üç dırnaqlı növlər Şimali Amerikada eyni zamanda yaşamışlar. At növülərinin eyni anda mövcud olması təkamül nəzəriyyəsinin açıqlamasına tamamilə ziddir. Bundan əlavə *Hyracotherium*, *Miohippus* və *Equus* arasındakı itmiş halqalar da tapılmamışdır. Təkamülə dəstək olması bir tərəfə qalsın, atın tarixi daha çox xüsusi yaradılışa uyğun gəlir - dövrümüzdəki tam canlılar eyni anda yaradılmışlar.[104]

Atın təkamülü ssenarisinin əsassızlığının açıq şəkildə üzə çıxmasına və bu vəziyyətin darvinistlər tərəfindən də qəbul edilməsinə baxmayaraq bu xəyali sıra digər darvinist saxtakarlıqlar kimi hələ də bəzi darvinist KİV və dərsliklərdə verilir. Bu sıra sanki həqiqi imiş kimi təqdim edilir, hətta dünyada məşhur olan paleontoloqların və elm adamlarının rəhbərliyi altında olan təbiət tarixi muzeylərində açıq şəkildə nümayiş etdirilir. Dünyanın ən məşhur muzeylərindən biri olan Amerika Təbiət Tarixi Muzeyinin müdiri təkamülçü paleontoloq Dr. Naylz Eldric şəxsən öz muzeyində nümayiş etdirilən at sıraları ilə bağlı təkamülçü iddiaların sadəcə fantaziyadan ibarət olduğunu təqribən 20 il əvvəl qəbul etmişdi. Eldric bu abstrakt sıranın dərsliklərdə verilərək elmi həqiqət kimi göstərilməsini də tənqid etmişdir:

Etiraf edirəm ki, dərsliklərə bir çox artıq şey sanki həqiqət imiş kimi daxil oldu. Məsələn, buna ən yaxşı nümunə 50 il əvvəl hazırlanmış və hələ də aşağı mərtəbədə nümayiş etdirilən atın təkamülü sərgisidir. Bu saysız-hesabsız dərsliklərdə mübahisəsiz qəbul edilmiş həqiqət kimi göstərilmişdir. Mənim fikrimcə indi bu vicdan əzabı verir, çünki bu cür hekayələri ortaya atan insanların onların (fosillərin)bir hissəsinin abstrakt təbiətindən şəxsən özlərinin xəbərdar olduğunu düşünürəm.[105]

Darvinist Eldric tamamilə doğru deyir. Qəsdət edilmiş təhriflər dəccaliyyətin əsasında olduğu üçün bu sistemə sahib çıxanlar da yalana əl atırlar. Yuxarıda sadalanan bütün misallar Darvinizm yalanının tamamilə ifşa olmuş, saxtalığı darvinist elm adamları tərəfindən belə məcburən qəbul edilmiş açıq-aşkar nümunələrdir. Bu nümunələr dəccaliyyət sisteminin iç üzünü göstərmək üçün kifayətdir. Lakin əslində bunu yadda saxlamaq lazımdır: təkamül nəzəriyyəsi, yəni Darvinizm ideologiyası Allahı inkar məqsədi güdən yalan üzərində qurulmuşdur. Ona görə Darvinizmin irəli sürdüyü hər iddia, hər dəlil yalandır. İndiyə qədər eşitdiyiniz bütün "təkamülə dəlil tapıldı" ifadələrinin, "canlılar təkamül keçirib" açıqlamalarının, "insanın şimpanze ilə ortaq əcdadları" sözlərinin hamısı yalandır. Darvinistlər bir yalanı müdafiə edirlər. Bunun səbəbi dəccaliyyət sisteminə olan məntiqsiz itaət və bağlılıqları, sırf Allah inancı ilə mübarizə etmək üçün batil Darvinizm dininə olan kor-koranə sədaqətləridir.

Lakin batil bir inancın, böyük yalanın içindədirlər. Hər şeyin Sahibi və Yaradıcısı olan Uca Allah ayələrində belə buyurur:

**Kim İslamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar! (Ali-İmran surəsi, 85)**

**Bilin ki, göylərdə və yerdə kim varsa, hamısı Allahındır. Allahdan başqasına tapınanlar həqiqətdə Allaha qoşduqları şəriklərə tabe olmazlar. Onlar ancaq zənnə uyar və yalandan başqa bir şey deməzlər. (Yunus surəsi, 66)**

## SAXTA BİR DİN: DARVİNİZM

Darvinizmin tarixini nəzərdən keçirdikdə qarşımıza çıxan çox açıq həqiqətlər var:

- Darvinizm elmi cəhətdən sübut edilməmiş, tam əksinə, elmi dəlillərlə təkzib edilmişdir.
- Elə bu səbəbdən Darvinizm saxtakarlıqla yaşadılmağa çalışılmışdır.
- Darvinist saxtakarlıqlar darvinist elm adamları tərəfindən gözardı edilmişdir.
- Saxta fosillər saxta olduqları ifşa edildikdən sonra belə illərlə muzeylərdə təkamülə dəlil kimi nümayiş etdirilmişdir.
- Darvinist elm adamları saxtakarlıqların həqiqi üzünü bilmələrinə baxmayaraq tələbələrinə bütün bunları təkamülü sübut edən elmi dəlil kimi öyrətmişlər.
- Darvinizmi təkzib edən, yaradılışı sübut edən elmi həqiqətlər darvinist elm adamları tərəfindən gizlədilməyə çalışılmışdır. Fosillərin gizlədilməsi bunun ən böyük dəlilidir.
- Darvinizm kütlələrə insanın ancaq bir heyvan olmasını bildirməyə çalışmış, bunun üçün saxta rüşeym rəsmləri çəkməkdən çəkinməmişdir.
- Darvinizm canlıları üstün Yaradıcının yaratması həqiqətini inkar etmək üçün təsadüflərin "möcüzələr" meydana gətirdiyinə insanları inandırmağa çalışmışdır (Allahı tənzih edirik).

Bəs saxtakarlıöa qədər gedən bu təəccüblü səyin səbəbi nədir? Görəsən darvinistlər elmi həqiqətlərin təqdim etdiyi doğruları qəbul etmək və Darvinizmdən əl çəkmək əvəzinə nə üçün belə çətin yola çıxmışdılar? Elmi cəhətdən təkamül nəzəriyyəsinin sübut edilmədiyi açıq həqiqət olmasına baxmayaraq görəsən nə üçün bu nəzəriyyəyə sübut edilmiş təsəvvürü verməyə çalışır və

nə üçün təbliğat, saxtakarlıq və yalanlara bu qədər zaman və əmək sərf edirlər? Darvinist elm adamları alçalacaqlarını, saxtakar tanınacaqlarını bilə-bilə görəsən niyə təkidlə təkamül uğrunda yalanlar uydurmuş və onları təhsil müəssisələrində öyrətmişlər?

Bütün bunların bircə cavabı var: Darvinizm elm deyil. Darvinizm batil bir dindir. Boş və batil inanc sistemidir. Saxtakarlıq üzərində qurulmuş ideologiyadır. Darvinistlərin bütün bu səylərinin səbəbi də bu batil dinə olan kor-koranə bağlılıqları və batil inanclarını var gücləri ilə yaşatmaq arzusudur. Darvinistlərə görə bunun üçün lazım olan hər şey edilməlidir. Əgər bu batil din tərk edilsə, darvinistlər bütün varlıqları Allahın yaratdığı həqiqətini qəbul edəcəklər və saxta dinlərini tərk edəcəklər. Bu vəziyyət ziddiyyətli darvinist beyinlər üçün əsla qəbuledilməzdir. Lakin Allahın varlığına və birliyinə iman və Allah sevgisi insanlar üçün böyük sevincə vəsilədir. Allaha iman insanın ağlını və anlayış gücünü qat-qat artıran, ruhunu çox dərinləşdirən böyük nemətdir. Darvinistlərin öz zəif ağıllarına görə Allahın açıq-aşkar varlığını inkar etmək üçün əl atdıqları üsullar isə onları ancaq çarəsizliyə, məqsədsizliyə, saxtakarlığa və məntiqsizliyə sürükləyir.

Elə 150 ildən bəri Darvinizm adından davam edən yalanların, saxta fosillərin, saxta rəsmlərin, yapışdırma kəpənək fotoşəkillərinin, saxta rüşeym sxemlərinin, elmi dəyəri olamayan saxta rekonstruksiyaların, 70 il boyu gizlədilən Kembri canlılarının, 40 il boyu nümayiş etdirilən saxta kəllə sümüklərinin, bəzi dərsliklərdə yerini hələ də qoruyan saxtakarlıqların kökü budur. Batil təkamül dininin mənsubları bu saxta dini yaşatmaq üçün elmdən deyil, saxtakarlıqdan istifadə etməyə üstünlük verirlər. Darvinist elm adamları arasında səssiz, ancaq böyük ittifaqla bu saxtakarlıq davam etdirilir. Fransız bioloq, darvinist Pier Pol Qrass bu həqiqəti belə etiraf edir:

Bu yalan bəzən şüursuz şəkildə baş verir, lakin hər zaman olmur. Çünki bəzi insanlar məzhəbçiliklərinə görə qəsdən həqiqətləri görməməzliyə vururlar və öz inanclarının qeyri-kafiliyi və yanlışlığını göstərən məlumatı inkar edirlər.[106]

Darvinist Pier Pol Qrasın bu etirafı darvinist dairələrdə baş verən gizli birliyi ifadə edir. Dəccal sisteminə görə Darvinizm heç cür inkar edilməyəcəyi üçün saxtakarlıqlara və yalanlara göz yumulmalıdır.

Darvinistlər bəzən darvinizmi din kimi mənimsədikləri həqiqətini də etiraf edirlər. Buna misal olaraq aşağıdakı bəzi nümunələri göstərmək olar (Allahı tənzih edirik):

**“Bir şəxs ancaq o baxış ateizmdən ayırd edilməzsə, təkamülə uyğun olan dini baxışa malik ola bilər.”**[107] Təkamül bioloqu və genetik ateist Uil Provayn.

**“Təkamül... ateistlərin öz varlıqlarını qorumalarına kömək edir və onların yaradansız təkamül “dini” ilə uyğunluq təşkil edir.”**[108] Təkamül bioloqu, ateist Riçard Doukins.

**“Əslində təkamül bir baxımdan elmi din halına gəlmişdir. Demək olar ki, bütün elm adamları bunu qəbul edirlər və onların bir çoxu öz müşahidələrini buna uyğunlaşdırmağa “meylli” olmağa hazırdırlar.”**[109] Mançester Universiteti Fizika professoru darvinist H.S.Lipson

**“Mənim 40 ildən çox müddət ərzində davam edən təkamülü təcrübə yolu ilə göstərmə səylərim tam mənada uğursuzluqla nəticələndi... Təkamül fikri yalnız inanca əsaslanır!”**[110] Bütün karyerasını canlılar arasında “süni şəkildə təkamül” həyata keçirməyə sərf edən Lund Universitetindən tanınmış elm adamı Heribert Nilson.

**“Təbii seçma qanunları, iddia edirəm ki, elm deyil. Bu bir ideologiyadır, həm də pis ideologiyadır və bizim həyatın tarixini açıq şəkildə başa düşməmizə mane olur. Eynilə bir-birmizə tolerant davranmağımıza mane olduğu kimi.”**[111] İsveçrə Federa Texnologiya İnstitutundan geologiya mütəxəssisi darvinist Kennet Hsü.

**“Məni bunun şahidi, bu mövzunun vəkili kimi görsələr və məndən bunu soruşsalar “Dr. Doukins, təkamülə olan inamınız, təkamüllə bağlı fəaliyyətləriniz sizi ateizmə qaytardı?” Buna “bəli” cavabı verməyə məcbur olardım... Mənim kimi insanlar təkamül lobbisi üçün pis xəbər kimidirlər. Lakin mən bu məsələdə, bu sahədə danışan adamların hamısından daha səmimiyəm.”**[112] Riçard Doukins.

Dünyada tanınan darvinistlərin bu etirafları, şübhəsiz, mühüm həqiqətə işarə edir. Darvinistlər müdafiə etdikləri ideologiyanın yalan olduğunu bilərək ortaq, səssiz dildən istifadə edərək bu saxtakarlığı birlikdə davam etdirirlər. Bəzən etdikləri etiraf xarakterli açıqlamalar da

batil Darvinizm dininə bağlılıqları baxımından heç nəyi dəyişdirmir, bu sistem 150 ildir olduğu kimi eyni şəkildə davam edir. Qəsdən edilmiş saxtakarlıqların ardı kəsilmir, batil Darvinizm dinini yaşatmağı hədəfləyən bu yalanlara son qoyulmur.

1998-ci ildə ölən və bütün həyatını bu saxta nəzəriyyəni müdafiə edərək keçirmiş İngiltərə Təbiət Tarixi Muzeyinin qocaman paleontoloqu Kolin Patersonun aşağıdakı etirafı darvinistlərin içinə düşdükləri yalanı görmək baxımından düşündürücüdür.

On ildən çox zaman ərzində təkamüllə bağlı fəaliyyət göstərdiyimi düşündüm... (Ancaq) bununla bağlı bircə şey də bilmirəm... son bir neçə həftə boyu müxtəlif insanlara və müxtəlif qruplara adi sual verməyə çalışdım. Sual bu idi: "Təkamül haqqında doğru olan bildiyiniz bir şey, hər hansı bir şey deyə bilərsinizmi?" Bu sualı Fild Təbiət Tarixi Muzeyinin geoloji heyətinə də verdim və aldığım tək cavab dərin sükut idi. Eyni sualı təkamülün ən nüfuzlu şəxsləri olan Çikaqo Universiteti Təkamül Morfologiyası Seminarının üzvlərinə də verdim və aldığım cavab yenə uzun sükut idi. Sonda aralarından biri bu cavabı verdi: "Bəli, mən bir şey bilirəm – bu təhsil müəssisələrində öyrədilməməlidir."[113]

Kolin Patersonun bu etirafı darvinistlərin açıq şəkildə bildikləri bir hqəiqəti həyatları boyu gizlətməkdə və bir yalanın ardınca getməkdə heç bir problem görmədiklərini açıq şəkildə ortaya qoyur. Təkamül nəzəriyyəsinin yalan olması əslində bütün elmi dairələrə məlumdur. Təkamülün beyinləri yumaq məqsədilə məktəblərdə oxudulduğunun, təkamül haqqında çıxan bütün xəbərlərin yalan olduğunu, keçirilən konfransların, nəşr edilən kitabların, təkamül lehində saysız-hesabsız jurnalın əslində təbliğat məqsədi daşıdığını hamısı bilir. Darvinistlərin hər biri təbiət tarixi muzeylərində nümayiş etdirilən fosillərin təkamülə heç bir dəlil olmadığını bilirlər. "Təkamülə yeni dəlil tapıldı" xəbərlərinin uydurma, jurnallarda və qəzetlərdə çıxan təkamül rəsmlərinin isə saxta olduğunu bilirlər. Ancaq bütün bunlardan xəbərsiz imiş kimi davranırlar. Bir-birlərinə bu saxtakarlıqları danışarkən akademik mövzu təsəvvürü verməyə çalışırlar. Amma əslində hamısı uydurma və saxta ideologiyanın tərəfini tutlduqlarını bilirlər.

Bütün bunların səbəbi təkamülün bir inanc sistemi, batil bir din olmasıdır. Təkamülün elmlə heç bir əlaqəsi yoxdur. Darvinizm dəccalın mübarizəsinin tələbi kimi müdafiə edilir. Darvinizmi müdafiə edən bütün elm adamları əslində fərqinə varmadan dəccalın idarəsi altındadırlar.

Florida Dövlət Universitetindən fəlsəfə professoru darvinist Maykl Ryuz batil darvinizm dinini belə tərif edir:

Təkamül müdafiəçiləri tərəfindən elmdən daha artıq dəstəkləndi. Təkamül bir ideologiya, dünyəvi din elan edildi – məna və əxlaq baxımından Xristianlığa alternativ olan mükəlləf bir din kimi... Təkamül bir dindir. Bu əvvəlki təkamüldə də bu formadadır və bu günkü təkamüldə də hələ də bu formadadır.[114]

Amerikalı astronom, fizik və kosmoloq Robert Ceystrou isə darvinistlərin kor-koranə Darvinizmə bağlılıqları haqqında bunları deyir:

Bəlkə də yer üzündəki həyatın meydana gəlməsi bir möcüzədir. Elm adamları bu fikri qəbul etməyə meyllidirlər, amma seçimləri məhduddur. Ya həyat elmi anlayışdan kənar bir varlığın istəyi ilə yer üzündə yaradılmışdır, ya da bizim planetimizdəki cansız maddələrdə meydana gələn kimyəvi reaksiyalar yolu ilə öz-özünə əmələ gəlmişdir.

Birinci fikir həyatın mənşəyi məsələsini elmi tədqiqatların fövqünə yönləndirir. Bu, elmi qanunlardan uzaq olan Uca Varlığın gücünə olan inamın ifadəsidir. İkinci nəzəriyyə də bir inancdır. Bu inanc isə həyatın mənşəyinin elmi cəhətdən doğru olması fikri üzərində qurulmuşdur. Lakin bu inancı dəstəkləyən heç bir konkret dəlil yoxdur.[115]

Robert Ceystrounun bu sətirlərdə dilə gətridiyi kimi Darvinzm bir inanc kimi qəbul edilmişdir, amma bu batil inancdır və heç bir elmi tapıntı ilə dəstəklənmir. Darvinizmi elmi fikrin ortaya qoyduğu tək seçim, yaradılış həqiqətini isə elmin fövqündə duran inam kimi görmək isə materialist düşüncə tərzinin səhvi və yalanıdır.Elmin göstərdiyi həqiqət yaradılışdır. Canlıların üstün və qüdrət sahibi Ağlın, yəni Uca Allahın əsəri olması elmi tapıntılarla bir da təsdiqlənmişdir. Darvinizmin iddiaları isə elin bütün sahələrində təkzib edilmişdir. Ona görə elmə inanan bir şəxsin Darvinizmi müdafiə etməsinin zəruriliyi fikri həqiqətə uyğun olmayan ciddi səhvdir.

Darvinizmin elm deyil, batil bir din olmasının məlum olması və başa düşülməsi, şübhəsiz, çox vacibdir. Beləliklə, əvvəla Darvinizmin dünyanı aldatmasının ideoloji səbəbi olduğu başa düşülər. Nəzəriyyənin irəli sürülməsindən bəri Darvinizm adından edilmiş hər fəaliyyət, bu istiqamətdə atılmış hər addım, aldadılan hər insan Darvinizm ideologiyasının bir hissəsi olmuşdur. Darvinizmin dərsliklərə daxil olması, bütün dünyaya yayılması, demək olar ki bütün elmi jurnalların, qəzetlərin və televiziya verilişlərinin yeganə mövzusu olması elə-belə hadisə deyil. Bu vəziyyət əslində olduqca təhlükəlidir. İnsanlar bu batil dinin təsirilə bir-birlərini sanki heyvan kimi görür, güclünün zəifi əzməsini öz ağıllarına görə normal qarşılayır, insanı Allah qarşısında heç bir məsuliyyəti olmayan, təsadüfən əmələ gəlmiş varlıq kimi qavramağa başlayırlar. Batil Darvinizm dininin təsirilə baş verən müharibələr, işğallar, qarşıdurmalar, kommunizm, kapitalizm, faşizm kimi ziddiyyətli ideologiyalar, dünyanın bir çox ölkəsində hələ də davam edən anarxiya və terror bu təhlükənin ölçüsünü göstərir.

Unutmaq olmaz ki, Darvinizmin davamlı olaraq təlqin edilməsi və bütün dünyada təsirli olmasına çalışılması Allah inancına qarşı aparılan mübarizədir. Bu batil ideologiya insanı Allaha qarşı bütün məsuliyyətlərdən uzaqlaşdırmaq və axirəti unutdurmaq məqsədini daşıyır. Allah qarşısında məsuliyyətsiz olduğunu zənn edən və axirətə inanmayan bir insanın da, şübhəsiz ki, başqalarına zülm etməsi, digərlərini amansızlıqla əzməsi, güclü olmaq üçün hər cür pisliyi öz ağlına görə normal hesab etməsi, xudbin olması, qarşıdurmanı inkişafın yolu kimi gördüyü üçün müharibələrə təkan verməsi, kütlələri məhv etməsi, müxtəlif etnik qruplara qarşı soyqırım tətbiq etməsi təəccüblü deyil. Bu gün hələ orta məktəb dövründəki gənclər belə əllərinə silah alaraq törətdikləri məktəb basqınlarında, onlarla insanı güllələyərkən darvinist məntiqin zehnlərini necə zəhərlədiyini açıqlamaqdan çəkinmirlər. Qarşılarındakını “aradan götürülməli” heyvan kimi gördüklərini gizlətmirlər. Batil Darvinizm dini belə dəhşətli və məhvedici inancdır.

Beləliklə, batil Darvinizm dinini və Darvinizmin dünyanı aldatmasını nəzərdən keçirərkən bu hqəiqətləri unutmaq olmaz. Darvinistlərin dünyanı aldadarkən istifadə etdikləri hiyləgər üsulların elm ilə, sübut edilməli hər hansı elmi nəzəriyyə ilə əlaqəsi olmadığını nəzərə almaq lazımdır. Batil Darvinizm dininin əhalinin sayının planlaşdırılması üçün aclıq, xəstəlik və müharibələrin lazım olduğunu müdafiə edən Maltusun fikirlərindən təsirlənərək formalaşdığını, bütün xəstə və şikəstlərin öldürülməsini irəli sürən öjeni fikrinin əsası olduğunu, kütlələri ölümə sürükləyən faşist və kommunist diktatorların əsas istinadgahını təşkil etdiyini, birinci və ikinci dünya müharibələrində on milyonlarla insanın həyatını itirməsinə səbəb olduğunu və hal-hazırda bütün dünyada və xüsusilə ölkəmizdə davam edən terror bəlasının qidalandığı yeganə mənbə olduğunu unutmamaq lazımdır. Bu gün dünyada mövcud olan bütün qarışıqlıqların, din əxlaqına qarşı yeridilən üsyanların, kommunist və faşist axınların, hücum, qətl və terror hadisələrinin də çıxış nöqtəsinn eyni məntiq olması həmişə yadda saxlanmalıdır. Darvinizm elm adı ilə ortaya çıxmış məsum nəzəriyyə deyil, kütlələri degenerasiyaya, məsuliyyətsizliyə, müharibələrə, qəzəb və zülmə sürükləyən dövrümüzün ən böyük bəlalarından biridir.

Batil Darvinizm dininin müdafiəçiləri nə qədər saxtakarlıqla yayılma siyasəti tətbiq etsələr də, Allahın üstün qüdrətinə qarşı mübarizə aparan hər kəs mütləq ifşa olacaq və məğlubiyyətə uğrayacaqdır. Hal-hazırda da darvinistlər Darvinizmin bu tarixi məhvinə şahid olur və bu vəziyyəti təəssüflə seyr edirlər. Darvinistlər bütün gücün Allaha aid olduğunu, bütün tələlərin mütləq pozulub yox olacağını tam qavramaya bilərlər, ancaq Haqqa qarşı qurulmuş hər batil tələ mütləq pozulmağa məhkumdur. Uca Rəbbimiz ayəsində bu həqiqəti belə bildirir:

**Onlar hiyləyə əl atdılar. Allah da onların hiyləsinə əvəz verdi. Allah hiyləgərlərdən tədbirlidir. (Ali-İmran surəsi, 54)**

# ÜÇÜNCÜ FƏSİL

# DARVİNİSTLƏRİN DÜNYANI ALDATMA ÜSULLARI

Darvinist aldatma üsulunun ən açıq tərifini özü də darvinist olan və törətdiyi qırğınları Darvinizmdən ilham alaraq həyata keçirən XX əsrin ən zalım diktatoru Adolf Hitlerin sözlərindən başa düşə bilərik:

Əgər bir yalanı həddindən artıq uzun, həddindən artıq ucadan və həddindən çox desəniz, insanlar inanar. İnsanları bir yalana inandırmağın sirri yalanı daima təkrar etməkdir. Sadəcə təkrar, təkrar və təkrar deyin.[116]

Elə Darvinizmin insanları aldadarkən istifadə etdikləri üsul budur. Darvinizm yalanı o qədər yüksək səslə, o qədər çox, o qədər ehkamçı inancla deyilmişdir ki, dünyada bir çox insan araşdırmadan, soruşmadan təkamül nəzəriyyəsini doğru hesab etmişdir. Həm də bu barədə kütlələrin aldadılması çox açıq üsullarla edilməsinə baxmayaraq heç kim bu yalanı müdafiə edən elm adamlarından, bu yalanın jurnallarda dərc edilməsindən, tədris materialına salınaraq məktəblərdə tədris edilməsindən şübhələnməmişdir. Bu elm adamları “zülallar təsadüfən palçıqlı suda əmələ gəlmişdir” yalanını ortaya atmış və bunu yüksək səslə, tərəfdarları ilə birlikdə, elmi sözlərdən istifadə edərək təkrar-təkrar elmi həqiqət kimi izah etmişlər. Bircə zülalın təsadüfən əmələ gəlməsi ehtimalının sıfır olduğundan xəbərsiz olan insanlara bu nağılı təkrar etmiş və bir növ sehr təsiri əmələ gətirərək onları aldatmışlar. “Saysız-hesabsız ara fosil var” yalanını müdafiə edən darvinist elm adamları fosillərdən xəbəri belə olmayan insanlara elə təlqin ediblər ki, insanlar illərlə saysız-hesabsız fosillə təkamülün dəstəkləndiyini zənn etmişlər. Habelə insanlar bu qəribə təlqinin təsiri altına düşərək meymundan əmələ gəldiklərinə inanmış, məktəblərdə bunu oxumuş, əcdadlarının qəribə görünüşlü, tüklü, meymunabənzər canlılar olduğunu hesab etmişlər. Bunun ən əsas səbəblərindən biri budur: Darvinizm yalanının ifşa edilməsinə qədər insanlar “elm adamı doğru danışar”, “biz elmi məsələləri başa düşə bilmərik, elm adamları nə desələr, ona inanmaq lazımdır” fikrilə səhv hərəkət etmiş, hətta sanki onların dediklərinə iman gətirmiş və batil inanc sistemi qurmuşlar. Əmələ gətirdikləri sistem bu səhv təməl üzərində qurulduğuna görə təkamülün əsassızlığı mübahisəyə belə yaramayan vəziyyətə gəlmişdir.

Bu mühüm və heyrətləndirici həqiqətdir: darvinist elm adamları Darvindən bəri insanları aldadırlar. “Elm adamı doğru danışar, dedikləri barədə mübahisə etmək olmaz” fikrinə əsaslanan bu sistem insanları yalana inanmağa, hətta bütün həyatlarını bu yalana görə yaşamağa istiqamətləndirmişdir. Elə böyük oyun oynanılmışdır ki, elmi həqiqətlər insanlardan gizlədilmiş, əvəzində yalan və saxta məlumatlar istifadə edilmiş, əldə edilən faktlar təhrif olunaraq təkamül yalanına tətbiq edilməyə çalışılmışdır. Əgər faktlar təkamül yalanına uyğun deyilsə, ya gizlədilmiş, ya da məhv edilmişdir. İnsanlar illər boyu açıq şəkildə və amansızlıqla aldadılmış, darvinist elm adamlarından əldə etdikləri biliklərin doğru olduğunu zənn etmişlər.

Darvinizmin əsasında materialist fəlsəfəyə olan qeyd-şərtsiz bağlılıq var. Materializm həyatın mənşəyinə və kainatın mövcudluğunun məqsədinə dair maddədən başqa bütün açıqlamaları heç bir elmi fakta əsaslanmadan ağılsızlıqla rədd etdiyinə və təkamül nəzəriyyəsi də canlıların yaranmasına saxta izah verdiyinə görə materializm və Darvinizm arasında köklü əlaqə

var. Darvinist elm adamları eyni zamanda materialistdir və Darvinizmə verilən dəstək əslində materializmin yaşadılması cəhdidir. Elə bu səbəbdən darvinistlərin fikrincə təkamül nəzəriyyəsi nəyin bahasına olsa da, müdafiə edilməlidir. Əgər təkamül kifayət qədər müdafiə edilməsə, təkamülün yalanları bütün imkanlardan istifadə edilərək ört-basdır edilməsə, Darvinizmə qarşı olanlar təzyiq və hədə-qorxu yolu ilə susdurulmasa, Darvinizmin əsassızlığını üzə çıxaran elmi dəlillər qəsdən gizlədilməsə, tək və mütləq həqiqət olan "bütün varlıqları Allahın yaratması həqiqəti" bəşəriyyətə hakim olacaq və materializm məhv olacaqdır. Elə darvinistlərin illərdən bəri təkamül yalanını yüksək səslə və təkidlə müdafiə etmələrinin səbəbi budur. Conatan Uels bu mövzu ilə bağlı belə şərh verir:

... Darvinizmi doğru kimi göstərən şey sübut deyil, materialist fəlsəfədir. 1997-ci ildə Harvard genetiklərindən Riçard C. Levontin özünün və Karl Seyqanın bir dəfə Darvinizmi bir debatda necə müdafiə etdiyini danışmışdı: "Uydurmalarının bəzi aşkar cəfəngiyyatlarına baxmayaraq elmin tərəfini tutduq... Çünki zəruri məsuliyyət daşıyırdıq, materializm üçün daşıdığımız məsuliyyət."[117]

Diqqət edilsə, Levontinin sözlərindən darvinizmə düşgünlüyü bəlli olur.Levontin "elmin tərəfində olduqları üçün təkamülü müdafiə etməyə məcbur olduqlarını" iddia edir. Lakin səmimi şəkildə elmi tapıntılar dəyərləndirildikdə elmin tərəfində olan bir insanın Darvinizmi müdafiə etməsi mümkün deyil. Darvinistlər həmişə olduğu kimi "elm = Darvinizm" yalanı və ehkamı ilə hərəkət edir, etdikləri açıqlamalarla da insanların şüuraltına bu yalanı yeridirlər.

Darvinistlər bu yalanın həmişə davam edəcəyini düşünmüşdülər. Amma hal-hazırki vəziyyət düşündükləri və gözlədikləri kimi deyil. Materialist fəlsəfə çökür. Darvinistlərin oyunları bir-bir üzə çıxmışdır. İnsanlar necə bir yalana, saxta bir dinə kor-koranə iman gətirməyə məcbur edildiklərini anlamağa başlayıblar.

İsveçli embrioloq Soren Lovtrup Darvinizm yalanını bu sözlərlə dilə gətirmişdir:

İnanıram ki, bir gün Darvin mifi elm tarixindəki ən böyük yalan kimi yer tutacaq. Bu olduqda isə bir çox insan bu sualı verəcək: "Belə bir şey necə baş verdi?"[118]

İnsanlar həqiqətən də dövrümüzdə darvinistlər tərəfindən aldadıldıqlarının şokunu yaşayırlar. Dünya səviyyəsindəki bir oyunun hissəsinə çevrildiklərini gün keçdikcə daha çox dərk edirlər. Yaxın gələcəkdə batil Darvinizm dininin əsl üzü bütün dünya tərəfindən tamamilə başa düşüləcək və insanlar həqiqətən də aldadıldıqlarını təəccüblə qarşılayacaqlar. Bir yalandan xilas olmalarının ardınca Darvinizmin ləkələdiyi ağıl və vicdanları təmizlənəcək və hər şeyin Allahın möhtəşəm əsərləri olduğunu qavrayacaqlar. Dəccaliyyət fikrən tam mənada məhv ediləcəkdir. Allah ayələrində belə buyurur:

**Göylərin və yerin mülkü Allaha məxsusdur. Allah hər şeyə qadirdir! Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. (Ali-İmran surəsi, 189-190)**

Bəs dəccali sistem olan masonluğun çirkin oyunu Darvinizmin 1.5 əsr insanları aldadan hiyləgər üsulları nədir? Darvinistlər hiyləgərliklə, ittifaq halında necə saxta sistemlə insanlara yetişmiş və yalanı həqiqət kimi göstərmişlər: Dəccalın sehri insanlar üzərində necə bu qədər təsirli ola bilmişdir? Bu sehri təsirli edən saxta darvinist taktikalardan bəziləri bunlardır:

## 1. Darvinizm və materializm bütün canlıları "ibtidai" göstərməyə çalışır

Darvinizm "sehri" insanları düşünməsinə mane olmaq üzərində qurulmuşdur. Darvinistlər

elə bu səbəbdən tez-tez əyani və səsli təlqinlə xitab etdikləri insanların başını qatmağa çalışırlar. Onların üzərində sanki bir sehr təsiri əmələ gətirərək insanları həqiqətlərdən uzaqlaşdırmağa cəhd göstərirlər. Darvinizmin bu tez-tez baş verən sehrli təlqinləri nəticəsində bir çox insan düşünməkdən, tədqiq etməkdən, araşdırmaqdan əl çəkir və onlara təqdim edilən "elmi açıqlamalara" istər-istəməz təslim olurlar.

Lakin maraqlısı budur ki, insanların başını qatan və düşünməsinə mane olan bər-bəzəkli təlqinlərin kökündə əslində bəsit və ağıldankənar məntiq var. Darvinist KİV-ləri bir hüceyrənin əmələ gəlməsini saysız-hesabsız elmi və texniki termindən istifadə edərək yüzlərlə səhifədə izah edə bilərlər. Lakin izah etmək istədiklərinin xülasəsi budur: palçıqlı su + təsadüflər + zaman = canlılar! Bər-bəzəkli sözlər, çətin başa düşülən latınca adlar, texniki cəhətdən mürəkkəb terminlər darvinist təlqin vermək üçün KİV-lərinə qəsdən daxil edilir. Lakin darvinist izahların ardında mürəkkəb, kompleks, çətin başa düşülən məntiq və ya açıqlama əsla yoxdur.

PBS Nova TV kanalının "Həyatın möcüzələri" (The Miracles of Life) sənədli filmindən bir hissə bu mövzuya misaldır:

4.5 milyard il əvvəl yeni əmələ gələn Yer kosmik toz və zərrəciklər yığınından ibarət idi. Əvvəlcə mövcud olan dənizlərlə demək olar ki, örtülmüşdü. Güclü küləklər atmosferdən **təsadüfi molekulları** topladı. Bunların bəziləri dənizlərdə toplandı. **Cərəyanlar və axınlar molekulları birləşdirdi və bu qədim okeanın bir hissəsində həyat möcüzəsi baş verdi...** İbtidai həyatın ilk mürəkkəb canlısı kiçik bir protozoan idi (tək hüceyrəli heyvan). Milyonlarla protozoan qədim dənizlərdə birləşdilər. Bu ilk orqanizmlər dəniz suyundan ibarət dünyalarında öz-özlərinə kifayət edirdilər. **Sudan ibarət bu mühitdə bakteriya və digər orqanizmlərlə qidalanaraq hərəkət edirdilər...** Bu tək hüceyrəli canlılardan yer üzündəki canlılar təkamüllə əmələ gəldi.[119]

Bu qəribə açıqlamaları seyr edən bir çox insan hüceyrəni əmələ gətirən bircə proteinin təsadüfən əmələ gəlmə ehtimalının $10^{950}$–də 1, yəni qeyri-mümkün olduğunu, şübhəsiz, bilmirdi. Bu insanlar yəqin ki üstündə yaşadığımız möhtəşəm müvazinət və ideallığa malik planetdə nizama təsir edəcək hər hansı dəyişikliyin və ya formanın təsadüfən meydana gəlmə ehtimalının $10^{1000}$ –dən daha çox olduğunu, yəni nə qədər zaman verilsə də, əsla belə bir dəyişikliyin baş verməsinin mümkün olmadığnı da bilmirlər.[120] Eyni tamaşaçı yəqin ki haqqında bəhs edilən "həyat möcüzəsinin" əmələ gəlməsi üçün daha böyük ehtimalların baş verməli olduğunu və bunun qeyri-mümkünlüyünün daha çox olduğunu da bilmir. İlə bu səbəbdən bu fantastik ssenarini seyr etmək və ona inanmaq mövzu haqqında məlumatı olmayan insanlar üçün çox da çətin deyil.

Bu PBS sənədli filmində Yerin əmələ gəlməsi, ilk hüceyrənin meydana gəlməsi haqqında fantastik hekayə və bu xəyali ilk hüceyrənin başlanğıc verdiyi canlı müxtəlifliyi o qədər sadə hadisə kimi izah edilir ki, bütün bunlar mövzu haqqında çox düşünmək istəməyən bir insanı inandırmağa kifayətdir. Bu şəxsin qarşısına hazır məlumat qoyulmuşdur. Bu insan nə də olsa

- bir zülalın təsadüfən əmələ gəlməsinin mümkün olmadığını,
- bunun arcınca da ikinci, üçüncü, dördüncü, nəhayət bir milyonuncu zülalın da eynilə qeyri-mümkün təsadüfi əmələ gəlmə ehtimalının olmadığını,
- qeyri-mümkün olmasına baxmayaraq təsadüfən əmələ gəldiyini fərz etsək belə, dünyanın bir tərəfində fantastik şəkildə əmələ gələn ilk zülalın dünyanın digər tərəfində fantastik şəkildə əmələ gələn ikinci zülal ilə birləşməsinin də eynilə qeyri-mümkün olduğunu bilmir.

Bu mərhələyə qədər hər şeyin çox sadə baş verdiyini zənn edən bu şəxs

- ehtimal hesablarına əsasən təsadüfən əmələ gəlməsi qeyri-mümkün olan hüceyrə orqanoidlərinin meydana gəlməsini,

- bu "möcüzəvi" şəkildə ortaya çıxmış orqanoidlərin hüceyrə əmələ gələn qədər məhv olmadan birlikdə qalmalarını,
- ardınca mükəmməl seçici-keçirici qılafı və qeyri-adi sistemi ilə laboratoriyalarda elm adamlarının təcrübələrində belə əmələ gətirilə bilməyən, elm adamları tərəfindən "bir qalaktikadan daha mürəkkəb" kimi tərif edilən hüceyrənin palçıqlı suyun içində fantastik şəkildə təsadüfən meydana gəlməsi nağılını müsbət qarşılayacaqdır.

Çünki bu tamaşaçının qarşısında ona təqdim edilən məlumatları düşünmədən asanlıqla qəbul edən bir şəxs üçün olduqca sadə açıqlama var. Həm də bu açıqlamanı bir elm adamı tanınmış sənədli film kanalında verir. Artıq onun verilən məlumatı mühakimə etməsinə, tədqiq edib araşdırmasına, zülalın möcüzəvi sistemi üzərində düşünməsinə ehtiyac yoxdur.Bu sənədli filmi seyr edən insana hüceyrənin sadəcə adi qovuqcuq olduğunu təlqin edirlər. Bu elmdənkənar bəsit məntiqə əsasən necə uzun müddət açıq qalmış bir az meyvə şirəsinin üzərində kif əmələ gəlirsə, sözügedən tamaşaçıya da hüceyrənin palçıqlı suyun içində qeyri-mümkün əmələ gəlməsinin də sadə və mümkün olması təsəvvürü verməyə çalışılır. Lakin kif tək hüceyrəli canlıdır və meyvə şirəsinin üzərində kənardan gələn bircə hüceyrənin çoxalması nəticəsində əmlə gəlirlər. Ona görə onlar da meyvə şirəsinin üzərində öz-özlərinə kor təsadüflər nəticəsində yoxdan var olmurlar. Yeri gəlmişkən, sözügedən sənədli filmdə xəyali ilk hüceyrənin əmələ gəlməsilə bərabər Yerin əmələ gəlməsi, ilkin atmosferin əmələ gələn ilk hüceyrəni dərhal məhv etmə gücü, protozoanların çoxhüceyrəli canlılara necə çevrildiyi və **hal-hazırda bakteriyalar var ikən protozoanın necə bu fantastik ibtidai həyatın "ilk canlıları"** olması kimi həyati əhəmiyyət daşıyan məsələləri açıqlamağa darvinistlər ehtiyac hiss etməmişlər. Bunlar bu elmdənkənar sadə açıqlama çərçivəsində onsuz da "əsas" məsələlər kimi qəbul edilir. Lakin bu təfərrüatların hə rbiri təkamül nəzəriyyəsi məntiqi ilə elmi cəhətdən açıqlanması əsla mümkün olmayan məsələlərdir və Darvinizmi məhv edən əsas məsələ olan "həyatın mənşəyi" məsələsidir. Növlərin necə əmələ gəldiyi, meymunabənzər xəyali varlıqların insana necə "çevrildiyi" haqqında kitablar dolusu nağıl danışan darvinistlər hələ həyatın mənşəyi sualına cavab verə bilmir.

İnsanların bir qismi təfərrüata varmadan, doğru olanı araşdırmadan sadəcə eşitdiklərini qəbul etməyə meyllidir. Darvinistlər də sözügedən insanların bu zəif cəhətindən istifadə edirlər. İnsanların böyük əksəriyyəti darvinistlərin bu aldadıcı tələsinə düşərək onlara məntiqli görünməsə də, elmi dəlil görməsələr də, dərhal darvinizmi qəbul etməyə meyl edirlər. Buna görə darvinistlərin bəsit və qeyri-mümkün açıqlamaları 150 ildən bəri müəyyən kütlə üzərində məqsədinə çatmış və insanlar aldadılmışdır.

Bu məsələyə başqa misal isə uşaqlar üçün yazılmış "Qəribə yumurta" (Wonderful Egg) kitabındakı izahlardır. Kitabda olduqca məntiqsiz ssenarili bir hekayə danışılır. Ana dinozavr yumurtlayır və təəccüblü şəkildə yumurtanın içindən "ilk quş" çıxır. Dinozavr anadan doğulan "quş" zaman ərzində inkişaf edir, böyüyür və möcüzəvi şəkildə mükəmməl qanadlara və tüklərə malik olur. Sonra uzun bir ağacın budaqlarına doğru sevinclə uçmağa başlayır. Burada maraqlı olan və bəlkə də hadisənin darvinistlər üçün ən faciəvi tərəfi bu heyrətli cəfəngiyyatı danışan kitabın Amerika Elmi İnkişaf Assosiasiyası (American Association for the Advancement of Science), Amerika Təhsil Şurası (American Council on Education) və Beynəlxalq Uşaq Maarifləndirmə Assosiasiyası (Association for Childhood Education International) tərəfindən dəstəklənməsi və tövsiyə edilməsidir.[121]

Sözügedən KİV-ləri belə iddialarla ortaya çıxaraq və ya bunu dəstəkləyərək çox alçalırlar. Əlbəttə, bir sürünən yumurtasından tamamilə fərqli anatomik quruluşa, uçma qabiliyyətinə, buna uyğun üzvlərə, tük, qanad, istiqanlılıq, xüsusi ağciyər sistemi kimi tamamilə fərqli fizioloji

formalara malik olan bir quşun çıxmayacağını ibtidai sinif şagirdi belə yaxşı bilir. Lakin buna baxmayaraq darvinist ideologiyanın tərəfdarları gülünc vəziyyətə düşəcəklərini bildikləri halda bu məntiqsiz iddianı müdafiə etməkdən çəkinmirlər.

Elmi redaktor darvinist Qordon Ratrey Teylorun bununla bağlı etirafı Darvinizmin təqdim etdiyi bəsit məntiqin yanlışlığını ən doğru şəkildə açıqlayır:

Təkamül tarixi bu cür dəyişikliklərlə doludur, hətta ancaq bunlardan ibarət olduğunu da deyə bilərik. Pulcuqlar tüklərə çevrilir. Ayaqlar qanad olur. Mədələr hava kisələrinə çevrilir. Hətta biokimyəvi proseslər səviyyəsində dəyişikliklər və nizamlamalar meydana gəlir. Darvinizmin bu möcüzələr haqqında deyəcəyi tək şey isə bütün bunların təsadüf əsəri olmasıdır.[122]

Missuri Universitetindən doktor Nikolas Komninellisin kitabında yer verdiyi bir qəzet məqaləsində isə bu açıqlanır:

Təkamül nəzəriyyəsi böyüklər üçün sehirli nağıldır. Bu nəzəriyyə elmin inkişafına heç bir töhfə verməmişdir. İşə yaramayan bir nəzəriyyədir.[123]

## Saxtakarlıqlara səs çıxarmayan darvinist elm adamları

Darvinizm sehrinin insanlar üzərində təsirli olması üçün darvinist elm adamları arasında təkmilləşdirilən ittifaq da çox diqqətçəkəndir. Bir neçə batıq səsdən başqa demək olar ki heç kim təkamül nəzəriyyəsini müdafiə etmək məqsədilə təkmilləşdirilən, elmlə əlaqəsi olmayan, uşaqsayağı, məntiqsiz və əsassız açıqlamalara səs çıxarmır.

Ancaq bəzən təkamülçü iddialar darvinist elm adamları üçün belə o qədər böyük və açıq-aşkar rüsvayedicidir ki, ətrafdakıların təzyiqindən çəkinərək özlərində bunlara etiraz etmək məcburiyyəti hiss edirlər. Məsələn, Darvinin özünün Şimali Amerikada qara ayının ağzını böyük açaraq sudakı həşəratları tutması nəticəsində balinaya çevrildiyi və ya çırpılan üzgəclərin köməyilə yuxarı qalxan, fırlanan, havada süzən balığın mükəmməl qanadları olan heyvanlara çevrilməsi iddiaları hələ də bəzi mühafizəkar darvinistlər tərəfindən müdafiə edilməsinə baxmayaraq bir çox darvinist tərəfindən rüsvayçılıq kimi qəbul edilir.[124] Nəhayət 2009-cu ildə "insanın (xəyali) təkamülünün ən böyük dəlili", "tapıla bilməyən itmiş halqa" adı altında qəzet başlıqlarında həftələrlə dərc edilən, haqqında darvinistlər üçün rüsvayedici təbliğat həyata keçirən lemur fosili *İda* da bəzi darvinist elm adamları tərəfindən o cür qarşılanmışdır. Darvinist elm adamlarından bəziləri bunu "sirk", bəziləri "təlxəklik" adlandırmış, bəziləri də itmiş halqa iddiası ilə heç əlaqəsi olmayan bu fosillə bağlı hay-küyə görə nə qədər utandıqlarını açıq şəkildə ifadə etmişdir.[125]

Lakin yenə də bu rüsvayçılığı anlayan darvinistlərin də reaksiyası azdır. Çünki öz ideologiyalarına əsasən Darvinizmin bəsit dünyasnı – məntiqsiz də olsa – sonuna qədər müdafiə etmək məcburiyyətindədirlər. Təkamül, Darvinin fikrincə, havada uçan balıq kimi elmi cəhətdən əsaslılığı olmayan varlıqları törətmişdir. Onun yolunu təqib edən darvinistlər də özlərini eyni fikri müdafiə etmək məcburiyyətində hiss edirlər.

Bristol Universiteti qeyri-üzvi kimya fakültəsindən D.t. Rouzvier Darvinizmin bu bəsit məntiqini və elm adamlarının göz görə-görə bu oyuna düşdüklərini bu sözlərlə ifadə edir:

Təkamül heç bir dəlilə əsaslanmayan bir hipotezdir və həqiqətlərə uyğun deyil. Bu klassik təkamül nəzəriyyələri həddindən artıq mürəkkəb və dolayı həqiqət yığınının olduqca bəsitləşdirir və bunun uzun zamandır bircə etiraz mızıltısı belə gəlmədən, olduqca çox sayda elm adamı tərəfindən tənqid edilmədən və etirazsız şəkildə qəbul edilməsni heyrətlə qarşılayıram.[126]

Darvinistlər canlılara istədikləri qədər öz ağıllarına görə "bəsitliyi" yaraşdırmağa çalışsalar da, canlı aləminin qeyri-adi və heyrətamiz kompleksliyə malik olması onların da inkar edə bilmədikləri açıq həqiqətdir. Yerdə bir-birindn fərqli milyonlarla heyvan və bitki növü vardır. Onların hər birinin malik olduğu ən kiçik forma belə qeyri-adi mürəkkəbliyə malikdir. Dövrümüzdə canlıların malik olduqları forma və orqanların funksiyalarını bir azca da olsa "anlamaq", laboratoriyalarda bunu tədqiq edib kəşf etmək uğur hesab edilir. Ağıllı varlıq olan insan öz hüceyrəsinin nəyə bənzədiyini ancaq keçən əsrdə ancaq ümumi cəhətdən öyrənə bilmişdir. Həm də nəinki bu hüceyrəni, bu hüceyrənin yüz minlərlə zülalından bircəsini belə hələ əmələ gətirə bilməmişdir. Darvinistlər tərəfindən ən "ibtidai" canlı kimi tərif edilən bakteriya malik olduğu orqanoidləri, DNT və hüceyrə qılafı, antibiotiklərə qarşı möhtəşəm müqavimət bacarığı və üstün xüsusiyyətlərilə fövqəltəbii komplekslik nümunəsidir. İngilis zooloqu Ser Ceyms Qreyin ifadəsilə, bir bakteriya bir laboratoriya fəaliyyətlərindən daha çoxunu həyata keçirir.[127] Təkamülçü Ceyms A. Şapiro isə bakteriyanın malik olduğu bu xüsusiyyətlərinə görə son dərəcə mürəkkəb canlı olduğunu bu şəkildə etiraf edir:

Bakteriyalar çox kiçik olmalarına baxmayaraq elmi tərifin fövqündə duran biokimyəvi, struktural və davranış xarakterli komplekslik nümayiş etdirir. Dövrümüzün mikroelektronika inqilabına uyğun olaraq bakteriyaları ibtidaidən daha çox kompleks canlı olduğunu hesab etmək daha məntiqli olar... Bakteriyalarsız yer üzündə həyat hal-hazırkı şəkildə mövcud olmazdı.[128]

Bu təqdirdə canlılara "ibtidai" tərifini vermək, şübhəsiz ki, mümkün deyil. Canlı orqanizmi üstün Yaradan, bütün varlıqlara hakim olan Azim Gücün varlığını və üstünlüyünü göstərir. O Yaradan varlıqlara can verən, onların hər vəziyyətini bilən, hər şeyi yoxdan yaradan, yaradanların ən gözəli olan Allahdır. Allahın bənzərsiz yaratması Rəbbimizin yalnız "Ol" əmrilə həyata keçir. Uca Allah üçün ən möhtəşəm varlıqları istədiyi anda istədiyi formada yaratmaq, şübhəsiz ki, çox asandır. O, hər şeyin sahibidir, hər şeyə hökm edəndir. Rəbbimiz ayələrində belə buyurur:

**Göylərin və yerin mülkü Onundur. Dirildən də, öldürən də Odur. O, hər şeyə qadirdir! Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir! Göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Odur. O, yerə girəni də, (yerdən) çıxanı da, göydən enəni də, (göyə) qalxanı da bilir. Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir! Göylərin və yerin hökmü Onun əlindədir. (Bütün) işlər (axırda) ancaq Allaha tərəf qayıdacaqdır! (Hədid surəsi. 2-5)**

## Darvinistlər təsadüfləri möcüzələr həyata keçirən saxta ilah kimi göstərməyə çalışırlar (Allahı tənzih edirik)

Təsadüflər darvinistlərin "hər şeyi həyata keçirən, sanki möcüzə meydana gətirən" saxta ilahıdır. Darvinistlərin bəsit dünyasına görə zaman və təsadüflər birlikdə fantastik şəkildə hər şeyi meydana gətirə bilərlər. Bu ağıldankənar inama görə təsadüflər insanların bacarmadıqlarını bacarır, bir yolla laboratoriyadan və elm adamlarından daha üstün bilik, bacarıq və texniki imkana malik olurlar. Darvinizmə görə təsadüflər hər şeyi mükəmməl komplekslikdə və qüsursuz şəkildə meydana gətirmiş, xətasız, ehtiyatlı, tədbirli mütəxəssislərdir. Darvinistlərin həyata dair açıqlamalarının ardındakı xəyali qəhrəman darvinist nağıllara görə daima şüursuz təsadüflər olmuşdur.

Darvinistlər üçün bunu insanlara qəbul etdirməyin də müxtəlif üsulları var. Əlbəttə ağlı başında olan heç kim bir sürünənin anatomiyasının tamamilə dəyişərək mükəmməl görünüşlü, süzərək uçan quşa çevrildiyinə normal şərtlər daxilində inanmaz. İnsanları bu cür məntiqə zidd

hekayəyə inandırmaq üçün bir cür sehr sistemi qurulmalıdır. Elə bu səbəbdən darvinistlər tərəfindən təsadüf bütünün fantastik bacarıqları müxtəlif elmi terminlər ehtiva edən nağıl şəklində insanlara təlqin edilir. Bu nağıla görə bir canlı varlığın əmələ gəlməsindəki hər mərhələ kor təsadüflərin əsəridir və təsadüflər bunu möcüzələrlə həyata keçirmişdir. Bir darvinistdən "ilk canlı hüceyrə necə əmələ gəldi?" deyə soruşsanız, alacağınız cavab "bir palçıq yığını içində möcüzəvi şəkildə öz-özünə" olacaqdır. Gözün necə əmələ gəldiyini soruşsanız, "Möcüzə" cavabını alacaqsınız. "Qanadlar necə əmələ gəldi, quşlardakı mükəmməl tüklər necə əmələ gəldi?" desəniz, "Bir gün bir yolla bir möcüzə oldu" məntiqi ilə izahlar verəcəkdir. Darvinistlərin ağıldan və elmdənkənar izahlarında bu xəyali prosesi istiqamətləndirən heç bir şüur, heç bir ağıl yoxdur. Lakin kainat son dərəcə həssas müvazinətlər üzərindən qurulmuşdur. Yer üzü qüsursuz nizama malikdir. Bu nizamdakı ən kiçik pozulma bütün sistemin tamamilə məhv olması deməkdir. Hər bir canlı növü də olduqca mürəkkəb quruluşa və heyranedici xüsusiyyətlərə malikdir. Elə bütün bu incəliklərin hər biri üstün güc və qüdrət sahibi olan ağlın, yəni Uca Allahın əsəridir.

Darvinist hekayələrdə isə bu mükəmməl müvazinət və heyranedici komplekslik gözardı edilir. Elmi terminlərlə bəzədilib anlaşılmaz hala salınan təkamül hekayəsinin içindəki bütün bu cəfəngiyyatlar sanki sehrləyirmiş kimi ehtiyatla və davamlı şəkildə təlqin edilir.

Teoloq R.C. Spraul bu məsələ ilə bağlı bunları demişdir:

Elm adamları təsadüfə bir güc aid etdikdə fizika sahəsini sehrə tərk etmişdirlər. (Darvinistlərin fikrincə) təsadüf sadəcə dovşanları deyil, bütün kainatın yoxluqdan ortaya çıxmasını təmin edən sehrli çubuqdur.[129]

Darvinistlər nə qədər bu təlqini yaşatmağa çalışsalar da, əslində möcüzə bəxş etdikləri güc ağılsız, şüursuz, kor təsadüflərdir. Təsadüflər ardında heç bir şüurlu amil olmadan, heç bir ağıllı, istiqamət verici, planlaşdırıcı güc olmadan meydana gələn hadisələrdir. Təsadüfən baş verən bir hadisənin sınama-yanılma yolu ilə ən doğrusunu tapa bilməsi, gələcəkdə meydana gələcək hadisələri təxmin edib buna əsasən tədbir görməsi, bir orqanın nəyə bənzəyəcəyini əvvəlcədən planlaşdırması, fədakarlıq, vəfa və sevgi göstərməyi bilməsi, şübhəsiz ki, mümkün deyil. Bir başcıqlı iynəni belə əmələ gətirə bilməyən xəyali bir gücün dünyadakı möhtəşəm canı müxtəlifliyini meydana gətirdiyini iddia etmək ağla, elmə və əlbəttə sağlam fikrə ziddir.

Burada "bir başcıqlı iynəni belə əmələ gətirə bilməz" ifadəsi darvinist iddialara bir cavab olaraq və bu iddiaların qeyri-mümkünlüyünü vurğulamaq üçün işlədilmişdir. Əslində təsadüflərin hər hansı bir şey "əmələ gəldiyini" iddia etmək ciddi məntiq pozuntusuna və ağılsızlığa işarədir. Lakin darvinistlər bu anormal məntiqdən istifadə edərək bütün dünyanı aldada bilmişlər. Darvinistlərin qəribə məntiqlərinə əsasən kifayət qədər vaxt verildikdə təsadüflərin edə bilmədiyi şey yoxdur.

Nobel mükafatına layiq görülmüş təkamülçü bioloq Corc Uoldun aşağıdakı sözləri darvinistlərin təsadüf + zaman formuluna sehrli formul kimi inandıqlarını açıq şəkildə ifadə edir:

Sadəcə gözlənilməlidir: zaman möcüzələr həyata keçirir. Çox zaman verildikdə qeyri-mümkün mümkün, mümkün ehtimal və ehtimal qeyri-real olaraq qətiləşər.[130]

Əlbəttə, bütün bu məntiqdənkənar açıqlamaların məqsədi darvinistlərin canlıların varlığına – öz ağıllarına görə - yaradılışdan kənar açıqlama gətirmə cəhdidir. Şübhəsiz, zamanla təsadüflərin birləşərək palçıq yığınından çiçəklər, pişiklər, balıqlar, quşlar, sürünənlər, insanlar meydana gətirdiyini qəbuledilməz olduğunu darvinistlər də bilir. Lakin onlar doğru açıqlamanı qəbul etmək əvəzinə məntiqsiz olanı məntiqsiz göstərməyə cəhd edirlər.

Göründüyü kimi darvinistlərin bütün açıqlamaları yalana əsaslanır. Darvinistlərin bəzəkli sözlərini, latın dilindəki təriflərni, anlaşılmaz elmi terminlərini çıxardıqda yerdə "bütün canlılar

təsadüfi hadisələr nəticəsində, şüursuz şəkildə, kor təsadüflərin birləşməsilə, heç bir nəzarət, heç bir tədbir, heç bir şüurlu müdaxilə olmadan təsadüfən əmələ gəldi" yalanı qalır. Elə darvinistlərin insanları inandırmağa çalışdığı yalan da budur.

Dövrümüzün ən coşğun darvinistlərindən biri olan ateist təkamül bioloqu Riçard Doukinsin aşağıdakı sözləri darvinist məntiqin nə qədər çıxılmaz vəziyyətdə olduğunu görmək üçün kifayətdir:

... Heyvanlar tələsik bir yerə toplanmış, keçmişdən yamalanarak gelmiş, kobud şəkildə nizamlanaraq yöndəmsizləşmiş gülünc bədheybətlər olmalı idilər. Lakin qida ovlayan bir gepardın olduqca zərif hərəkətlərini, dağ qaranquşunun aerodinamik gözəlliyini və ya yarpaq görünüşlü həşəratın (kamuflaj yolu ilə etdiyi) göz yanıldıcı incəliklərinə yönəltdiyimiz maraq dolu diqqətimizi bu gözləntimiz ilə necə əlaqələndirə bilərik? [131]

Allah dəccalı elə böyük tələyə salmışdır ki, sonda dəccal tərəfdarları öz ağıllarına görə Allaha qarşı mübarizə aparmaq üçün "təsadüf" kimi məntiqsiz, ağıldankənar və ibtidai sinif şagirdlərini belə güldürən nağıla sığınmaq məcburiyyətində qalmışlar. Təsadüf elə batil və ağılsız iddiadır ki, həşəratların üstün qabiliyyətlərindən istifadə edərək texnoloji alətlər meydana gətirdiyini iddia etmək belə bununla müqayisədə daha məntiqli olar. Lakin dəccalın sehri bəzi insanları bu cəfəngiyyata inandırmış. Bu cəfəngiyyat məktəblərdə tədris edilir. Ancaq insanlar təsadüflərin məntiqsiz şəkildə ilahlaşdırıldığını və onlara bir yaradıcı vəsfi verildiyini (Allahı tənzih edirik) görüb anladıqca, dəccalın axırzamandakı ən böyük oyunu olan Darvinizm yazıq hala düşmüşdür.

Allah ayələrində belə buyurur:

**İndi soruş: onları yaratmaq çətindir, yoxsa Bizim yaratdıqlarımızı?**

**Axı Biz onları yapışqan (kimi) bir palçıqdan yaratdıq.**

**Bəli, sən (bu möhtəşəm yaratmaya və onların inkarına) təəcüblənirsən, onlar isə istehza edirlər.**

**Onlara öyüd-nəsihət verildikdə düşünüb ibrət almazlar.**

**Bir möcüzə gördükdə isə ona istehza edərlər.**

**Və belə deyərlər: "Bu ancaq açıq-aşkar bir sehrdir. Məgər biz öldükdən, torpaq və sürsümük olduqdan sonra dirildiləcəyikmi?!**

**Eləcə də əvvəlki atalarımız (dirildiləcəklərmi)?!"**

**De: "Bəli, özü də zəlil (xar) olaraq (dirildiləcəksiniz). (Saffat surəsi, 11-18)**

## 2. Darvinistlər təkamülün əsas müəmmalarını görməməzliyə vururlar

Darvinizm yalanı ilə bağlı öyrənilməli çox mühüm həqiqət var: Darvinizm hələ həyatın mənşəyi məsələsinə, yəni canlıların ilk dəfə necə üzə çıxması sualına ağıllı və elmi açıqlama verə bilməmişdir. Darvinistlərin hər şeyin mənşəyi hesab etdikləri o xəyali "ilk hüceyrə"nin, hətta onun ilk zülalının belə necə əmələ gəlməsi bəlli deyil. Təkamül nəzəriyyəsi necə əmələ gəldiyini izah edə bilmədiyi bircə zülal qarşısında tamamilə məhv olmuşdur.

Bu həqiqət bütün darvinistlərə məlumdur. Buna görə oxuyacağınız hər darvinist KİV-də, seyr edəcəyiniz hər darvinist verilişdə bu mövzu tələsik üstündən keçilməyə və unutdurulmağa çalışılır. Darvinizm təbliğatı aparan heç bir yerdə bir zülalın təsadüfən əmələ gəlmə ehtimallarının qeyri-mümkün olması, elm tarixi boyu laboratoriyalarda həyata keçirilmiş saysız-hesabsız təcrübənin hüceyrənin bircə zülalını, bircə orqanoidini əmələ gətirə bilməməsi, hüceyrənin

tədsadüfən əmələ gəlməyəcək qədər mükəmməl və mürəkkəb kompleksliyə malik forma olduğunu öyrənmək mümkün deyil. Çünki bu həqiqətlər həyatın mənşəyinə dair elmdənkənar bəsit darvinist izahı yerlə bir edir. Təsadüflərin bir zülalın içindəki amin turşularını belə izah edə bilməməsi nəzərə alındıqda təkamül nəzəriyyəsinin xəyali "zaman + təsadüflər + palçıqlı su" formulu uşaq bağçaları üçün hazırlanmış nağıl kitabı başlıqlarını xatırladır.

Bütün bunların həyata keçdiyini, Darvinizmin sehrli formulunun işə yaradığını və xəyali ilk hüceyrənin əmələ gəldiyini fərz etsək belə (ki bu elmi cəhətdən mümkün deyil), darvinistlər yenə çox böyük müəmmalarla qarşı-qarşıyadırlar. Darvinistlərin bir hüceyrənin orqanoidlərinin hər birinin funksiyalarını, bir hormonun orqanizmdəki funksiyaları, qaraciyər, dalaq, mədə, ağciyər, beyin kimi kompleks orqanların əmələ gəlməsini və fəaliyyətini, həm də iddia etdikləri kimi bütün bunların başqa canlılardan təkamül yolu ilə qüsursuz və mükəmməl şəkildə möcüzə ilə əmələ gəlməsini açıqlamalıdırlar. Lakin darvinistlər gözlənildiyi kimi izahı qeyri-mümkün olan bu mövzuların yanına belə yaxınlaşmırlar.

Çünki ən kiçiyindən ən böyüyünə qədər canlıların hamısındakı möhtəşəm kompleksliyi saxta darvinist mexanizmlərlə açıqlamaq mümkün deyil. Bütün darvinistlər əslində yer üzündə, göy üzündə, bütün canlıların və insanın yaradılışında açıq-aydın möcüzə olduğunu bilirlər. Döllənmiş bir hüceyrənin bölünərək 100 trilyon hüceyrədən ibarət mükəmməl insan bədənini əmələ gətirməsini, bunların 30 trilyonunun insan beynini əmələ gətirmək üçün xüsusiləşib ayrılmasını, onların içində 120 trilyon rabitə quran 12 milyard beyin hüceyrəsinin mükəmməl şəkildə işləməyə başlamasını və bütün bunların nəticəsində ortaya düşünən, varlığının şüurunda olan mükəmməl canlının çıxmasını darvinist yalan üsulları ilə açıqlaya bilməyəcəklərini özləri də bilirlər.

Elm yazıçı və jurnalist Fred Hiren darvinistlərin də gözlərinin qarşısında olan bu həqiqəti aşağıdakı sözlərlə açıqlayır:

Açıq-aşkar olan bu həqiqət olduqca başa düşüləndir. Məntiqli çıxarış budur: gördüyümüz hər şey çox böyük, fövqəltəbii səbəb tələb edən nəticədir. Günəş və ulduzlar, Ay və Yer bəzi şeylərdən öz-özünə əmələ gəlməyiblər. Bu məntiqsizdir – yalnız Qərb məntiqi deyil, bütün insan məntiqi baxımından məntiqsizdir. Kainatdakı hər hadisə buna səbəb olan şey ilə əlaqədar şəkildə izah edilə bilər. Amma sözügedən hadisə kainatın özünün necə əmələ gəlməsi olduqda, bunun kainatın içində açıqlaması yoxdur. Burada artıq təbiətə aid bir açıqlama yoxdur.[134]

Şübhəsiz, bütün kainata, yerə və göyə, bütün canlı varlıqlara hakim olan, onların hamısını yaradan Uca Allahdır. Allah bircə hüceyrədə yaratdığı möhtəşəm aləm içində elə mürəkkəb nizam var etmişdir ki, bunun nəinki təsadüflərlə, insan bacarığı, qabiliyyəti və ağlı ilə açıqlanması qeyri-mümkündür.

Elə Darvinizmin ən böyük müəmmalarında birini bu həqiqət təşkil edir. Darvinistlər bir məsələyə dair izah verə bilmədikdə, adətən "boyun qaçırma" siyasətindən istifadə edirlər. Təkamül nəzəriyyəsinin saxta mexanizmlərini sadalayır, lakin onların necə "təkamül" meydana gətirdiyinə dair heç bir elmi açıqlama vermirlər. Təkamül nəzəriyyəsi öz açıqlamaları içində boğulmuşdur, lakin oxucuya bunu hiss etdirməməyə çalışırlar. Ancaq təkamülçü bioloq, ateist Riçard Doukinsin aşağıdakı etiraflarından da başa düşüldüyü kimi təkamülün əsas müəmmaları darvinistlərə çox yaxşı məlumdur:

Təbiət çatışmazlıq əmələ gətirmələrinə baxmayaraq bir sıra mutasiyanı birləşdirərək bir canlı nəsli üçün ən ideal inkişafa aparan yolu müəyyən etmə öngürüsünə malik deyil.[135]

Qurudan dənizə keçən bir nəslin hərəkət sistemində olduğu kimi tənəffüs sistemində də dəyişikliklərə ehtiyacı olacağı yəqindir, lakin bunların arasında əlaqə olduğunu düşünmək üçün əsaslı bir səbəb yoxdur. Yerimə üzvlərini üzgəclərə çevirən proses nə üçün oksigen qəbul etməsi

üçün ağciyərlərin funksionallığını artıran proseslərlə əlaqədar olmalıdır? Əlbəttə, eyni anda adaptasiyanı həyata keçirən bu proseslərin embrioloji mexanizmlərin təsadüfi nəticəsi kimi əlaqədar hala gəlməsi ehtimalı var, ancaq bu əlaqənin mənfi əvəzinə müsbət nəticə verməsi o qədər də mümkün deyil.[136]

Dövrümüzün ən tanınmış ateistlərindən olan Riçard Doukins belə cidd-cəhdlə müdafiə etdiyi təkamülün heç bir mexanizminin "təkamülə" dəlil olmadığını açıq şəkildə etiraf edir. Doukins bu sözlərilə mutasiyaların heç bir faydalı nəticə verməyəcəyini və bir canlının sudan quruya keçidi üçün lazım olan çevrilmələrin qeyri-mümkün olduğunu ifadə etməyə məcbur olmuşdur. Doukinsin bu etirafları elmi cəhətdən heç bir dəlili olmayan batil Darvinizm dininin kor-koranə necə müdafiə edildiyini təsdiqləyir.

Doukins kitabında eyni zamanda Nobel mükafatına layiq görülmüş immunoloq Prof. Ser Piter Medavar-dan da məsələ ilə balıq sitat gətirmişdir:

"... əlimizdə təkamül xarakterli inkişaf ilə bağlı inandırıcı tərif yoxdur..."[137]

Əsas müəmmaların görməməzliyə vurulması, əlbəttə, mövzu haqqında məlumatı olmayan insanlara təsir edir. Lakin insanlar təkamül nəzəriyyəsi haqqında məlumatlandıqca haqqında bəhs edilməyən bəzi həqiqətlər, qəsdən üstündən keçilən təfərrüatlar və ört-basdır edilməyə çalışılan əsas mövzularla bağlı suallar verməyə başlayacaqlar. Bu gün bəzi ölkələrin məktəblərində, ABŞ-nın müxtəlif ştatlarında və Avropada baş verən vəziyyət budur. Şagirdlər kor-koranə təhsil almağı rədd edir, bu əsas müəmmalar məsələsində müəllimləri ilə mübahisə etməkdən belə çəkinmirlər. Dəccalın insanları aldatdığı dövr sona çatmışdır. Darvinizmin əsas müəmmaları insanların diqqətini çəkir, bütün bunların izahını gözləyirlər. Darvinistlərin bu məsələ ilə bağlı uzun davam edən səssizliyi Darvinizm tərəfdarlarını belə şübhəyə salmış, insanlar Darvinizmdən kənar izah axtarmağa başlamışlar. Əlbəttə, Darvinizm sehrindən xilas olan hər insan ağıl və şüur nümayiş etdirən, möhtəşəm kompleksliyə malik canlıların yaradıldığını açıq şəkildə görür.

Darvinizm çıxılmaz vəziyyətdədir, çünki canlılar təkamül keçirməmiş, yaradılmışlar. İnsanlar artıq bunu açıq şəkildə görür, ağılları və vicdanları ilə bu həqiqəti qəbul edirlər. Allah uca qüdrəti ilə hər şeyə qadir olduğunu və Darvinizmin saxta tanrılarının heç bir gücü olmadığını ayələrində belə bildirir:

**Ey insanlar! Bir məsəl çəkildi, ona qulaq asın! Şübhəsiz ki, Allahdan qeyri ibadət etdiyiniz bütlər heç bir milçək də yarada bilməzlər – lap hamısı bunun üçün bir yerə yığışsa belə! Əgər milçək onlardan bir şey götürüb aparsa, onu milçəkdən geri ala bilməzlər. İstəyən də aciz, istənilən də! Allahı layiqincə qiymətləndirmədilər. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Həcc surəsi, 73-74)**

## 4. Darvinistlər ara fosil olduğunu təlqin edirlər

150 il boyu yalanı doğru kimi göstərməyi qarşısına məqsəd qoymuş, təkamül nəzəriyyəsinin saysız-hesabsız saxtakarlığını həqiqət kimi insanlara təqdim etmiş, saxta fosilləri uzun illər nümayiş etdirmiş və bu yalanı məktəb tədris planına daxil edib həqiqət kimi oxutmuş darvinistlər üçün Darvinizmin ara fosillərlə dəstəklənməsi kimi yalana da insanları inandırmaq çətin deyil. Darvindən bəri davam edən bu yalan şəxsən Darvinin sonradan ara fosillərin tapılacağına dair boş vədlərilə başlamışdır. Əslində Darvin dövrümüzdən 150 il əvvəl bunu demişdi və sözü doğru çıxmışdır.

Əgər həqiqətən növlər digər növlərdən yavaş inkişafla törəyibsə, nə **üçün saysız-hesabsız ara keçid formasına rast gəlmirik?** Nə üçün bütün təbiət qarışıq halda deyil, **tamamlanmış və**

**yerli-yerindədir?** Saysız-hesabsız ara keçid forması olmalıdır, lakin nə üçün yer üzünün sayılmayacaq qədər çox təbəqəsində **gömülmüş halda tapa bilmirik?..** Nə üçün hər geoloji forma və hər təbəqə belə əlaqələrlə dolu deyil? Geoloji cəhətdən yaxşı dərəcələndirilmiş proses üzə çıxmır və bəlkə də **bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaqdır**.[138]

Darvin doğru demişdi. Öz dövründə tapılmayan ara fosillər sonrakı illərdə də tapıla bilməmişdir və bu həqiqət Darvinin nəzəriyyəsini qəti olaraq məhv etmişdir. Darvinistlər də bu prosesdə 150 il əvvəl mövcud olmayan xəyali ara fosillərin mütləq bir gün tapılacağı inancını insanlara təlqin etməyə çalışmışlar. Texnologiya və inkişaf edən elm ara fosillərin varlığını tələb etdikdə isə həll yolunu saxtakarlıqda görmüşdülər. Bu gün təkamül nəzəriyyəsinin öyrədildiyi bütün biologiya dərslikləri, bütün darvinist KİV-lər, Darvinizm tərəfdarı olan mətbuat təkamül nəzəriyyəsi üçün həyatı əhəmiyyəti olan ara fosil nağılını danışarkən bu saxta dəlillərə yer verir. Bu KİV-ləri hələ də *Archaeopteryx*-i, *Coelacanth*-ı, Hekkelin saxta rüşeym rəsmlərini, ağac gövdəsinə yapışdırılmış sənaye kəpənəklərini, insan kəlləsinə oranqutan çənəsinin yapışdırıldığı Piltdaun adamını, bir qabanın azı dişinə əsaslanaraq ailəsi ilə birlikdə rəsmləri çəkilmiş Nebraska adamını, meymun adam formasında təsvir edilən, ancaq bir insan irqi olması başa düşülən Neandertal adamını, meymun olduğu elmi cəhətdən sübut edilmiş Lusini və saxtakarlıq olduğu başa düşüldüyü üçün elmi ədəbiyyatdan çıxarılmış kəllə sümüklərini dəlil kimi göstərirlər. Darvinizmin XXI əsrdə düşdüyü aciz vəziyyət məhz budur.

Çox vaxt darvinist mənbələrdə bu ifadəyə tez-tez rast gəlirsiniz: “Təkamülü sübut edən ara fosillər o qədər çoxdur ki...” Bu ifadə çox böyük yalandır. Yalnız oxuyan zehnlərinə verilən təlqindir. Başqa sözlə, klassik darvinist metod tətbiq edilir və yalan inandırıcı edilmək üçün yüksək səslə və israrla, dəfələrlə deyilir.

Lakin təkamül nəzəriyyəsini sübut edən **bircə ara fosil də yoxdur.** Darvinist elm adamları, əlbəttə, elmin göstərdiyi bu açıq-aydın həqiqəti çox yaxşı bilirlər. Ara fosil olmadığına görə təkamül nəzəriyyəsinin içinə düşdüyü çıxılmaz vəziyyət də onlara məlumdur. Lakin ehkamçı düşüncə tərzləri darvinistləri, nəyin bahasına olsa da, təkamül nəzəriyyəsini yaşatmağa məcbur edir.

Belə ki, darvinistlərə yaxın keçmişdə bununla bağlı müraciət edilmiş, əllərində olan bircə ara fosili dünyanın ən məşhur meydanlarında nümayiş etdirmək tələb olunmuşdur. Amma bunun əvəzində həmişəki kimi dərin sükut olmuşdur. Lakin əgər iddiaları doğru olsaydı, əgər canlı növləri bir-birlərindən yavaş inkişafla təsadüfi mərhələlərlə milyonlarla illik proses nəticəsində təkamül keçirərək əmələ gəliblərsə, onda darvinistlərin əllərində bir dənə deyil, milyonlarla, hətta trilyonlarla ara fosil olmalı idi. Amma darvinistlər “bircə ara fosil gətirin” müraciətinə belə cavab verə bilmirlər. Çünki əllərində heç ara fosil yoxdur. Elə darvinistlərin şövqlə və coşğunluqla irəli çıxıb bircə dənə ara fosil üzə çıxara bilməmələrinin səbəbi də budur.

Təkamülçü paleontoloq Mark Czarnecki mövzu ilə bağlı bu etirafı edir:

Nəzəriyyəni (təkamülü) sübut etməyin qarşısındakı ən böyük maneə hər dövrdəki kimi fosillər olmuşdur... Bu fosillər heç vaxt Darvinin fərz etdiyi ara formaların izlərini üzə çıxarmamışdır. Növlər ani surətdə əmələ gəlir və yenə ani şəkildə yox olurlar. Bu gözlənilməz vəziyyət növləri Allahın yaratdığını müdafiə edən düşüncəyə dəstək verir.[139]

Təkamülçü geoloq Karlton E. Brettin etirafı isə belədir:

Yer üzündə həyat zaman ərzində, yavaş-yavaş və mərhələ-mərhələ əmələ gəlib? Fosillərin bu suala cavabı: “Xeyr”dir.[140]

Darvinizm sehri 150 il boyu o qədər sistemli şəkildə insanlar üzərində təsirli olmuşdur ki, insanlar olmayan bir şeyin varlığına inandırılmışlar. Heç kim “milyonlarla ara fosil olmalıdır, bunlar haradadır?”deyə soruşmamışdır. Heç kim “qazıntılarda ortaya çıxan 250 milyondan çox fosil daim mükəmməl görünüşlü, tamamilə təkmil canlılara iaddir, lakin bunların bircəsi belə ara fosil deyil” deməmişdir. Heç kim nə üçün ara fosil görünüşü altında daima bir neçə müəyyən canlılnın rəsmi ilə qarşılaşdığını, ən məşhur elm adamlarının belə bu uydurma fosillərdən başqa göstərəcək bir şeyləri olmadığını, doktorluq dissertasiyaları üçün hazırlanan kitablarda belə nə üçün ancaq bunların mövzu kimi götürüldüyünü araşdırmamışdır. Bundan əlavə, heç kim ön plana çıxarılan bu bir neçə fosilin də ara forma xüsusiyyətini göstərmədiyini və bunun elmi cəhətdən sübut edildiyini bilmirlər. Xülasə, Darvinizm sehrinə tutulan, demək olar ki, heç kim, Darvinizmi dəstəkləyən bircə dənə dəlil olmadığını bilmir. Çünki bu həqiqət bu sehrin memarı olan darvinistlər tərəfindən ustalıqla və hiyləgərliklə gizlədilməyə çalışılmışdır.

Lakin “ara fosil var” yalanı nə qədər uzunmüddətli və nə qədər israrla deyilsə də, əgər insanlar əldə edilən həqiqi fosillərin varlığından xəbərdar edilsələr, bunların bu gün yaşayan canlılardan heç bir fərqi olmadığnı başa düşsələr, onda, şübhəsiz, yalanın təkrarlanmasının heç bir dəyəri qalmaz. Hal-hazırda dəccalın oyunu olan Darvinizmin vəziyyəti belədir. Darvinistlər insanları ara fosillərin olduğu yalanına inandırmaq üçün cəhd göstərərkən tam və mükəmməl görünüşlü milyonlarla illik canlıları göstərən fosillər insanlara açıq-aşkar göstərilir, fosil sərgiləri, internet və “Yaradılış Atlası” yolu ilə nümayiş etdirilir. İnsanlar gözlərilə gördüklərinə inanır, illərlə aldıqları darvinist təlqinə şübhə edirlər. Artıq darvinistlərin “ara fosil var” israrları heç bir işə yaramır. Dəccalın oyununa düşmüş darvinistlərin insanları aldatdıqları artıq dünya səviyyəsində başa düşülmüşdür. Bu yalanın davam etdirilməsi artıq mümkün deyil. Uca Rəbbimiz bir ayəsində belə buyurur:

**Xeyr, Biz batili haqla rədd edərik (haqqı batilin üstünə atarıq) və o da onu (batili) yox edər. (Bir də baxıb görərsiniz ki) o yox olub getmişdir. (Allaha) isnad etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

## 5. Darvinistlər təkamül nəzəriyyəsini “inkaredilməz” göstərirlər

Adətən nəzəriyyə irəli sürülür, elmi cəhətdən təsdiqlənir və ya təkzib edilir. Elmi cəhətdən qəbul edilir və ya inkar edilir. Biq Bənq (Böyük Partlayış) nəzəriyyəsi elmi nəzəriyyədir və təsdiqlənmişdir. Bu nəzəriyyəni dəstəkləyən dəlillər qarşısında irəli sürülən əks məntiqlərin əsassızlığı aydındır. Kimsə digər ehtimalların sübut edlməsi məsələsi üzərində dayanmır. Çünki əldə konkret elmi faktlar var. Konkret dəlillər digər ehtimallara qarşı bu elmi nəzəriyyəni təsdiq etmişdir.

Təkamül nəzəriyyəsi isə elmilik iddiası ilə irəli sürülmüş nəzəriyyədir və nəzəriyyənin cəfəngiyyat olması saysız-hesabsız dəlil ilə sübut edilmişdir. Nəzəriyyəni təsdiqləyən bircə dəlil də tapılmır. Bütün elmi kəşflər nəzəriyyənin fərziyyə kimi irəli sürüldüyünü və heç bir əsaslılığının olmadığını hər gün təkrar-təkrar sübut edir. Normal şərtlər daxilində bu nəzəriyyə çox əvvəllər inkar edlib aradan qaldırılmalı idi. Ancaq nədənsə belə olmamışdır. Tam əksinə, təkamül nəzəriyyəsi saxta dəlillərlə, elmi nəzəriyyə adı altında dərsliklərə daxil olmuş, televiziya kanallarında, sənədli filmlərdə, mətbuat orqanlarında müdafiə edilmişdir. Hətta Avropa Şurası ciddi-cəhdlə bu nəzəriyyəni qorumağa çalışmış, bu nəzəriyyənin elmi olmadığını sübut edən dəlillərin ortaya qoyulması üçün müraciətləri dəhşət və qorxu ilə qarşılamışdır. Müxtəlif ölkələrin məhkəmələri təkamülə qarşı gətirilən və tədris planında yer alan təklifləri qətiyyətlə rədd edir.

Çox yaxın tarixdə bir federal hakim dünyəvi məktəblərdə Darvinizmi tənqit etməyin ali qanuna zidd olduğunu açıqlayacaq qədər irəli getmişdir.[141] Darvinin öz kitabında da bəhs etdiyi "təkamülün çətinliklərinın" dərsliklərə əlavə edilməsi fikri darvinist kütlələri dəhşətə gətirmişdir. Qısaca desək, Darvinizm demək olar ki bütün dövlətlər tərəfindən müdafiə edilən, çox vaxt dövlətin dəstəyilə yaşadılmağa çalışılan yeganə "elmi" nəzəriyyədir. Bu kütlələr yaradılış həqiqətinin məktəblərdə öyrədilməsi də təkamül cəfəngiyyatının ifşa ediləcəyi üçün böyük səylə mane olmağa çalışmışlar. Çünki Darvinizm bu batil dinin qanunlarına əsasən "inkaredilməzdir". Eyni şəkildə Darvinizm bütün dünyada faşist Darvinist diktatorluq tərəfindən müdafiə edilir.

Yazıçı Enn Kulter bu həqiqəti aşağıdakı sözlərilə dilə gətirir:

Təkamül nəzəriyyəsini müzakirə etməkdən çəkinmək üçün Darvinizmin coşğun tərəfdarları daima (öz ağıllarına görə) "lazımsız" həqiqətləri sanki ehtiyat hissə kimi müzakirədən kənarlaşdırırlar. Təkamülü inkar etməyin sanki Günəşin şərqdən doğmasını inkar etmək kimi bir şey olması təsəvvürünü verirlər.[142]

Darvinist diktatorluğa əsasən Darvinizmi inkar etmək sanki cinayətdir. Darvinizmin batil din kimi mənimsənildiyi və mənimsədilməyə çalışıldığı ölkələrdə bu sanki vətənə xəyanət kimi görünür. Heç kim elmi dəlillərin nəzəriyyəni təkzib etdiyini, nəzəriyyənin artıq heç bir əsaslılığının qalmadığını açıq şəkildə deyə bilmir. Darvinizmi mübahisəsiz həqiqət kimi qəbul etmək sanki şərtdir. Riyaziyyat üzrə professor Volfqanq Smit bir təkamülçü kimi bu vəziyyəti belə açıqlamışdır:

Bizə doqmatik cəhətdən təkamülün qəbul edilmiş həqiqət olduğu deyilir. Amma bunu kimin, hansı yollarla qəbul etdiyi heç vaxt deyilmir. Bizə tez-tez bu doktrinanın sübuta əsaslandığı deyilir və bu sübutun da "bundan sonra ediləcək bütün təsdiqləmələrin fövqündə olması və eyni şəkildə təcrübələrlə əldə edilən sonrakı bütün təkziblərdən uzaq olduğu" bildirilir. Ancaq bizi bu sübutun harada olması ilə bağlı mühüm sual qarşısında tamamilə qaranlıqda qoyurlar.[143]

Darvinizmin inkarının qarşısını alınır, çünki əks təqdirdə batil Darvinizm dininin müdafiəçilərinin heç bir əsası olmayan bu nəzəriyyəni yaşada bilmək üçün bir yolu qalmayacaq. Yalan uca səslə deyilir və bunun yalan olduğunu iddia etmək cinayət hesab edilmir. Elmilik iddiası ilə irəli sürülən nəzəriyyə elmdən tam mənada uzaq, rəsmi və açıq şəkildə inkarı qeyri-mümkün batil, ehkamçı inanc sisteminə çevrilmişdir. Əsl diqqət çəkən cəhət isə bunun göz görə-görə, heç çəkinmədən edilməsidir.

Bu o dərəcəyə çatdırılmışdır ki, Roma papası öz evində Darvinizmi müdafiə edən konfranslar verməyə məcbur olmuşdur. Kilsələr Darvindən üzr istəməyə məcbur ediliblər. Universitet professorları təkamülü təkamülü mühakimə edən əsərlərinə görə vəzifələrindən azad edilmiş, işdən uzaqlaşdırılmışlar. Bu böyük təkid bir çox ölkədə uğurla nəticələnmiş, xüsusilə yuxarı mövqelərdə təkamül qəti şəkildə mübahisəsiz qəbul edilmişdir.

Darvinizmin inkaredilməzliyini təmin etmək üçün darvinistlər lazım olan hər yola əl ata bilərlər. Təkamül nəzəriyyəsini inkar edən sübutları ört-basdır edir, təkamülün əsassızlığını sübut edən dəlilləri təhrif edib dəyişdirərək və insanları açıq şəkildə aldadaraq təkamülün dəlili kimi göstərə bilərlər. Eynilə Çarlz Dulitl Uolkotun 70 il boyu Kembri fosillərini gizlətməsi kimi.

Darvinist öncədən qəbul və şərtlənmə darvinistləri çox məntiqsiz şeyləri müdafiə etməyə və bu məntiqsizlikləri bəzən ifadə etməyə məcbur edir. Yuxarıdakı sözündə təkamülçü bioloq elmi dəlillər, məntiqli sübutlar olmasa da, təkamülün doğruluğuna əsla şübhəsi olmayacağını açıq şəkildə bildirir. Bu da bir daha göstərir ki, təkamül nəzəriyyəsinin müdafiə edilməsinin səbəbi elmi faktlar və tapıntılar deyil. Belə olduqda qəbul edilməli bir aydın həqiqət var: təkamül batil, saxta, aldadıcı dindir.

Riyaziyyatçı və filosof Uilyam A. Dembski darvinistlərin təkamülü inkaredilməz göstərmələrini bu sözlərlə ifadə edir:

Darvinçi mühafizəkarlıqdan şübhələnmək stalinçi rejimin partiya idarəsinə qarşı çıxmaqla müqayisə edilə bilər. Stalinin Rusiyasında olsaydınız və Lisenkonun haqsız olduğunu irəli sürmək istəsəydiniz, nə edərdiniz? Lisenkonun genetika nəzəriyyəsindəki ziddiyyətləri və gərginlikləri bildirə bilərsiniz, amma Lisenkonun tamamilə haqsız olduğunu deyə bilməzsiniz və ya Lisenkoya açıq şəkildə müxalif olan alternativ təqdim edə bilməzsiniz. Hal-hazırda içinə düşdüyümüz vəziyyət budur.[144]

Darvinist diktatorluğun təzyiqi ilə Darvinizmin inkar edilə bilməməsi bəzilərini Darvinizmin doğru və qəbul edilmiş nəzəriyyə olduğuna dair qənaətə gətirmişdir. Çünki insanların böyük əksəriyyəti elm adamlarının bir cəfəngiyyatı müdafiə etməyəcəyini, televiziya və mətbuatın bir yalanı dəstəkləməyəcəyini düşünərək yanılırlar. Əgər bu bir yalandırsa, mütləq bunu ifşa edən biri olmalıdır deyə düşünürlər. Lakin ifşa etməyə çalışan hər səs müxtəlif təzyiq üsulları ilə susdurulmuşdur.

XX əsrdə təzyiq və məcburiyyətlə davam edən diktatorluq ənənəsi dövrümüzdə də yenə eyni şəkildə davam edir. Hələ də bir çox elm adamı işlərini itirmə qorxusu ilə təkamül nəzəriyyəsinə qarşı çıxmır, ailələr uşaqlarının təkamülü öyrənməsinə qarşı çıxdıqda mütləq təzyiq və təhdid ilə qarşılaşırlar. Lakin təkamül nəzəriyyəsi istənilən qədər məktəblərdə öyrədilsin, istənilən qədər təkamülə qarşı olan elm adamları susdurulsun, təkamülün yalan olduğunu görən zehinlərdə əmələ gələn aydınlanmanı heç bir darvinist məcburiyyət və təzyiq dəyişdirə bilməyəcəkdir. Bu gün Avropa Şurası uşaqların məktəblərdə təkamülü öyrənməsini şərt qoymuşdur. ABŞ-nın bir çox əyalətində tədris planında təkamüldən kənar şərhlərə yer verilməsi qadağandır. Çində, Rusiyada, demək olar ki bütün Asiya ölkələrində, hətta bəzi Müsəlman ölkələrdə belə təkamül nəzəriyyəsi tədris planının ayrılmaz hissəsidir.

Bunu da bildirmək lazımdır ki, nəzərdə tutulan və tənqid edilən darvinistlərin təzyiqedici və senzuraçı təfəkkürüdür. Məktəblərdə gənclərə tarix dərsi kimi təkamül haqqında məlumat verilə bilər, ancaq bununla bərabər təkamül nəzəriyyəsinin əsassız olduğunu sübut edən yüzlərlə dəlil də gənclərə öyrədilməlidir. Gənclər zorla, təktərəfli, təzyiqedici şəkildə təhsil almamalı, onlara elmi kəşflər tərəfsiz şəkildə təqdim edilməli, doğru olanı ağıllları və vicdanları ilə görmə və öyrənmə haqqına malik olmalıdırlar.

Ancaq bunu da xatırlatmaqda fayda var; bu zoraki mövqe darvinistlər tərəfindən öz ağıllarına görə nə qədər böyük qələbə kimi görünsə də, əslində dəhşət və qorxunun ifadəsidir. Avropa Şurası kimi darvinist düşüncəyə malik quruluş Darvinizmin çökməsindən ilk dəfə bu qədər böyük təşvişə düşmüşdür. Avropada illərdən bəri yaradılışı izah edən, təkamülün əsassızlığını ifadə edən müxtəlif əsərlər nəşr olunur, konfranslar təşkil olunur əv müxtəlif fəaliyyətlər görülür. Ancaq heç biri Avropaya Harun Yəhyanın nəhəng əsəri “Yaradılış Atlası” qədər təsir etməmişdir. Bu təsirin səbəbi “Atlas”da ortaya qoyulan elmi kəşflərin inkarı mümkün olmayan şəkildə təkamülün əsassızlığını nümayiş etdirməsidir. Artıq Avropadakı bütün tələbələr təkamül nəzəriyyəsinin gündəmə gətirilən 250 milyondan çox fosil ilə məhv edildiyini bilirlər. Çox asan girə bildikləri bircə internet səhifəsindən milyonlarla il əvvələ aid saysız-hesabsız canlının fosil rəsmini görür və canlıların əkamül keçirmədiyi qənaətinə gəlirlər. Saysız-hesabsız əsər və məqalə vasitəsilə darvinist saxtakarlıqları və təkamül nəzəriyyəsinin bircə dənə tutarlı dəlilinin olmadığını öyrəniblər. Darvinizm haqqındakı həqiqətlər asanlıqla əldə edilə bilir. Belə olduqda Darvinizm üçün edilən bütün qadağalar və təkidlər artıq tamamilə təsirsizdir. Darvinistlər bundan yüz il əvvəlki təsirlərin yenidən əmələ gələcəyinə ümid edərək eyni çürük taktikaları

tətbiq edirlər. Lakin dəccalın oyununun həqiqi üzünün tamamilə üzə çıxdığını unudurlar. Uca Allah bir ayəsində belə buyurur:

**Yoxsa pis əməllər edənlər Bizdən gizlənə biləcəklərini güman edirlər? Onlar necə də pis mühakimə yürüdürlər! (Ənkəbut surəsi, 4)**

## 6. Darvinistlər təkamül əleyhdarlarını susdurmağa çalışırlar

Darvinizmin inkaredilməzliyinin gərəyi kimi darvinistlər insanlara təsir edən hər təkamül əleyhdarını susdurmağa səy göstərirlər. Bütün dünyanı bürümüş batil Darvinizm dini və tərəfdarları bu məsələdə o qədər təzyiqedici və zorakı siyasət yeridirlər ki, bu və ya digər şəkildə təkamül haqqında şübhəli söz demək belə o şəxsə böyük çətinliklər yaradır. Bu faşist israra əsasən təkamül haqqında şübhələnmək də cinayətdir. Bunu dilə gətirmək cinayətdir. Təkamülün sübut edilməmiş nəzəriyyə olduğunu, hətta sadəcə bir nəzəriyyə olduğunu irəli sürmək də cinayətdir. Darvinizmin əleyhinə olan bir elm adamının hər hansı bir universitetin biologiya fakültəsində dərs verməsi demək olar ki qeyri-mümkündür. Darvinizm tərəfdarı olan bir qəzetin səhifələrində təkamülü məhv edən bir fosilin şəklini tapmaq mümkün deyil. Orta məktəb biologiya müəlliminin səhvən də olsa, təkamül nəzəriyyəsi ilə bağlı bəzi şübhələri olduğunu ifadə etməsi böyük səhvdir. Yəqin ki, bu orta məktəb müəllimini qısa müddətdə işindən azad ediləcəkdir.

Məsələn, biologiya professoru Karolin Kroker *Expelled "No Intelligence Allowed"* sənədli filmində təkamülü mühakimə etdiyi üçün Corc Meyson Universitetindən qovulduğunu belə danışır:

Müdirim məni ofisinə çağırdı və "Yaradılışı öyrətdiyin üçün səni intizama öyrətməliyəm" dedi... O semestrin sonunda işimi itirdim.[145]

Karolin Kroker 5 fevral 2006 tarixində "Washington Post" qəzetinə verdiyi müsahibəsində isə belə demişdir:

Təkamüldəki problemləri öyrətdiyimə görə Corc Meyson Universitetindəki işimi itirdim. Bir çox elm adamı təkamülü mühakimə edir, amma səslərini çıxarsalar, işlərini itirərlər.[146]

Dr. Riçard von Steynberq isə təkamülü mühakimə etdiyi və təkamülə qarşı olan yazıçıların şərhlərinə yer verdiyi üçün Təbiət Tarixi Muzeyindəki (National History Museum) işindən azad edilmişdir. Steynberqin mövzu ilə bağlı açıqlamaları belədir:

(Yaradılış məsələsi gündəmə gəldikdə) insanlar əsəbləşirdilər. Belə ki, onların fiziki reaksiya verdiyini görürdünüz. Şöbə müdiri isə (Yaradılışın daha inandırıcı olduğunu dediyim üçün) mənim intellektual terrorist olduğumu söyləyərək mövqeyini bildirdi.[148]

Beyin cərrahı Maykl Eqnor isə insanların həkimlik peşəsini işlətməsi üçün təkamül nəzəriyyəsini öyrənməyə ehtiyacı olmadığına dair izahının ardınca qarşılaşdığı reaksiyanı belə açıqlayır:

Bir çox bloqdan bir çox insan mənə ağıza alınmayacaq adlar dedilər. Çoxlu pis şərhlər aldım. İşlədiyim universitetdən və başqa yerlərdən insanlar mənə zəng etdilər və mənə təqaüdə çıxmağı məsləhət gördülər. Darvinist nəzəriyyəni tənqid etdikdə fərqinə vardığım və məni həqiqətən təəccübləndirən şey bu məsələdə ilə bağlı qəddarlıq, təcavüzkarlıq və bayağılıq idi.[149]

Eyni şəkildə professor Robert Marks da Darvinizmi mühakimə etdiyi üçün Beylor Universitetindəki tədqiqat saytı bağlanmış və tədqiqatları üçün verilmiş qrant əlindən alınmışdır.

Sözügedən sənədli filmdə adının açıqlanmasını istəyən və ya istəməyən bir çox anti-darvinist elm adamının şəxsən yaşadıqları hadisələrə yer verilmiş və bu şəxslər Darvinizmi inkar etdiklərinə görə akademik karyeralarının tamamilə məhv edildiyini öz sözlərilə danışmışlar.

Jurnalist Lari Uitam isə Darvinizmin özünü və darvinist diktatorluğun metodlarını bu sözlərlə şərh edir:

Əgər yaxşı qiymət almaq istəyirsinizsə, yuxarı vəzifələrə seçilmək istəyirsinizsə və əgər milli elmi təhsil sisteminin dəstəkçisi kimi müxtəlif mükafatlar almaq istəyirsinizsə, (təkamül) modelini mühakimə edə bilməzsiniz.

Neçə-neçə elm adamından müsahibə aldım. Öz aralarında ikən və ya etibar etdikləri jurnalist ilə danışdıqda "bu mürəkkəb komplekslikdə" və ya "molekulyar bioloji böhran içində" kimi ifadələr işlədirlər, amma bunu cəmiyyət içində açıq şəkildə dilə gətirə bilmirlər.[150]

Jurnalist Pamela Uinnik isə yaradılışla bağlı yazdığı bir məqalədən sonra jurnalist kimi işindən azad edilyini bildirir və bunları deyirdi:

Əgər b mövzuya (yaradılışa) hər hansı şəkildə bir az belə etimad göstərsəniz, ki bunun üçün sadəcə bu mövzuda bir şey yazmağınız kifayətdir, onda bir jurnalist kimi peşəniz sona çatar.[151]

Filosof Stefen Meyer DNT-dəki məlumatın təsadüflə açıqlanmasının mümkün olmadığını, bunun ancaq üstün bir ağlın əsəri olduğunu açıqlayan fikrini sübutları ilə birlikdə biologiya jurnalında nəşr etdikdə darvinistlər jurnalın redaktorunun karyerasını məhv etmək istəmişdilər. [152] Amerika Vətəndaş Azadlıqları Birliyi (American Civil Liberties Union) Corciya əyalətinin Kobb şəhərindəki məktəbləri dərsliklərin üstündəki "açıq təfəkkürlə, diqqətlə araşdıraraq və tənqidi yanaşaraq" təkamülü öyrənmələri ilə bağlı xəbərdarlıq qeydlərinə görə ittiham etmişdir. Kaliforniya Lebekdə Kilsə və Ştatın Ayrılması üçün Birləşən Amerikalılar təşkilatını təmsil edən ailələr məktəbləri təkamüllə yaradılış arasında fərqi dərk etməyi sadəcə təklif etdiyi üçün ittiham etmişdir. Pensilvaniya Doverdə Amerika Vətəndaş Azadlıqları Birliyi (AVAB) və Kilsə və Ştatın Ayrılması üçün Birləşən Amerikalılar tərəfindən dəstəklənən kiçik bir qrup doqquzuncu sinifdə biologiya dərslərində yaradılış həqiqətinin müzakirəsinə mane olmaq üçün məhkəməyə müraciət etmişdir. Hakim bu ailələrin lehinə qərar vermiş və məktəb iddiaçının qanuni haqqı olan müəyyən məbləğdə pul ödəməyə məcbur edilmişdir. Bu məbləğ bir milyon dollardan çoxdur.[153]

Yazıçı Enn Kulter bu hadisələri belə dəyərləndirir:

Dover hadisəsindən sonra AVAB ittihamları ilə iflas riskinə girmək istəməyən heç bir məktəb yaradılış kəlməsini ağzına almağa belə cəsarət etmədi. Darvinistlərin məbədlərinin, yəni dövlət məktəblərinin dünyəvi müqəddəsliyini mühafizə etmişdilər. Elmdə, inandırmada və dəlildə qalib gələ bilməmişdilər. Liberalların həmişə qalib gəldiyi yolla qalib gəlmişdilər: onlara hər istədiklərini gümüş sinidə gətirən məhkəmə taparaq.

Bu, elm deyil.[154]

Darvinistlərin tətbiq etdiyi bu təzyiqedici üsullar bəzi insanlar üçün olduqca çəkindirici metodlardır. Bir milyon dollar qədər pul cəzası ilə qarşılaşan məktəb böyük təzyiq ilə üzləşdiyinə görə susdurulmuşdur. Bunu nəzərə alan tədris işçisi işini itirmək təhlükəsi ilə qarşı-qarşıyadır. Bu sistem Uilyam A. Dembskinin bildirdiyi kimi diktatorluq rejiminə bənzəyir. Heç kim diktatorun əleyhinə ağzını belə aça bilmir.

Təkamülçü fizika professoru H. S. Lipson bir elm adamı kimi elmin yaradılışı göstərdiyini deyir, ancaq bu həqiqəti qəbul etməyin darvinist diktatorluğun təzyiqinə görə nə qədər çətin olduğunu bu sözlərlə açıqlayır:

Əgər canlı bir maddə atomların qarşılıqlı əlaqəsi, təbiət hadisələri, radiasiya təsirilə əmələ gəlməyibsə, onda necə əmələ gəlmişdir? ... Düşünürəm ki, biz ... yeganə ağlabatan açıqlamanın yaradılış olduğunu etiraf etməliyik. Bunun fiziklərin məhdudlaşdırılması mənasına gəldiyini bilirəm, bu mənə də eyni şəkildə aiddir, amma əgər təcrübə dəlilləri bunu dəstəkləyirsə, xoşumuza gəlməyən faktı rədd edə bilmərik.[155]

Lipsonun sözlərində ifadə etdiyi darvinist məhdudlaşdırma ilə bir çox elm adamı, akademik və tədris işçisi tez-tez qarşılaşırlar. Məsələn, 1999-cu ildə Detroytda bir ali məktəbin müdiri kitabxanaya Darvinizmi tənqid edən bəzi kitabları qoymaq istədikdə Milli Elmi Təhsil Mərkəzi METM (National Center for Science Education) buna hər cür əngəlləmə metodları tətbiq edərək qətiyyətlə qarşı çıxmışdır.[156]

Conatan Uelz bu əngəlləmə siyasətini bu sözlərlə ifadə edir:

METM məktəb müdiriyyətlərinə "təkamülün elmi cəhətdən mübahisəli olmadığını, ona görə də ona qarşı irəli sürülən dəlillərin elmi tədris planına qeyri-elmi dini fikirləri daxil etmə səyinin məhsulu olduğunu" deyir. Amerika məhkəmələri dövlət məktəblərində dini təhsil verməyin doğru olmadığını elan etdiyi üçün bu, məktəb müdiriyyətinin qanundankənar bir şey etmək istəməsi fikrini müdafiə eədn xəbərdarlıq deməkdir. Əgər xəbərdarlıq nəzərə alınmasa, METM dəstək almaq üçün AVAB-a müraciət edər. AVAB da məktəb müdiriyyətinə yazılı məktub göndərərək bahalı ittihamnamə ilə onu təhdid edir. Ölkədəki hər məktəb müdiriyyəti maddi cəhətdən vəziyyəti idarə etməyə çalışdığı üçün METM və AVAB-ın bu təhdidi darvinist təkamülün dövlət məktəblərində tənqid edilməsinin qarşısının alınmasında çox işə yaramışdır.[157]

Məktəblərdə yaradılışın öyrədilməməsi üçün çox mübarizə aparan Amerikanın Kanzas əyalətində təkamülçü biologiya tədrisinin aradan qaldırılması üçün görülən fəaliyyətlərin ardınca Kanzas təhsil sistemi çox böyük təzyiq və israrla ilə qarşılaşmışdır. Milli Tədqiqat Şurasının MTŞ (The National Research Council) rəhbəri Herbert Lin "Elm" (Science) jurnalına göndərdiyi bir məqalədə amerikan kollec və universitetlərinin Kanzasda tədris edilən bütün ali məktəb biologiya dərslərinin akademik hesab edilməyəcəyinə dair bəyannamə verməli olduqlarını bildirmişdir. Növbəti ay *Scientific American* jurnalının redaktoru Con Renni isə universitetə qəbul komitələrinin Kanzas məktəblərinin müdiriyyətlərinə "Kanzas ştatından onlara ərizə verəcək tələbələrin xarakteristikasını diqqətlə araşdıracaqlarını" bildirməsini və "Kanzasdakı ailələrə də bu mənfi qərarın uşaqlarının gələcəyi üçün pis nəticələrə səbəb olacağını bildirən aydın məktub" göndərməsini istəmişdir.[158] Bu hədənin mənası aydındır. Təkamül nəzəriyyəsinə qarşı çıxmaq cinayətdir və bu cinayəti edənlər dərhal məhkəmə məsuliyyətinə cəlb edilməlidir.

Bir müddət əvvəl gündəmə gələn bir ittihamda isə Vudz Houl Okeanoqrafiya İnstitutu (Woods Hole Oceanographic Institution) təşkilatından Nataniel Abraham adlı bir tədqiqatçı təkamül nəzəriyyəsini inkar etdiyini bildirməsinin əvəzində işindən azad edildiyini açıqlamışdır. 2004-cü ildə Abrahama Vudz Houlun səlahiyyətli nümayəndəsi olan elm adamı tərəfindən yazılan məktubda "işlədiyi təşkilat elm adamlarının təhlillərində və məqalələrində təkamül prinsiplərindən istifadə etməsini açıq şəkildə şərt qoymasına baxmayaraq Abrahamın Milli Səhiyyə Təşkilatlarının (National Institutes of Health) "təkamül lehinə" fəaliyyət formasını mənimsəmədiyini bildirdiyi" üçün işdən azad edildiyi bildirilmişdir.[159] Yəni bir elm adamı təkamül nəzəriyyəsinə qarşı çıxdığı üçün rəsmi şəkildə qəbul edilməmişdir. Mövzunun 2007-ci ildə Nataniel Abrahamın irəli sürdüyü ittiham nəticəsində gündəmə gəlməsi, şübhəsiz, artıq insanların Darvinizm diktatorluğuna qarşı çıxma cəsarətindən qaynaqlanır.

Berkeley Universitetindən hüquq professoru Filip E. Conson 1981-ci ildə İngiltərə Təbiət Tarixi Muzeyinin qapısından asılan lövhələrlə bağlı darvinist fanatizmi bu sözlərlə izah edir:

Qapının girişindəki lövhədə bunlar yazılmışdı: "Nə üçün bu qədər müxtəlif canlılar olduğu heç sizi maraqlandırıb? Bir fikrə əsasən bu gün gördüyümüz bütün canlı varlıqlar mərhələli dəyişikliklərlə qədim əcdaddan törəyiblər. Təkamül necə meydana gəlib? Növlər necə bir-birlərindən törəyiblər? Bu salondakı sərgi bunun mümkün açıqlamasını təmsil edir – Çarlz Darvinin açıqlamasına."

Yan tərəfdəki lövhədə isə bunlar yazılmışdı: “Digəri isə bütün canlı varlıqları mükəmməl və dəyişməz şəkildə Allahın yaratması fikridir.” Əlavədəki broşurada isə bu etiraf yer alır: “Təbii seleksiya ilə təkamül anlayışı sözün tam mənasında elmdənkənardır.”

Elm komitəsinin buna verdiyi cavab biabırçı idi. *Təbiət* (*Nature*) jurnalındakı bir baş məqalədə bu sual verilmişdi: “Darvinizmin ən yaxın qalası olan bu muzeyin müdirləri cəsarətlərinimi itirdilər, yoxsa hətta ağıllarınımı?... Kiimsə buna qarşı çıxmaz, elmin ictimaiyyətə təqdim edilməsində, uyğun olduqda mübahisəli mövzuların şübhəli olduğunu demək uyğundur. Bəs təkamül nəzəriyyəsi ciddi bioloqlar arasında hələ də şübhə doğurur? Əgər doğurmursa, onda ümumi mənada fikir qarışdırmasından başqa bu şübhəli sözlər nəyə xidmət edir?”

... Bu nəşrin nəticəsində muzey təslim oldu və bu “təcavüzkar” ifadələri götürməyə məcbur oldu.160

Elə darvinist diktatorluğun üsulu budur. Təkamülə qarşı işlədilən sözlər “təcavüzkar” ifadələr kimi göstərilir və darvinist elm adamlarının reaksiyası ilə, dünyada məşhur olan elmi jurnalların təzyiqi ilə dərhal lazımi qarşısı alınma tədbiri görülür. Darvinist diktatorluğun təzyiqi ilə bütün anti-darvinist izahlar dərhal susdurulur.

Bu despot yanaşma, əlbəttə, bircə məqsədə xidmət edir. Təkamül nəzəriyyəsinin sübut edilmiş bir nəzəriyyə kimi göstərilməsi və bu şəkildə bütün dünyaya yayılması darvinistlər zərurətdir. Onlar yaradılış həqiqətini öz ağıllarına görə insanlardan uzaq tutaraq bütün varlıqları Allahın yaratdığı həqiqətini gündəmə gətirməyib yalnız təkamül təlqinini verərək bunu təmin edə biləcəklərini düşünürlər. Lakin darvinistlərin düşünə bilmədikləri bir həqiqət var. Canlıların yaradıldığını anlamaq və görmək üçün insanlara bununla bağlı təhsil verilməsinə ehtiyac yoxdur. Ağlını bir az işlədən hər insan canlı varlıqlarda bir qeyri-adiliyin, mükəmməlliyin, ağlın, şüurun, sənətin, ehtişamın olduğunu asanlıqla görə bilər. Bütün bunların şüursuz, ağılsız, düşünmə, dərk etmə, mühakimə yürütmə, doğru ilə yanlışı ayırd etmə xüsusiyyətindən məhrum kor təsadüflərin nəticəsində meydana gəlmədiyi qənaətinə gələcəkdir. Yalnız bir neçə saniyə səmimi şəkildə düşünən bir insan üçün belə bunu başa düşmək heç də çətin deyil. Allah ağlını işlədən insanlar üçün yaratdığı möcüzələrin açıq-aydın olduğunu ayələrində xəbər vermişdir:

**Həqiqətən, göylərdə və yerdə möminlər üçün ayətlər vardır! Sizin yaradılışınızda və yayıb səpələdiyi canlılarda tam yəqinliklə inananlar üçün əlamətlər vardır. Gecə və gündüzün bir-birinin ardınca gəlib-getməsində, Allahın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə yeri ölümündən sonra diriltməsində və küləkləri yönəltməsində ağılla düşünənlər üçün dəlillər vardır. (Casiyə surəsi, 3-5)**

Darvinistlər əslində gördükləri tədbirlərin əbəs olduğunu görməyə başlayıblar. Keçmişdə təzyiqedici metodlarla, saxta dəlillərlə verilən təlqin bu gün şüurlu insanlar üzərində təsirli olmayacaq.

Conatan Uelz artıq getdikcə daha çox elm adamının Darvinizmdən şübhələnməyə başladıqlarını və səslərini çıxarmaq üçün hərəkətə keçdiklərini bu sözlərlə bildirir:

Həqiqətən həddindən artıq bioloq Darvinizmin bəzi böyük dəlillərindən səssizcə şübhələnir və ya onları inkar edir. Ancaq - heç olmasa Amerikada – onlar susmalıdırlar, əks halda qınağa, məhdudiyyətə və sonda elmi icmadan xaric edilməyə məruz qalırlar. Bu çox tez-tez baş verməsə də, belə bir riskin olduğunu hər kəsə xatırladacaq qədərdir. Güman edirəm ki, darvinistlərin əks fikirləri tənqidinin təsirilə gözləri açılan bioloqlardan ibarət və sayları getdikcə artan yeraltı icma

əmələ gələr. Təcrid edilmiş müxaliflər neçə nəfər məsləkdaşının da eyni cür düşündüyünü başa düşdükdə onları sayları getdikcə artacaq və səsləri daha ucadan çıxmağa başlayacaqdır.[161]

## 7. Darvinistlər elmdən istifadə edir, elmi göstəriş edirlər

Elm Darvinizmin istifadə etdiyi ən böyük maskadır. Darvinizm "elm" adı altında ortaya çıxmışdır. Darvinistlər də "elm adamlarıyıq" deyə ortaya çıxmışlar. Darvinizmə qarşı göstərilən hər cür reaksiya, "elm mübarizə" kimi təqdim edilmişdir. Təkamül nəzəriyyəsi haqqında hər cür şübhə bir növ "geri qalmışlık və ya elm düşmənliyi" kimi göstərilmişdir.Darvinistlərin hər cür saxta dəlili elmi kəşf kimi insanlara tanıdılmışdır. Başqa sözlə, Darvinizm 150 ildir ki, elmdən istifadə edir.

Bəs Darvinizm elmdir?

Darvinizm bir yalandır. Elmiliklə heç bir əlaqəsi yoxdur. Darvinizm insanları bir yalana alışdırmaq və ona inandırmaq üçün göstərilən səydir. Elm Darvinizmin sığınacağıdır. Darvinizm elmdən istifadə edərək toxunulmazlıq əldə edir. Saxtakarlıqları elm adı altında müdafiə edir. Saxta dəlillər irəli sürən, uşaq nağılları danışan darvinistləri elm adamı kimi tanıdır. Darvinizmin yalan olduğunu başa düşən vəbuna qarşı mübarizə aparan insanları da elmə xəyanət etməklə günahlandırır. Darvinizmin ən böyük silahı elmdir. İndiyə qədər də insanları elm maskasının altında gizlənərək aldatmışdır. Elmdən istifadə edərək insanları aldatmaqda davam edir. Darvinist elmi jurnallarının, darvinist sənədli film kanallarının, darvinist elm adamlarının bundan istifadə etməsinin səbəbi budur.

İngilis paleontoloq təkamülçü Derek V. Eycer bu məsələ ilə bağlı bunları deyir:

Hamımız bilirik ki, bir çox təkamülçü təşəbbüs müəyyən paleontoloqlar tərəfindən edilən beyin fırtınalarından ibarətdir. Kitabxanadakı bir taksonomist (canlıların bioloji təsnifatı elmi ilə məşğul olan şəxs) milyonlarla illik genetik mutasiyadan daha artığını bacarar.[162]

Bu ifadə çox doğrudur. Məktəb dərsliklərində, qəzetlərdə, jurnallarda, televiziyalarda bəhs edilən "ibtidai" dünya, mutasiyalar və təbii seçmə ilə əmələ gələn canlı növləri, xəyali ortaq əcdad, "inkişafı tamamlanmamış" qəribə canlılar kimi təkamül hekayələri sadəcə darvinist elm adamlarının öz təxəyyülündəki hadisələrdir. Təbii seleksiya yolu ilə illərdir fərz etdikləri heç bir nəticə əldə edə bilməyiblər. Derek V. Eycerin də dediyi kimi genetik mutasiyalar da onlara bu nəticəni verməmişdir. Amma bu elmi həqiqətləri inkar edib eyni saxta iddiaları müdafiə etməkdə davam etmək, onların fikrincə, Darvinizm yalanının dünyaya yayılma ehtimalını çətinləşdirir. Elə buna görə darvinistlər elmi terminlərdən darvinist yalana elmi don geyindirmək üçün istifadə edirlər. Ortada tamamlanmış və təkamülün lehinə nəticə vermiş elmi təcrübə və ya elmi dəlil yoxdur. Sadəcə tez-tez istifadə edilən elmi terminlər və formullar var. Hər hansı darvinist müəllifin kitabında bu qəribə terminlərə və ya kimyəvi formullara tez-tez rast gəlmək mümkündür. Mövzu haqqında məlumatsız olan bir insan bu kitaba baxdıqda həqiqətən də bir elm adamının elmi kitabını oxuduğunu zənn edər. Lakin görünüş aldadıcıdır. Bu kitabda bəhs edilən yeganə şey canlı varlıqların kor təsadüflər nəticəsində əmələ gəlməsi və bu günkü vəziyyətlərinə kor təsadüflər nəticəsində gəlmələri nağılıdır. Darvinist yazıçının bunun barəsində bəhs edəcək yeni bir şeyi, verəcək elmi dəlili yoxdur. Kimyəvi terminlər və formullar Darvinizm yalanını yalnız tamamlamaq, öz ağıllarına görə həqiqi göstərmək üçündür.

Darvinistlərin elmdən istifadə etmək üsullarına bir misal təkamülçü paleontoloq S. M. Stenliyin bu sözləridir:

Təkamül kiçik, lokal populyasiyalarda sürətlə baş verir, buna görə fosillərdə təkamülü görə bilmərik.[163]

Bu sözlər yalandır. Lokal populyasiyalarda baş verən təkamüldən bəhs edilir, lakin dəlil yoxdur. Hətta dəlilin tapılmayacağı etiraf edilmiş, amma bu da elmi göstərilməyə çalışılmışdır. İşin əsli isə bundan ibarətdir: fosillərdə təkamülə rast gəlinmir, çünki təkamül heç vaxt baş verməyib.

Milli Elmi Təhsil Mərkəzinin METM (National Center of Science Ecucation) rəhbəri Yucin C. Skott isə bu mövzu ilə bağlı bu açıqlamanı vermişdir:

Bir çox orta məktəb dərsliyi (hətta təəssüf ki bəzi kolleclər) nəzəriyyələri sınaqdan keçirilmiş hipotezlər kimi açıqlayırlar, sanki hipotezlər təsdiqlənmiş nəzəriyyələrdir və əsl mənada çox yaxşı nəzəriyyə onlar üçün qanuniləşmiş kimidir. Təəssüf ki, elm adamları bu terminləri bu şəkildə istifadə etmirlər, çox insan elm adamı deyil və elm adamları da bu terminlərin mənasını tələbələrə və ictimaiyyətə yaxşı izah edə bilməmişdir.[164]

Bu şərtlər daxilində yalnız ona göstərilən və izah edilənləri bilən bir insan əgər düşünüb qabaqcadan əmələ gəlmiş mənfi rəysiz dəyərləndirmə gücü yoxdursa, Darvinizmin əsaslı olduğuna asanlıqla inana bilər. Çünki Darvinizm təlqin metodu ilə sözügedən oxucunun gözləntisinə bir növ qarşılıq vermişdir. Canlıları öz ağlına görə bəsit şəkildə izah etmiş və buna "elmidir" demişdir. "Mühakimə edilməsinə ehtiyac yoxdur, onsuz da doğrudur və sübut edilmişdir" demişdir. "Elm adamları bunu dəstəkləyir" demişdir. "Elmin canlılar haqqında yeganə açıqlaması budur, bundan başqa açıqlamalar qeyri-elmidir" demişdir. "Bunu bütün dünya qəbul edir" demişdir. Bu yalanlarla tarixin ən böyük saxtakarlıqlarından birini inşa etmişdir. Darvinizmi heç bilməyən, onun necə yalan olduğuna dair heç fikri olmayan və yalnız bu izahları eşidən bir şəxs üçün də bu səthi açıqlamalar onu inandırmağa kifayət edir.

Lakin bu şəxs aldığı təlqinin hər anında aldadılır. Onsuz da Darvinizmi qəti şəkildə məhv edən və yaradılış həqiqətinin dəlili olan 250 milyondan çox fosil darvinistlər tərəfindən ehtiyatla ört-basdır edilmiş, canlıların əsasını təşkil edən zülalların bircə dənəsinin belə təsadüfən əmələ gəlməsinin riyazi cəhətdən qeyri-mümkün olması insanlardan gizlədilmişdir. Bu səbəbdən sözügedən yalanın hüdudlarını bilməsi də mümkün olmamışdır. Aldadılan şəxsin bilmədiyi şey budur: Darvinizm elmi deyil, elm deyil. Darvinizm araşdırılmış və doğru olduğuna dair elmi dəlillərin olmadığı məlum olmuş, yalan olduğu sübut edilmişdir. Darvinizmi dəstəkləyən elm adamları bunu batil bir din, bir ideologiya kimi görən fanatik və ehkamçı insanlardır. Elmin canlılar haqqındakı yeganə izahı yaradılış həqiqətidir. Darvinizmin bütün dünya tərəfindən qəbul edilmiş kimi görünməsinin ardındakı səbəb də bu saxta təlqin metodları, bu aldadıcı təbliğat üsullarıdır. Bəzən elm adamları belə bu yalana inanıb qəflətə düşürlər. İngilis paleontoloq Kolin Patersonun bu məsələ ilə bağlı etirafı diqqət çəkir:

Sonra oyandım və bütün həyatım boyu Darvinizmi hər hansı bir yolla sübut edilmiş bir həqiqət olduğunu zənn edərək aldadıldığımı başa düşdüm.

Sistematikadakı ortaq əcdad hipotezlərinin təsirinin cansıxıcı olduğunu və məlumat çatışmazlığından qaynaqlandığını deyil, eyni zamanda bunun qəti şəkildə elmə qarşı olduğunuu düşünürəm.[165]

Bununla bağlı digər nümunəni sənədli film prodüseri Brayən Lit verir:

Son on il yeni bioloq qrupu ərsəyə gəldi. Onlar elmi baxımdan hörmətli hesab edilirlər,amma Darvinizm haqqında dərin şübhələri var.[166]

Amerikalı iqtisadçı Ceremi Rifkinin "Təkamül nəzəriyyəsi bizim təhsil sistemimizin ən mühüm hissəsinə daxil edilmişdir və onu lazımsız sui-istifadələrdən qorumaq üçün ətrafında bəzəkli divarlar hörülmüşdür."[167] sözünü haqlı çıxaran başqa mühüm sübut isə darvinist elm adamlarının saxtakarlıqları görməməzliyə vurmağı yenə elmin adından etmələri və həqiqət üzə

çıxsa belə bundan çəkinib utanmamalarıdır. Məqsəd mütləq və mütləq hər hansı yolla insanları aldatmaq olduğu üçün dünyanın ən məşhur elm adamları heç çəkinmədən, göz görə-görə bu yalanı müdafiə edirlər. Conatan Uelz buna belə bir misal çəkir:

Hekkelin saxta rüşeym rəsmlərindən illərlə xəbərdar olan elm tarixçisi Cey Qulda nə demək olar? Bütün vaxt ərzində Quldun təhsil verdiyi tələbələr Hekkelin rüşeymlərini təkamülün sübutu kimi göstərən dərsliklərdən biologiyanı öyrəniblər. Buna baxmayaraq başqa bir bioloqun 1999-cu ildə buna etiraz etməsinə qədər Quld heç səsini çıxarmayıb. Ondan sonra da Quld dərsliyin müəlliflərini səhvə görə təqsirkar gördü və etiraz xarakterli pıçıltını yayan yaradılışçını (Li Universitetinin bir kimyaçısı) vəzifəsindən kənarlaşdırdı. Burada ən böyük məsuliyyət kimə aiddir – saxta rəsmlərdən düşüncəsizliklə təkrar-təkrar istifadə edən dərliyin müəlliflərinə, onlardan şikayət edən insanlara, yoxsa özünün "akademik cinayət" adlandırdığı fakta iş yoldaşları bilmədən ortaq olarkən özündən razı şəkildə kənardan vəziyyəti seyr edən, dünya səviyyəsində məşhur mütəxəssisə?

Hekkelin rüşeymlərilə bağlı həqiqətlə müqayisə edildikdə pulcuqqanadlı güvələrin (sənaye kəpənəkləri) qüsurlu olması ancaq yaxın dövrdə başa düşülmüşdür, ona görə bəlkə də dərslik müəlliflərini onu dərsliklərə əlavə etdiklərinə görə qınamamaq olar. Pulcuqqanadlı güvələr üzərində tədqiqat aparan hər bioloq güvələrin ağac gövdələrinə qonmadığını, dərsliklərdəki rəsmlərinin **qondarma** olduğunu on ildən çox müddət ərzində bilirdi. Əgər elm özünü düzəldirsə, nə üçün mütəxəssislər dərsliklərdən uydurma fotoşəkilləri çıxarmaq üçün cəhd göstərmirlər?[168]

Darvinistlərin elmdən istifadə etmələri, həm də bu məqsəd üçün guya elmin müdafiə və mühafizəsini öz boyunlarına götürmə görünüşü vermələri, şübhəsiz, böyük saxtakarlıqdır. Əslində Darvinizm iddiasının tam əksinə elmə qarşı hərəkət edir. Elmi dəlilləri ört-basdır etməyə çalışır. Laboratoriyalarda həyata keçirilən təcrübələrin üzə çıxardığı nəticələrə müxalif olan iddiaları müdafiə edir. Əldə edilən fosillər ara formaların heç mövcud olmadığını sübut edərkən canlıların özlərindən əvvəl saysız-hesabsız ara forma qoyaraq bir-birlərindən təkamüllə törədikləri yalanını irəli sürür. Elm saxtakarlığı Darvinizm ilə birlikdə ortaya çıxmış anlayışdır. Darvinistlər elmi muzeylərdən, elmi KİV-lərindən istifadə edərək bu saxtakarlıqları bilə-bilə heç çəkinmədən insanlara təqdim edirlər. Elmi kitablar və jurnallardan istifadə edir, heç vaxt baş verməmiş təkamül tarixi nağılını bu KİV-lərdə danışırlar. Heç vaxt mövcud olmamaış qəribə bir canlının şəklini çəkir, bunu "tarixi keçmişimiz" kimi göstərməyə çalışırlar. Elm əleyhdarı olan bu din elmilik adı altında ən böyük yalanlardan birini söyləyir.

Belə böyük bir yalanın dəstəkçisi olmalarının səbəbi, şübhəsiz ki, darvinistlərin dəccaliyyətə kor-koranə bağlılıqlarıdır. Dəccali sistem insanları yalana yönləndirən batil sistemdir.

## 8. Darvinistlər yazılı və vizual mediadan istifadə edirlər

Yazılı və vizual media insanların böyük qisminin ən çox təsirləndikləri təlqin vasitələrinin önündə gəlir. Bəzi insanlar elm adamlarının sözlərinin hamısına sanki iman gətirən kimi elmi jurnalların müəlliflərinə, televiziyada verilən xəbərlərə də eyni şəkildə etibar edirlər. Dövrümüzün tanınmış darvinist KİV-lərinin hər hansı birində çıxan darvinist xarakterli bir məqalə onu oxuyan bir çox insan üçün qənaətbəxş istinaddır. İnsanlarda Darvinizmin saxta dəlillərini dərc edən bir elm jurnalının mütləq doğrunu yazacağı kimi qənaət var. İnsanların bir çoxu sözügedən jurnalın Darvinizm dininin sadiq üzvlərindən biri olması həqiqətindən xəbərsizdirlər. Eyni zamanda Darvinizm dininin müdafiəçisi olduqda ağıldan, məntiqdən, doğru, elmi olandan kənar hərəkət edildiyini bilmirlər.

Hal-hazırda darvinist diktatorluğun təsirilə çox sayda elmi jurnal Darvinizmin tərəfdarıdır. Dünya səviyyəsində Darvinizm əleyhinə heç bir KİV-nin ön plana çəkilməsi qəbuledilməzdir. Elə bu səbəbdən darvinistlərin sahib çıxdıqları, müdafiə edib dəstəklədikləri KİV-lərinin verdikləri xəbərlər bu KİV-lərinin dünya səviyyəsində qəbul edilməsinə görə bir çox oxucu və ya tamaşaçı tərəfindən dərhal qəbul edilir.

Lakin bu böyük səhvdir.

Darvinistlərin məqsədi sadəcə təbliğatdır. Onlar *Nyu Sayentist* (New Scientist) və ya *Neşinal Cioqrafik*də (National Geographic) çıxan aldadıcı təkamül xəbərindən oxucuların böyük qisminin şübhələnməyəcəyini düşünərək hərəkət edirlər. Dünyada tanınan akademiklərin məşhur məqalələrinin dərc edildiyi *Təbiət* (Nature) kimi elmi jurnalın yalan xəbər verməsi öyrəndiklərini lazımınca düşünməyən kəslərin ehtimal etmədikləri vəziyyətdir. Onsuz da bu vəziyyət darvinist təbliğat baxımından o qədər faydalı şərait əmələ gətirir ki, darvinistlərin "palçıqlı suda təsadüfən ilk hüceyrənin əmələ gəlməsi" hekayəsi kimi ağlasığmaz komediyaya bir çox insanları inandırmaları çətin olmaz. Bu hekayənin mürəkkəb ifadələrlə və elm adamının imzasıyla Darvinizm tərəfdarı *Təbiət* (Nature) kimi bir jurnalda çıxması kifayətdir.

Materialist düşüncəyə malik olan bir insan və ya bir icma materializmi yaşatmaq bahasına hər şeyi gözə alır. Materializm tərəfdarı KİV-lərin etdikləri də budur. Onlar Darvinizmi gündəmdə tutmaq və onu müdafiə etmək üçün hər şeyi edir və açıq şəkidə elmdən maska kimi istifadə edirlər. Bu materialist düşüncəni *Təbiət* (Nature) jurnalının bu ifadələri kifayət qədər açıqlayır:

Bütün faktlar hər şeyi nizamlayan bir varlığı göstərsə belə, belə bir hipotez elmdən kənar qalardı, çünki naturalist deyil.[169]

Göründüyü kimi materialistlər bütün konkret elmi kəşflər yaradılışı təsdiqləsə də, bunu qəbul etməməyə özlərini kodlayıblar. Belə olduqda elmilikdən söz açmaq əlbəttə mümkün deyil. Materialistlərin Darvinizmə olan sədaqəti elmi deyil, doqmatikdir. Darvinizm elmi cəhətdən məhv edilməsinə baxmayaraq müdafiə edilir, yaradılış isə saysız-hesabsız elmi kəşflə təsdiqlənməsinə baxmayaraq bu kəslər tərəfindən cahilliklə inkar edilir. Çünki materializmə əsasən maddədən başqa bir açıqlamanın qəbul edilməsi qeyri-mümkündür. Elə buna görə elmi görünən bütün bu jurnalların, elmiliklə əlaqəsi olmayan təkamül kimi nəzəriyyəni müdafiə etmələrindəki israr başa düşülür. Bu KİV-ləri üçün nəyin bahasına olsa da, canlıların yaradılması həqiqətini göstərən dəlillər qəbuledilməzdir. Ona görə darvinistlər üçün bunun əvəzinə bütün dünyaya saxta üsullarla hakim edilmiş bu yalanı tutarlı və doğru kimi göstərməyə çalışmaqda mənfi bir şey yoxdur.

Belə ki, bu KİV-lərin dəstəkçisi olan müxtəlif elmi mərkəzlərin Allaha inama olan düşüncə tərzlərini dəyərləndirdikdə bu vəziyyət daha yaxşı başa düşülür. *Təbiət* (Nature) jurnalında Milli Elmlər Akademiyası (National Academy of Science) üzvlərinin dinə münasibətləri ilə bağlı aparılan son araşdırmada ortaya çıxan nəticə budur: biologiya və fizika elmlərindən 517 MEA üzvünün yarısının verdiyi cavaba görə bu elm adamlarının 72.2 %-i ateistdir. 20.8 %-i aqnostik, yalnız 7.0 %-i Allahın varlığına inanır.[170] Neyrobioloq təkamülçü Robert Provayn "Artıq çox az əsl dindar bioloq qalıb. Çoxu ateistdir və bir çoxu bu hala təkamül anlayışı və digər elmlər səbəbilə düşmüşdür," etirafı ilə bu həqiqəti açıq şəkildə dilə gətirir.[171] Bu həqiqətlərə baxdıqda elmin yaradılış gerçəyini göstərməsini ateist elm adamları arasında böyük qəzəblə qarşılandığını anlamaq, şübhəsiz, çətin olmayacaq. Elə darvinistlərin yazılı və vizual mediadan istifadə edərək göstərdikləri səyin ardındakı səbəb budur.

Henri M. Morris Darvinizm adı altında həyata keçirilən bu yalançı təlqinin çıxış nöqtəsini belə izah edir:

Bu gün Darvinin təkamülün qanununu kəşf etməsinə inanırlar. Nəticədə Darvin bütün dövrlərin ən böyük elm adamlarından biri kimi alqışlanır. Bununla birlikdə həqiqət budur ki, Darvin sadəcə qədim bütpərəst dininin canlandırılması üçün katalizator rolunu oynayır. Həm də bir çox Qərbi Avropa ölkəsinin bir əsrdən çox müddət ərzində hazırlaşdırıldığı Allaha qarşı çıxmağın (Allahı tənzih edirik) baş verdiyi dövrdə.[172]

Bəzi insanların "elm adamı yalan deməz", "o qədər məşhur elmi jurnal yalan yazmaz" fikirləri onları illərlə aldatmışdır. Bu insanların öz aralarında qurduqları səhv iman sistemi darvinistlərin bundan faydalanmalarına, elmdən pis məqsədlə istifadə etmələrinə səbəb olmuşdur. Lakin bu qəti həqiqətdir: materialist elm adamı əgər həqiqətlər öz mənafeyinə uyğun deyilsə və əgər həqiqətlər materializmi dəstəkləmirsə, **asanlıqla insanları aldadar**. Hal-hazırda dünyadakı elm adamlarının böyük əksəriyyəti Darvinizmi müdafiə edərək açıq şəkildə insanları aldadırlar. Uşaqların belə inanmayacağı boş hekayələri elmi cəhətdən mümkün olmadığına baxmayaraq insanlara danışırlar. Bu vəziyyət hal-hazırda effektiv olan və dünyadakı bütün darvinist elm adamları tərəfindən tətbiq edilən sistemdir. Başqa sözlə, bir darvinist elm adamı bütün həyatını elmlə məşğul olmasına baxmayaraq asanlıqla elm adından insanları aldadır, bütün həyatını bu yalana həsr edir.

DNT-ni kəşf edərək Nobel mükafatı alan, bütün həyatını təkamül yalanını müdafiə edərək keçirən və 2004-cü ildə "insanın bir neyron yığını" olması şəklində diqqət çəkən sözləri ilə ruhun varlığını inkar edərək ölən fizik və biologiya professoru Frensis Krik buna ən yaxşı misaldır. Ateist olan fizik molekulyar bioloq və neyrobioloq kimi Allahın üstün sənətinə dair saysız-hesabsız dəlili görməsinə və bunları şəxsən kəşf etməsinə baxmayaraq onların hər birinin bir yaradılış möcüzəsinə işarə etməsi həqiqətini insanlardan gizlətmək üçün həyatı boyu çalışmışdır. Hətta Allahın varlığını qəbul etməmək üçün (Allahı tənzih edirik) həyatın kosmosdan gələn varlıqlar tərəfindən gətirildiyini belə iddia edəcək səviyyəyə düşmüşdür.[173] Naturalist, darvinist düşüncə tərzinin bir elm adamına gətirdiyi nəticə bu cür alçaldıcı məntiqsizlikdir.

Buna digər nümunə də paleontologiyanın göstərdiyi bütün yaradılış dəlillərini şəxsən görüb tədqiq etməsinə baxmayaraq həyatı boyu ateist və naturalist olmauş başqa darvinist elm adamı, Harvard paleontoloqu Stefen Cey Qulddur. Stefen Cey Quld da eynilə Krik kimi bütün həyatını elmlə məşğul olaraq keçirmiş, Allahın açıq-aydın olan varlığını öz ağlına görə inkar etmək üçün (Allahı tənzih edirik) "sıçrayışlı təkamül" kimi olduqca məntiqsiz və dəlilsiz bir nəzəriyyəni həyatı boyu müdafiə etməkdən çəkinməmişdir.

Belə olduqda darvinist elm adamlarının hər etdiyinin və hər dediyinin doğru olduğuna inanmaq ağılsızlıqdır, şüursuzluqdur. Lakin həyatı boyu inkar içində olan bu insanların bilmədikləri və qavramadıqları bir həqiqət var: Aləmlərin Rəbbi olan Uca Allah həyatı boyu dəccaliyyəti yaymaq üçün səy göstərən, bütün ömrünü bu mübarizədə keçirən insanların etdiklərinin boşa çıxacağını ayələrində xəbər vermişdir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi?" O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki onların dünya həyatındakı bütün əməlləri boşa çıxsa da, yaxşı işlər gördüklərini zənn edirdilər. (Kəhf surəsi, 103-104)**

Dəccalın dəstəkçiləri dünya həyatında Allah inamına qarşı göstərdikləri səyin bir dəyəri olacağını, bununla üstün gələcəklərini və qazanacaqlarını zənn edirlər. Lakin bu, əvvəlindən çürük olan bir sistemdir. Haqq dinə qarşı olan bütün sistemlər Allahın vədi ilə mütləq məğlub olmağa məhkumdr. Uca Allah, şübhəsiz ki, hər şeyə qadirdir. Allah ayəsində belə bildirir:

**Hər kəs Allahı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)**

Darvinistlərin elmi ideologiyalarına oyuncaq edərkən işlətdikləri ən klassik taktikalardan biri də özlərindən olduqca razı üslubdan istifadə etmələridir. Təkamül haqqında qəti doğru olan və müzakirəyə ehtiyac olmayan "elmi" nəzəriyyə kimi bəhs edərkən Darvini də sanki dünyanın ən məşhur elm adamı elan edirlər. Lakin bir çox elmi tarixçi və yazıçının da açıq şəkildə etiraf etdiyi kimi Darvin yeni bir şey kəşf etməmiş, ağıl və məntiqlə və ya müşahidə ilə bir nəzəriyyə irəli sürməmişdir. Bir qrup sərxoş dənizçi ilə uzaq dəniz səyahətinə çıxmış, hətta bu səyahətdə topladığı bir çox canlı növünü tədqiq etmədən bir kənara atmış, babasından öyrəndiyi qədim Misir və Şumerdən bəri mövcud olan təkamül yalanını yenidən gündəmə gətirmişdir. Təbii ki, darvinistlər bu həqiqəti heç vaxt dilə gətirmirlər, hətta ehtiyatla gizlədərək insanları aldatmaq üçün Darvini böyük elm adamı kimi göstərməyə çalışırlar. Molekulyar fizik və eyni zamanda teologiya professoru olan Alister Makqrat bu vəziyyəti belə ifadə edir:

XIX əsrdə Amerikanın məşhur ateist yazıçısına çevrilən dəmiryolu vəkili Robert Qrin İncersol (1833-1899) *... 1884-cü ildə yazdığı bir məqaləsində bunu açıqlayıb: "Bu əsrə Darvin əsri adı veriləcək... Onun təkamül doktrinası ən uyğun olanların yaşama doktrinası və növlərin mənşəyi doktrinası mühafizəkar xristianlığın son qalıqlarını bütün düşünən ağıllardan sildi.*"[174]

Bu hal, şübhəsiz, sözügedən elm adamlarının məqalələrinin dərc edildiyi elmi jurnallara da aiddir. Dünyanın tanınmış elmi jurnallarında ancaq Darvinizm təbliğatı aparıldığına görə, bu jurnallarda ancaq darvinist elm adamlarının məqalələrinə yer verildiyinə görə və bu elm adamları da ideoloji cəhətdən təkamül yalanını davam etdirmək və müdafiə etmək məcburiyyətində olduqlarına görə elmi terminlərlə bəzədilmiş məqalələrin mütləq doğru olduğuna inanmaq eyni ağılsızlıqdır. İnsanlara bu batil inanc sistemini darvinistlər illər boyu tətbiq etmişlər. Lakin artıq bunun aradan qalxma və gerçək elmi kəşflərin qəbul edilmə vaxtı gəlmişdir. Darvinizmin ən mühüm təbliğat silahı olan yazılı və vizual KİV insanları aldada bilmədikdə darvinistlərin əlində təbliğat üçün başqa istifadə sahəsi qalmayacaq.

## 9. Darvinistlər təkamülə qarşı olan inancların məntiqə zidd olması yalanını qəbul etdirməyə çalışırlar

Təqsiri qarşı tərəfin boynuna atmaq bəlkə də ən yaxşı tanınan psixoloji müharibə taktikasıdır. Öz çatışmazlıq və qüsurlarını və ya təqsirləndirildiyi şeyləri qarşı tərəfin üstünə ataraq aparılan mübarizədə bu taktikanı tətbiq edən tərəf adətən bu istiqamətdə kim daha güclü təbliğat apararsa, onun qazanacağını düşünür. Yəni haqsız və təqsirkar tərəf əgər təbliğatını yaxşı aparmışsa, haqlı və incidilmiş tərəf kimi görünəcək və öz ağlına görə mübarizəni qazanacaqdır.

Bu məlum taktika darvinistlər tərəfindən çox açıq şəkildə tətbiq edilir. Saxtakarlıq edən, bir yalanı müdafiə edən, ağla və məntiqə zidd olan, aldadan tərəf darvinistlər olmasına baxmayaraq, məntiqə uyğun olmayan fikirləri müdafiə edənlərin təkamülü inkar edənlər olduğuna insanları inandırmağa çalışırlar. Darvinistlər insanları bu yalana inandırsalar, insanları kifayt qədər yaxşı və təsirli şəkildə yönləndirsələr, uğur qazanacaqlarına inanırlar. Bu şeytani taktikanın mütləq öz faydalarına olacağını və bütün etdikləri saxtakarlıqları ört-basdır edəcəyini düşünürlər. Lakin unutduqları mühüm həqiqət var: batil olan heç vaxt qalib gəlməz. Bu, Allahın qanunudur. Uca Rəbbimiz olan Allahın ədaləti mütləq yerini tapacaqdır. Doğru olan ilə yalana sığınanı bilən Uca

Allah mütləq batili aradan götürəcək və haqqın yerini möhkəmləndirəcək. Darvinist taktikalar dəccalın bir oyunudur və bütün varlıqlar kimi dəccalı da yaradan Allah onun bütün oyunlarını yerlə bir edəcək. Allah bir ayəsində belə buyurur:

**Bu bir həqiqətdir. Allah, sözsüz ki, kafirlərin hiyləsini zəiflədəndir! (Ənfal surəsi, 18)**

Yaradılış həqiqətinə qarşı uydurulan bu saxta metodun təsirli olduğu illər ərzində darvinistlər yaradılış həqiqətindən bəhs edənləri müxtəlif iftira və ittihamlarla mühakimə etmişdirlər. Əslində darvinistlərin iman gətirənlərə atdığı iftiralar tarix boyu edilmiş və Quranda baş verəcəyi xəbər verilən hadisələrdir. Göylərin və yerin hakimi olan Uca Allah bu iftiranı atanların halını ayəsində belə xəbər vermişdir:

**Onlara: ”Başqaları iman gətirdikləri kimi siz də iman gətirin!” –deyildiyi zaman: “Biz də səfehlər kimi iman gətirək?” -deyə cavab verirlər. Agah olun ki, səfeh onların özləridir, lakin bilmirlər. (Bəqərə surəsi, 13)**

Darvinistlərin qarşı tərəfi təqsirləndirmələrinin səbəbi yaradılışın mütləq həqiqət olduğunu şühbəsiz bilmələridir. Öz ağıllarına görə nümayiş etdirdikləri məsxərəçi münasibətin ardındakı səbəb nəzəriyyələrinin elmi kəşf və dəlillərlə dəstəklənmədiyini bilmələri və buna görə də insanlara söz yığını ilə təsir etməyə çalışmalarıdır. Bunun dəccalın sisteminə fayda verəcəyinə inanırlar. Berkeley Universitetindən hüquq professoru Filip E. Conson bu taktika ilə bağlı bunları deyir:

... Tələbələrin pulcuqqanadlı güvə hekayəsindəki qüsurları, Hekkelin rüşeym rəmslərindəki saxtakarlığı, Kembri partlayışının sirrini və qabaqcıl darvinçilərin Darvinizmin dini mənaları ilə bağlı əslində nəyə inandıqlarını da öyrənməlidirlər. Bu təhsild çox keçmədən səlahiyyətlilər bir üsyanın başladığını görəcəklər. Darvinçilər taktikalarını dəyişdirməz, çünki təkamül haqqında verilən doğru təhsil təkamülü dirçəldə bilməyən fərziyyələri açıq-aydın işıqlandıracaqdır.

Realist təriflə naturalizm (batil) bir dindir və həddindən artıq doqmatikdir. Bir növ inancla müdafiə edilən son reallıq haqqındakı təməl sübuta əsaslanır və öz “bilik” və “ağıl” anlayışlarına malikdir. İnformasiyanın duyğularımızdan qaynaqlandığını və daha mürəkkəb məlumat növlərinin elmi araşdırmadan irəli gəldiyini söyləyir. Naturalist tərifə əsasən fövqəltəbiinin biliyi deyə bir şey ola bilməz. Tanrı haqqındakı önermeler ya ağıldankənar, ya da ağla qarşı şəkildə tərif edilir[175] (Allahı tənzih edirik).

Lakin əslində naturalizm və materializm öz-özlüyündə ağıldankənardır. Bu batil inancların tərəfdarları şansa, təsadüfə, şüursuz hadisələrə yaradıcılıq vəsfi verən (Allahı tənzih edirik), ağıllı dəyərləndirmə qabiliyyətindən məhrum insanlardır. Təsadüfü saxta tanrıya çevirən batil bir dinin müdafiəçilərinin “bilik” dedikləri şey də təsadüflərin hər şeyi yoxdan var etməsi fikrinə əsaslanır. Ona görə burada haqqında bəhs etdiyimiz şey ağıl və məntiqdən kənar olan batil inanc sistemindən ibarətdir. Elə bu səbəbdən naturalizm, materializm və Darvinizmdən söz düşdükdə, ağıl və ya bilik kimi anlayışlar haqqında danışmağın mümkün olmayacağını anlamaq çətin deyil.

Darvinistlər açıq-aydın həqiqət olan yaradılış həqiqətinin geniş şəkildə izah edilib insanları inandırmasından çox qorxurlar. Çünki bilirlər ki, yaradılış həqiqətini dəstəkləyən saysız-hesabsız dəlil var və bunları görən bir insanın təkamül yalanına aldanması artıq mümkün olmayacaq. Digər tərəfdən Darvinizmi dəstəkləyən bircə dəlil belə yoxdur. Bu böyük yalanı müdafiə edən şəxslərin öz zəif ağıllarına görə cidd-cəhdlə yaradılış inancını tənqid etmələriin əsl səbəbi elə budur. Nyu-

York Universitetindən kimya professoru təkamülçü Robert Şapiro nəticələr heç vaxt təkamül nəzəriyyəsini dəstəkləməsə də, mütləq sona qədər Darvinizmi müdafiə edəcəyini bu ağıldankənar məntiqlə ifadə edir:

Gələcəkdə bir gün bütün məntiqli kimyəvi təcrübələr həyatın mümkün mənşəyinin tamamilə səhv olduğunu göstərə bilər. Habelə yeni geoloji sübutlar dünyadakı həyatın ani surətdə meydana gəldiyini göstərə bilər. Sonda bütün kainatı kəşf edib başqa bir yerdə bir həyat izinə və ya həyata səbəb olan prosesə rast gəlməyə bilərik. Belə olduqda bəzi elm adamları cavab üçün dinə müraciət edə bilərlər. Ancaq mən də daxil olmaqla digərləri əldə olan daha az mümkün elmi açıqlamaları əlimizdə qalanlardan daha mümkün olanını seçmək məqsədilə axtarmağa çalışacaqlar.[176]

Elə bu sözlər dəccalın qaranlıq sistemini aydın görmək üçün, şübhəsiz, kifayətdir.

## 10. Darvinistlər meymunla insanın bənzərliklərindən istifadə etməyə çalışırlar

Yuxarıdakı sətirlərdə Darvinizmin olduqca bəsit məntiqə əsaslanıdğını və həyatı öz ağlına görə səthi və primitiv açıqlama meylində olması məsələsinə toxunmuşduq. Darvinistlərin istifadə etdikləri ən mühüm təbliğat vasitələrindən biri meymunlardır. Meymun müxtəlif anatomik xüsusiyyətlərinə görə həqiqətən də insana bənzər şəkildə yaradılmış bir varlıqdır. Elə darvinistləri ən çox aldadan və darvinistlərin də insanları ən çox aldatmasına səbəb olan ünsür bu bənzərliklərdir.

Darvinistlər meymun-insan bənzərliyindən istifadə etmək üçün bir meymunu ön plana çəkir və onun müxtəlif davranışlarını, alətdən istifadə etməsini, öyrənmə qabiliyyəti kimi xüsusiyyətlərini vurğulayan göstəriş edirlər. Məqsəd oxucularda insanın meymun soyundan gəldiyinə dair məşhur darvinist yalanın doğru göstərən fikir yaratmaqdır. Bəzi insanlar bu təlqini qəbul etdikdən sonra zooparka getdikdə və ya meymunlarla bağlı sənədli filmə baxdıqda o cür fikrə düşürlər. Belə ki, darvinist yalandan çox təsirləndiklərinə görə gördükləri canlının “bir az inkişaf etsə, təraş olsa, yaxşı qidalansa” asanlıqla insana çevriləcəyinə dair bəsit məntiqlə düşünməyə başlayırlar. Bir neçə fiziki bənzərlik darvinist təlqinin təsirli olmasına zəmin yaradır. İnsana bənzər bəzi ibtidai davranış formalarını öyrənmiş meymunlarla bağlı proqramlar dəfələrlə darvinist televiziya və internet saytlarında yayımlanaraq ön plana çəkilir. Bir meymunun öyrədildikdə nələr edə bildiyini görən və Darvinizm haqqında çox məlumatı olmayan bəzi tamaşaçılar gördüklərindən aldıqları darvinist təlqinlə tamamilə səhv düşüncə tərzinə malik olurlar. Meymunun göstərdiyi ağıllı davranışlar bu canlıların insanların qədim əcdadları olduğuna dair aparılan təbliğatı gücləndirmək üçün dəfələrlə göstərilir.

Lakin bu, başqa bir darvinist yalandır.

Meymunların müxtəlif xüsusiyyətlərinə görə insana bənzərlik təşkil etdiyi doğrudur. Amma bu hal insanla meymunun tamamilə fərqli canlılar olması həqiqətini dəyişdirmir. Meymun Allahın izni̇lə bu dünyada mövcud olduğu müddət ərzində meymundan fərqli bir canlı olmayacaq, nə qədər təlimləndirilsə də, insan kimi düşünmə, qavrama, şərh etmə, qabaqcadan düşünmə, ağıllı davranma, mühakimə yürütmə, planlı və şüurlu hərəkət etmə, nitq kimi xüsusiyyətlərə malk olmayacaqdır. Nə qədər hərəkətləri təqlid edib yamsılasa da, bir meymun heç vaxt təyyarə dizayn edə bilməyəcək, göydələnlər inşa edə bilməyəcək, şeir yazmayacaq, laboratoriyalarda insan üzərində tədqiqat apara bilməyəcəkdir. Çünki meymun Allahın ona xüsusi olaraq verdiyi anatomik xüsusiyyətlərə malik olan, nitq qabiliyyəti və ən vacibi insanı insan edən şüur, ağıl və ruhdan məhrum olan varlıqdır. Onun sadəcə bir neçə şeydə bacarıqlı olması insanın əcdadı olması iddiasına dəlil deyil.

Darvinistlər bu iddiaları ortaya atarkən insan və heyvan arasındakı ən mühüm fərqi unutdurmağa çalışırlar. İnsan "mənəm" deyən, öz varlığından agah olan, nə üçün yaradıldığını, nə üçün mövcud olduğunu düşünən, mühakimə yürütmə qabiliyyətinə malik canlıdır. İnsan bu səbəbdən digər canlıların hamısından qeyri-adi dərəcədə fərqlənir. Anatomik xüsusiyyətlər və bacarıqlar bununla müqayisədə çox kiçik ayırd edici ünsürdür. "Mənəm" deyən, varlığından agah olan şüurlu varlıq heç bir materialist açıqlama ilə açıqlana bilməz. Heç bir materialist açıqlama öz varlığının şüurunda olmayan, şüuru qapalı bir canlının ruhu olan və varlığının şüurunda olan bir varlığa çevrilməsi hekayəsini izah edə bilməz. Darvinistlər bu elmdənkənar açıqlamaya dair istədiklərii qədər saxta fosil dəlillər göstərməyə çalışsınlar (göstərilən bütün fosillərin saxta olduğu üzə çıxmışdır), insandakı şüurun və ruhun varlığını əsla izah edə bilməyəcəklər. Elə insanın saxta təkamülündən bəhs edərkən və bu mövzuda saysız-hesabsız kəllə sümüyünü dəlil kimi göstərməyə çalışarkən darvinistlərin yeganə toxunmaq istəmədikləri və onları tam mənada çarəsiz edən mövzu budur.

Bütün bunlarla bərabər darvinistlərin ən böyük dəlil hesab etdikləri bacarıq baxımından meymundan daha ağıllı xüsusiyyətlər nümayiş etdirən canlılar var. Qarğa, arı, qunduz, termit kimi canlılar bəzən meymunlardan daha ağıllı və bacarıq tələb edən davranışlar göstərirlər. Ona görə də qabiliyyət və bacarığa əsaslanan bənzərlik iddiası tamamilə yalandır.

Hər şeydən əvvəl darvinistlər insanı insan edən, gördüklərindən, eşitdiklərindən təsirlənməsini, onların üzərində düşünməsini, ağıllı hərəkət etməsini, hörmət, sevgi, vəfa kimi anlayışlara malik olmasını, mühakimə yürütməsini təmin edən "ruhu" izah etməlidirlər. Maddənin mütləq varlığına inanan, insan şüurunu sadəcə neyron yığını kimi görən bu təfəkkür ruhun varlığı həqiqəti qarşısında susur. Darvinistlər uzun müddətdən bəri şüurun mənşəyi və xəyali təkamülü haqqında araşdırmalar aparır, daha yaxşı ifadə ilə, bu mövzuda təbliğat metodları hazırlamağa çalışırlar. Lakin maddi varlığı olmayan bir anlayışı maddə ilə izah etmələri, hətta buna alternativ şərh vermələri qeyri-mümkün olduğuna görə bu mövzu haqqında heç bir iddiaları yoxdur. Çünki şüurun mənşəyi, yəni insanı insan edən ruh Allaha aiddir. Allah Özündən bir lütf olaraq bunu insana bəxş etmiş və onu digər canlılardan xüsusilə bu cəhəti ilə fərqləndirmişdir. Darvinist yalan bu məsələdə çarəsiz və səssizdir.

Allah Quranda insanı Öz ruhundan yaratdığını belə bildirir:

**O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən – bir qətrə zəif sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz Ruhundan üfürdü. O sizə göz, qulaq və ürək verdi. Siz nə az şükür edirsiniz! (Səcdə surəsi, 7-9)**

## 11. Darvinistlər vizual təlqinlə etdikləri sehrin təsirini yaymağa çalışırlar

Darvinist KİV-nin demək olar ki hamısında görmüsünüz. İllər boyu Nebraska Adamı ən mühüm təkamül dəlili kimi tanıdılmışdır. Bu xəyali varlığı tanıdan məqalələrin elə yan tərəfində çox tanış şəkil yerləşir. Bir az əyri yerişli bir meymun adam, arvadı, yaşadığı mühit, əlində ov silahı və s. Şəkil o qədər hərtərəflidir ki, sözügedən xəyali varlıq haqqında zehinlərdə kifayət qədər təsəvvür əmələ gəlmişdir. Çox araşdırma imkanı olmayan, mövzu haqqında məlumatsız oxuculara yönələn darvinist məqsəd əldə edilmişdir. Darvinist yalandan xəbərsiz olan oxucular ailəsilə birlikdə ibtidai şəraitdə yaşayan bi rmeymun adamın varlığına asanlıqla inanırlar.

Lakin bu həqiqətdən kənardır.

Nebraska Adamı kimi insanlara tanıdılan bu xəyali varlıq bircə dişdən uydurulmuşdur. Daha əvvəl bu barədə təfərrüatlı danışdığımız kimi bu diş də bir qabana aiddir. Yəni insanlara vizual təlqinlə verilən fikir qabanın azı dişindən uydurularaq meydana gətirilmişdir. Hər hansı yolla bu donuz dişindən xəyali Nebraska Adamının ailəsinin şəkilləri ortaya çıxmışdır. Başqa sözlə, çox böyük hiylə qurulmuş, insanlara əslində açıq-aşkar yalan deyilmişdir.

Bu təlqin metodu hələ də davam edir. Dənizdən quruya doğru hərəkət etməyə başlayan, üzgəcləri getdikcə qollara çevrilməyə başlayan balıq rəsmi tamamilə təxəyyül məhsulu olan rəsmdən ibarətdir. Darvinistlər heç bir dəlili olmayan belə bir keçid prosesinə insanları inandırmaq üçün yenə eyni metoddan istifadə etmişlər. Bir saxtakarlığa mövzu ayıran elmi jurnal və ya elmi saytda sözügedən xəbərin yanında mövzu ilə heç əlaqəsi olmayan, getdikcə dikələn və insana çevrilən meymun rəsmini qoymaq mövzunun təkamüllə əlaqələndirilməsini təmin etməkdir. Hər hansı bir oxucu verilən bu xəbəri vizual effektlərlə təkamülün bir hissəsi, hətta dəlili kimi qavrayır. Çox vaxt sözügedən məqalədə yazılanları oxumur, amma buradaki təkamülə işarə edən rəsm hafizəsində qalır. Eyni şəxs klonlaşdırma və ya genom layihəsi xəbərlərinin yanına qoyulan və mövzu ilə tamamilə əlaqəsiz olan təkamül rəsmlərindən də eyni şəkildə təlqini alır. Genom layihəsindəki hr hansı elmi irəliləyiş ona təkamülün də sanki elmi cəhətdən sübut edilməsi təsəvvürünü verir.

Bu saxta vizual təlqin tipik darvinist təbliğat metodudur. Psixoloji təlqin metodlarının ən çox istifadə edilənlərindəndir. Lakin əslində bir kəllə sümüyü fosili üzərində həyata keçirilən rekonstruksiyalar sadəcə müxtəlif sənətkarların fərqli fantaziyalarını əks etdirən sənət nümunəsidir. Eynilə Nebraska Adamı misalında olduğu kimi.

Şübhəsiz, bunun elmlə heç bir əlaqəsi yoxdur. Bunların təkamülə də heç bir aidiyyəti yoxdur. Elmi dəlil gətirmək yerinə saxta təlqin metodundan istifadə edilir, vəssalam.

Conatan Uelz bu darvinist saxtakarlığa aşağıdakı kimi misal çəkir:

1972-ci ildə Keniyanın şimalında tapılan məşhur kəllə sümüyü fosili üst çənənin kəlləyə bitişdirilmə formasına görə davamlı şəkildə görünüşünü dəyişdirirdi. Paleoantropoloq Alan Uolker, Maykl Dey və Riçard Likey "1470-ci il tarixli kəllə sümüyünün" iki hissəsini tədqiq edərkən Rocer Levin aparılan dəyişdirmə işlərinin sayını hesablayırdı. Levinə əsasən Uolker belə deyib: "Üst çənəni irəli doğru qaldıra bilər və ona uzun sifət yerləşdirə bilərsən və ya çənəni onun içinə soxub sifəti qısalda bilərsən... Bunlardan hansını edəcəyin əslində sənin fikirlərinə bağlıdır. İnsanların onunla nə etdiklərini görmək çox maraqlıdır." Levin Likeyin də hadisəni yenidən xatırlatdığını qeyd edir: "Bəli, onu bu şəkildə tutsan, belə görünər, bu şəkildə tutsan, başqa cür görünər."

Son vaxtlarda *National Geographic* jurnalı 1470-ci il tarixli kəllə sümüyü ilə eyni növə aid olduğu hesab edilən yeddi sümük fosili qəliblərindən dişi fiquru yenidən düzəltmək üçün dörd sənətkara tapşırıq verdi. Sənətkarlardan biri alnı olmayan, alt və üst çənəsi dimdikli dinozavra bənzəyən məxluq çəkdi. Digər sənətkar nisbətən yaxşı görünən, lakin qəribə tərzdə uzun qollara malik müasir afro-amerikalı qadın rəsmi çəkdi. Üçüncü sənətkar qorillaya bənzəyən qolları və Hollivud canavarına bənzəyən üzü olan sısqa dişi rəsmi çəkdi. Dördüncü sənətkar isə bədəni tüklərlə örtülü, ağaca dırmaşan və qorillaya bənzəyən qalın qaşlarının altından ətrafı nəzərdən keçirən muncuq gözlü malik fiqur çəkdi.

Bu təəccüblü rəsm yığını bircə fosil dəstinin müxtəlif yollarla necə yenidən formalaşdırıldığını açıq şəkildə göstərir. Bəzən meymun-insan zəncirinə əlavə ediləcək bir ara-keçid forma axtarışı hansı rəsm daha uyğundursa, ona müraciət edir.[177]

Darvinistlərin asanlıqla bu saxtakarlığı etmələrindəki səbəb nəsli kəsilmiş canlı fosillərini götürərək onlara istədikləri formanı verib, istədikləri görünüşdə təqdim etmələrindəndir. Darvinistlər uydurduqları bu rekonstruksiyalardan o qədər tez-tez istifadə edirlər ki, cildlərlə təkamül kitabı sırf bu saxta rəsmlərdən ibarət ola bilər. Hətta bir təbiət tarixi muzeninin eksponat baxımından malik olduğu yeganə şey bu rekonstruksiyalar ola bilər. İnsanlara illərlə bu saxta rəsmləri və maketləri göstərir, onların həqiqətən yaşadığına dair təlqin verməyə çalışırlar. Əlbəttə, bu muzeylərə gedən bir çox insan professorların və elm adamlarının nəzarəti altında olan, dövlətin dəstəyini almış bel bir tarix muzeyinin nümayiş etdirdiyi hər şeyin yalan və saxta olduğunu ağlına gətirməz. Hətta sırf bu səbəbdən gördüklərindən təsirlənir, kəlləsi kiçik, çənəsi böyük, əyri yeriyən, bədəni tüklərlə örtülü bu xəyali canlının tarixən mütləq yaşadığına inanır. Oradakı bir çox insan göstərilən bu saxta heykəl və rəsmlərin əslində heç vaxt yaşamadığını, onların hamısının saxta olduğunu, bunu dəstəkləyən bircə fosilin belə tapılmadığını, hətta əksinə, fosillərin bu iddianı tamamilə təkzib etdiyini bilmir, heç bunu araşdırmır da. Qarşılaşdığı təlqin o qədər güclüdür və bunu dəstəkləyən elə qocaman şəxslər var ki, bunun doğruluğu ilə bağlı sorğu-sual etmək onlara məntiqsiz gəlir. Lakin bu yolla daima aldadılır, yalana ortaq edilirlər.

Təbiət tarixi muzeylərinə getdikdə elə bu fosillərdən daha çox saxta rəsmlər və ya xəyali maket varlıqlar insanlara nümayiş etdirilir. Darvinistlər fosilləri göstərə bilməzlər, çünki fosillərin hamısı mükəmməl canlılara aiddir. Fosillərin hamısı canlıların milyonlarla il əvvəl də tam və əksiksiz, mükəmməl olduğunu göstərir. Habelə fosillər dövrümüzdəki canlıların milyonlarla il əvvəl də mövcud olduqlarını və əsla dəyişmədiklərini də göstərir. Elə bu hal paleontologiya muzeylərinin yeganə mənbəyi olmalı fosillərin kənarlaşdırılmasına səbəb olmuşdur. Fosillərin hamısı yaradılış gerçəyini sübut etdiyinə görə darvinistlər 300 milyon fosili gizlətmiş, əsla nümayiş etdirməmiş və insanlara göstərməmişlər.

Darvinistlər müxtəlif elmi jurnallardan da vizual təlqin vasitəsi kimi istifadə edirlər. Darvinist jurnallar elmi dəlil təqdim edə bilmədikləri üçün təbliğata üstünlük verirlər. Təbliğatın ən mühüm ünsürü olan aldadıcı səhifə dizaynı, cilddə və səhifələrdə istifadə edilən rənglər, cildin dizaynı, seçilən fotoşəkillər və xitab forması oxucuya lazımi mesajı vermək üçün kafi hesab edilir. Bu görünüşün ardında gizlənən sehr jurnalı alıb oxuyan şəxsin vizual cəhətdən jurnalın görünüşündən və içindəki rəsmlərdən təsirlənməsini və məzmun baxımından istifadə edilən latınca terminlərin təsiri altında qalmasını təmin etməkdir.

Reklamlardan kinofilmlərə, musiqi kliplərindən mahnı sözlərinə, cizgi filmlərinə, kitablara, məqalələrə qədər hər cür fürsətdən bu sehrin pozulmaması üçün istifadə edilir. Məqsəd insanların bəzi sözləri və cümlə qəliblərini əzbər bilmələri və görüntülərlə tanış olmalarıdır. Xəyali meymundan insana keçid mərhələləri, yalançı ara fosil rəsmləri, saxta ibtidai insan şəkilləri həyatın hər anını əhatə etmişdir. Qəzet və jurnallarda kiçik və ya böyük, bir kəlmə ilə və ya ətraflı şəkildə daima bu mövzu üzərində dayanırlar. Bu şəkildə insanların üzərindəki darvinist sehrin təsirinin pozulmaması məqsədi güdülür.

Yaradılışa qarşı uydurulan xüsusi metod, öz ağıllarına görə etdikləri məsxərəçi davranışlar da bu sehrin təsirini tamamlamaq üçündür. Allaha inama yönələn bu lətifələrin, məqalələrin, nitqlərin, karikaturaların hamısının (Allahı tənzih edirik) səbəbi insanları darvinist təlqinə alışdırmaq məqsədi daşıyır. İnsanlarda Allaha inama olan hər cür meyli aradan qaldırmaq və beyinlərdə Darvinizmin təməlini qoymaq üçün edilən bu çirkin şou dəccalın oyununun bir hissəsidir.

Lakin bu sehr artıq pozulmuşdur. Dəccalın dəstəkçiləri isə içinə düşdükləri vəziyyəti tam qavraya bilmirlər. Darvinizmin gerçək olmadığına dair dəlillərin yalnız bircə dəfə izah edilməsilə

bir insanın təkamül nəzəriyyəsinə inanmasından söz gedə bilməz. Bunu etmək üçün darvinist təbliğat metodlarındakı kimi mürəkkəb sözlər, latınca terminlər və vizual təlqinlər lazım deyil. Həqiqətlərin bircə dəfə, olduqca sadə dillə izah edilməsi, Darvinizmin əsassızlığını göstərən dəlillərin bircə dəfə nümayiş etdirilməsi kifayətdir. Həyatı boyu Darvinizm təlqinini almış bir insan belə bu inkaredilməz həqiqətlər qarşısında Darvinizm yalanına artıq inanmaz. “İnanıram” desə də, bu doğru deyil, çünki artıq həqiqətləri bilir. Bir insanın qapqaranlıq bir otağın içində, pərdənin arxasındakı günəşi ancaq bir saniyəlik görməsi kifayətdir. Oturduğu otaq nə qədər qaranlıq olsa da, artıq bu şəxsi çöldə gecə olduğuna inandırmaq qeyri-mümkündür. Hal-hazırki vəziyyət də bundan fərqlənmir. İllərlə çox təsirli hesab edilən darvinist təlqinlər həqiqətlərin sadəcə bircə dəfə və elmi dəlillərlə açıqlanması ilə aradan qalxmış, bütün təsirini itirmişdir.

Rəbbimiz dəccala uyanların vəziyyətini ayəsində belə xəbər vermişdir:

**Onlar özlərinə zərər eləyənlərdir. Yalandan uydurduqları da onlardan uzaqlaşıb qeyb olmuşlar. (Hud surəsi, 21)**

## 12. Darvinistlər insanlara “məsuliyyətsizliyi” təlqin edirlər

Tarix boyu materializmin ən böyük məqsədi insanları Yaradanın varlığı inancından uzaqlaşdırmaq və insana bir maddədən başqa bir şey olmadığı yalanını aşılamağa çalışmaq olmuşdur. Bunda məqsəd insana məsuliyyətsizlik təlqini vermək və onu “təkamül keçirən heyvandan” başqa bir şey olmadığına inandırmaqdır. Darvinizm materialist məntiqin davamı olduğuna görə bu təlqini vermək insanları darvinizmə daha da yaxınlaşdırır. Çünki məsuliyyətsizlik hissi Allah inancı qəlbinə tam yerləşməmiş insanları cəzb edir. Məsuliyyətsizlik düşüncəsi ilə insanlar dünyanın zövqlərinə daha asan malik olacaqlarına inanıb yanılırlar. Həyatları boyu Allah üçün yerinə yetirməli borclarından bixəbərmiş kimi davranırlar. Allaha ibadət etmək, axirətin varlığını düşünərək yaşamaq, nəfsin təlqin etdiyi pisliklərdən çəkinmək və daima gözəl əxlaqlı olmaq kimi Quran əxlaqının gətirdiyi məsuliyyətlərdən uzaqlaşacaqlarına və beləliklə öz ağıllarına görə rahatlayacaqlarına inanırlar. Lakin rahatlıq kimi düşündükləri bu sistem, tam əksinə, böyük sıxıntı mənbəyidir. Gözəl əxlaqdan uzaq duraraq rahat olacağını düşünən şəxs gözəl əxlaqı yaşamamağın verdiyi mənəvi boşluqda daima sıxıntı içində yaşayır. Eqoist olduqda güclü olacağını, ədalətsiz davrandıqda mənfəət əldə edəcəyini zənn edən şəxs daima bu çirkin əməllərin acısını yaşayır. Pis əxlaqı özünə ziyan verir. Kimsənin kimsəni sevmədiyi, kimsənin kimsə üçün fədakarlıq etmədiyi, kimsənin kimsəyə vəfa göstərmədiyi, kimsənin kimsəni qorumadığı, ədalətin, şəfqətin, mərhəmətin olmadığı bir mühitdə yaşamağın maddi və mənəvi itkiləri ilə ömrünü hədər edər. Qısaca desək, darvinistlərin verdiyi məsuliyyətsizlik təlqini bəzi şəxslərin zənn etdiyi kimi onların həyatını asanlaşdıran deyil, tam əksinə, çətinləşdirən, çirkinləşdirən, maddi və mənəvi cəhətdən onlara əzab verən hala çevrilir. Belə ki, bu gün bir çox Qərb ölkəsinin yaşadığı sosial böhranı fikirləşdikdə bu həqiqət daha yaxşı başa düşülür.

Bütün bunlara baxmayaraq düşünməkdən qaçan bəzi insanlar Darvinizmə inanmağa daha meylli olurlar. Çünki bəzi insanlar bəzən həyatlarının “adiləşdiyini” düşünərək rahatlamaq arzusunda olurlar. Çox insana heyvandan törəyən məsuliyyətsiz varlıq olduğunu düşünmək təhlükəli gəlmir. Darvinizm də elə bunun üçün lazım olanı edir, insanı sanki bir həşərat və ya milçək ilə bərabər tutur.

Təkamülçü paleontoloq Stefen Cey Quld bu məntiqi belə şərh edir:

İnsan sadəcə həyatın nəhəng cəngəlliyində sonradan üzə çıxmış, böyük ölçüdə təsadüfi kiçik kürəyi təmsil edir.[178]

Ateist Riçard Doukinsin dəstəklədiyi müxtəlif ölkələrdəki avtobus afişaları sözügedən çirkin təbliğata çox aydın və açıq misaldır. Doukinsin dəstəklədiyi avtobus afişaları ateizm təlqini verir və beləliklə, insanlara "məsuliyyətsiz yaşamağın ləzzətini hiss etmələrini" məsləhət görür. Çox dərin düşünməyən bir insan bu çağırışı həqiqi hesab edir və sözügedən darvinist təlqin olduqca sürətlə təsir edir. Hər şey o qədər bəsit izah edilmişdir ki, insan necə böyük yalanın içinə düşdüyünü, necə aldadıldığını heç hiss etmir.

Lakin bu afişalar böyük bir saxtakarlıqdan, ciddi yalandan ibarətdir. Bir insan iman gətirməsə də, Allahın uca varlığının dəlillərini daima görür, istəsə də, istəməsə də, Allahın yaratdığı qədəri yaşayır. İman dəlilləri – həqiqətən görən və düşünən insanlar üçün – hər yerdədir. İnsan yalnız iman və Allah sevgisi ilə xoşbəxt ola bilər, yaşadıqlarından zövq alar. Dünyadakı gözəllikləri insana nemət kimi yaradan Allah, əlbəttə, Onu daha çox sevənə və Ona daha yaxın olana bu nemətlərin gözəlliyini və zövqünü hiss etdirəcəkdir. İnkar edənlər neməti də, zövqü də verənin Allah olduğunu unutduqlarına görə məsuliyyətsiz yaşadıqda və həddi aşdıqda xoşbəxt olacaqlarını düşünürlər. Lakin Allahdan qafil, həddi aşaraq və məsuliyyətsiz yaşamaq onlara həmişə zülm, sıxıntı və məhv gətirmişdir. Nemətlər bəlaya çevrilmiş, zövqlər uğursuzluqla nəticələnmişdir. Bu insanlar Allaha yaxın olmağın, Allaha iman gətirməyin gözəlliklərini düşünmədiklərinə, nemətlərin hamısını Allahın verdiyini qavramadıqlarına görə bu cür saxta təbliğat metodlarının uğurlu olacağını zənn edirlər. Lakin nə üzləri gözəl və rahat həyat yaşayırlar, nə də ətraflarındakı insanlara təsir edə bilirlər (Doukinsin müdafiə etdiyi ateist avtobus afişalarına bir çox ölkə mənfi reaksiya vermiş, Finlandiya kimi bəzi Avropa ölkələrində həddindən artıq mənfi qarşılandığına görə avtobus sürücüləri boykot etmiş, avtobus şirkətləri bu afişalardan istifadə etməmə qərarı vermiş, xalq sözügedən afişaları cırmışdır. Bunun nəticəsində bir çox yerdə həmin afişalar qadağan edilmişdir[179]).

Bu təlqinin ən çox verildiyi başqa yer isə təhsil müəssisələridir. Bir orta məktəb dərsliyi olan "Biologiya" (*Biology*) şagirdlərə "həyatın təbiətini" öyrənərkən bu fikri yadda saxlamağı onlara öyrədir: "Təkamül təsadüfidir və dizayn edilməmişdir."[180] Universitet dərsliyi "Həyat: Biologiya Elmi" (*Life: The Science of Biology*) kitabını oxuyan tələbələri isə bu cümlə ilə qarşılaşırlar: "Darvinçi dünyagörüşü sadəcə təkamül proseslərini qəbul etmək deyil, eyni zamanda təkamül xarakterli dəyişikliyin əsaslı məqsəd və ya vəziyyətlə əlaqədar nizamlanmadığını da qəbul etmək deməkdir."[181] Bir insanın təsadüfən - kor, şüursuz təsadüflərin nəticəsində əmələ gəlməsi yalanını öyrədən təhsil sistemi, şübhəsiz, zehinlərin anarxiyanı, qarşıdurmanı, qırğını, əzməyi, mərhəmətsizliyi, eqoistliyi uyğun hesab edən çox təhlükəli fikirlərlə zəhərlənməsi deməkdir və bu təlqinləri alan insanların istənilən şəkildə yönəldilmələri də mümkündür. Məsələn, Duqlas Futuymanın "Təkamül Biologiyası" (*Evolutionary Biology*) adlı dərliyin tələbələrə öyrətdiyi yalan budur:

Darvinin kor, məqsədsiz təbii seçmə yolu ilə işləyən təsadüfi, məqsədsiz dəyişikliklər teoremi nə üçünlə başlayan, demək olar ki, bütün suallara inqilabi yeni cavab verir. Müxtəlif orqanizmlərin varlıqları və xüsusiyyətlərinin bu tamamilə mexaniki, materialist açıqlamasının dərin və narahatlıq verən mənası budur ki, insanın davranışından başqa təbiətin hər hansı bir yerində bir dizayn, məqsəd və ya hədəf olduğuna dair dəlilə rast gəlməmişik, buna heç ehtiyacımız da yoxdur.

Futuyma elmdənkənar açıqlamasına belə davam edir:

Əvvəla, Darvinin təkamül nəzəriyyəsi, onun yolunu izləyən Marksın materialist tarix və cəmiyyət anlayışı (qeyri-kafi və səhv olsa da) və Freydin insan davranışları ilə bağlı əlavələri əvvəldən bəri Qərb düşüncəsinin böyük səhnəsi olmuş mexanisizm və materializm platformasına həyati əsas vermişdir.[182]

Lakin bütün bunlar böyük yalandır.

İnsan hər şeyi bəsit və şüursuz şəkildə qavrayaraq məsuliyyətindən yaxa qurtara bilməz. Məsuliyyətdən yaxa qurtarmaq hissi də insanlara rahatlıq verib xoşbəxt etməyəcək. İnsan bu hissi üzərindən atdıqda bir anda dünya zövqlərinə malik olmayacaq, bütün dərdlərindən xilas olmayacaqdır. Ateist və darvinistlərin bilmədikləri və ya qəbul etmək istəmədikləri mühüm həqiqət var: **Hər şeyi Allah yaradır. Dünyadakı nemətləri də, zövqləir də yaradan Allahdır. Ona görə insana dünyadakı gözəlliklərdən zövq alma və rahat yaşama hissini verən də Allahdır.** Allah istəsə, bütün nemətlər, bolluq və rifah içində olan bir insana ən böyük bədbəxtlikləri və əzablar yaşada bilər. İnsan bütün zövqləri acgözlüklə yaşamaq üçün nə qədər cəhd etsə də, ona zövqü və xoşbəxtliyi verən yalnız Allahdır. Elə ateistlərin və darvinistlərin ən böyük səhvi bu həqiqətdən qafil olmalarıdır.

Məsuliyyətsiz olduğunu düşünən bir insan hamı kimi daima sevgi, rahatlıq və etibar axtarışındadır. Amma özü kimi düşünən insanlardan ibarət cəmiyyət içində bunların heç birinə malik deyil. Məsuliyyətsiz insan həyatı boyu bir gün mütləq öləcəyini unutmağa çalışır. Lakin əslində daima ölümlə üz-üzədir. Ətrafındakıların ölümünü seyr edir, xəstəliklərə, qəzalara daima şahid olur. Bir həşəratın ölümü belə qaçmağa çalışdığı ölümü ona mütləq xatırladacaqdır. Ölümü nə qədər inkar etməyə çalışsa da, ölüm qorxusu bütün bədənini axır-əvvəl əsir edər. Ətrafında ölən və onun inancına əsasən yox olub gedən insanlar üçün üzülür. Öz bədəninin keçən zamana üstün gəlmədiyini, daima ölümə yaxınlaşdığını inkar etməməyə başlayır. Ölümü rədd etmək ona rahatlıq deyil, tam əksinə, qorxu,  narahatlıq və sıxıntı gətirir.

Məsuliyyətsiz yaşamaq insana əslində bütün sıxıntı və çətinliklərin qapısını açır. Hər şeyin Allahın nəzarəti altında olduğunu təqdir etməyən bir insan gələcəkdən çox qorxar. Bütün ruzinin sahibinin Allah olduğunu təqdir etməyən bir şəxs həyatı boyu bir yerdən qazanc əldə etmə həvəsində olur və demək olar ki, bütün həyatı bu yolda hədər olur. Allahın axirətdə insan üçün gözəlliklərlə dolu tayı-bərabəri olmayan həyat yaratdığını bilməyən bir insan daima öz inandığı sistem içində əsl sevginin, əsl dostluğun, əsl vəfanın yaşanmasını gözləyir. Lakin əsl sevgiyə bu dünyada ancaq Allah üçün yaşadığı təqdirdə malik olacaq. Allah üçün yaşamadığı müddət ərzində heç vaxt bu gözləntisinə qarşılıq tapmaz. Əsl sevgi və vəfanı əldə etmədən ömrünün sürətlə keçdiyini başa düşər. Geriyə dönüş isə yoxdur. Gələcəkdə olacaqları dəhşət içində gözləyər.

Öz inancına görə ancaq bu dünyadakı bir neçə onillik ömrü var. Axirətə inanmadığına görə bir neçə onilliyin sonunda "yox olacağını" düşünür. Yox olacağını bilə-bilə bir neçə onillik ərzində dünyada yaşamaq insana necə xoşbəxtlik, zövq və rahatlıq verə bilər ki? Əlbəttə, verməz. Elə buna görə heç bir ateist iddia etdiyi kimi həyatdan zövq almır, gələcəkdə özünü nələrin gözlədiyini ancaq narahatlıq və qorxu içində gözləyir.

Belə bir insan həyatının sonu çatdıqda bütün həyatının boş və nəticəsiz gözləntilər içində keçdiyini başa düşəcəkdir. Məsuliyyətsizliyin insana gətirdiyi bunlardır. Əgər bir insan axirəti istəmirsə, nəzarətsiz və bütün dəyərlərdən məhrum yaşamaq istəyirsə, bunun qorxunc nəticələrilə də gec-tez qarşılaşacaqdır. Belə ki intiharlar, davalar, müharibələr, cinayətlər, qırğınlar, oğurluq, təcavüz və əyriliklər bu məsuliyyətsiz həyatın nəticəsidir.

Lakin Allah **"Məgər insan elə güman edir ki, o, başlı-başına (nəzarətsiz) buraxılacaq?!"** (Qiyamət surəsi, 36) ayəsində bildirdiyi kimi insanı məsuliyyətsiz yaratmamışdır. İnsana rahatlıq

verəcək, insanı doğru və gözəl yaşamağa, narahatlıq, qorxu və sıxıntı hiss etmədən yaşamağa yönəldəcək şey yalnız Allah qorxusu və Allah sevgisidir. Allahdan qorxan bir insan Allaha hesab verəcəyini bilir, vicdanına zidd yaşamaz. Allahdan qorxan bir insan başqasına zərər verməz, pis əxlaqlı davranmaz, insanları təsadüfi varlıqlar kimi qəbul etməz. Allaha güvənən bir insan onu yaradanın, yaşadanın, ona ruzi verənin, sağlamlıq və güc verənin Allah olduğunu və bunları ancaq Allahdan istəyəcəyini bilir. Allahdan qorxan bir insan Allahın yaratdığı xeyirli qədərə tabe olduğunu, bu dünyada ancaq imtahan edildiyini, əsl həyatın axirətdə Allahın təqdir etdiyi sonsuz həyat olduğunu bilir. Elə buna görə bu dünyada daima çalışır. Allaha qarşısında məsuliyyət daşıdığını, Allaha hesab verəcəyini, Allahın onu nəzarətsiz və məsuliyyətsiz yaratmadığını bilir.

Nemətlər onun üçün sevinc vəsiləsidir, nemətlərin haqqını verən, onlardan zövq alan da ancaq iman gətirənlərdir. İnsanlar zövqlərin hamısını məhdudiyyətsiz yaşadıqda razı qalacaqlarını hesab edirlər. Ancaq bu insanı qeyri-məhdudiyyət, nemətlərdən bezmə, hətta iyrənmə dərəcəsinə gətirir. Zövq almağı gözlədiyi gözəlliklər insan üçün bir anda bəlaya, narahatlığa çevrilir. Amma nemətləri Allah üçün sevmək, Allah yaratdığı üçün nemətlərdən zövq almaq başqa ruh halıdır. Bunu yaşayan insanın aldığı zövq qeyri-adidir və bu şüurla yaşamağın əvəzi, Allahın istəyilə, dünyada və axirətdə gözəl həyatdır. Allah ayələrində belə bildirir:

**Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər. Onlara dünyada da, axirətdə də müjdə vardır. Allahın sözləri heç vaxt dəyişməz. Bu, böyük qurtuluşdur! (Yunus surəsi, 62-64)**

## 13. Darvinistlər “Darvinizmlə Allah inancı ziddiyyət təşkil etmir” yalanını təlqin edirlər

Darvinizmin əsasını materializm təşkil edir. Materializmə əsasən maddə sonsuzdur və maddədən üstün hər hansı bir güc yoxdur. Başqa sözlə, materializm bütün kainatı təşkil edən maddədən üstün olan, maddəyə hakim olan, maddəni daima nəzarəti altında saxlayan üstün Yaradanın varlığını inkar edir (Allahı tənzih edirik). Maddənin mütləq varlığı iddiası ilə ortaya atılmış Darvinizmi yaşatma səyinin, bu səy üçün bütün yalanlara, saxtakarlıqlara əl atılmasının yeganə səbəbi bütün varlıqları üstün və güclü bir Yaradanın yaratdığı həqiqətinin qəbul edilməsinə mane olmaqdır. Darvinistlər son 150 il boyu buna çalışmış, bunun üçün mübarizə aparmışdırlar. Darvinizmin saxta bir din kimi mənimsənilməsinin ən böyük səbəbi elə budur.

Ancaq bu həqiqət adətən insanlardan gizlədilir, çünki bu vəziyyət geniş xalq kütlələrinin Darvinizmə simpatiyasını pozacaqdır. Xüsusilə Allaha iman gətirib dərin hörmət saxlayan, inanclı insanlara mənfi təsir edəcək. Darvinizmin Allah inancına qarşı bir nəzəriyyə olması Darvinin dövründə də dindar kütlələrin etirazına səbəb olmuş, nəzəriyyə o dövrün insanları tərəfindən asanlıqla mənimsənilməmişdir. Mənimsənilməyə başlanması darvinist təlqinlər və təbliğatlar nəticəsində olmuşdur. Hal-hazırda da təhsil müəssisələrində insanın meymundan törədiyini, dinozavrların qanad açıb uçmağa başladığını öyrənən insanlar əsasən təkamül nəzəriyyəsinin zərərsiz elmi nəzəriyyə olduğunu düşünürlər. Nəzəriyyənin əsl üzündən isə xəbərsizdirlər. Dünyadakı dinsizliyin, diktaturaların, müharibələrin, soyqırımların, zalımlığın, degenerasiyanın, terrorun, ölkəmizdəki əsgərlərimizin şəhid edilməsini əsas səbəbinin elmdənkənar batil nəzəriyyə olduğunu bilmirlər.

Darvinistlər də müdafiə etdikləri ehkamın əsl üzünü gizlətməyə çalışırlar. Elə buna görə Allaha iman gətirən kütlələri yönləndirmək, Darvinizmi zərərsiz göstərmək və onların da

dəstəyini qazanmaq üçün Darvinizmin dinə zidd olmadığı yalanını yaymağa çalışırlar. Bu yolla tərəfdar toplayacaqlarına və təkamül nəzəriyyəsinə qarşı aparılan fikri mübarizənin daha da zəifləyəcəyinə inanırlar. Bu məqsədlə irəli sürdükləri "təkamüllə yaradılış" yalanı olduqca məntiqsiz və əsassız olmasına baxmayaraq altdan-altdan dəstəklənir, darvinistlər tərəfindən daima gündəmə gətirilir. Hətta bunun üçün Darvinin özünün belə dindar şəxsiyyət olması yalanına əl atırlar. Ateist və darvinist Riçard Doukins bu məsələ ilə bağlı fəaliyyət göstərən bir darvinist lobbinin varlığını bu sözlərlə etiraf edir:

Xüsusi təşkil edilmiş təkamülü qoruma lobbisi var. Bunların böyük əksəriyyəti ateistlərdən ibarətdir. Amma bu şəxslər orta mövqe tutan ve mötədil dindarlarla dost olmaq istəyirlər. Bunu etməyin yeganə yolu təkamül ilə din arasında heç bir uyğunsuzluq olmadığını söyləməkdir.[183]

Ancaq təkamül ilə din heç bir şərt daxilində, heç cür əlaqələndirilə bilməz. Darvinistlər özləri Allaha inanmadıqları, təsadüfləri tanrılaşdırdıqları (Allahı tənzih edirik), yaradılış həqiqətinə tamamilə qarşı olduqları və bu yolda mübarizə apardıqları halda bir anda Allahın kainatı təkamüllə yaratması yalanının ən böyük müdafiəçisinə çevrilirlər. Əslində isə darvinistlər materializmə olan bağlılıqlarına görə Allah inancını heç vaxt qəbul etməzlər. Darvinist olmaq Allah inancını inkar etməyi də özü ilə bərabər gətirir. Bir insanın elmi cəhətdən heç bir dəlili olmayan, təsadüfləri tanrılaşdıran bu bütpərəstlik dinini dəstəkləməsinin yeganə səbəbi Allahın varlığını inkar etməkdir (Allahı tənzih edirik). Darvinistlərin insanları Allah inancından uzaqlaşdırmaq üçün etməyəcəkləri şey yoxdur.

**Elə buna görə bu yalana qarşı diqqət olmaq lazımdır!**

Jurnalist Lari Uitam Darvinizmin saxta din olmasının açıqlandığı və darvinist diktatorluğun təzyiq və israrlarından bəhs edildiyi *Expelled "No Intelligence Allowed"* (Qovulmuş "Heç bir intellektə yer yoxdur") sənədli filində mövzu ilə bağlı belə şərh verir:

Təkamül nəzəriyyələrinin hamısında qəti şəkildə iddia edilən şey ya Allahın olmaması (Allahı tənzih edirik), ya da Allahın yaratdıqlarına nəzarət etməməsidir (Allahı tənzih edirik). Buna görə təbii olaraq bir çox təkamülçünün də dediyi kimi **təkamül ateizm üçün ən güclü vasitədir.**[184]

Darvinistlər Allah inancını qəti şəkildə inkar etdikləri halda insanlara qarşı bu çirkin oyunu oynayırlar. Lakin bu çirkin yalana inananlar bu həqiqəti düşünmürlər: Uca Allah, şübhəsiz, bütün varlıqları müxtəlif vəsilələrlə yaratmağa qadirdir. Rəbbimiz istəsə canlıları təkamül vəsiləsi ilə yarada bilərdi. Lakin belə yaratmamışdır. Bütün varlıqlar yer üzündə yoxdan var olmuşlar, yoxdan yaradılmışlar.

Quranda təkamülə işarə edən bircə ayət də yoxdur. Qurana əsasən bütün kainat və canlılar Rəbbimizin "Ol" əmri ilə yaradılmışdır. Allah endirdiyi bütün ilahi dinlər ilə insanlara bütün kainatı yoxdan, bircə əmrlə yaratdığını və ona istədiyi formanı verdiyini bildirmişdir. Belə ki, yer üzündəki dəlillərə baxdıqda da yaradılışın Quranda tərif edildiyi şəkildə olduğunu görərik. Tapılan hər canlı növü mükəmməldir. Ani surətdə, mükəmməl görünüşdə ortaya çıxmış və heç bir dəyişikliyə uğramamışlar. Canlılar milyonlarla il boyu dəyişilməyiblər. Canlıların cansız maddələrdən əmələ gəlmə ehtimalı yoxdur. Bircə zülalın belə təsadüfən əmələ gəlməsi qeyri-mümkündür. Qeyri-adi kompleksliyə malik canlı növlərinin bir-birinə çevrilmələri iddiası elmdən tamamilə uzaqdır. Bir canlıya tamamilə yeni, faydalı informasiya əlavə edən mexanizm yoxdur. Elm bütün canlıların zülallarına, hətta atomlarına qədər möhtəşəm kompleksliyə malik olduqlarını, ani surətdə ortaya çıxdıqlarını və bir-birlərinə çevrilmədiklərini qəti və inkaredilməz dəlillərlə ortaya qoymuşdur. Beləliklə, Allahın təkamüllə yaratdığına dair bir iddia böyük yalandır, darvinist yalanın bir hissəsidir (mövzu ilə əlaqədar ətraflı məlumat üçün baxın: Harun Yahya, *Kuran Darvinizmi Yalanlıyor*)

Yaradlışmış hər şey Allahın uca qüdrətinin bir dəlilidir. Quranda bir çox ayədə Allahın bu üstün yaratması xəbər verilmişdir:

**Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona yalnız: "Ol !" –deyər, o da (fövrən) olar. (Bəqərə surəsi, 117)**

**Allah yanında İsa da Adəm kimidir. Allah onu torpaqdan yaratdı. Sonra ona: "Ol!" – dedi, o da oldu. (Ali-İmran surəsi, 59)**

**Göyləri və yeri haqq olaraq yaradan Odur. Onun: "Ol!" deyəcəyi gün (hər şey) dərhal olar. Onun sözü haqdır. Surun çalınacağı gün hökm Onundur. Qeybi və aşkarı bilən də Odur. O, hikmət sahibidir, (hər şeydən) xəbərdardır! (Ənam surəsi, 73)**

**Biz hər hansı bir şeyi istədikdə ona sözümüz: "Ol!" deməkdir. O da dərhal olar. (Nəhl surəsi, 40)**

**Məgər göyləri və yeri yaradan onların bənzərini yaratmağa qadir deyilmi?! Əlbəttə**

**(qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur! Bir şeyi istədiyi zaman Onun əmri ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar. (Yasin surəsi, 81-82)**

Dövrümüzdə elm materialist-təkamülçü iddianın əsassızlığını göstərir. Təkamül nəzəriyyəsinin iddiasının əksinə, ətrafımızdakı hər bir yaradılış dəlili kainatda təsadüfə əsla yer olmadığını insanlara sübut etmişdir. Əgər yer üzündə Allahın təkamüllə yaratdığına dair dəlillər tapılsaydı və Allah Quranda bunu bizə bildirsəydi, "Rəbbimiz təkamüllə yaratmışdır" düşüncəsi, əlbəttə, inananlar tərəfindən dərhal qəbul edilər və müdafiə edilərdi. Ancaq Allah Quranda "Ol" əmri ilə yaratdığını xəbər verir və təkamüllə yaratmaya dair heç bir ayə yoxdur. Həm də qəti və aydın şəkildə təkamülə dair bircə elmi dəlil yoxdur. Belə olduqda həqiqətlər aydındır. Göylərin, yer üzünün və bütün canlı varlıqların tədqiq edilməsi ilə üzə çıxan hər detal Allah böyük güc və qüdrətinin bir dəlilini deməkdir. Bütün varlıqlar ulu Rəbbimiz Allahın əmri ilə bir anda, yoxdan yaradılmışlar. Şübhəsiz, yaratmaq üçün Allahın səbəblərə ehtiyacı yoxdur (Allahı tənzih edirik). Darvinistlər elə bu mühüm cəhəti qavramalıdırlar. Allah bir ayəsində belə buyurur:

**Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi görmədinmi? İbrahim: "Mənim tanrım həm dirildir, həm də öldürür", - dediyi zaman, o: "Mən də həm dirildir, həm də öldürürəm", - demişdi. İbrahim ona: "Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur!" – dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah zülm edənləri düz yola yönəltməz! (Bəqərə surəsi, 258)**

Allahın təkamüllə yaratdığını təlqin etməyə çalışanlar cinlərin və mələklərin necə yaradıldıqlarını da açıqlamalıdırlar. Bu şəxslər mələklərin və cinlərin yaradılışı məsələsi gündəmə gələndə susurlar. Allah cinlərin və mələklərin yaradılışını ayələrində bildirir:

**Biz insanı quru və şəklə düşmüş qara palçıqdan yaratdıq! Cannı da daha öncə tüstüsüz oddan xəlq etmişdik. (Hicr surəsi, 26-27)**

**Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri elçi edən Allaha həmd olsun! (Allah) məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir! (Fatir surəsi, 1)**

İnsanın və canlıların təkamüllə meydana gəldiyini iddia edənlər nurdan yaradılmış mələklərin, alovdan yaradılmış cinlərin əmələ gəlməsini, əlbəttə, təkamüllə açıqlaya bilməzlər. Allahın qədrini təqdir edə bilməyən, Allahın bütün səbəblərdən uzaq olduğunu başa düşməyən və Rəbbimizin hər şeyi ancaq "Ol" əmri ilə yaratdığını qəbul etməyən insanlar üçün mələklərin və cinlərin varlığı bütün saxta iddiaları aradan qaldırır. Çünki cinlərin və mələklərin varlığı bu açıq həqiqəti üzə çıxarır: mələklər və cinlər təkamüllə yaradılmadıqları kimi, insan da təkamüllə yaradılmamışdır.

Darvinizmi kor-koranə müdafiə edənlər Quranda bildirilən Hz. Musanın (a.s.) əsasının ilana çevrilməsini və Hz. İsanın (a.s.) palçıqdan düzəltdiyi quşun canlanmasını əsla açıqlaya bilməzlər. Uca Allah Hz. Musanın (a.s.) əsasının ilana çevrilməsini ayələrində belə xəbər verir:

**Dedi: "O mənim əsamdır. Ona söykənir, onunla qoyunlarıma xəzəl silkələyirəm. O, başqa işlərdə də karıma gəlir!" (Allah) buyurdu: "Ya Musa! Onu (əsanı yerə) at!" (Musa**

**əsanı yerə) atan kimi o, dərhal bir ilan olub sürətlə sürünməyə başladı. (Taha surəsi, 18-20)**

**Biz də Musaya: "Əsanı tulla!" – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. (Əraf surəsi, 117)**

Hz. Musanın (a.s.) söykəndiyi, ağacdan yarpaq saldırdığı əsası Allahın əmri ilə bir anda canlı, çoxalan, qidalanan, mükəmməl, tam və qüsursuz ilana çevrilmişdir. Bir taxta parçası Allahın istəyilə bir anda mükəmməl ilan olmuşdur. Bu dəlil Quranda təkamül nəzəriyyəsinə dəlil olması iddiasını qəti şəkildə məhv edir. Rəbbimiz öz istəyilə Hz. İsanın palçıqdan düzəltdiyi quşu cnalı quşa çevirməsini ayəsində belə xəbər verir:

**Allah belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarına açıq-aşkar möcüzələr gətirdiyin zaman Mən (onların bəlasını) səndən dəf etmişdim. Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!" (Maidə surəsi, 110)**

Hz. İsanın (a.s.) palçıqdan düzəltdiyi quş Allahın izni və istəyilə bir anda canlı, mükəmməl, tam və qüsursuz qanad quruluşu ilə uçan, çoxalan, qidalanan quşa çevrilir. Budur, bu yoxdan yaradılış darvinistlərin əsla izah edə bilmədiyi böyük möcüzədir və yer üzündəki bütün canlılaırn yoxdan yaradılışına dəlildir.

Bütün bunların ortaya qoyduğu aydın nəticə var. Təkamül ilə Allah inancının ziddiyyət təşkil etmədiyini iddia edən darvinistlər əslində dindar insanları böyük yalana sürükləməyə çalışır, onların səmimi imanlarını istismar etmək üçün cəhd göstərirlər. Bu gün Allaha inancının qarşısındakı ən böyük təhlükələrdən və maneələrdən biri Darvinizmdir. Darvinizm birbaşa Allah inancına qarşı mübarizə eədn dəccalın ən təsirli və böyük oyunudur. Allah inanan səmimi dindarlar bu təhlükəni görüb buna qarşı ciddi elmi fəaliyyət göstərməlidirlər. Bu böyük təhlükəni zərərsiz hesab edib onu dəstəkləmək təhlükəni daha da böyüdəcək, Allah inancına qarşı mübarizə aparan təhlükəli axına dəstək verəcəkdir. Unutmaq olmaz ki, Darvinizm saxta və batil bütpərəst dinidir və yeganə məqsədi insanları dinsizliyə sürükləməkdir.

# DÖRDÜNCÜ FƏSİL

# DARVİNİZM YALANI ARTIQ SONA ÇATDI

Materializm əsrlər boyu Allah inancına qarşı əslində əvvəldən uduzduğu psixoloji mübarizə aparır. Allahın batili mütləq əsassız edəcəyini qavramayan materialistlər öz ağıllarına görə bu mübarizəyə var gücləri ilə davam edirlər. Kainatın Böyük Partlayışla (Big Bang) sıfır həcmdən var olması, yəni yoxdan yaradılması və Allahın ayələrində işarə edildiyi kimi genişləndiyi sübut edilmiş. Lakin materialistlər maddənin əzəli və əbədə olması cəfəngiyyatına insanları inandırmaq üçün məntiqsiz iddialarla bu həqiqətə qarşı mübarizə aparmışlar. Kvant fizikası maddənin ancaq işıq dalğalarından ibarət olduğunu aşkar etmiş, lakin materialistlər maddənin mütləq varlığını müdafiə edib maddədən başqa heç bir şeyi qəbul etmədiklərinə görə bu həqiqəti daima inkar etmək üçün yollar axtarmışlar. Saysız-hesabsız elmi kəşflər və xüsusilə paleontologiya sahəsində əldə edilən tapıntılar təkamül nəzəriyyəsinin əsassız olduğunu elmi cəhətdən sübut etmiş, lakin materialistlər yenə də canlıların təkamül keçirməsi yalanını təlqin edərək əvvəlindən uğursuzluqla nəticələnmiş mübarizələrinə davam etmişdirlər. Elm materializmə zərbə vurduqca materialist müqavimət daima gündəmə gəlmişdir. Materializm elmi dəlillərə psixoloji mübarizə ilə qarşı çıxmışdır. Darvinizm yalan ilə elə bunu etməyə çalışırlar.

Bu elə bir şeydir ki, Nobel mükafatına layiq görülmüş professorları, elm adamlarını, paleontoloqları, mikrobioloqları, zooloqları, elmi yazıçıları birləşdirərək "suyun içində molekullar var idi. Palçıq, təsadüf və zamanın təsirilə hüceyrə əmələ gəldi" kimi ağlasığmaz yalanı heç utanmadan, çəkinmədən müdafiə etməyə sövq etmişdir. Bu insanlar elə sehr ediblər ki, milyonlarla insan bu psixoloji mübarizənin təsirilə suya düşən yağ damcılarının hüceyrəyə çevrilməsnə, bir balığın sudan yeriyə-yeriyə çıxmasına, tarixdə ilk quşun dinozavr yumurtasından çıxaraq uçmağa başladığına, meymunların zaman ərzində təsadüfən inkişaf edərək kəşflər edən, sivilizasiyalar quran, texnologiyalar quran, kompüter proqramları hazırlayan, kosmosa raket göndərən insana çevrildiyinə inanmağa başlayır.

Bir elm adamı o vaxta qədər heç kimin kəşf etmədiyi hüceyrənin qeyri-adi quruluşunun "sadəcə bir hissəsini" kəşf etdiyi üçün Nobel mükafatına layiq görülür. Amma eyni elm adamı mükafatını aldıqdan sonra tələbələrinə o hüceyrənin bir palçıq yığınından təsadüfən əmələ gəlməsi nağılını danışmaqdan çəkinmir. Eyni elm adamı saysız-hesabsız elmi fəaliyyətə imza atmasına baxmayaraq tələbələrinə böyük saxtakarlıq nümunəsi olan Piltdaun adamını, Hekkelin saxta rüşeym rəsmlərini, sənaye kəpənəklərini təkamülün ən böyük dəlili kimi göstərməkdən çəkinmir.

Elə dəccal sistemi olan masonluğun etdiyi sehrin təsiri darvinistləri bu qədər acınacaqlı hala salır. Dəccalı Darvinizm ilə demək olar ki bütün beyinlərə əl uzatmış, insanları uzun müddət aldatmış, yalan söyləmiş, saxtakarlıq etmişdir. İnsanların bir çoxu kor-koranə, şüursuz şəkildə, başa düşmədən bu yalana aldanmış, illərlə özünü heyvan nəslinin bir hissəsi kimi görmüş, hətta bu səbəbdən vəhşiləşmiş, laqeydləşmiş, Allaha qarşı məsuliyyətindən uzaqlaşmışdır. Dəccal, yəni masonluq Darvinizmdən istifadə edərək dünyanın ən böyük yalanlarından birini yer üzünə yaymışdır. Dəccalın təsirilə Darvinizm tarixin ən böyük kütləvi yalanına çevrilmişdir. Lakin

dəccal sistemini yayan masonların bu sahədəki uğuru saxta uğurdur. **Darvinizm yalanı artıq sona çatmışdır.**

Yaşadığımız XXI əsrdə artıq Darvinizmin btün saxtakarlıqları üzə çıxmışdır. Darvinistlərin 150 il boyu irəli sürdükləri bütün ara forma nümunələrinin saxta olduğu məlum olmuşdur. Dünyanın demək olar ki hər yeri qazılmış, 250 milyondan artıq fosil çıxarılmış, amma bunların bircəsinin belə ara forma olmadığı açıq şəkildə görülmüşdür. Fosillərin hamısının mükəmməl canlıları təmsil etməsi, böyük əksəriyyətinin də dövrümüzün canlılarına aid olduğu məlum olmuşdur. İnsanlar bu sübut ilə canlıların bu günkü görünüşlərilə üzə çıxdıqlarını və heç bir dəyişiklik keçirmədiklərini başa düşmüşdürlər. İnsanlar elə bu həqiqət ilə darvinistlərin nə üçün fosilləri gizlətdiklərini, nə üçün elmi dəlilləri insanlardan gizlətməyə çalışdıqlarını da başa düşmüşlər. Təkamül nəzəriyyəsinin mikrobiologiya, paleontologiya, molekulyar biologiya, genetika kimi elmlərin aşkar etdiyi faktlar qarşısında **baş verməsi qeyri-mümkün olan nəzəriyyə** olmsı qəti şəkildə sübut edilmişdir.

Bütün bunlarla bərabər darvinistlərin Allah inancına və yaradılış həqiqətinə qarşı münasibət bəsləmələri məlum olmuşdur və bunun səbəbi də onların Darvinizmi batil bir din kimi mənimsəmələridir. Beləliklə, darvinistlərin insanları aldatmaq üçün nə üçün cürbəcür yalan və saxtakarlığa əl atdıqları da başa düşülmüşdür. İnsanlar qarşısında təkamülü inkar edən həddindən çox dəlil var. Artıq insanlar təkamülün bir yalan olduğunu açıq şəkildə anlayıblar. Təkamül nəzəriyyəsinin bircə dəlillə də dəstəklənmədiyini bilirlər. Darvinist yalanın təsirinə düşmələri artıq, Allahın iznilə, qeyri-mümkündür.

İnsanlar təkamül nəzəriyyəsinin əsassızlığının dəlillərini göstərən sərgilərə getmiş, yaşayan fosilləri nəzərdən keçirmişlər. Fosillərin hər birinə öz əllərilə toxunmuş, onları öz gözlərilə görmüşdürlər. Canlıların milyonlarla il ərzində dəyişmədən qaldıqlarını, təkamül keçirmədiklərini heyranlıqla öyrənmişdirlər. *Yaradılış Atlası*nın hər bir səhifəsini diqqətlə nəzərdən keçirmiş, dövrümüzdə yaşayan canlı növlərinin milyonlarla il əvvəl də eyni şəkildə olduğuna qərar vermişdilər. Yer üzünün araşdırılıb tədqiq edildiyi hər an daima yaradılış həqiqətini dəstəkləyən dəlillər verdiyi başa düşmüşdürlər. Dünyanın ən məşhur meydanlarında darvinistlərə ünvanlanan "sadəcə bir dənə ara fosil göstərmələri" müraciətinin dərin sükutla qarşılandığını açıq şəkildə və təəccüblə görmüşdürlər. Darvinizm təbliğatının bütün metodları deşifrə edilmiş və insanlara bu yalanın dəstəkçisi olmamaları lazımi kitablar, DVD-lər, internet yayımları, konfranslar və televiziya müsahibələri vasitəsilə izah edilmişdir.

Yalanın dəlillərini görən insanlar dünya səviyyəsində böyük fikri maariflənmədən keçmiş və bu qədər il ərzində aldadıldıqlarına görə haqlı reaksiya vermiş, təhsil müəssisələrində uşaqlarına Darvinizm cəfəngiyyatının oxudulmasını etirazla qarşılamış, planlaşdırılan təkamül sərgilərinə, konfranslarına, yəni darvinist təbliğata qarşı çıxmış, darvinistlərə açıq şəkildə meydan oxumuşdurlar. Tələbələr biologiya dərslərində Darvinizm tərəfdarı olan müəllimləri ilə təkamül nəzəriyyəsinin elmi məntiqsizliyinə və dəlilsizliyinə dair mübahisə etmişdirlər. Uzun illər boyu təkamül nəzəriyyəsinin əsl üzünü bilmədikləri üçün aldadılan insanlar məlumatlandıqdan və Darvinizmin iç üzünü gördükdən sonra illər boyu necə aldadıldıqlarını təəccüblə qarşılamış və buna uca səslə etiraz etmişdirlər. Artıq darvinistlər də bilirlər ki, Darvinizm dünya səviyyəsində ölmüşdür və yenidən ayağa qalxıb insanları eyni metodlarla inandırması Allahın iznilə qeyri-mümkündür. Dünya səviyyəsindəki bu böyük fikri maarifləndirmənin ən mühüm göstəricilərindən biri müxtəlif media qurumları və internet saytları tərəfindən aparılan anket sorğularıdır. Məsələn, Associated Press Agentliyi və NBC-nin apardığı milli anket sorğusunun nəticələrinə əsasən amerikalıların 86%-i artıq yaradılış həqiqətinin də təhsil müəssisələrində tədris edilməsini

istəyirlər.[185] Almaniyanın Süddeutsche Zeitung qəzetinin internet saytında 8 avqust 2007-ci il tarixində aparılan anket sorğusunun nəticəsinə əsasən təkamülü inkar edənlər 87% təşkil edir. Almaniyanın *Die Welt* qəzetinin internet saytının 17 aprel 2008-ci il tarixli anketinə əsasən bu nisbət 86% təşkil edir. İsveçrənin *Blick* qəzetinin internet saytının apardığı 4 may 2007-ci il tarixli anketə əsasən yaradılış həqiqətinə inananlar 85% təşkil edir. Fransanın *Science Actualitiés* qəzetinin internet saytının 16 fevral 2007-ci il tarixli anketinə əsasən təkamülə inanmayanların sayı 92%-dir. 2 fevral 2009-cu il tarixli *Guardian* qəzetinin xəbərinə əsasən İngiltərədə keçirilən bir anket ingilislərin ancaq 25%-nin Darvinin təkamül nəzəriyyəsinə inandıqlarını göstərir. Fransız *Nouvel Observateur* və *Science et Avenir* ortaq internet saytında 06.07.2009-cu il tarixində dərc edilən xəbərə əsasən fransız təhsil müəssisələrində təkamül nəzəriyyəsinə inanan tələbələrin sayında xeyli azalma olduğu müəyyən edilmiş və sözügedən KİV bu halı *Yaradılış Atlasının* Fransadakı təsirilə əlaqələndirmişdir. Darvinist professorlar Darvinizmin aldığı bu böyük yaranı olduqca "ciddi", "kədərli" və Darvinizm adına "biabırçılıq" kimi dəyərləndirmişlər.[186]

İsveçli embrioloq Soren Lovtrup Darvinizm yalanının bu gün düşdüyü vəziyyət ilə bağlı belə şərh verir:

Düşünürəm ki, heç kim elmin bütün sahələrinin saxta bir nəzəriyyədən asılı olmasının böyük səhv olduğunu inkar etməyəcək. Amma biologiyada baş verən vəziyyət budur: uzun zamandan bəri insanlar təkamül problemləri ilə "Darvin" lüğətinə xas şəkildə müzakirə edirlər – "adaptasiya", "seleksiya təzyiqi", "təbii seleksiya" və s. – bunu edərək təbii hadisələrin açıqlanmasına kömək edəcəklərinə inanırlar. Amma bunu bacarmırlar...

İnanıram ki, bir gün Darvin mifi elm tarixinin ən böyük yalanı kimi yerini alacaqdır.[187]

Hal-hazırda Darvinizmin elm tarixinin ən böyük yalanı olması həqiqəti çox sürətlə bütün dünyaya yayılır. Yaradılış həqiqətinə qarşı Avropa Şurası kimi rəsmi qurumlar tərəfindən olan maneələr darvinistlərin bu barədə güclü təşvişini göstərir. Tarixən heç vaxt dövlətləri təmsil edən bir parlamentin bir yalana dayaq olması və bir saxtakarlığı dəstəkləmək üçün rəsmi qərar verməsi görünməmişdir. Darvinist panikanın Darvinizmin tərəfdarlarını XXI əsrdə düşürdüyü vəziyyət budur. Darvinistlər təzyiqedici hökumət qərarlarının, təkamülü dərslərə məcburən daxil etməyin, tərəfli mühakimə edərək yaradılış həqiqətini tələbələrdən qəsdən gizlətməyə çalışmağın, birtərəfli inadın bu yalanı yaşadacağını zənn edirlər. Lakin dünyadakı milyardlarla insanın Darvinizm yalanına qarşı səmimi fikirləri təzyiq və zorla tətbiq edilən metodlardan və bundan əldə edilən nəticədən üstündür.

Heç bir darvinist qoyduğu qadağanedici qanun ilə insanların fikrən inandığı qəti qərarı dəyişdirə bilməz. Heç bir darvinist saysız-hesabsız dəlil ilə təkzib edilmiş bir nəzəriyyəyə güc tətbiq edərək, daima israr edərək insanları inandıra bilməz. Bu mümkün deyil. Darvinist oyun artıq sona çatmışdır. İnsanlar bu gün XXI əsrdə həqiqətləri istədikləri kimi, istədikləri mənbələrdən əldə edə bilirlər. Ona görə qadağa, mane olma və təzyiq darvinistlərə heç vaxt istədikləri nəticəni verməyəcək, darvinist yalana qarşı fikri etiraz getdikcə artaraq davam edəcəkdir.

Aləmlərin Rəbbi olan Uca Allah bütün varlıqların Hakimidir. Dəccalın oyunları bu həqiqəti insanlarında gizlətməyəcək. Allah bir ayəsində belə buyurur:

**Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də, öz nurunu tamamlayacaqdır. (Saff surəsi, 8)**

## Dəccalın qurduğu tələlər də Allahın nəzarəti altındadır

Bu həqiqət heç vaxt unudulmamalıdır: bir əsr yarımdır ki insanları aldadın Darvinizm fitnəsinin mənbəyi olan dəccal Allahın nəzarətindən olan bir varlıqdır. Dəccaliyyətin, yəni masonluğun fitnəsi səmimi iman gətirənlər istisna olmaqla demək olar ki bütün insanları əhatə edən böyük fitnədir. Lakin masonların tələsi nə qədər böyük olsa da, yadda saxlamaq lazımdır ki, qurulan bütün tələlərə ən gözəl şəkildə əvəz verən Uca Allahdır. Allah insanları sınamaq, saleh Müsəlmanları üzə çıxarmaq, onları tərbiyə etmək və daha bir çox hikmət üçün şeytanın yer üzündəki fəaliyyətlərini və dolayısı ilə dəccaliyyəti də qədər içində var etmişdir və dəccaliyyət mütləq məğlub olacaq şəkildə yaradılmışdır. Ona görə inkar edənlərin tələləri Allahın iznilə heç vaxt uğurla nəticələnməyəcəkdir. Allah bir ayəsində bu sirri belə xəbər verir:

**Hiylə qurdular. Onların hiyləsi Allah dərgahında məlumdur. Onların hiyləsi ilə dağlar yerindən oynatsa belə Allah Qatında onlara qarşı hazırlanmış tələ (qarşılıq) vardır. (İbrahim surəsi, 46)**

Tarix boyu inkar edənlər və insanları inkara sürükləmək istəyənlər müxtəlif tələlər qurmuşdurlar. Ancaq qurulan bütün tələlər Allahın adətullahına müvafiq olaraq pozulmuş və özləri bu tələyə düşmüşdürlər. Bu, Allahın bir qanunudur. Rəbbimiz ayələrində belə bildirir:

**... onlara belə bir peyğəmbər gəldikdə bu ancaq onların nifrətini artırdı. (Bu isə onların) yer üzündə təkəbbür göstərmələri və pis əməlləri ucbatından idi. Pis əməl ancaq onun öz sahibinin başında çatlayar. Məgər onlar Allahın adəti üzrə əvvəlkilərin düçar olduqları müsibətlərimi gözləyirlər? Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişiklik tapmazsan! (Fatir surəsi, 42-43)**

Eyni son dəccali sistem olan masonluğun qurduğu tələlər və onun fikir sisteminə də aiddir. Darvinizm insanları Allahın yolundan uzaqlaşdırmaq üçün masonlar tərəfindən qurulmuş xüsusi tələdir. Ancaq qurulan tələlər nə qədər böyük, planlar nə qədər hərtərəfli və təsirli olsa da, hamısı Allahın nəzarəti altındadır. Dəccal da, onun hiyləsi də ancaq Allahın istəyi ilə mövcuddur. **"Allah istəməsə, siz istəyə bilməzsiniz." (İnsan surəsi, 30)** ayəsində də buyurulduğu kimi Allah istəməsə heç kim bir şey istəyə bilməz; bir tələ qurmağa da, bu tələni həyata keçirməyə də, şübhəsiz, heç kimin gücü çatmaz.

Darvinizm hal-hazırda bu vəziyyətdədir. Dəccalın qurduğu bu tələ Allahın vədinə müvafiq olaraq pozulmuşdur. Darvinistlər hazırladıqları çirkin planın əvvəldən pozulmuş şəkildə yaradıldığını bilmədiklərinə görə təbliğatlarının təsirli olduğunu gördükdə boş yerə sevinmiş və uğur əldə edəcəklərini zənn etmişdirlər. Allahın onları mütləq məhv edəcəyini, bütün dünyaya hökm edərkən bir anda məsxərə mövzusu olacaqlarını heç təxmin də etməmişdilər. Allahın yaratdığı qanunun – haqq olanın mütləq qalib gələcəyini başa düşmürlər. Tələlər uğursuzluqla nəticələndikcə yeni tələlərin ardınca qaçır, lakin bunların da pozulmuş şəkildə yaradıldığını dərk etmirlər. Əslində isə dəccalın bütün batil sistemi mütləq məğlubiyyətə uğrayacaq və uğrayır.

Allah inkar edənlərin qurduğu tələlərin özlərinə geri qayıdacağını Quranda belə bildirmişdir:

**Yoxsa bir tələ qurmaq istəyirlər? Amma kafirlər özləri o tələyə düşəcəklər! (Tur surəsi, 42)**

Bu gün Darvinizmin müdafiəçisi olmaq biabırçılıqdır. Darvinist KİV-nin yeni saxta xəbərləri daima gündəmə gətirmə səyləri, darvinistlərin çarəsizliklə konfrans verən adam axtarmaları, əllərində ara fosil olmadığına görə ancaq xəyali rəsmlərdən ibarət karton afişalarla təkamül sərgiləri keçirməyə çalışmaları, darvinist elm adamlarının yaşayan fosil sərgilərinə və ya *Yaradılış Atlasına* qarşı etirazlar əbəsdir. Artıq iş işdən keçmişdir. Darvinizm elm tarixinin ən böyük məğlubiyyətinə uğramışdır. Allahın istəyilə bu tələ pozulmuşdur. Allah haqqı haqq olaraq möhkəmləndirib bütün yer üzünə hakim edəcəkdir. Allah bir ayəsində belə buyurur:

**...Allah batili məhv edər və haqqı Öz sözləri ilə gerçəkləşdirər. Şübhəsiz ki, O, ürəklərdə olanları biləndir. (Şura surəsi, 24)**

## Yalanın sona çatması ilə əl atılan yeni psixoloji metod: "Bir şey olmadı ki!" fəlsəfəsi

Darvinizmin yalan olmasının açıq şəkildə deyilməsi təkamül nəzəriyyəsini təkzib edən dəlillərin bir-bir bütün detalları ilə üzə çıxarılması, şübhəsiz, 150 illik tarixi boyu təkamül nəzəriyyəsinin heç üzləşmədiyi bir şey idi. İnsanların böyük əksəriyyəti inanclarına zidd olmasına və saxta bir din olmasını başa düşdüklərinə baxmayaraq Darvinizmə qarşı daim susur, bu batil sistemi məcburən qəbul edirdilər. Tədris işçiləri ağla, məntiqə, elmi dəlillərə və inanclarına zidd olmasına baxmayaraq tələbələrinə təkamülü öyrətməyə məcbur idilər. Çünki bu insanlara güclü çəkindirmə siyasəti tətbiq edilirdi. Darvinizm ancaq təzyiq, şiddət və zorakılıqla yaşadılırdı.

Ancaq artıq vəziyyət dəyişmişdir. Darvinizmin əsassızlığı qəti və inkaredilməz elmi dəlillərlə ortaya qoyulmuşdur. Darvinizmin böyük yalan olması, illərlə insanları aldatması, saxtakarlıqlarla yaşadılmağa çalışılması açıq və qəti şəkildə sübut edilmişdir. Möhtəşəm əsər olan *Yaradılış Atlası* elm adamlarının, universitet professorlarının, ölkə başçılarının evlərinə daxil olmuş, tələbələr də daxil olmaqla mövzu ilə maraqlanan hər kəs bu əsəri internetdən asanlıqla əldə etmişdir. Bu vəziyyət darvinistlər tərəfindən təəccüblə, dəhşətlə, qorxu və təşvişlə qarşılanmış, təkamül tərəfdarları *Yaradılış Atlasının* oxunulmasına mane olmağa çalışmış, lakin buna nail olmamışdırlar. Nəzəriyyələrinin böyük müəmma ilə qarşı-qarşıya olduğunu özləri də açıq şəkildə görməyə başlamışdırlar.

Bu həqiqətlər qarşısında darvinistlər cəbhəsində artıq dərin səssizlik hakimdir. Bəzi qatı darvinistlər isə təkamülü məhv edən çox sayda elmi dəlilin təqdim edilməsini və insanların maraqlanıb həqiqəti gördüklərindən sonra Darvinizmin məhvini başa düşdüklərinə baxmayaraq sanki oyuncağı əlindən alınmış uşaq kimi "bir şey olmadı ki" məntiqinə əl atmışdırlar. "Nə olursa olsun, mən yenə də Darvinizmə inanıram və onu müdafiə etməyə davam edəcəyəm" deyərək bu vəziyyətin təsirini hiss etdirməməyə çalışırlar. Lakin bu da heç bir nəticə verməyəcək başqa bir darvinist oyundur.

Allahın **"...Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir!"** (Nisa surəsi, 76) ayəsində bildirdiyi kimi dəccalın quruluşu olan Darvinizm çox tez çökən sistemdir. Belə ki, zülalların təsadüfən əmələ gəlməyəcəyinin, ara fosil olmadığının sübut edilməsi ilə məhv olur. Bir darvinist bu məlumatdan sonra artıq bir daha darvinist ola bilməz. Ancaq məntiqsiz inadkarlıqla "mən inanıram və inanmaqda davam edəcəyəm" deyə bilər. Amma bu da həqiqi düşüncəsi deyil. Darvinizmə inanması artıq mümkün deyil. Ağzına sürtülən istiotun ağzını heç yandırmadığını iddia edən

inadcıl uşaq kimi hal-hazırki Darvinizm tərəfdarlarının bəziləri də eyni inadkarlığı davam etdirirlər. Lakin, şübhəsiz, bir uşağın ağzının yanmadığını iddia etməsi vacib deyil. Nəticədə nə qədər inkar etsə də, ağzına sürtülən istiotun acısını hiss etmişdir. Ona görə Darvinizmin əsassızlığını sübut edən saysız-hesabsız elmi dəlildən sonra hal-hazırda dünyada Darvinizmin yalan olduğunu bilməyən bircə darvinist də yoxdur.

Artıq darvinistlər təkamül nəzəriyyəsini qorumaq üçün insanları aldatmağın heç bir fayda vermədiyini bilirlər. Artıq 150 ildir fantastik ssenarilərlə və müxtəlif saxtakarlıqlarla süni uydurduqları və zorla yaşatmağa çalışdıqları Darvinizm sona çatmışdır. Bu təfəkkürün məhsulu olan hekayənin gerçək olmadığını bir daha öyrəndikdə bir darvinistin artıq bu batil inancı davam etdirməsi mümkün deyil. Darvinistlər bu qədər müddət ərzində ancaq "xilaskar" gözləmişdirlər. Bir anda bunun heç vaxt olmayacağını gözlərilə görmüş, buna fikrən inanmış vəziyyətdədirlər. Notr Dam Universitetindən fəlsəfə professoru Peter van İnvogenin bu sözləri diqqətəşayan həqiqətə işarə edir:

Əgər darvinistlər elmi həqiqətlərlə dolu bir kitabı əhəmiyyət vermədən, səhv anlayaraq və ya ona gülüb keçərək qarşılasalar, bu vəziyyət bu gün Darvinizmin elmi nəzəriyyədən daha çox bir ideologiya olmasına dair yayılan şübhələr üçün mühüm dəlil olacaqdır.[188]

Darvinistlər nə qədər "bir şey olmadı ki" desələr də, etirazlardan, görülən tədbirlərdən, baş verən böyük təşvişldən bu məğlubiyyətin böyük şok təsiri verdiyi açıq başa düşülür. Əlbəttə, illərlə Darvinizm yalanına inanmış və ahıl yaşına qədər aldadılmağı qəbul etmək istəmirlər. Buna görə bütün bunlardan ilk qaçış yolu Darvinizm əleyhinə dəlillərə qarşı "inanmıram" iddiası ilə ortaya çıxmaqdır. Amma əslində bu şəxs ortaya qoyulan dəlillərin doğru olduğuna 100% inanmışdır. Altı ay sonra soruşduqda qəzəbi bir az soyuyacaq, cavabları fərqlənəcəkdir. Güman ki, "Darvinizm ola da bilər, olmaya da bilər" deyəcək. Qaçış yolları tapmağa çalışacaq, "yeni dəlillər sonradan üzə çıxa bilər" kimi orta mövqeli məntiq irəli sürəcəkdir. Lakin bu batil ideologiyanın dəlilsiz yalan olduğunu çox yaxşı bilir. Amma dərhal qəbul etmək ona çətin gəlir. Əslində isə Darvinizm bu şəxs üçün tamamilə məhv olmuşdur.

Bir zaman yağ dənəciklərinin suya düşərək zülala çevrilməsi fikrini müdafiə etmək özünə də ağılsız və inanılmaz gələcək. Bircə dənə də ara fosilin olmaması həqiqətini necə başa düşmədiyini heyrətlə qarşılayacaq, öz vəziyyətinə təəccüblənəcək, bəlkə də 50 il boyu belə bir cəfəngiyyatı müdafiə etdiyinə heyrətlənəcəkdir. Darvinizm sehrinə düşdüyünə, bir yalana dəstək olduğuna görə utanacaqdır. Bu gün dövrümüzün ən coşğun darvinistləri belə bu ruhi vəziyyətdədirlər. Müxtəlif ifadələrindən bu başa düşülür, şübhəyə düşdükləri açıq-aydın görünür, bəzən bunu açıq şəkildə etiraf edirlər. Lakin səhv olan inancdan dönmək, doğru olanı qəbul etmək heç vaxt gec deyil. Xətadan qayıdıb doğruları qəbul etmək ləyaqətdir. Elmi dəlilləri gördükdən sonra ediləcək ən doğru şey Darvinizmin böyük cəfəngiyyat olduğunu açıq şəkildə qəbul etməkdir.

## İnkarın ardındakı qəbul

Darvinistlərin inkar üslublarının ardındakı gizlədə bilmədikləri qəbul müxtəlif elm adamları və şəxsən darvinistlər tərəfindən belə ifadə edilir:

Bioloq Uilyam Fiks:

Tədqiqatın ön planında olan elm adamları klassik Darvinizmə ölümcül zərbə vurmuşdur. Bu xəbəri birbaşa insanlara çatdıra bilmirlər, buna ancaq mövzu ilə əlaqədar xüsusi məqalələrində və gizli tövsiyyələrində gizlədirlər.[189]

Darvinist antropoloq Robert A. Martin:

1972-ci ildə Amerika Təbiət Tarixi Muzeyindən Nayls Eldric və Harvard Universitetindən Stefen Cey Quld “sıçrayışlı təkamül” anlayışını irəli sürən bir məqalə dərc etdirdilər. Təkamül yavaş, nizamlı və mərhələli şəkildə inkişaf edirdisə, bu təqdirdə tapılmalı növlərarası bütün ara keçid formalarının harada olduğunu soruşdular. Bəlkə də bunları tapmağın bu qədər çətin olmasının səbəbi əslində mövcud olmamalarıdır.[190]

İlinoys Universitetinin ekologiya fakültəsindən darvinist T. H. Frazetta:

Hər keçən il təkamülün olduqca bəsit fikirləri məhvə doğru irəliləməkdə davam edir.[191]

Fransız darvinist Jan Pier Lehman:

Keçmişdəki klassik halı ilə Darvinizm artıq xarabalığa çevrilmişdir.[192]

Elmi redaktor darvinist Qordon Retrey Teylor:

Toplanan dəlillər bioloqların kəşf etdiyi möhtəşəm şəkildə əlaqələndirilən canlı quruluşlarının və mükəmməl uyğunluqda olan davranışların açıqlanması üçün təsadüflərin kifayət etmədiyini göstərir. İki amerikalı bioloqun qısa müddət əvvəl açıqladığı kimi: “əsl tapmaca, daha doğrusu, təkamül mexanizminin nə olması probleminə heç bir həll yolu tapılmamışdır.”

Qısaca desək, bir əsrdən daha uzun müddət boyu biologiya sahəsində hakim olan ehkam çökür.[193]

Fizika professoru darvinist H. S. Lipson:

Canlı varlıqların hər hansı xüsusiyyətinin əmələ gəlməsini açıqlama baxımından təkamül nəzəriyyəsindən həmişə bir az şübhələnmişəm (məsələn, zürafənin uzun boynu). Buna görə keçən otuz ildən artıq bir zaman ərzində bioloji kəşflərin təkamül nəzəriyyəsinə uyğun olub-olmadığını anlamağa çalışdım. Lakin uyğun olduğunu düşünmürəm... Mənim fikrimcə, bu nəzəriyyə artıq məhv olmuşdur.[194]

Ekologiya və təkamül biologiyası üzrə professor darvinist E. O. Uayley:

(Norman) Makbet təkamülə yeni düşüncə tərzi ilə baxmağımızı və insanlara və lazım gələrsə özümüzə Darvinizm və sintetik nəzəriyyə haqqında şübhələrimiz olduğunu, buna görə də mübahisəyə hazır olduğumuzu etiraf etməyimizi məsləhət görür. Məncə bunlar mükəmməl məsləhətlərdir.195

Jurnalist Larri Uitam:

Neçə-neçə elm adamından müsahibə aldım. Öz aralarında ikən və ya etibar etdikləri jurnalist ilə danışdıqda “bu qədər mürəkkəb kompleksliyə malik” və ya “molekulyar bioloji böhran içində” kimi ifadələr işlədirlər, amma bunu cəmiyyət içində açıq şəkildə dilə gətirə bilmirlər.[196]

Elə Darvinizmin gəldiyi son nöqtə budur. Darvinistlər illərlə cidd-cəhdlə müdafiə etdikləri nəzəriyyələrindən artıq şübhələnirlər. Darvinizmin dünya yalanı artıq sona çatmışdır.

Darvinizmin coşğun tərəfdarları bəlkə də indiyə qədər Allah inancına qarşı girdikləri bu müharibədə (Allahı tənzih edirik) məğlub olacaqlarını düşünmürdülər. Sahib olduqları mənbələr, təsir etdikləri kütlə, sehrlədikləri insanlar və bəzi dövlətlərin dəstəyi zahirən özlərini güclü görmələrinə səbəb olurdu. Təkamül nəzəriyyəsinin təhsil müəssisələrində tədris edilməsi, yeni yetişən gənclərin təkamül tədrisi ilə böyüyüb həyat boyu onun təsirində olmasını təmin edirdi. Dünyanın qabaqcıl qəzetləri, jurnalları, televiziya kanalları daima Darvinizm təbliğatı aparır, həm də bir çox ölkədə səlahiyyətli nümayəndələr Darvinizmə dəstək olurdular. Son vaxtlarda olduğu kimi ölkələri təmsil edən Avropa Parlamenti kimi səlahiyyətli orqanlar asanlıqla Darvinizm lehinə qərarlar qəbul edib onları rahatlıqla qüvvəyə mindirirdilər.

Lakin artıq bu metodlar darvinistlərə fayda vermir.

Dövrümüzün keçmişdən fərqi bu idi ki, darvinistlər beynəlxalq toplantılarda verilən bu qərarların keçmişdə insanlara təsir etməsi və Darvinizm sehrinə düşmüş insanları daha artıq Darvinizmə yaxınlaşdırmaq məqsədinə çatmışdılar. Lakin hal-hazırda Avropa Şurasının iclasında *Yaradılış Atlası* kürsüdə havaya qaldırılaraq bu kitaba qarşı necə mübarizə aparılması müzakirə edilmiş və Darvinizmin məğlubiyyətindən doğan qəzəb açıq şəkildə hiss edilmişdir.

Bütün bunlar, şübhəsiz ki, məğlubiyyətin göstəricisidir. Bunlar Darvinizmə qarşı aparılan elmi və ağıllı elmi mübarizənin təsirli olduğunu göstərir. Təkamülçü professor Ümit Sayın Science jurnalına verdiyi müsahibədə Harun Yəhya əsərlərinin təsirilə düşdükləri vəziyyəti bu sözlərlə ifadə etmişdir:

Artıq yaradılışçılara qarşı bir müharibə yoxdur. Müharibədə onlar qələbə çaldılar. 1998-ci ildə Türkiyə Elmlər Akademiyasından altı professoru yaradılışçılara qarşı danışmaları üçün motivasiya etmişdim. Artıq bu gün bircə nəfəri belə motivasiya etmək mümkün deyil.[197]

Əlbəttə, heç kim doğru olmadığını bilə-bilə, ifşa olduğunu görə-görə Darvinizm yalanını konfrans salonlarında izah etməyə girişməyəcəkdir. Çünki darvinistlərin yaradılış həqiqətinə qarşı gətirəcəkləri bircə dəlil və ya elmi izah yoxdur.

Darvinizm sehrinin təsirinin məhv olması, şübhəsiz, Darvinizmi tam mənada aradan qaldırmışdır. Çünki bu batil din dəccalın sehr sistemi ilə davam etdirilməyə çalışılır. Dəccalın sehri məhv olduqda isə nəzəriyyənin elmi əsası olmadığına görə artıq nəzəriyyəni yaşadacaq heç bir ünsür qalmamışdır. Artıq dəccali sistem olan masonluğun Darvinizmi yaşatmaq üçün istifadə edəcəyi heç bir metod işə yaramayacaqdır. Keçən əsrlərdə insanların cidd-cəhdlə müdafiə etdikləri dünyanın nəhəng tısbağının belində dayanması hekayələri hal-hazırda bizə nə qədər məntiqsiz gəlirsə, Darvinizm də gələcək nəsillər üçün eyni şəkildə komediya ünsürü olacaqdır. İnsanlar Nobel mükafatı almış professorların, universitet müəllimlərinin, elm adamlarının belə bir komediyaya necə inandıqlarını və necə belə bir cəfəngiyyatın ardınca sürükləndiklərini anlamayacaqlar. XX əsr bütün darvinist elmi kütlələr üçün rüsvayçılıq əsri kimi xatırlanacaqdır.

## Dəccali sistem İsa Məsihin (a.s.) və Hz. Mehdinin (a.s.) zühuru üçün xüsusi yaradılmışdır

Uca Rəbbimiz dünya həyatının sonunun yaxınlaşdığı axırzaman adlandırılan dövrdə bütün çətinliklərin, müharibələrin, terror, degenerasiya və qorxuların hökm sürdüyü bir zamanda dünyaya mübarək bir şəxsi göndərəcək və onun vəsiləsi ilə hər cür zülmü və ədalətsizliyi sona çatdıracaq. Bu mübarək şəxs Hz. Mehdi-dir (a.s.). Hz. Mehdinin (a.s.) zühurunun ardınca Hz. İsa (a.s.) yenidən yer üzünə gələcək və Hz. Mehdi (a.s.) ilə birlikdə bütün dünyaya İslam əxlaqını hakim edəcəkdir.

Hz. İsanın (a.s.) və Hz. Mehdinin (a.s.) çıxmasından əvvəl dünyanın böyük hərc-mərclik içində olacağı və dünyaya dinsizliyi, əxlaqi degenerasiyanı, zülmü, haqsızlığı və qan tökməni yayan dəccaliyyətin üzə çıxacağı bildirilmişdir. Allah adətullahına uyğun olaraq zidd düşüncələri birlikdə yaradır. Allah Hz. Musanı yaratdıqda onun ziddi olan Fironu da yaratmışdır. Hz. İbrahimi yaradan Allah ona qarşı çıxan Nəmrudu da yaratmışdır. Allah axırzaman dediyimiz və rəvayətlərə əsasən yaşadığımız bu dövrdə isə masonların idarə etdiyi dəccaliyyəti və dəccaliyyətin mühüm oyunlarında biri olan Darvinizmi yaratmışdır. Axırzamanda Hz. İsanın (a.s.) və Hz. Mehdinin (a.s.) insanları gözəl əxlaqa, imana, hüzura və əmin-amanlığa dəvət etməsinin qarşısında qarışıqlığı və qarşıdurmanı müdafiə edən, zülmkarlığı və eqoistliyi təlqin edən, insanları məhvə və həlaka sürükləyən dəccaliyyət, yəni masonluq bu məqsədlə Darvinizmdən istifadə edir.

Böyük İslam alimi Bədiüzzaman Said Nursi Həzrətləri *Emirdağ Lahikası*nda Hz. Mehdinin (a.s.) Darvinizm və materializmə qarşı qələbə çalması ilə insanların imanına vəsilə olacağını belə xəbər vermişdir:

"Çox dəfə məktublarımda işarə etdiyim kimi, **Mehdi Al-i Rəsulun** (Peyğəmbərimizin (sav) soyundan gələn Hz. Mehdinin) **təmsil etdiyi qüdsi (müqəddəs) camaatının şəxsi mənəvisinin üç vəzifəsi** var. ... Birincisi: fənn və fəlsəfənin təsirilə və *maddiyyun və tabiyyun (materializm və Darvinizm inancını) bəşər (bəşəriyyət) içində intisar etməsilə (yayılması ilə) hər şeydən əvvəl fəlsəfəni və maddiyyun fikrini (maddəçi/materialist düşüncə tərzini) tam susduracaq tərzdə imanı xilas etməkdir.*"[198]

Ona görə Hz. Mehdinin (a.s.) əsl vəzifələrindən biri materialist və darvinist fəlsəfəni fikrən tam mənada aradan qaldırmaq və Allah inancını dünyaya hakim etməkdir. Masonların axırzamanda kütlələrə yaydığı bu batil din, Allahın iznilə, Hz. Mehdi (a.s.) tərəfindən elm ilə yox ediləcəkdir.

Yalanla bütün dünyanı aldatmağı bacarmaları, darvinist diktatorluğun bütün dünyada saxta hegemonluq qurması darvinistləri yanıldır. Darvinistlər bu saxta uğurun Allahın yaratdığı imtahanın bir sirri olduğunu başa düşmədiklərinə görə bunu həqiqi uğur zənn etmiş və məhv olmayacaqlarını düşünmüşdürlər. Lakin belə saxta uğurlar həqiqi və doğru olanın üzə çıxıb üstün gəlməsi üçün baş verir. Nəticədə isə mütləq Allahın istədiyi, Allahı ucaldan düşüncə qalib olub üstün gəlir.

Hal-hazırda Darvinizmin vəziyyəti də belədir. Saxtakarlıqla əldə edilən dünya hakimiyyəti böyük məhvə doğru gedir. Çünki bu, Darvinizmin qədəridir. Darvin Allah istədiyi üçün Darvinizmi irəli sürmüşdür. Darvinizm Allah istədiyi üçün dünyaya hakim olmuşdur və indi bu batil inanc Allah istədiyi və Allahın qədərdə təqdir etdiyi vaxt çatdığı üçün köklü və böyük məğlubiyyətə uğrayır. İnsanlar Allahın müəyyən etdiyi qədər daxilində Darvinizm fitnəsinə uymuşdurlar. İndi də yenə Allahın müəyyən etdiyi qədər daxilində Hz. İsa (a.s.) və Hz. Mehdiyə (a.s.) tabe olacaqlar və bütün dünya Hz. Mehdinin (a.s.) Darvinizmi, materializmi, qısaca desək, bütün dəccali sistemləri aradan qaldırıb fikrən yox etməsilə bu batil fitnədən xilasl olaraq rahatlığa qovuşacaqlar.

Bütün dəccali sistemlər məhvə və məğlubiyyətə məhkum şəkildə yaradılmışdır. Darvinizm də belədir və Allahın istəyilə böyük məğlubiyyət və məhv içindədir. Tarixin ən böyük kütləvi yalanı olan Darvinizm tarixin ən böyük məğlubiyyətini yaşayır. Darvinizm tarixi gələcək nəsillərin təəccüblə xatırladığı rüsvayçılıq dövrü kimi yad ediləcəkdir.

Uca Allah hökmünə baş əyilən, bütün varlıqları nəzarəti və iradəsi altında saxlayandır. Allahın müəyyən etdiyindən başqa batil bir din qurub bu yolda səy göstərdiklərini zənn edən darvinistlər əslində istəsələr də, istəməsələr də, Allahın hökmünə boyun əymiş şəkildə yaşayırlar. Allah bir ayəsində belə bildirmişdir:

**Necə ola bilər ki, onlar Allahın dinindən başqa bir din axtarsınlar? Halbuki göylərdə və yerdə olanlar istər-istəməz Ona təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar. (Ali-İmran surəsi, 83)**

Dəccalın oyununa düşən darvinistlər də daxil olmaqla bütün varlıqlar mütləq bir gün Allahın hüzurunda toplanacaqlar. Rəbbimizin Qatında mühakimə olunacaq və etdiklərinə, düşündüklərinə görə sorğu-sual ediləcəklər. Hesab günü qəti həqiqətdir. Elə buna görə masonların təsiri altına düşmüş bütün darvinistlərin həqiqətləri açıq şəkildə gördükləri bu günlərdə inadcıl və

qürurlu təkidlərdən əl çəkib, vicdanlarını dinləmələri və doğru yola üstünlük vermələri onları xilas edəcək mühüm yoldur. Allahın hökmü haqdır, mütləq həyata keçəcək və qurulmuş heç bir nizam Allah istəməsə önə çıxmayacaqdır. Darvinizm yalanına bağlı olmaqda israr edən, bu yalanın arxasınca qaçmaqda və insanları aldatmaqda davam edən hər insan bu həqiqəti heç vaxt unutmamalıdır.

**Öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən!**
**Sən onların üzərində hakim deyilsən!**
**Lakin kim üz döndərib inkar etsə**
**Allah onu ən böyük əzaba düçar edər!**
**Şübhəsiz ki, onların axır dönüşü Bizədir!**
**Onlarla haqq-hesab çəkmək də Bizə aiddir! (Ğaşiyə surəsi, 21-26)**

# NƏTİCƏ

# BÜTÜN CANLILARIN YARADANI UCA ALLAHDIR

Darvinizm dünya tarixinin ən məntiqdənkənar, ən ağlasığmaz batil dinidir. Canlıların hər detalında mükəmməl nizam və ağıl olmasına baxmayaraq Darvinizm onların hamısının "şüursuz" və "təsadüfi" proseslərin məhsulu olduğunu iddia edir. Zülal laboratoriyalarda belə əldə edilə bilməyən olduqca mürəkkəb quruluşa malik molekuldur və elektron mikroskopu altında bu cür kompleks həyatın olması həqiqətən heyranedicidir. Lakin Darvinizm bu möhtəşəm yaradılış qarşısında belə "təsadüfən əmələ gəldi" izahını verir. Canlılar bir-birlərindən olduqca fərqli xüsusiyyətlərə malik yaradılmışlar və malik olduqları orqan və formaların bir-birlərinə çevrilməsinin qeyri-mümkün olması açıq və inkaredilməz şəkildə aşkar edilmişdir. Ancaq Darvinizm dünyadakı möhtəşəm canlı müxtəlifliyinin bircə bakteriyadan törədiyini iddia edir. Darvinizmin iddialarının həqiqi olduğuna, canlıların təkamül keçirdiyinə dair bircə dənə də dəlil tapılmamışdır. Lakin buna baxmayaraq darvinist jurnallar hər həftə yeni xaxta fosil dərc edirlər. Yer ezündə açıq-aydın bir nizam və ehtişam vardır. Amma Darvinizm bütün bunların "xaos", "qarışıqlıq" və "nizamsızlıq"dan öz-özünə, kor təsadüflər nəticəsində ortaya çıxdığını iddia edir. Bu həqiqətlər nəzərə alındıqda Darvinizmin dünya səviyyəsində qəbul edilməsinə ağıllı insanın hər hansı məntiq və dəlil tapması qeyri-mümkündür.

Lakin bu yalan hədəfə dəymişdir. Hədislərdə dəccalın fitnəsinin bütün dünyanı bürüyəcəyi xəbər verilmişdir. Həqiqətən də bütün dünya dəccali sistem olan masonluğun təsirilə batil bir sistemi şüursuz şəkildə qəbul etmişdir. Hər millətdən, hər inancdan olan çox sayda insan bu batil sistemə inanmışdır. İnsanlar belə bir batil dinə inanmağın özləri üçün necə müəmma olacağını təxmin etməmişdirlər. Bir çoxu bu nəzəriyyəni həqiqətən elmi zənn etmiş, bunu hər hansı nəzəriyyə kimi görmüş, öz dünyaları, gələcəkləri üçün nə qədər böyük təhlükə olduğunu anlamamışdırlar. Uzaqgörən olmamış, insanın "təkamül keçirmiş heyvan" olduğunu iddia edən bir yalanın insanlar, cəmiyyət, dövlətlərdə necə məhvedici təsir meydana gətirəcəyini əvvəlcədən düşünməmişdirlər. Batil fikir sisteminin hər tərəfdən onları əhatə etdiyini, uşaqlarına, ölkələrinə, yaşadıqları mühitə mənfi təsir etdiyini başa düşməmişdirlər. Bu batil fikir sisteminin ətraflarındakı hücumların, soyqırımların, cinayətlərin, oğurluqların, əxlaqsızlığın, degenerasiyanın, anarxiyanın, müharibələrin, terrorun təməl səbəbini əmələ gətirdiyini və getdikcə bu bataqlığın içinə batdıqlarını anlamamışdırlar. Uşaqlarına Darvinizmi öyrətməyin, onları pis əxlaqlı, üsyankar, mənəvi cəhətdən degenerasiyaya uğradacağını, insani vəsflərdən uzaqlaşdıracağını düşünməmişdirlər. Dəccali sistem olan masonluq o qədər hiyləgərliklə yanaşmış, o qədər böyük oyun oynamışdır ki, isanların böyük əksəriyyəti fərqinə varmadan , başlarına nə gələcəyini bilmədən bu oyunun əsirinə çevrilmişdirlər. Hal-hazırda dünyanın düşdüyü vəziyyət bu qəflətin və Darvinizm bəlasına qarşı göstərilən laqeydsizliyin nəticəsidir.

İnsanların böyük qisminin bilərək və ya bilməyərək dəccalın müdafiə etdiyi həyat tərzinə uymasının, dəccaliyyətin dediklərini etmələrinin, şübhəsiz, çox zərərli nəticələri olmuşdur. Dəccalın batil dininə tabe olmaq Allahın razı olduğu gözəl əxlaqdan, Rəbbimizin xoşnudluğundan uzaqlaşmaq deməkdir. Dünyanın əksər hissəsində Quran əxlaqına uyğun olmayan həyatın davam etdirilməsinin əsas səbəbi budur. Allah Quranda insanların bir-birlərinə yaxşılığı əmr edib pislikdən çəkindirmələrini nəsihət edir. Bu gün dünyanın bir çox yerində bu böyük məsuliyyət yerinə yetirilmir, tam əksinə, insanlar daima pis olana yönləndirilirlər. Allah insanları eqoistlikdən, xəsislikdən, nankorluqdan, vəfasızlıqdan, mənfəət düşgünlüyündən, haramdan,

qısqanclıqdan, pis söz söyləməkdən və ədalətsizlikdən, israfdan, qürurdan, təkəbbürdən və qəzəbdən çəkindirmişdir. Hal-hazırda isə bir çox cəmiyyətdə bu əxlaq anlayışının tam tərsi yaşanır. Qurana əməl edən Müsəlmanlar arasında qarşısındakının nəfsini öz nəfsindən üstün tutmaq, ona hər məsələdə mütləq üstünlük vermək əsasdır. Lakin hal-hazırda insanların böyük qismi ancaq öz mənfəətini güdür və bunun üçün çox alçaldıcı davranışlara belə yol verirlər. Qurana əsasən haqsız yerə can almaq haramdır. İndiki dövrdə isə cinayətlərin sayı təəccüblü dərəcədə çoxdur. Qurana əsasən hər kəs digərinin haqqını qorumaqla məsuldur. Lakin hal-hazırda dünyanın bir çox ölkəsində sistem insanların bir-birlərinin haqqını əlindən alması, bir-birlərini aldatması üzərində qurulmuşdur. Qurana əsasən malın ehtiyacı olduğundan artığı kasıba verilir. Ancaq dünyanın bir çox ölkəsində hal-hazırki sistemdə kasıb daima daha çox var-yoxdan çıxarılır, sanki yox edilməyə çalışılır, varlılar isə daha çox mala sahib olmaq üçün səy göstərirlər.

Allahın Quranda bildirdiyi əxlaqın tam tərsinin yaşanması dəccalın qurduğu sistemin nəticəsidir. İnsanların böyük əksəriyyəti dəccalın sisteminə uymasının nəticəsi olaraq rifah içində yaşaya bildiyi halda yaşamır, xoşbəxt ola bildiyi halda olmur, nemətlərə qovuşa bildiyi halda bərəkətsizlik içində yaşayırlar. Dəccalın sistemi insanlar üçün böyük kabus, bəla olmuşdur.

Lakin dəccaliyyət artıq fikrən ölmüşdür. Masonların bütün oyunları üzə çıxmış, yox edilmişdir. Dəccaliyyətin ayaqda durub yapışacağı heç bir dəstək qalmamışdır. İnsanları artıq aldada, Darvinizm yalanına heç kimi inandıra bilmir.

Bunu Allahın iznilə gələcəkdə də edə bilməyəcəkdir. Çünki Allahın vədinə görə batil mütləq yox olmağa məhkumdur. Allah bu nizamı insanların Allahın qədrini lazımınca təqdir etməsi, haqq olanı açıq şəkildə görməsi üçün yaratmışdır. Yoxsa, şübhəsiz, dəccal sistemini aradan qaldırmaq və Quran əxlaqını dünyaya hakim etmək üçün Allahın "Ol!" əmri kifayətdir. Dəccal öz tələsini böyük və güclü hesab etmişdir. Lakin Allahın tələsi qarşısında məhv olmuşdur. Aləmlərin Rəbbi olan Allah ayələrində belə bildirir:

**Əgər o məmləkətlərin əhalisi iman gətirib (pis əməllərdən) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq. Lakin onlar (öz peyğəmbərlərini) yalançı hesab etdilər, Biz də onları qazandıqlarına görə məhv etdik. Məgər o məmləkətlərin əhalisi əzabımızın onlara gecə yatarkən gəlməyəcəyinə əmin idilərmi? Və ya o məmləkətlərin əhalisi əzabımızın onlara gündüz oynayıb əylənərkən gəlməyəcəyinə arxayın idilərmi? Yaxud Allahın onları dolaşdırıb bəla toruna salmayacağına əmin idilərmi? Allahın dolaşdırıb bəla toruna salmayacağına özlərinə zərər eləyənlərdən başqa heç kəs arxayın ola bilməz! (Əraf surəsi, 96-99)**

Ağıl və vicdan sahibi bir insanın üzərinə düşən məsuliyyət ağlın, məntiqin, vicdanın və elmin göstərdiyi doğrulara tabe olmaq və hər varlığı Allahın yaratması həqiqətini qəbul etməkdir. Şübhəsiz, Uca Rəbbimizin insanların tərifinə, təslimiyyətinə, təqdirinə və ibadətinə ehtiyacı yoxdur. Ehtiyacı olan ancaq insanın özüdür. Allaha qarşı təkəbbür göstərmək insana dünyada və axirətdə peşmançılıqdan başqa heç nə qazandırmayacaqdır. Allaha təslim olmaq isə dünyada xeyirli və gözəl həyata, axirətdə isə bu dünya ilə müqayisə edilməyəcək qədər sonsuz və böyük nemətlərə qovuşmağa vəsilədir. Amma hamısından üstün, insana ən böyük mükafat Allahın rizası olacaqdır.

Dəccalın məğlubiyyəti isə sonsuzluğa qədər davam edəcəkdir. Darvinizmin süqutu bunun ən mühüm göstəricisidir. Vacib olan bundan sonra vicdanın göstərdiyi yolla getmək, bir ömrü dəccalın əsiri olaraq sərf etməməkdir. Əgər bir insanın ağlı və şüuru yerindədirsə, bunu etməlidir.

Hər varlığın sahibi və hakimi olan Allah bir ayəsində belə buyurur:

**Rəbbinizə dönün. Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz! Qəfil əzab özünüz də bilmədən başınızın üstünü almamışdan əvvəl Rəbbinizdən sizə nazil edilmiş ən gözəl sözə tabe olun! (Zumər surəsi, 54-55)**

# ƏLAVƏ BÖLMƏ

# TƏKAMÜL XƏTASI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsilə çürümüşdür. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində həyata keçirilən təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük xəta olması, son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 80-ci illərdən sonra aparılan tədqiqatlar Darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı Darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq “yaradılış həqiqətilə” açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox fəaliyyətimizdə bütün elmi detalları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq mövzudan daşıdığı əhəmiyyət baxımından burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim Yunanıstana gedib çıxan bir təlim olmasına baxmayaraq XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlrəini Allahın ayrı-ayrı yaratması həqiqətinə qarşı çıxırdı. Darvinə görə bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi sadəcə bir “məntiq yeritmə” idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi nəzəriyyə bir çox mühüm sual qarşısında çarəsiz qalırdı.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə irəliləyən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq irəliləyən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında nəzərdən keçirmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.
2) Nəzəriyyənin irəli sürdüyü “təkamül mexanizmlərinin” əslində təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.
3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini ortaya qoyur.

Bu bölmədə bu üç əsas başlığı əsaslı şəkildə nəzərdən keçirəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlrəinin bundan təxminən 3.8 milyard il əvvəl bəsit yerdə ortaya çıxan bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyerənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Bəhs edilən o “ilk hüceyrə” necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı inkar etdiyi, heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün o “ilk hüceyrənin” heç bir dizayn, plan və nizamlama olmadan, təbiət qanunları içində təsadüfən meydana gəldiyini iddia edir. Yəni o nəzəriyyəyə görə cansız maddə təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## “Həyat həyatdan törəyər”

Darvin kitabında  həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki bəsit em anlayışı canlıların çox bəsit quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri inanılan “spontane generasiya” adlı nəzəriyyəyə əsasən cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanılırdı. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayışmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr edilmişdi. Çirkli əskinin üstünə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların əmələ gəlməsini düşünmüşdülər.

Ətin qurdlaması da həyatın cansız maddələrdən törədiyinə bir dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduqları gözlə görülməyən yumurtalardan çıxırdılar.

Darvinin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloqu Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə məhv etdi. Paster apardığı uzun fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür.[43]

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həaytın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə məşğul olan ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən qara nöqtədən ibarətdir.[44]

Oparinin yolunu davam edən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller bəsit atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintez etdi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olması və təcrübədə tətbiq edilən atmosferin həqiqi Yer şərtlərindən çox fərqli olması sonrakı illərdə üzə çıxacaqdı.[45]

Uzun müddət sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səyləri uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Yer” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcında qarşımızda duran ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başlayıb.[47]

## Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi ilə bağlı bu qədər böyük çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən bəsit hesab edilən canlı formalarının belə inanılmaz dərəcədə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək canlı hüceyrə əmələ gətirilə bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət bir zülal üçün $10^{950}$-dir. Ancaq riyaziyyatda $10^{50}$-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən “mümkünsüz” hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumat daşıyan DNT molekulu isə məlumat bankıdır. İnsan DNT-sindəki məlumat əgər kağıza köçürülsə, 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr.

Burada çox maraqlı müəmma da var: DNT ancaq bir sıra xüsusi zülalların (hormonların) köməyilə cütlənə bilər. Amma bu hormonların sintezi də ancaq DNT-dəki məlumatlar əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə cütləmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü Prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr tarixli sayında bu həqiqəti belə etiraf edir:

Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının tamamilə mümkünsüz olması nəticəsinə gəlmək məcburiyyətində qalır.[48]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması mümkün deyilsə, belə olduqda həyatın fövqəltəbii şəkildə “yaradıldığı” qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci böyük cəhət nəzəriyyənin “təkamül mexanizmləri” kimi irəli sürdüyü iki anlayışın da əslində heç bir təkamül gücünə malik olmamasının başa düşülməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə “təbii seleksiya” mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülürdü: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə”...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma, əlbəttə, bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında “Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz” demək məcburiyyətində qalmışdı.[49]

## Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə baş verə bilərdi? Darvin öz dövrünün bəsit elm anlayışı içində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə ötürürlər, nəsildən-nəsilə saxlanılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxır. Məsələn, Lamarka görə zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yemək üçün cəhd edərkən nəsildən-nəsilə boyunları uzanmışdır.

"Növlərin mənşəyi" adlı kitabında qida tapmaq üçün suya girən bəzi ayıların zaman ərzində balinalara çevrildiyini iddia etmişdi.[50]

Amma Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən irsiyyət qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "tək başına" və tamamilə təsirsiz mexanizm olaraq qalırdı.

## Neo-darvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha geniş yayılmış adı ilə neo-darvinizmi ortaya atdılar. Neo-darvinizm təbii seçmənin yanına "faydalı dəyişiklik səbəbi" kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya klonlaşdırma xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi.

Bu gün də dünyada təkamül adına əsaslılığını qoruyan model neo-darvinizmdir. Nəzəriyyə yer üzündə mövcud olan milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının "mutasiyalara", yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir.Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli inkişaf meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olar. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər.[51]

Belə ki, bu günə qədər heç bir yararlı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya nümunəsi müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması məlum olub. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar əslində canlıları sadəcə təhrif edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhfedici mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, "tək başına heç bir şey edə bilməz". Bu həqiqət bizə təbiətdə heç bir "təkamül mexanizmi" olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə təkamül deyilən xəyali proses də mümkün deyil.

## Fosillər: ara-keçid formalardan əsər yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə əsasən bu çevrilmə yüz milyonlarla il davam edən uzun zamanı əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu halda iddia edilən uzun çevrilmə prosesi içərisində saysız-hesabsız "ara növlər" əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarıbalıq-yarısürünən canlılar yaşamalıdır və ya sürünən

xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmaılıdır.

Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız-hesabsız ara-keçid növləri mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər.[52]

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq bu ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, əksiksiz və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloqu Derek V. Eycer təkamülçü olmasına baxmayaraq bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə, daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük.[53]

Yəni fosil izlərində bütün canlı növləri, aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin rəylərinin tam əksidir. Habelə, bu canlı növlrəinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün təkamül keçirərək əmələ gəldiyi heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar.[54]

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəliyə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bir cür məxluqlardan törədiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi "ara-keçid formaların" yaşadığı iddia edilir. Əslində tamamilə fantastik olan bu ssenaridə dörd əsas "kateqoriya" var:

1- Australopithecus
2- Homo habilis
3- Homo erectus
4- Homo sapiens

Təkamülçülər insanların "ilk meymunabənzər əcdadlarına" "cənub meymunu" mənasını verən "Australopithecus" adını vermişlər. Bu canlılar əslində nəsli kəsilmiş meymun növüdür. Lord Soli Zakerman və Prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan dünyada məşhur olan iki anatomistin Australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir.[55]

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələlsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən homo seriyasındakı canlılar Australopithecuslardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki əslində bu fərlqi siniflərin arasında təkamül xarakterli əlaqə olması hələ sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr “Homo sapiensə uzanan zəncir halqası əslində itib” deyərək bunu qəbul edir.[56]

Təkamülçülrə “Ausrtalopithecus>Homo habilis>Homo erectus>Homo Sapiens” sırasını yazarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri Australopithecus, Homo habilis və Homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[57]

Habelə, Homo erectus təsnifatına aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşamışlar, Homo Sapiens neandertalensis və Homo sapiens sapiens (müasir insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar.[58]

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stefen Cey Qauld, özü də təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin içinə düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-birilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digərilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər. [59]

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür xəyali “yarımeymun-yarıinsan” canlıların rəsmlərilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyəə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə Australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Soli Zakerman təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi soy ağacı olmaması nəticəsinə gəlmişdir.

Zakerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdənkənar qəbul etdiyi elm sahələrinə qədər şaxələnmə qurmuşdur. Zakermanın bu cədvəlinə əsasən ən “elmi”- yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənnlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni “elmdənkənar” hesab edilən hissədə isə Zakermana görə telepatiya, altıncı hiss kimi “hissin fövqündə olan qavrama” anlayışları və “insanın təkamülü” yerləşir! Zakerman şaxələnmənin bu ucunu belə açıqlayır:

Obyektiv həqiqət sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür.[60]

İnsanın təkamülü nağılı da məhz nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

Darvinin formulu!

İndiyə qədər nəzərdən keçirdiyimiz bütün texniki dəlillərlə bərabər, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyni iddia edir. Ona görə bu iddiaya əsasən cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi fikirləşək; canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını

hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirilə bilməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin əslində müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çox sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (bircə dənəsinin belə təsadüfən əmələ gəlmə ehtimalı $19^{950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri təkmilləşdirilmiş cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəsilə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etməkdə sərbəst olsunlar. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, sarı bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləbçiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ard-arda başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüaları buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək:

Beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görüntü mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı seyr edirsiniz.

Üstəlik bu qədər aydın və keyfiyyətli görüntüdür ki, XIX əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq bu aydınlığı təmin edə bilmir. Məsələn, hal-hazırda oxuduğunu kitaba, kitabı tutan əllrəinizə baxın, sonra başınızı qaldırın və ətrafınızı seyr edin. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüz? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydınlığı əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, araşdırmalar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək ümümkün deyil, həm də bu, süni üç ölçüdür. Arxa tərəf daha

bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizor təsadüflər nəticəsində əmələ gəldi, atomlar birləşdi və bu görüntünü əmələ gətirən aləti meydana gətirdi desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəmələri elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər hay-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestrin simfoniyalarını dinləyir, tünlük mühitin bütün hay-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu vəziyyət insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn oyanmalar elektrik siqnalı kimi beyinə ötürülü. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmlə gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqqiətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiycı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə kub santimetrlik, qapqaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər nəzərdən keçirdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərlə üzə çıxan ziddiyyətli iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu halda, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya Yer mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündliyindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini "elmə təcavüz" kimi göstərməyə çalışırlar. Axı niyə?.. Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün ayrılmaz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və Darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin "əvvəlcə materialist, sonra elm adamı" olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbindən dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanaın səhnəyə çıxmasına icazı verə bilmərik.[61]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu həm ağla, həm elmə zidd qəbuldur. Amma darvinistlər öz ifadələrilə "İlahi açıqlamanın səhnəyə çıxmaması" üçün bu qəbulu müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradıb forma verən Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın mümkünsüz olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi sənətkarların, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında "dünya tarixinin ən böyük və ən təsirli sehri" ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin tomtemlərə, Səba xalqının Günəşə tapınmasından, Hz. İbrahimin qövmünün öz əllərilə düzəltdikləri bütlərə, Hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının qapanacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah Hicr surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın mümkünsüz ssenarilərə, cəfəng və məntiqdənkənar iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi təşkilatlanma, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, canlılara uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının "sehr"dən başqa heç bir açıqlaması yoxdur.

Belə ki, Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini Hz. Musa ilə Firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa Firona haqq dini təbliğ etdikdə Firon Hz. Musaya öz "bilici sehrkarları" ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda sehrkarlara əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa) "Siz atın" - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, Fironun sehrkarları etdikləri "göz bağlayıcılıqla" Hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı Hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə "uydurduqlarını udmuş", yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsirindən elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, hqəiqətlər tam mənası ilə üzə çıxdıqda və "sehr pozulduqda" alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar.[62]

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüflərin" ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə fikirləşir.

**Onlar: “Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən”, - dedilər. (BƏQƏRƏ SURƏSİ, 32)**

# QEYDLƏR


1. Tirmizi, səh. 82; Müslim, Fiten: 126
2. İbni Ebi Şeybe, Musannef, Fiten: 5, 8/5912 İbn-i Mace, 4075, 4076; Tırmizi, Fiten: 59, no. 2240, 4/510
3. Müslim; Büyük Fitne Mesih-i Deccal, Saim Güngör, səh. 13
4. İsmail Mutlu, Bediüzzaman'ın Yorumları, Işığında Kıyamet Alametleri, Mutlu Yayıncılık, İstanbul, 1996, səh.117
5. Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte Muhtasarı, Tercüme ve Şerhi, 13-cü Cild, Ankara, 1992, səh.457-458
6. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 120
7. Kent Hovind, The False Religion of Evolution, http://www.hsv.tisəh.net/….ke4vol/evolve/ndxng.html (bu kitab sadəcə internetdə yayımlanmışdır)
8. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 434
9. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 449
10. Kent Hovind, The False Religion of Evolution, http://www.hsv.tis.net/….ke4vol/evolve/ndxng.html (bu kitab sadəcə internetdə yayımlanmışdır)
11. Alan Woods-Ted Grant, "Marxism and Darwinism", Reason in Revolt: Markxism and Modern Science, London:1993
12. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 449
13. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 572
14. Türk Mason Dergisi, Sayı: 25-26, sf.14
15. Mimar Sinan Dergisi, Sayı 38, sf. 18, yıl 1980
16. Türk Mason Dergisi, Sayı:25-26, Mart 1977, Sf: 59
17. Dr. Selami Işındağ, "Masonluk Öğretileri", Masonluktan Esinlenmeler, İstanbul 1977, səh. 137
18. John Daniel, Two Faces of Freemasonry, Day Publishing, 2007, səh. 121
19. Albert G. Mackey. "Charles Darwin and Freemasonry". An Encyclopedia of Freemasonry New York: The Masonic History Company, 1921, Cild: III
20. John J. Robinson, Born in Blood, səh. 285
21. Anton Pannekoek, Marxism And Darwinism, Cornell University Library, 1912
22. Dr. Selami Işındağ, Panteizm-Kamutanrıcılık Felsefesi, Masonluktan Esinlenmeler, İstanbul 1977, səh. 190
23. The Jesuit Pierre-Teilhard-De-Chardin, səh. 2 http://www.scribd.com/doc/14090263/Pierre-Teilhard-De-Chardin
24. George H. STEINMETZ, Freemasonry: Its Hidden Meaning, səh. 37
25. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 4
26. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 7
27. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 8
28. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 8
29. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 8
30. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 8

31. Phillip D. Collins, The Ascendancy of the Scientific Dictatorship, 24 fevral 2005, səh. 8
32. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 254
33. Stephen C. Meyer, "Word Games: DNA, Design, and Intelligence," Signs of Intelligence: Understanding Intelligent Design, ed. William A. Dembski, James M. Kushiner, Brazos Press, 2001, səh. 109-110
34. Charles Darwin, The Origin of Species, 6th edition, 1859 (London: J.M. Dent and Sons Ltd., 1971) - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 84
35. Colin Patterson, "Cladistics", Brian Leek ilə müsahibə, Peter Franz, 4 mart 1982, BBC.
36. Lee M. Spetner, Not By Chance, Shattering the Modern Theory of Evolution, The Judaica Press Inc., 1997, səh. 175
37. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 74-75
38. Jonathan Welss, Ph.D., The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, sf.34
39. Jonathan Welss, Ph.D., The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, sf.36
40. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, yanvar 2003, səh. 172-173
41. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 4
42. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 230
43. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 81
44. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 74-75
45. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 81
46. Richard Dawkins, The Extended Phenotype, Oxford University Press, 1999, səh. 141
47. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 172, 280
48. Wolfgang Smith, Teilhardism and the New Religion, A Thorough Analysis of the Teachings of Pierre Teilhard de Chardin, Rockford IL, Tan Books and Publishers, Inc. 1988, səh. 8 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 181
49. Stephen Stanley, Macroevolution: Pattern and Process, San Francisco CA, W. H. Freeman, 1979, səh. 39 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 153
50. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 153
51. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 152
52. Mark Ridley, "Who Doubts Evolution?", New Scientist, vol. 90, 1981, səh. 831 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 152
53. http://www.nwcreation.net/fossilsliving.html
54. SƏH. M. Stanley, The New Evolutionary Timetable: Fossils, Genes, and the Origin of Species, Basic Books Inc. Publishers, N.Y., 1981, səh.71
55. Gerald Schroeder, "Evolution: Rationality vs. Randomness", http://www.geraldschroeder.com/evolution.html
56. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 19
57. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 22
58. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 22
59. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, yanvar 2003, səh. 131

60. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, yanvar 2003, səh. 130
61. Focus, aprel 2003
62. L. B. Halstead "Museum of Errors", Nature, 20 noyabr 1980, səh. 280 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 180
63. Lyall Watson, "The Water People", Science Digest, cild: 90, no. 5, Mayıs 1982, səh. 44 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 181
64. F. A. Barnes, Desert Magazine, 38: 36-39, fevral 1975 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 182
65. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 32-33
66. Robert Martin, "Man Is Not An Onion", New Scientist, 4 avqust 1977, səh. 283 ve 285 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 181
67. Isabelle Bourdial, "Adieu Lucy", Science et Vie, may 1999, no. 980, səh. 52-62
68. Richard Leakey, "Lucy - Evolution's Solitary Claim For an Ape/Man: Her Position is Splitting Away" Creation Research Society Quarterly, cild: 22, no. 3, Aralık 1985, səh. 144-145 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 188
69. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94
70. Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild: 258, səh. 389
71. Fred Spoor, Bernard Wood, Frans Zonneveld, "Implication of Early Hominid Labryntine Morphology for Evolution of Human Bipedal Locomotion", Nature, cild: 369, 23 iyun 1994, səh. 645-648
72. Richmond, B.G. and Strait, D.SƏH., Evidence that humans evolved from a knuckle-walking ancestor, Nature 404(6776):382, 2000.)
73. D. Johanson - T. D. White, Science, 203:321, 1979, 207:1104, 1980 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 187-188
74. Trinkhaus, Erik (1985) Pathology and the posture of the La Chappelle-aux-Saints Neanderthal. American Journal of Physical Anthropology Vol. 67 sf. 19-41.
75. E. Trunkaus - W. W. Howells, Scientific American, 241(6):118 (1979) - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 195
76. Erik Trinkaus, "Hard Times Among the Neanderthals", Natural History, cild: 87, dekabr 1978, səh. 10.
77. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 194
78. Francisco J. Ayala, Darwin and Intelligent Design, Fortress Press, Minneapolis, 2006, səh.45
79. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids, Eerdmans, 1980, səh. 59
80. Stephen Jay Gould, "Smith Woodward's Folly", New Scientist, 5 aprel, 1979, səh. 44
81. Kenneth Oakley, William Le Gros Clark & J. S, "Piltdown", Meydan Larousse, cild: 10, səh. 133.
82. Stephen Jay Gould, "Smith Woodward's Folly", New Scientist, 5 aprel, 1979, səh. 44
83. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 34
84. Keith Steward Thomson, "Piltdown Man: The Great English Mystery Story", American Scientist, vol. 79, 1991, səh. 194 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 197
85. Pat Shipman, "On the Trail of the Piltdown Freudsters" New Scientist, vol. 128, 1990, səh. 52 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 197
86. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids MI, Eerdmans, 1980, səh. 59 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 253-254

87. W. K. Gregory, "Hesperopithecus Apparently Not An Ape Nor A Man", Science, vol. 66, December 1927, səh. 579
88. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003 səh. 31-32
89. Judith Hooper, Of Moths and Men, W.W. Norton & Company, Inc., New York, 2002, səh.xvii
90. Ann Coulter, Godless: The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 236-237
91. Judith Hooper, Of Moths and Men, səh. xviii
92. Ann Coulter, Godless: The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 237
93.http://www.arn.org/docs/richards/jr_sciedreport.htm - Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 150
94. Francis Hitching, The Neck of the Giraffe: Where Darwin Went Wrong, New York: Ticknor and Fields 1982, səh. 204
95. Elizabeth Pennisi, Science, 5 Eylül 1997
96. Ann Coulter, Godless: The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 240
97.http://www.arn.org/docs/richards/jr_sciedreport.htm
98. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 70
99. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, SƏH. 70
100. Henry M. Morris, The Long War Against God, Master Books, 2000, səh. 32
101. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 103
102. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 86
103. Boyce Rensberger, Houston Chronicle, 5 Kasım 1980, Bölüm 4, səh. 15
104. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 168
105. Colin Patterson, Harper's, Şubat 1984, səh.60
106. Pierre Paul Grasse, Evolution of Living Organisms, New York NY, Academic Press, səh. 8 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 228
107. Will Provine, No Free Will, in Catching Up with the Vision, ed. by Margaret W. Rossiter (Chicago: University of Chicago Press, 1999), p. S123 –
http://www.icr.org/home/resources/resources_tracts_scientificcaseagainstevolution/
108. Richard Dawkins, The Blind Watchmaker: Why The Evidence of Evolution Reveals a Universe Without Design, New York, NY, W. W. Norton, 1986, səh. 6 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 228 (vurgu orijinaline aittir)
109. H. SƏH. Lipson, "A Physicist Looks at Evolution", Physics Bulletin, vol. 31, 1980, səh. 138 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 229
110. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 230
111. Kenneth Hsü, "Is Darwinism Science?" Earthwatch, Mart 1989, səh. 15 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 244
112. Ben Stein, Expelled "No Intelligence Allowed" belgesel film, 2008.
113. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 29-30
114. Michael Ruse, "Saving Darwinism from the Darwinians," National Post,13 Mayıs, 2000), səh. B-3
http://www.icr.org/home/resources/resources_tracts_scientificcaseagainstevolution/
115. Robert Jastrow, "God's Creation", Science Digest, Özel Bahar Sayısı, 1980, səh. 68 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 201

116.
http://siyasitarih.azbuz.com/bolum/Unlu-kisilerin-sozleri-/catID=2890071
117. Jonathan Welss, Ph.D., The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, səh. 69
118. SƏH. Lovtrup, Darwinism: The Refutation of a Myth, Londra, Croom Helmm, 1987, səh. 422 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 220
119. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 50-51 (vurgu bize aittir.)
120. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 212
121. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 26
122. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 10
123. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 218
124. Steve Jones, Darwin's Ghost: The Origin of Species Updated, Random House Publisher, 2000, səh. xvii, xviii
125. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 26
126. D. T. Rosevear, "Scientist Critical of Evolution", Evolution Protest Movement Pamphlet, no. 224, 1980, səh. 4 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 225
127. Sir James Gray, The Science of Life, chapter in Science Today, 1961, səh. 21
128. James A. Shapiro, Bacteria as Multicellular Organisms, Scientific American , Vol. 258, Haziran 1998, səh. 82
129. R. C. Sproul, Not A Chance: The Myth of Chance in Modern Science and Cosmology, Baker Books, Kasım 1997, səh. 9
130. R. C. Sproul, Not A Chance: The Myth of Chance in Modern Science and Cosmology, Baker Books, Kasım 1997, səh. 14
131. Richard Dawkins, The Extended Phenotype, Oxford University Press, 1999, səh. 40
132. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 52
133. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 54
134. Hank Hanegraaff, Fatal Flaws "What Evolutionists Don't Want You To Know", W Publishing Group, 2003, səh. 59-60
135. Richard Dawkins, The Extended Phenotype, Oxford University Press, 1999, səh. 46
136. Richard Dawkins, The Extended Phenotype, Oxford University Press, 1999, səh. 107
137. Richard Dawkins, The Extended Phenotype, Oxford University Press, 1999, səh. 165
138. Charles Darwin, The Origin of Species, səh. 172, 280
139. Mark Czarnecki, The Revival of the Creationist Crusade, MacLean's, 19 Ocak 1981, səh. 56
140. Carlton E. Brett, "Statis: Life in the Balance", Geotimes, vol. 40 (Mart 1995), səh.18
141. Jonathan Welss, The Politically Incorrect: Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, səh. 181
142. Ann Coulter, Godless The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 201

143. Wolfgang Smith, Teilhardism and the New Religion, A Thorough Analysis of the Teachings of Pierre Teilhard de Chardin, Rockford IL, Tan Books and Publishers, Inc. 1988, səh. - 8 Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 221
144. Jonathan Welss, The Politically Incorrect: Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, səh. 182
145. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
146. Jonathan Welss, The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, sf.192
147. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
148. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
149. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
150. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
151. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
152. Jonathan Welss, The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, sf.95
153. Ann Coulter, Godless The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 200
154. Ann Coulter, Godless The Church of Liberalism, Crown Forum Publishing, 2006, səh. 200
155. H. SƏH. Lipson, "A Physicist Looks at Evolution", Physics Bulletin, vol. 31, 1980, səh. 138 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 201
156. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 218
157. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 218
158. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 220
159.http://www.boston.com/news/local/articles/2007/12/07/biologist_fired_for_beliefs_suit_says/?page=2
160. http://butler-harrisəh.org/archives/21
161. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 220
162. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 158
163. Henry M. Morris, The Long War Against God, Master Books, 2000, səh. 27
164. Eugenie C. Scott, Evolution vsəh. Creationism, University of California Press, London, 2005, səh. 14
165. Colin Patterson, "Evolution and Creationism", Speech at the Museum of Natural History, New York, Kasım 1981, səh. 2 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 224
166. Brian Leith, The Descent of Darwin: A Handbook of Doubts about Darwinism, Collins, 1982, səh. 11 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 229
167. Jeremy Rifkin, Algeny, New York, Viking Press, 1983, səh. 112 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 224
168. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Ocak 2003, səh. 213-214
169. Jonathan Welss, The Politically Incorrect Guide to Darwinism and Intelligent Design, Regnery Publishing Inc., Washington, 2006, sf.198-199
170. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 229
171. Robert Provine, Progression in Evolution, səh. 68 - Henry M. Morris, John D. Morris, The Modern Creation Triology: Society and Creation, Volume 3, Master Books, 1996, səh. 15
172. Henry M. Morris, The Long War Against God, Master Books, 2000, səh. 51
173. http://faithfactsəh.gospelcom.net/ev_
origins_d.html

174. Alister McGrath, Dawkins' God: Genes, Memes and the Meaning of Life, Blackwell Publishing Ltd, Usa, 2005, səh.49
175. Phillip E. Johnson, Evrim Duruşması, Gelenek Yayınevi, 2003, səh. 125
176. Michael J.Behe, Darwin's Black Box: The Biochemical Challenge to Evolution, Free Press, səh. 233
177. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Yanvar 2003, səh. 202
178. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Yanvar 2003, səh. 209
179. http://www.haberturk.com/haber.asp?id=155211&cat=180&dt=2009/06/26
180. Miller and Levine, Biology
181. Pirves, Orians, Heller ve Sadava, Life: The Science of Biology
182. Jonathan Wells, Evrimin İkonları, Gelenek yayınları, Yanvar 2003, səh. 190-191
183. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
184. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
185. Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 252
186. http://tempsreel.nouvelobsəh.com/actualites/sciences/vivant/20090703.OBS2955/les_etudiants_et_la_connaissance_de_levolution_les_reac.html
187. S. Lovtrup, Darwinism: The Refutation of a Myth, Londra, Croom Helmm, 1987, səh. 422 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 253
188. Michael J.Behe, Darwin's Black Box: The Biochemical Challenge to Evolution, Free Press, arxa cild
189. William Fix, The Bone Peddlers, New York, Mcmillan, 1984, səh. 179-180 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 219
190. Robert A. Martin, Missing Links, Jones and Barlett Publishers, UK, 2004, səh. 55
191. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 11
192. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 11
193. Gordon Rattray Taylor, The Great Evolution Mystery, Sphere Books Ltd., 1984, səh. 15
194. H. S. Lipson, "A Physicist Looks at Evolution", Physics Bulletin, cild: 31, 1980, səh. 138 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 220
195. E. O. Wiley, "Review of Darwin Retried by by MacBeth", Systematic Zoology, cild: 24, 1975, səh. 270 - Nicholas Comninellis, Creative Defense, Evidence Against Evolution, Master Books, 2001, səh. 225
196. Ben Stein, Expelled "No Intelligence Allowed", 2008
197. Robert Koeing, Creationism Takes Root Where Europe, Asia Meet, Science, 18 Mayıs 2001, cild: 292. no. 5520, səh. 1286 - 1287
198. Bediüzzaman Said Nursi, Emirdağ Lahikası, səh. 259
199. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2
200. Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh.196
201. "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Noyabr 1982, səh. 1328-1330
202. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7
203. Jeffrey Bada, Earth, Fevral 1998, səh. 40
204. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Oktyabr 1994, səh. 78
205. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 189

206. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184
207. B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988
208. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179
209. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 172, 280
210. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133
211. Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197
212. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389
213. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Dekabr, 1992
214. Alan Walker, Science, c. 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272
215. Time, Noyabr,1996
216. SƏH. J. Gould, Natural History, c. 85, 1976, səh. 30
217. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19
218. Richard Lewontin, The Demon-Haunted World, The New York Review of Books, 9 Yanvar, 1997, səh. 28
219. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh.43

Canlıların təsadüfən meydana gəldiyini iddia edən, insanın meymun əcdadları olduğunu müdafiə edən, insanı yer üzündə məsuliyyətsiz heyvan olduğuna inandırmağa çalışan, güclünün zəifi əzməsi kimi batil fikirlə üzə çıxaraq kütlələri qətl edən, müharibələrə başlayan, insanları aşağı səviyyəli gürən dünyaya hakim olmuş saxta inanc sistemi dəccalın ən böyük oyunlarından biri olan Darvinizmdir.

Darvinizm tarixin ən batil və böyük kütləvi yalanıdır. 150 il boyu davam etmiş bu kütləvi yalan hal-hazırda darvinistlərin təəccüblü baxışları altında süqut edir.

İnsanlar 150 il boyu aldadıldıqlarının şokunu yaşayırlar. Dəccalın oyunu bitmişdir. Dəccal artıq ölmüşdür. Kütləvi yalanı sona çatmışdır. Batil olan din Allahın haqq dini qarşısında yerlə bir olmuşdur. Əlinizdəki kitab dəccalın ən böyük oyununun qəti süqutunun dəlillərini təqdim edir.

# MÜƏLLİF HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. 80-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazmışdır. Bununla bərabər müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri vardır.

Müəllifin bütün fəaliyyətlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular haqqında düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və batil tətbiqatlarını nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 60 müxtəlif dilə çevrilən təqribən 300 əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunulur.

Harun Yəhya Külliyyatı, Allahın iznilə, XXI əsrdə dünya əhalisini Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə çatdırmağa vəsilə olacaqdır.